*“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə*

# MƏLUMATI



BAKI • 2026

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında"
Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən
Azərbaycan Respublikası
Ailə, Qadın və Uşaq Problemləri
üzrə Dövlət Komitəsinin
2025-ci il üzrə

# MƏLUMATI

BAKI – 2026

# M Ü N D Ə R İ C A T

**GİRİŞ................................................................................................................ 4**

**1. GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ DÖVLƏTİN VƏZİFƏLƏRİ (MADDƏ 2.0.4, 3, 4, 5, 6)**

**1.1 .** Normativ hüquqi bazanın təkmilləşdirilməsi ...............................................7
**1.2 .** Gender bərabərliyi mədəniyyətinin təbliği (maddə 5.0.4)................................42
**1.3.** Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması (maddə 2.0.4.)......................................................... 58
**1.4.** Dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində gender bərabərliyinin qorunması.......................................................... 105
**1.5** Şəhər və rayon icra hakimiyyətlərində gender bərabərliyinin vəziyyətinə dair məlumatlar...................................................... 154

**2. Gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatı (Maddə 7-16)**

**2.1.** Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmin edilməsi........................................................................ 167
**2.2.** Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi........................................................... 178
**2.3.** İnformasiya-kommunikasiya texnologiyaları sahəsində gender bərabərliyinin təmin edilməsi.......................................................
**2.4.** İqtisadi və sosial münasibətlərdə gender bərabərliyinin təminatları.......... 210
**2.5.** Qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsi.................. 250

**3. 2025-ci ildə Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr və tövsiyələr**

**3.1.** BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsi tərəfindən verilən tövsiyələrin icra vəziyyəti .................................... 257
**3.2.** BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icra vəziyyəti................................ 263
**3.3.** Nəticələr ........................................................................................ 264
**3.4.** Qarşıya qoyulan vəzifələr və tövsiyələr .................................................... 266

- Gender məsələləri üzrə məsul şəxslərin siyahısı
- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin xarici ölkələrdə fəaliyyət göstərən qadın təşkilatlarına (rəhbərləri qadın olan/qadınların da təmsil olunduğu) dair məlumat

# Akronim və ixtisarlar

**AR** – Azərbaycan Respublikası
**NMR** – Naxçıvan Muxtar Respublikası
**AQUPDK** – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
**UADM** – Uşaq və Ailələrə Dəstək Mərkəzi
**GMŞ** – Gender məsələləri üzrə məsul şəxslər
**ƏƏSMN** – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**DTX** – Dövlət Təhlükəsizlik Xidməti
**KOBİA** – Kiçik və Orta Biznesin İnkişafı Agentliyi
**AHİK** – Azərbaycan Həmkarlar ittifaqları Konfederasiyası
**HİRK** – Həmkarlar İttifaqı Respublika Komitəsi
**YAP** – Yeni Azərbaycan Partiyası
**İSİM** – Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi
**SİF** – Sahibkarlığın İnkişafı Fondu
**RİH** – Rayon İcra Hakimiyyəti
**QHT** – Qeyri-Hökumət Təşkilatları
**AQSİA** – Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası
**AKQA** – Azərbaycanda Kənd Qadınları Assosiasiyası
**AFAQ** – Aqrar Fəaliyyətli Azərbaycan Qadınları
**EKTİS** – Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi
**AKT** – Ailə Kəndli Təsərrüfatı
**İKT**– İnformasiya və Kommunikasiya Texnologiyaları
**ÜDSY** – Ünvanlı Dövlət Sosial Yardımı
**ASC** – Açıq Səhmdar Cəmiyyəti
**QSC** – Qapalı Səhmdar Cəmiyyəti
**BMT** – Birləşmiş Millətlər Təşkilatı
**CEDAW** – Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Konvensiyası
**CRC** – Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Komitəsi
**FAO** – Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı
**BƏT** – Beynəlxalq Əmək Təşkilatı
**DİM** – Dayanıqlı İnkişaf Məqsədləri
**GIZ –** Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti
**BGK** – Bələdiyyələrdə Gender Komissiyaları

# GİRİŞ

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə Məlumatı ötən il respublikamızda bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri üzrə beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə bağlı görülmüş işləri və əvvəlki illərlə müqayisədə irəliləyişlərin dinamikasını özündə əks etdirir.

Məlumat hazırlanarkən Azərbaycan Respublikasının 66 mərkəzi, 77 yerli icra hakimiyyəti orqanlarının, Naxçıvan Muxtar Respublikasının mərkəzi qurumlarının və yerli icra hakimiyyəti orqanlarının, bir sıra qeyri-hökumət təşkilatlarının məlumatlarından istifadə edilmişdir.

**Məlumat "Gender (kişi və qadınların) bərabərliyinin təminatı haqqında Qanun"un müvafiq maddələrindən irəli gələn 3 istiqaməti əhatə edir.**

– **Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələri" bölməsinə** gender bərabərliyinin təmin edilməsi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi, institusional mexanizmlərin fəaliyyəti, gender bərabərliyi mədəniyyətinin təbliği, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində gender bərabərliyinin təminatına dair məlumatların icmalı daxil edilmişdir.

– **"Gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatı" bölməsi** əmək hüquqlarının həyata keçirilməsinə, məşğulluğun dəstəklənməsinə, təhsilin ayrı-ayrı pillələrində təhsil hüquqlarının həyata keçirilməsinə, iqtisadi və sosial münasibətlərdə, qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsinə dair məlumatları əhatə edir.

– **"Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr və tövsiyələr" bölməsində** gender bərabərliyinin təminatı sahəsində formalaşan müsbət tendensiyalar və bu siyasətin geniş şəkildə vüsət alması, zəruri tədbirlərin keçirilməsi üçün tövsiyələr qeyd edilmişdir. Həmçinin gender məsələləri üzrə məsul şəxslərin siyahısı göstərilmişdir.

**Təqdim edilən illik məlumatda 2024-cü il üzrə məlumatdan fərqli olaraq aşağıdakı məsələlərə dair yeni məlumatlar daxil edilmişdir.**

- *Azərbaycanda ali təhsil müəssisələrində gender məsələləri ilə bağlı tədris olunan fənlər;*
- *Qohum hesab edilən şəxslər arasında qeydə alınmış nikahların regionlar üzrə bölgüsü;*
- *2025-ci il ərzində mediada cinsi mənsubiyyətə görə ayrı-seçkiliyi təbliğ və təşviq edən, ailə institutunu nüfuzdan salan informasiyaların qarşısının alınması ilə bağlı aparılmış monitorinqlər;*
- *Məhkəmələrdə ailə mübahisələri ilə bağlı mülki işlər;*
- *2025-ci il ərzində çıxarılmış məhkəmə qərarlarında "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarına istinad edilmiş məhkəmə işləri;*
- *Aliment ödəməkdən yayınan valideynlər və cəza tədbirləri;*
- *2025-ci ildə ana və uşaq ölümü halları;*
- *Hamiləlikdən qorunma üsullarından (kontraseptiv vasitələrdən) istifadə ilə bağlı;*
- *Azərbaycan Hava Yolları QSC-nin məlumatları əlavə edilmişdir.*

**Məlumatın hazırlanmasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ötən il ərzində 4 müxtəlif mövzuda analitik təhlil hazırlanıb:**

- *Erkən evliliyin inzibati ərazi bölgüsü üzrə risk xəritəsinin formalaşdırılmasına dair təhlil;*
- *Yetkinlik yaşına çatmayanlar arasında intihar hallarına səbəb olan faktorların analitik təhlili;*
- *Sosial-iqtisadi səbəblərin ailə institutuna təsirinin öyrənilməsinin təhlili;*
- *Azərbaycanda yeniyetmələrin hüquq düşüncəsi tədqiqatı.*

Məlumatda həmçinin gender bərabərliyinin təmin edilməsi sahəsində perspektivlər, hüquqi müstəvidə əldə olunan nailiyyətlər, beynəlxalq əməkdaşlıq, mövcud problemlər və maneələr, gələcəkdə icrası planlaşdırılan məsələlər və hədəflər öz əksini tapmışdır.

Məlumatda əks olunan statistik göstəricilər Dövlət Statistika Komitəsinin və digər dövlət orqanlarının məlumatlarına, Dövlət Komitəsinin qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla birgə həyata keçirdiyi araşdırmaların, təhlillərin və sorğuların nəticələrinə əsaslanmışdır.

Dövlət Komitəsi 2025-ci ildə öz əsasnaməsində müəyyən edilmiş vəzifə və səlahiyyətlərə uyğun olaraq fəaliyyətini təmin etmişdir. Hesabat dövründə AQUPDK tərəfindən müəyyən edilmiş prioritet istiqamətlər üzrə ardıcıl tədbirlər həyata keçirilmiş, dövlət siyasətinin icrası məqsədilə aidiyyəti dövlət orqanları ilə sistemli və səmərəli şəkildə əməkdaşlıq qurulmuşdur.

İl ərzində Komitə beynəlxalq təşkilatlar, habelə qeyri-hökumət təşkilatları qarşılıqlı əməkdaşlıq çərçivəsində birgə layihə və proqramların icrasını təmin etmişdir. Komitənin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən tədbirlərdə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, məhkəmə və hüquq-mühafizə orqanlarının, yerli özünü idarəetmə orqanlarının nümayəndələri həmçinin vətəndaş cəmiyyəti institutları geniş şəkildə təmsil olunmuşdur.



# 1

# GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ DÖVLƏTİN VƏZİFƏLƏRİ

(MADDƏ 2. 0. 4, 3, 4, 5, 6)

## 1.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi

***1.1 Normativ hüquqi bazanın təkmilləşdirilməsi***

2025-ci ildə normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində fəaliyyət davam etdirilmişdir. Qəbul edilmiş normativ hüquqi aktlar tənzimləmə predmeti baxımından əsasən hər iki cinsin əmək hüquqlarının ölkəmizin beynəlxalq öhdəliklərinə uyğun şəkildə həyata keçirilməsini dəstəkləyən dəyişikliklərdən və gender bərabərliyinin təmini sahəsində tədbirlərin gücləndirilməsindən ibarət olmuşdur.

Beynəlxalq Əmək Təşkilatının "Kişi və qadın işçilər – ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" Konvensiyanın tələblərindən irəli gələrək **Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 332-VIIQD nömrəli Qanunu** ilə ilk dəfə Əmək Məcəlləsinin 3-cü maddəsində istifadə edilən anlayışlar sırasına "ailə vəzifələri olan işçi" anlayışı gətirilib:

*"**ailə vəzifələri olan işçi** – tibbi rəyə əsasən qulluğa və ya köməyə ehtiyacı olan ailə üzvünə (ərinə (arvadına), valideynlərinə, övladlığa götürənlərə, uşaqlarına, o cümlədən övladlığa götürülən uşaqlara) və qəyyumluğunda (himayəsində) olan digər şəxslərə, habelə himayədar ailə (valideyn) olaraq ona verilmiş uşağa qulluq (köməklik) göstərilməsi ilə əlaqədar əmək fəaliyyətinə başlamaq, əmək funksiyasını yerinə yetirmək və ya işdə irəli çəkilmək imkanları məhdudlaşan işçi" kimi müəyyən edilmişdir.*

Məqsəd iş-ailə balansını qorumaq, işçi məmnuniyyətini artırmaq və əmək bazarında inklüziv mühit yaratmaqdır. Əmək münasibətlərində digər xüsusiyyətlərlə yanaşı, o cümlədən ailə vəzifələrinə görə birbaşa və ya dolayı ayrı-seçkiliyə yol verilməsi qəti qadağan edildi. Bu dəyişiklik, ailə məsuliyyətini şəxsi problem yox, sosial reallıq kimi qəbul edərək işçinin əmək hüquqlarını müdafiə edir.

Digər mühüm dəyişiklik son illərdə ictimai müzakirələrdə diqqət mərkəzində olan və "atalıq məzuniyyəti" kimi tanınan məsələ ilə bağlı olmuşdur. Yuxarıda qeyd edilən Qanunla AR Əmək Məcəlləsinin hamiləliyə və doğuşa görə məzuniyyətin verilməsi qaydasını müəyyən edən 125-ci maddəsinə uşağının doğulması ilə əlaqədar kişilərə tibb müəssisəsinin arayışı əsasında doğuşdan əvvəl və doğuşdan sonra olan dövrdə cəmi **14 təqvim günü müddətində ödənişli məzuniyyət** verilməsi ilə bağlı yeni norma daxil edilmişdir. Bu dəyişiklikdən əvvəl kişi işçilərə bu məzuniyyət ödənişsiz əsaslarla verilirdi.

Həmçinin Əmək Məcəlləsinin 125-ci maddəsinə əlavə edilmiş 3-cü hissəyə əsasən hamiləliyə və doğuşa görə məzuniyyətin doğuşdan əvvəlki hissəsinin müddəti doğuş gözlənilən gündən uşağın doğulduğu günədək ötən günlər qədər ödənişli olaraq uzadılır və bu halda məzuniyyətin doğuşdan sonrakı hissəsi qısaldılmır.

2025-ci ildə AR Nazirlər Kabinetinin bir sıra qərarlarında da ailə vəzifələri olan işçilərin əmək hüquqlarına xüsusi yanaşma yer almışdır.

Beləki, AR Nazirlər Kabinetinin 2025-ci il 20 fevral tarixli 36 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun rotasiyası Qaydası"nın 2.12.1-ci yarımbəndinə əsasən **hamilə və üç yaşına çatmamış uşağı olan qadınlar, habelə üç yaşınadək uşağını təkbaşına böyüdən kişilər onların razılığı əsasında rotasiya olunurlar.**

AR Nazirlər Kabinetinin 2025-ci il 10 dekabr tarixli 386 nömrəli Qərarı ilə təsdiq

edilmiş "Diplomatik xidmət əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası"nın 1.5-ci bəndinə əsasən **hamilə qadın, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifəni tutan qadın (uşağını təkbaşına böyüdən kişi) əməkdaşlar attestasiyadan keçirilmirlər**.

Ailə vəzifələri olan çoxuşaqlı qadınlar maliyyə baxımından daha stabil olduqda iş seçimi zamanı daha çevik ola bilirlər (məsələn, yarımştat işlərə üstünlük verə bilərlər) ki, bu da ailə və iş balansının qurulmasına müsbət təsir göstərir. 2025-ci ildə çoxuşaqlı ailələrin sosial müdafiəsi daha da gücləndirilmişdir. "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" dövlət başçısının 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının icrası ilə əlaqədar "Sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" ölkə Prezidentinin 2025-ci il 12 iyun tarixli 410 nömrəli Fərmanı qəbul olunmuşdur. Bu Fərmana əsasən **beşdən çox uşağı olan qadınlara hər uşaq üçün müavinətin məbləği *(əvvəl 105 manat)* artırılaraq 140 manat** müəyyən olunmuşdur.

Azərbaycan Respublikasında gender bərabərliyinin təmini sahəsində həyata keçirilən tədbirlərin davamı kimi yeni **Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli, 871 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında Gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı"** təsdiq edilmişdir.

Milli Fəaliyyət Planında qadınların ictimai fəallığının artırılması, təhsil, məşğulluq, iqlim dəyişiklikləri ilə mübarizə və media sahələrində gender aspektlərinin nəzərə alınması, bu məqsədlə normativ hüquqi bazanın, institusional mexanizmlərin təkmilləşdirilməsi və gender bərabərliyi mədəniyyətinin təbliğinin gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

**Milli Fəaliyyət Planının hədəfləri** – beynəlxalq təcrübədən yararlanmaqla gender bərabərliyinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi, gender bərabərliyinə dair dövlət siyasətinin həyata keçirilməsi üzrə qurumlararası əlaqələndirmə mexanizminin yaradılması, qadınların ictimai-fəallığının artırılması, əmək bazarında gender fərqlərinin aradan qaldırılması, təhsil müəssisələrində gender bərabərliyinin tədrisi, gender bərabərliyini təbliğ və təşviq edən vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə dəstəyin göstərilməsi, qadınların rəqəmsal savadlılığının artırılması, sosial cəhətdən həssas qrupdan olan qadınların tibbi, psixoloji, sosial və hüquqi yardımlara çıxış imkanlarının genişləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə məskunlaşan qadınların sosial-iqtisadi ehtiyaclarının müəyyənləşdirilməsi, gender bərabərliyi mədəniyyətinin təbliğində və cinsi mənsubiyyətə görə ayrı-seçkiliklə mübarizədə medianın rolunun artırılması, qadınların iqlim dəyişiklikləri ilə mübarizə üzrə fəaliyyətə cəlb olunmasıdır.

## UŞAQ VƏ AİLƏLƏRƏ DƏSTƏK MƏRKƏZLƏRİ (UADM)

Komitənin tabeliyində olan Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən **1888 müraciət qeydə alınıb**. Müraciət edənlərin **1210 nəfəri qadın** olmuşdur.

Psixoloq, sosial işçi və hüquqşünasların iştirakı ilə təşkil edilmiş **100 "Açıq qapı" günündə 809 nəfər müraciət etmişdir.**

UADM əməkdaşları tərəfindən **1159 ailə səfəri edilmişdir**. Bu səfərlərin **560-ı** təhsildən yayınma, erkən evlilik, məişət zorakılığı, ailə mübahisələri, uşaqla ünsiyyət, qəyyumluq və himayə məsələləri ilə bağlı olmuşdur.

Erkən evlilik faktları üzrə **36 ailə səfəri edilmiş, 22 halın qarşısı alınmış, 81 uşaq təhsilə cəlb edilmişdir**.

**"Ailələrimizi tanıyaq" layihəsi** davam etdirilərək UADM-lər tərəfindən **15 nümunəvi ailəyə səfər edilmiş,** onlarla keçirilən müsahibələr Komitənin rəsmi internet səhifəsində işıqlandırılmışdır.



1-7 avqust – Ümumdünya Ana Südü ilə Qidalanma Həftəsi çərçivəsində yeni doğulmuş uşağı olan, aztəminatlı **27 ailəyə səfər edilmiş,** onlarla məsləhət xarakterli maarifləndirici söhbətlər aparılmış, müvafiq dəstək göstərilmişdir.

"İşğaldan azad olunmuş ərazilərdə məskunlaşan ailələr və uşaqlarla psixososial işin təşkili layihəsi çərçivəsində Xocalı və Cəbrayıl şəhərlərində uşaq və valideynlərin iştirakı ilə sosial ünsiyyət bacarıqlarının artırılması istiqamətində keçirilmiş təlim-





lərdə ümumilikdə **120 nəfər** iştirak etmişdir.

UADM-lər tərəfindən əhali, xüsusilə gənclər arasında ailə dəyərlərinin və ənənələrinin təbliği məqsədilə 656 nəfərin iştirakı ilə 17 görüş, “Reproduktiv sağlamlıq və ailə planlaşdırılması” mövzusunda 508 nəfərin iştirakı ilə 22 görüş, sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması istiqamətində 2159 nəfərin iştirakı ilə 45 görüş, erkən evliliklərin və qohum nikahlarının qarşısının alınması məqsədilə qanunvericiliyə edilən dəyişikliklər, bu kimi halların insanların fiziki və psixi sağlamlığına vurduğu zərərlər barədə 2045 nəfərin iştirakı ilə 53 görüş keçirilmişdir.

Eyni zamanda məişət zorakılığından müdafiə vasitələrinə etimadın təşviqi, uşaq əməyinin və uşaqların cinsi istismarı hallarının aşkar edilməsi və bu halların qarşısının alınması, 18 Noyabr – Uşaqların Cinsi İstismardan və Cinsi Zorakılıqdan Müdafiəsi Günü, Qadınlara qarşı zorakılıqla Mübarizə Günü, “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyası çərçivəsində tədbirlər keçirilmişdir.

Ümumilikdə UADM-lər tərəfindən keçirilmiş **701 tədbirdə 26032 nəfər iştirak etmiş**, **3370 ədəd maarifləndirici vərəqə paylanılmışdır**.

**“Gənclər və yeni ailə quranlar üçün ailə həyatına hazırlıq” mövzusunda psixoloji təlimlər** keçirilib. **Təlimlərdə 38 cütlük iştirak edib.**







Sosial pedaqoqların bilik və bacarıqlarının artırılması və peşəkarlığının gücləndirilməsi üçün "Uşaq, valideyn və müəllimlərlə aparılan psixoloji işin prinsipləri", "Keys-menecment", "Sosial işin idarə edilməsi, "Ailə münaqişələrində psixoloji yanaşmalar" istiqamətində təlimlər keçirilib.

**2025-ci ildə Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyətindən 29746 nəfər faydalanmışdır.**



## MƏİŞƏT ZORAKILIĞININ QARŞISININ ALINMASI SAHƏSİNDƏ MONİTORİNQ VƏ ƏLAQƏLƏNDİRMƏ QRUPLARI

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 iyul 2024-cü il tarixli 367 nömrəli Qərarı ilə "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası" təsdiq edilmişdir. Qərarın icrası məqsədilə Dövlət Komitəsi sədrinin "Məişət zorakılığının qarşısının alınması sahəsində Monitorinq və Əlaqələndirmə Qrupunun yaradılması barədə" 3-30/3-1-43/2025 nömrəli 13 fevral 2025-ci il tarixli Əmri imzalanmışdır. İl ərzində Qrupun rüblük iclasları keçirilmişdir.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi sahəsində mövcud boşluqları aradan qaldırmaq və təlimlərdə istifadə məqsədilə yerli icra hakimiyyətləri və yerli icra hakimiyyəti orqanları tərəfindən yaradılmış "Məişət zorakılığının qarşısının alınması sahəsində Monitorinq və Əlaqələndirmə Qrupları" üçün izahlı Məlumat kitabçası hazırlanmışdır.

2025-ci ilin ikinci yarım ilində 6 regionda 45 şəhər/rayon icra hakimiyyətlərində yaradılmış "Məişət zorakılığının qarşısının alınması sahəsində Monitorinq və Əlaqələndirmə Qrupları" üçün təlimlər keçirilmişdir. Təlimlərin məqsədi monitorinq və əlaqələndirmə qruplarının üzvlərini "Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu" və Qanuna edilən yeni düzəlişlərlə, məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi müstəvidə görülməli olan tədbirlərlə bağlı məlumatlandırmaqdan, o cümlədən təcrübədə rast gəlinən və qanunun tətbiqi zamanı yaranan çətinliklərin həlli yollarının araşdırılmasından ibarət olmuşdur.







## GENDER MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL ŞƏXSLƏR (GMŞ)

"Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 289 nömrəli Fərmanın icrasını təmin etmək məqsədilə təsdiq edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli, 176 nömrəli Qərarına əsasən nazirlik, komitə, şirkət, konsern və digər dövlət müəssisə və təşkilatlarında daxili imkanlar çərçivəsində gender siyasəti tələblərinə uyğun olaraq gender məsələləri üzrə məsul şəxslər təyin edilmişdir.

**Gender məsələləri üzrə məsul şəxsin rolu** qadın və kişilərin ehtiyaclarını müəyyənləşdirmək, strategiyalar və göstəriciləri müvafiq olaraq uyğunlaşdırmaq üçün sektorların imkanlarının genişləndirilməsinə töhfə verməkdir. Bu fəaliyyət təşkilati-hüquqi formasından asılı olmayaraq bütün qurumlar, xüsusilə dövlət orqanları üçün vacibdir.

Bu zərurəti nəzərə alaraq dövlət qurumları, onların müvafiq bölmələri həyata keçirdikləri fəaliyyət üzrə siyasətə gender yanaşmasını daxil etmək üçün GMŞ-ləri seçməlidirlər. Bu vəzifəyə təyin edilmiş şəxslər gender bərabərliyini təşviq etmə sahəsində müəyyən təcrübəyə malik ola və ya bu işdə tamamilə yeni ola bilərlər. Əgər təyin edilmiş gender məsələləri üzrə məsul şəxslər gender meynstriminqi (siyasət, proqram və ya fəaliyyətdə gender yanaşmasının nəzərə alınması) üzrə çalışmayıblarsa, vəzifəyə başlanğıc mərhələsində bacarıqların inkişaf etdirilməsi üzrə proqramla təmin edilməli və onların çalışdıqları müddət ərzində digər sahələr üzrə gender mütəxəssislərindən məsləhət və dəstəyə çıxışları olmalıdır.

**Gender məsələləri üzrə məsul şəxslərin aşağıdakı fəaliyyətləri həyata keçirməsi tövsiyə olunur:**

- ✓ Qadın hüquqları və gender bərabərliyi sahəsində dövlətin həyata keçirdiyi siyasət haqqında məlumatlı olmaq;
- ✓ Təmsil etdikləri qurumda gender siyasətinin həyata keçirilməsi ilə bağlı müəssisə rəhbərliyinə təkliflər vermək, fəaliyyətlər həyata keçirmək, illik hesabatlar hazırlamaq;
- ✓ Mütəmadi olaraq təmsil etdikləri qurumda gender bərabərliyinin təbliğ edilməsi, cinsi ayrı-seçkilik hallarının qarşısının alınması sahəsində tədbirlər həyata keçirmək;
- ✓ Fəaliyyət sahəsi üzrə gender statistikasının toplanılması və təhlili;
- ✓ Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin həyata keçirdiyi təlim və seminarlarda, eləcə də digər tədbirlərdə fəal iştirak etmək.

Müəssisə daxilində qadın və kişilər üçün bərabər imkanlar yaradılması və işçilərin strateji qərarlarda bərabər iştirakının təmin edilməsi isə ölkədə demokratik ənənələrin möhkəmlənməsində və insan kapitalının inkişafında xüsusi rol oynayır.





**2025-ci ildə gender məsələləri üzrə məsul şəxslərin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə tədbirlər davam etdirilmişdir.**

- 2025-ci ildə Dövlət qurumlarının və yerli icra hakimiyyəti orqanlarının gender məsələləri üzrə məsul şəxsləri üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə **"Ailə və gender yönümlü siyasətlər: fərdlərə, təşkilatlara və cəmiyyətə faydaları"** mövzusunda təlim keçirilmişdir. Təlimlərin keçirilməsində məqsəd gender məsələləri üzrə məsul şəxslərin işinin təkmilləşdirilməsi, onlar arasında səmərəli şəbəkələşməsinin təmin edilməsi, gender bərabərliyi sahəsindəki qanun və siyasətlərin icrası ilə bağlı səlahiyyətlərin və vəzifələrin aydın şəkildə müəyyən edilməsindən ibarətdir.

Təlimlərdə 78 nəfər qadın, 51 nəfər kişi olmaqla 129 nəfər iştirak etmişdir.

- Dövlət Komitəsi tərəfindən BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyası"nın icrasına dair 17 dövlət orqanlarının (qurumlarının) rəhbər və mütəxəssis heyətinin nümayəndələrindən ibarət **İşçi Qrupunun növbəti iclası keçirilib.** İclas zamanı 16 iyun 2022-ci il tarixində BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin (CEDAW) Cenevrə şəhərində keçirilmiş 82-ci sessiyasında Azərbaycan Respublikası Hökumətinin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyası"nın **altıncı dövri məruzəsi üzrə növbəti atılmalı olan addımlara dair tövsiyələri** müzakirə olunmuşdur. Tövsiyələrdə əksini tapmış prioritet istiqamətlər, aparılmış islahatlar, müvafiq dövlət qurumları tərəfindən görülmüş işlər, həmçinin mövcud çətinliklər və gələcək addımlar ətrafında fikir mübadiləsi aparılmış, qadın hüquqlarının müdafiəsi istiqamətində milli qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı məlumat verilmişdir.



## BƏLƏDİYYƏLƏRDƏ GENDER KOMİSSİYALARI

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının məlumatına əsasən, 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində seçilmiş 8039 bələdiyyə üzvündən 4872-si (60,60%) kişi, 3167-si (39,40%) qadın olmuşdur. Seçki zamanı 3 bələdiyyənin nəticəsi ləğv edilmişdir.**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin məlumatına əsasən,**

**Hazırda fəaliyyət göstərən 685 bələdiyyənin 8066 üzvü vardır ki, onların 61%-i kişi, 39%-i qadınlardır.**

2025-ci ildə "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" 2024-cü il 18 oktyabr tarixli 50-VII nömrəli **Qanuna əsasən ölkə üzrə bələdiyyələrin ümumi sayı 1606-dan 685-dək azaldılmışdır.**




2025-ci ilin yanvar ayında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Mərkəzi Seçki Komissiyası, "Bərabər İnkişaf Naminə" Koalisiyanın birgə əməkdaşlığı ilə regionlarda "Qadınların seçkilərdə fəallığının yüksəldilməsi" mövzusunda tədbirlər keçirilmişdir. Tədbirlərin keçirilməsində məqsəd bələdiyyə seçkilərində qadınların iştirakçılığının gücləndirilməsi və aktivliyinin artırılması olmuşdur. Tədbirlər



Bakı/Xəzər və Sumqayıt şəhərində, Qusar, Xaçmaz, Neftçala, Salyan, Biləsuvar, Masallı, Cəlilabad, Tərtər, Bərdə, Ağcabədi, Füzuli, Göyçay, Sabirabad, Tovuz və Zaqatala rayonlarında keçirilmişdir.

Yerli təbliğat və təşviqat qrupları üçün keçirilmiş təlimlərdə iştirak edən şəxslər isə sonradan təbliğatçı qruplar kimi rayon ərazisində fəaliyyətlərini davam etdirmişlər.

**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin** tövsiyəsi ilə bütün rayon və şəhərlərdə **yaradılmış Bələdiyyələrdə Gender Komissiyaları (BGK)** yerli özünü idarəetmə sistemində genderə həssas yanaşmanın formalaşdırılması və gender bərabərliyi prinsiplərinin institusional





səviyyədə tətbiqinin təmin edilməsi məqsədilə fəaliyyət göstərir.

Gender Komissiyaları, eyni zamanda əhali arasında gender bərabərliyi ilə bağlı maarifləndirmə işlərinin aparılması, stereotiplərin aradan qaldırılması və hüquqi biliklərin artırılması istiqamətində müxtəlif tədbirlər, təlimlər və ictimai müzakirələr təşkil edir. Xüsusilə ucqar kənd və qəsəbələrdə yaşayan əhalinin bu sahədə məlumatlılığının artırılması komissiyaların prioritet fəaliyyət istiqamətlərindən biridir.

Bununla yanaşı, komissiyalar yerlərdə baş verən gender əsaslı zorakılıq hallarının erkən mərhələdə aşkarlanması, risk qruplarının müəyyən edilməsi və bu halların qarşısının alınması üçün profilaktik tədbirlərin görülməsi istiqamətində sistemli fəaliyyət həyata keçirir. Zərərçəkmiş şəxslərin hüquqlarının qorunması, onlara psixoloji, hüquqi və sosial dəstəyin göstərilməsi, eləcə də aidiyyəti dövlət qurumlarına və xidmət strukturlarına operativ şəkildə yönləndirilməsi də komissiyaların əsas funksiyalarından biridir.

Eyni zamanda Gender Komissiyaları yerli icra strukturları, qeyri-hökumət təşkilatları və digər maraqlı tərəflərlə əməkdaşlıq edərək gender bərabərliyinin təmin olunması sahəsində əlaqələndirilmiş fəa-







liyyətin qurulmasına töhfə verir. Bu fəaliyyətlər bütövlükdə cəmiyyətdə sosial ədalətin möhkəmləndirilməsinə, insan hüquqlarının qorunmasına və davamlı inkişafın təmin olunmasına xidmət edir.

*"Azərbaycan və Türkiyə Hökumətləri arasında imzalanmış ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu ilə bağlı Fəaliyyət Planı"na əsasən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyi ilə əməkdaşlığı çərçivəsində* ***"Cəmiyyətdə qadınların rolunun artırılmasında bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi"*** *üzrə təlim keçirilmişdir. Təlimin məqsədi qadınların səlahiyyətləndirilməsi ilə bağlı iki ölkə arasında qabaqcıl təcrübələrin mübadiləsinin təşkil edilməsidir. Təlimdə 27 nəfər kişi, 23 nəfər qadın olmaqla 50 regionu təmsil edən bələdiyyə sədrləri iştirak etmişdir.*

**2025-ci ildə regionlarda Bələdiyyələrdə Gender Komissiyaları tərəfindən gender bərabərliyinin təmin olunması istiqamətində aşağıdakı tədbirlər həyata keçirilmişdir:**

### Bakı şəhəri üzrə fəaliyyət

Bakı şəhərinin Binəqədi, Sabunçu, Səbail, Suraxanı, Xətai, Nəsimi və Yasamal rayonları üzrə fəaliyyət göstərən Gender Komissiyaları tərəfindən:

- Məişət zorakılığı hallarının qarşısının alınması məqsədilə monitorinq mexanizmləri tətbiq edilmişdir;
- Müraciətlərin qəbulu üçün məxfi qutular və qaynar telefon xətləri yaradılmışdır;
- Erkən nikah, insan hüquqları və uşaq hüquqlarının müdafiəsi mövzularında maarifləndirici tədbirlər keçirilmişdir;
- Risk qrupuna daxil olan ailələrlə profilaktik və sosial iş aparılmışdır;
- Müvafiq monitorinq və əlaqələndirmə qruplarının fəaliyyəti təmin edilmişdir.

**Regionlar üzrə həyata keçirilmiş tədbirlər;**

**Qərb və şimal-qərb regionları**

(Ağstafa, Ağsu, Bərdə, Goranboy, Qazax, Quba, Qusar və s.)

- Gender bərabərliyinin təşviqi istiqamətində maarifləndirmə tədbirləri keçirilmişdir;
- Erkən nikah və məişət zorakılığı ilə mübarizə üzrə profilaktik işlər aparılmışdır;
- Təhsil müəssisələrində görüş və seminarlar təşkil olunmuşdur;
- Yerli icra hakimiyyəti orqanları və ictimai qurumlarla əməkdaşlıq genişləndirilmişdir.

**Cənub regionu**

(Lənkəran, Masallı, Cəlilabad, Neftçala, Lerik və s.)



- Gender Komissiyaları tərəfindən sistemli maarifləndirmə tədbirləri həyata keçirilmişdir;
- Zorakılığa məruz qalmış və risk qrupuna daxil olan ailələrlə mütəmadi iş aparılmışdır;
- Qadınların sosial fəallığının artırılması istiqamətində tədbirlər görülmüşdür;
- Məişət zorakılığının qarşısının alınması məqsədilə profilaktik mexanizmlər tətbiq olunmuşdur.

**Aran və mərkəzi regionlar**

(Şamaxı, Şabran, Siyəzən, İsmayıllı, Qəbələ, Ucar, Zərdab və s.)

- Gender bərabərliyi və ailə dəyərlərinin təbliği üzrə tədbirlər keçirilmişdir;
- Erkən nikah və sosial risklərin qarşısının alınması istiqamətində işlər görülmüşdür;
- Aztəminatlı və həssas qruplarla sosial iş aparılmışdır.

**Digər şəhər və rayonlar**

(Gəncə, Sumqayıt, Şirvan, Naftalan, Tovuz, Samux və s.)

- Gender bərabərliyinin təşviqi üzrə maarifləndirici tədbirlər həyata keçirilmişdir;
- Məişət zorakılığına qarşı monitorinq və koordinasiya mexanizmləri tətbiq olunmuşdur;
- İctimaiyyətlə görüşlər və təlimlər təşkil edilmişdir.

**Naxçıvan Muxtar Respublikasında** fəaliyyət göstərən 44 Bələdiyyədə yaradılmış Gender Komissiyaları gender bərabərliyi mədəniyyətinin təbliği, məişət zorakılığı, erkən nikah halları ilə bağlı mübarizə mövzularında maarifləndirici tədbirlər həyata keçirmiş, əlaqədar mövzularla bağlı həyata keçirilən tədbirlərdə iştirak etmişdir.




Azercell
PAŞA Holding
QADIN DƏSTƏK XƏTTİ
İLLİK HESABAT
2025
Yanvar - Dekabr


2022-2025
ÜMUMİ STATİSTİKA
QADIN
DƏSTƏK
XƏTTİ
12,279
Cəmi müraciət
2022-ci ildən
fəaliyyət
24/7
24/7
xidmət
Qadın Dəstək Xətti
116111


Qadın
Dəstək
Xətti
2025-Cİ İL MÜRACİƏTLƏRİN SAHƏLƏRİ
3954
Ümumi müraciət
Psixoloji dəstək
28%
Digər
31%
17%
9%
15%
Boşanma
Zorakılıq
Hüquqi yardım
Psixoloji dəstək (28%)
Zorakılıq (17%)
Hüquqi yardım (15%)
Boşanma (9%)
Digər (31%)
Women's Support Hotline 2025
Qadın Dəstək Xətti

# ZORAKILIQ NÖVLƏRİ

İllik hesabat: Qadın Dəstək Xəttinə daxil olan müraciətlər əsasında zorakılıq növlərinin statistikası.

## Ümumi: 924




Qadın
Dəstək
Xətti
MÜRACİƏT VASİTƏLƏRİ
45%
55%
Zəng:
1760
Sosial platformalar:
2194
Ümumi Müraciət Sayı: 3954
SOSİAL MEDİA STATİSTİKASI
5009
İzləyici
İzləyici Artımı: +15%
Qarşılıqlı Əlaqə: 25k
Paylaşımlar: 120
428
İzləyici
İzləyici Artımı: +5%
Qarşılıqlı Əlaqə: 1.2k
115
İzləyici
İzləyici Artımı: +50%
Baxışlar: 350k

# MÜRACİƏTLƏRİN SAHƏLƏR ƏSASINDA BÖLGÜSÜ




Uşaq Qaynar Xətti
İllik Hesabat 2025
116111
Azercell
PAŞA Holding


2010-2025-ci illərdə 81.520 müraciət daxil olmuşdur
2025-ci ildə 5520 müraciət olmuşdur
Müraciətlərin faiz nisbəti
Psixoloji: 1605 - 29%
29%
Sosial: 823 - 15%
15%
Zorakılıq: 808 - 15%
15%
Hüquqi: 730 - 13%
13%
Təhsil: 302 - 5%
5%
Səhiyyə: 56 - 1%
1%
Digər zənglər: 1196 - 22%
22%


Müraciətin daxilolma vasitələri
Qısa nömrə: 5.7%
116111
Sosial platforma: 47.2%
Mobil nömrə: 47.1%


Cins və Yaş Demoqrafiyası
YYÇ-lara dair
Cinslər üzrə
Yaş kateqoriyası
Qadın: 54%
18%
54%
28%
Kişi: 28%
Anonim: 18%
442
1324
3754
10 yaşa qədər
11-14 yaş
15-18 yaş


Zorakılığa məruz qalma – 808
Məişət zorakılığı (Cəmi): 635 - 79%
Psixoloji: 277 - 43%
Fiziki: 258 - 40%
Cinsi: 32 - 5%
Etinasızlıq: 62 - 10%
İqtisadi: 6 - 1%
Bullinq: 53 - 6%
Kiberzorakılıq: 120 - 15%


İllik (2025) müxtəlif sahələr üzrə müraciətlərin sayı
Sığınacaq tələbi: 168
İntihar düşüncələri və təşəbbüs cəhdi: 76
İnsan alveri ilə bağlı müraciətlərin sayı: 165
Diləndirmə: 44
Erkən nikah: 60
İnsan alveri riski və ehtimalı: 54
Əmək İstismarı: 7


Coğrafi əhatə
Azərbaycan regionları - 42 rayon və şəhər
Abşeron
Ağcabədi
Ağdam
Ağdaş
Ağsu
Ağstafa
Astara
Bərdə
Biləsuvar
Cəlilabad
Cəbrayıl
Goranboy
Gəncə
Füzuli
İmişli
Füzuli
İmişli
İsmayıllı
Kürdəmir
Lənkəran
Lerik
Masallı
Mingəçevir
Neftçala
Naxçıvan
Oğuz
Qarabağ
Qax
Quba
Qusar
Zaqatala
Beynəlxalq müraciətlər
9 ölkə
Türkiyə
Almaniya
Rusiya
Ukrayna
İran
İsveçrə
Slovakiya
Mavritaniya
Pakistan

## GENDER BÜDCƏSİ

Gender büdcəsi dövlət büdcəsi resurslarının planlaşdırılması və bölüşdürülməsi zamanı qadın və kişilərin ehtiyac və maraqlarının nəzərə alınmasını nəzərdə tutur. Bu yanaşma qadınlar üçün ayrıca büdcənin yaradılması demək deyil, büdcə proseslərində gender amilinin inteqrasiyasını təmin edən analitik və institusional mexanizmdir.

Gender büdcəsinin əsasını dövlət siyasətinin gender üzrə ekspertizası təşkil edir. Bu, büdcə siyasətinin qadın və kişilərə fərqli təsirlərini qiymətləndirməyə və sosial-iqtisadi qərarların nəticələrini əvvəlcədən müəyyən etməyə imkan yaradır.

Gender büdcəsi yalnız gəlir və xərcləri əks etdirən maliyyə sənədi deyil, eyni zamanda idarəetmə və təhlil alətlərinin məcmusudur. Onun məqsədi resursların mexaniki bölgüsü deyil, gender bərabərliyinə mane olan məhdudiyyətlərin aşkarlanması və aradan qaldırılmasıdır.

Bu yanaşma dövlət siyasətində bütün əhali qruplarının maraqlarının nəzərə alınmasını təmin edir, iqtisadi və sosial qərarların təsirlərini qiymətləndirməyə şərait yaradır.

Gender büdcəsinin əsas vəzifəsi dövlət və digər ictimai idarəetmə qurumlarının resurslarından qadın və kişilərin, eləcə də müxtəlif sosial qrupların bərabər şəkildə faydalanmasını təmin etməkdir.

Nəticə etibarilə gender büdcəsi  gender bərabərliyinin gücləndirilməsinə və inklüziv cəmiyyətin formalaşmasına xidmət edən  mühüm idarəetmə alətidir.



## Gender büdcəsinin əsas prinsipləri

**1. Gender bərabərliyi prinsipi**

Büdcə siyasətində qadın və kişilərin bərabər hüquq və imkanlarının təmin olunması əsas götürülür.

**2. Ədalətli resurs bölgüsü prinsipi**

Maliyyə resursları müxtəlif ehtiyaclar nəzərə alınmaqla bölüşdürülür və sosial bərabərsizliklərin azaldılması hədəflənir.

**3. Gender təsirinin qiymətləndirilməsi prinsipi**

Büdcə proqramları və xərclər icradan əvvəl gender baxımından təhlil edilir.

**4. Şəffaflıq və hesabatlılıq prinsipi**

Dövlət qurumları gender büdcələşməsi çərçivəsində qəbul edilən qərarlar barədə ictimaiyyətə məlumat verməlidir.

**5. Nəticəyönümlülük prinsipi**

Büdcə xərclərinin effektivliyi qadın və kişilər üçün yaranan real sosial və iqtisadi nəticələr əsasında qiymətləndirilir.

**Beynəlxalq təcrübə və tətbiq imkanları**

Beynəlxalq təcrübədə gender büdcələşməsi dövlət maliyyə idarəetməsinin mühüm aləti kimi qəbul edilir və büdcə prosesinin bütün mərhələlərində – planlaşdırma, icra və qiymətləndirmə mərhələlərində gender amilinin nəzərə alınmasını nəzərdə tutur.

Bu yanaşma hökumətlərə aşağıdakı imkanları yaradır:

- büdcə siyasətinin qadın və kişilərə təsirinin müəyyən edilməsi;
- sosial və iqtisadi siyasətin daha ədalətli və inklüziv formalaşdırılması;
- dövlət resurslarının səmərəli və məqsədyönlü istifadəsi;
- gender bərabərliyi üzrə milli və beynəlxalq öhdəliklərin icrasının dəstəklənməsi.

# MEDİA, TELEVİZİYA VƏ İKT RESURSLARINDA FƏALİYYƏT

## *Sosial şəbəkə hesabları*

2025-ci il ərzində Dövlət Komitəsinin sosial media fəaliyyəti bütün əsas platformaları əhatə edib və müntəzəm paylaşımlarla müşayiət olunub.

Bütün platformalar üzrə **ümumi paylaşım sayı: 1980**-dir.

- **Facebook:** 2025-ci il ərzində 25094 izləyici ilə 819 paylaşım edilib, 282971 reaksiya əldə olunub və ümumi çatım 3,1 milyon təşkil edib.
- **Instagram:** Platformada 9325 izləyici ilə 515 paylaşım paylaşılıb, 63430 reaksiya qeydə alınıb və çatım 167208 olub.
- **X:** İl ərzində 3742 izləyici üçün 585 paylaşım edilib, 9600 reaksiya toplanıb və 45900 nəfərlik çatım əldə olunub.
- **YouTube:** Kanalda 1855 abunəçi üçün 61 video yerləşdirilib, 866 reaksiya alınıb və ümumi çatım 27021 təşkil edib.

**2025-ci ildə Kütləvi İnformasiya Vasitələrindən 306 müraciət (televiziya – 174, sayt – 123, radio – 9) daxil olmuşdur.**

*Mövzularda üstünlük təşkil edib:*

- *Erkən evlilik, təhsildən yayınma – 53*
- *Nikah/boşanma – 40*
- *Uşaqlara qarşı zorakılıq – 21*
- *Məişət zorakılığı – 18*
- *Qohum evliliyi – 17*
- *Digər – 157*



## Kommunikasiya Strategiyası və Media ilə əməkdaşlıq

**Dövlət Komitəsinin Kommunikasiya Strategiyası**nın Tədbirlər Planına əsasən ötən il

- **Ailə, qadın və uşaq mövzularının mediada işıqlandırılması sayı – 428;**
- Mətbuat konfransı və brifinqlər, media nümayəndələri üçün media və info turlar, düşərgələr, təlim proqramları, müsabiqələr daxil olmaqla ümumilikdə bu tədbirlərdə **iştirak edən jurnalist və blogerlərin sayı – 286** olmuşdur.

**Dövlət Komitəsi tərəfindən 2 mətbuat konfransı və 2 brifinq təşkil edilmişdir.**



▪ ***“Ailə, qadın və uşaq məsələləri Azərbaycan qanunvericiliyində” mövzusunda mətbuat konfransı*** *keçirilmiş normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində görülən işlər, qəbul edilmiş qanunvericilik aktları və dövlət proqramları barədə məlumat verilmişdir.*





▪ ***“Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupu”****nun fəaliyyəti ilə bağlı ictimaiyyətin məlumatlandırılması məqsədilə* ***brifinq və mətbuat konfransı*** *keçirilmişdir.*



▪ ***“Uşaqların zərərli informasiyadan qorunması” mövzusunda brifinq*** *keçirilmişdir. Brifinq zamanı uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması, zərərli informasiya riskləri və profilaktik tədbirlər barədə aktual məsələlər media nümayəndələrinin diqqətinə çatdırılmışdır.*



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən media nümayəndələri üçün keçirilmiş tədbirlər:**

## TƏLİMLƏR

- *Media nümayəndələri üçün "Gender bərabərliyi və gender əsaslı ayrı-seçkilik" mövzusunda təlim keçirilmişdir. Təlimin məqsədi media əməkdaşlarının gender bərabərliyi sahəsində biliklərinin artırılması və ictimai maarifləndirmə prosesində medianın rolunun gücləndirilməsi olmuşdur.*
- *Blogerlər, rəqəmsal platforma təsirçiləri və media orqanlarının sosial media menecerləri üçün "Sosial media: Məsuliyyət və həssas yanaşma" mövzusunda təlim təşkil edilmişdir. Təlim sosial mediada qadın və uşaq mövzularının etik, məsuliyyətli və həssas şəkildə işıqlandırılmasına yönəlmişdir.*
- *Quba rayonunda jurnalistika ixtisası üzrə tələbələr üçün "Ailə, qadın və uşaq məsələləri mediada" mövzusunda təlim proqramı keçirilmişdir. Təlim gənc jurnalistlərin bu sahədə peşəkar bacarıqlarının inkişaf etdirilməsinə xidmət etmişdir.*
- *Jurnalistlər üçün "Uşaq hüquqları: Mediada həssas yanaşma" mövzusunda təlim keçirilmişdir. Təlim uşaq hüquqlarının mediada düzgün və etik işıqlandırılması məqsədi daşımışdır.*







### *SƏFƏRLƏR (İNFOTUR / MEDİATUR)*

- *Ali təhsil müəssisələrinin jurnalistika ixtisası üzrə tələbələri üçün Zaqatala Uşaq və Ailələrə Dəstək Mərkəzinə infotur təşkil edilmişdir. Səfərin məqsədi tələbələrin uşaq və ailələrə sosial dəstək sahəsində həyata keçirilən fəaliyyətlərlə yerində tanış olması olmuşdur.*

- *QHT nümayəndələri, jurnalistlər və blogerlərin iştirakı ilə Şüvəlan və İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə mediatur təşkil edilmişdir. Məqsəd bu sahədə görülən işlərin media nümayəndələrinə təqdim olunması və ictimai məlumatlılığın artırılması olmuşdur.*

### *MÜSABİQƏLƏR VƏ KONFRANS*

- *“Ailə, qadın və uşaq məsələləri media müstəvisində: çağırışlar və perspektivlər” mövzusunda konfrans keçirilmişdir.*

*Konfrans çərçivəsində Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə elan edilmiş müsabiqələrin qaliblərinin mükafatlandırılması həyata keçirilmişdir:*



- *“Azərbaycanın işıqlı qadınları: ilhamverən hekayələr” (videosüjet müsabiqəsi)*
- *“Ailə mövzularının işıqlandırılması üzrə ən yaxşı yazı” müsabiqəsi*

Keçirilmiş təlimlər, səfərlər və müsabiqələr media nümayəndələrinin peşəkar bilik və bacarıqlarının artırılmasına, gender bərabərliyi və uşaq hüquqları mövzularının mediada daha həssas və düzgün işıqlandırılmasına, eləcə də ictimai maarifləndirmənin gücləndirilməsinə xidmət etmişdir.






**Audiovizual Şuranın məlumatına əsasən, il ərzində aparılmış monitorinqlər zamanı** "Media haqqında" Qanunun 14.1.4-cü maddəsinin pozulması, yəni cinsi (gender) ayrı-seçkiliyin təbliği nəticəsində ilin müxtəlif vaxtlarında "Space TV", "Xəzər TV", "ARB", "Baku TV" kanallarına rəsmi xəbərdarlıq edilmiş, bir dəfə "Space TV" kanalının yayımı 6 saatlıq, "Kanal S" kanalının yayımı isə 24 saatlıq dayandırılmışdır.

Ailə institutunu nüfuzdan salan informasiyanın yayılmasına görə isə müxtəlif vaxtlarda "MTV" kanalına rəsmi xəbərdarlıq verilmiş, həmçinin inzibati xəta haqqında protokol tərtib olunaraq müvafiq məhkəməyə göndərilmişdir.

Yerüstü televiziya və peyk yayımı həyata keçirən yayımçıların proqram rəhbərləri və səlahiyyətli şəxslərinin iştirakı ilə keçirilmiş görüşdə gender bərabərliyi və cinsi ayrı-seçkiliyin qarşısının alınmasında maarifləndirmənin rolu müzakirə olunmuşdur.

### *Azərbaycan Respublikasının media subyektlərində və jurnalist təşkilatlarında gender bərabərliyinin vəziyyəti barədə tədqiqat*

*Azərbaycan Mətbuat Şurası tərəfindən 2024-cü il tarixində "Azərbaycan Respublikasının media subyektlərində və jurnalist təşkilatlarında gender bərabərliyinin vəziyyəti barədə" növbəti tədqiqat həyata keçirilib.*

*Tədqiqat audiovizual, çap, onlayn media subyektləri və informasiya agentlikləri daxil olmaqla, 154 redaksiyanı, o cümlədən 26 jurnalist təşkilatını əhatə edib. Ümumilikdə 180 qurum tədqiqata cəlb edilib. Araşdırma aparılan redaksiyaların Media Reyestrində qeydiyyatının və digər rekvizitlərinin olması nəzərə alınıb.*

*Tədqiqat Azərbaycanın "İnzibati ərazi bölgüsü təsnifatı"na istinadla Azərbaycan Respublikasının bütün ərazilərini əhatə edib. Sorğu keçirilən media subyektlərinin 130-u Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonundan, digər 24-ü isə Azərbaycanın regionlarından seçilmişdir. Həmçinin 26 jurnalist təşkilatının 22-si Bakı, digər 4-ü isə regionlardan cəlb edilmişdir.*

*Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən media subyektlərində çalışanların gender göstəriciləri inkişaf etmiş ölkələrin təcrübəsinə yaxındır.* ***Media sahəsində çalışanların 43%-i qadınlardan, 57%-i kişilərdən ibarətdir.***

*Tədqiqat nəticəsində müəyyən edilib ki,* ***media subyektlərində idarəçi / qərarverici şəxslərin yalnız 21%-i qadınlar, 79%-i isə kişilərdən ibarətdir.***

*Media təşkilatları (jurnalist təşkilatları) sahəsində də bənzər vəziyyət mövcuddur.* ***Burada rəhbər / qərarverici şəxslərin 20%-i qadınlar, digər 80%-i isə kişilərdən ibarətdir.***

*Mətbuat Şurasının təmsilçiləri tədqiqat zamanı qadın jurnalistlərin KİV idarəçiliyi və rəhbərliyində az təmsil olunmasının səbəblərini də araşdırıblar.*

*Müəyyən edilib ki, problemin mənşəyi qanunvericilik, yaxud media sahəsindəki iş mühiti ilə yox, cəmiyyətimizdəki ənənəvi mental prinsiplərlə bağlıdır. Stereotiplər jurnalistikada çalışan qadınların önə çəkilməsi, məşhurlaşması yolunda ləngimələr yaradır.*

*Qadın jurnalistlər adlarının hansısa mübahisəli informasiyalarda hallanmasından ehtiyat edirlər. Onların əksəriyyəti mübahisəli, sübutu çətin olan, ictimai diqqəti cəlb edəcək informasiyaları hazırlamaqdan yayınırlar.*

*Xarici ezamiyyələrə, yaşayış yerindən uzaqda keçirilən təlimlərə, kurslara "təkbaşına getmək" jurnalist xanımlar üçün təkbaşına veriləcək qərar deyil. "Ailəm icazə vermir" kultu cəmiyyətin əksər sferaları üçün hələ də keçərlidir. Bu cür hallarla qarşılaşmamaq üçün qadınlar KİV idarəçiliyi və rəhbərlikdə təmsil olunmaqdan yayınır, incə mövzulardan, məsələn, "incəsənətdən yazan jurnalist" kimi qalmağa üstünlük verirlər.*

*Digər tərəfdən ailəyə diqqət, uşaq böyütmək, tərbiyələndirmək məsələsində qadının önəmli roluna inam vardır. "Ailə, yoxsa karyera dilemması" qarşısında qalarkən, əksəriyyət intuitiv olaraq birinciyə üstünlük verir. Karyera pillələrində yüksəlmək, rəhbərlikdə təmsil olunmaq üçün "Ailə-məişət kultu" mövzusunda ümumi rasional baxışların formalaşması vacibdir.*

### *Tövsiyə və təkliflər*

*Yanlış stereotiplərdən qurtulmaq üçün cəmiyyətdə təşəbbüskarlıq yüksək olmalıdır. Bu, ilk növbədə, təhsillə gəlməlidir. Təhsil, tədris proqramlarında gender bərabərliyi mövzusuna yer verilməlidir. Mövzu üzrə maarifləndirmə işi fasiləsiz aparılmalı, qadın jurnalistlərlə yanaşı, ailələrdə də stereotiplər dəyişdirilməlidir.*

*Rəhbər qadınların uğur hekayələrinin təşviq edilməsi gender stereotiplərin sındırılması üçün yaxşı vasitə ola bilər. Jurnalistikada gender stereotiplərini qıra bilmiş, rəhbərlikdə çalışan, uğurlu hekayəsi olan qadın jurnalistlər vardır. Azərbaycanın KİV qurumları sırasında öndə gedən, nüfuzu ilə fərqlənən, ictimai rəydə birmənalı şəkildə qəbul edilən rəhbər qadınların nümunəsinin qabardılması, xüsusi kampaniyalar vasitəsilə vurğulanması prosesə müsbət təsir edə bilər.*

*Qadın jurnalistlər üçün özünümüdafiə təlimləri keçirilməli, onlarda özünəinam aşılanmalı, gender əsaslı təzyiqlərlə üzləşdikləri halda müdafiə olunmaq bacarıqları formalaşdırılmalıdır.*

*Qadın və kişi reportyorlar, habelə, subredaktorlar, redaktorlar, proqram aparıcıları üçün gender həssaslığına dair təlimlər keçirmək faydalı olardı. Bu, xəbərlər təqdimatında, məzmun yaradıcılığında gender stereotiplərin aradan qaldırılması üçün zəruridir.*

# 1.2. GENDER BƏRABƏRLİYİ MƏDƏNİYYƏTİNİN TƏBLİĞİ

## (MADDƏ 5.0.4)



## 1.2. Gender bərabərliyi mədəniyyətinin təbliği (maddə 5.0.4)



Gender bərabərliyi mədəniyyətinin təbliği hüquqi dövlət prinsiplərinin praktik müstəvidə reallaşdırılmasının mühüm istiqamətlərindən biri olmaqla yanaşı, demokratik dəyərlərin institusional və ictimai şüur səviyyəsində möhkəmləndirilməsinə xidmət edir. Bu proses yalnız normativ-hüquqi aktların qəbul edilməsi ilə məhdudlaşmır, eyni zamanda sosial şüurun transformasiyasını, dəyərlər sisteminin yenilənməsini və ictimai davranış modellərinin dəyişməsini nəzərdə tutur.

Gender bərabərliyi mədəniyyətinin formalaşdırılması cəmiyyət daxilində mövcud olan cinsi ayrı-seçkiliyin aradan qaldırılması, sosial rolların yenidən qiymətləndirilməsi və stereotiplərin tədricən dekonstruksiyası ilə sıx bağlıdır. Bu istiqamətdə aparılan maarifləndirmə tədbirləri və institusional mexanizmlər sosial münasibətlər sistemində daha ədalətli və balanslı iştirak modelinin təşəkkülünə zəmin yaradır.
Müasir dövrdə gender bərabərliyi mədəniyyətinin təşviqi kompleks, mərhələli və çoxşaxəli yanaşmanın tətbiqini zəruri edir. Dövlət institutları, vətəndaş cəmiyyəti təşkilatları, akademik dairələr və media subyektləri arasında koordinasiyalı əməkdaşlıq sosial dialoqun güclənməsinə və davamlı nəticələrin əldə olunmasına şərait yaradır.

*2025-ci il ərzində həyata keçirilən seminarlar, təlim proqramları və maarifləndirmə kampaniyaları gender məsələlərinin ictimai diskursda daha sistemli şəkildə yer almasına, vətəndaşların hüquqi maariflənmə səviy-*






*yəsinin yüksəlməsinə və sosial məsuliyyət hissinin möhkəmlənməsinə töhfə vermişdir. Bu təşəbbüslər gender bərabərliyinin yalnız normativ tələb deyil, eyni zamanda sosial-mədəni inkişafın zəruri komponenti kimi qəbul edilməsinə xidmət etmişdir.*

➢ ***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı*** *ilə "Qadın iştirakçılığının təbliği" mövzusunda Konfrans keçirilmişdir.*

➢ ***Dövlət Komitəsi və Regional İnkişaf İctimai Birliyinin*** *(RİİB) əməkdaşlığı ilə birgə "Güclü cəmiyyətin zərif simaları" layihəsi çərçivəsində regionlarda görüşlər keçirilmişdir.*

***Dövlət Komitəsi*** *tərəfindən Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında "Gender bərabərliyi: əsas anlayışlar, mahiyyəti və əsas istiqamətləri" və "Azərbaycanda gender siyasəti: reallıq və perspektivlər" mövzularında təlimlər keçirilmişdir.*

***Dövlət Komitəsi*** *tərəfindən "Ailəm könüllüləri" üçün gender mədəniyyətinin təbliği istiqamətində təlim-seminarlar təşkil olunmuşdur.*





***"İƏT Həftəsi" çərçivəsində*** *İqtisadi Əməkdaşlıq Təşkilatının Qadınlar Forumu keçirilmişdir. Forumda "iqlim davamlılığı üçün insan inkişafında qadınların rolu", "təhsil vasitəsilə qızlar və qadınlar üçün imkanların artırılması", "yaşıl bacarıqlar və yaşıl iş yerləri imkanları", "şəhərsalmanın inkişafında qadınların rolu", "dayanıqlı iqtisadi inkişaf və icma rifahında qadınların rolu", "rəqəmsal inklüzivlik: innovasiyalar və təcrübə mübadiləsi" mövzularında müzakirələr aparılmışdır.*

- ***Dövlət Komitəsi və Bakı Dövlət Universitetinin təşkilatçılığı ilə*** *"Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda ali məktəb tələbələri üçün gender bərabərliyi mədəniyyətinin təbliği, gender əsaslı zorakılığın (erkən nikah, məişət zorakılığı, selektiv abort və s.) fəsadları mövzusunda maarifləndirici seminar keçirilmişdir.*

- ***Dövlət Komitəsi, Qərbi Azərbaycan İcması və Azərbaycan Dövlət Pedaqoji Universitetinin*** *birgə əməkdaşlığı ilə gənc nəslin maarifləndirilməsi məqsədilə "Sülh və reinteqrasiya prosesində qadınların iştirakı: milli və beynəlxalq mexanizmlər" mövzusunda konfrans keçirilmişdir.*

- ***Naxçıvan Muxtar Respublikasında*** *"Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" BMT Konvensiyasının Azərbaycan Respublikası tərəfindən ratifikasiya olunmasının 30 illiyi ilə əlaqədar "Bərabərlik və ədalət yolunda 30 il: nailiyyətlər və çağırışlar" mövzusunda konfrans keçirilmişdir.*

- ***Azərbaycan Respublikasının Ali Məhkəməsində*** *"Qadınların ədalət mühakiməsinə çıxışı: gender bərabərliyi və qadınlara qarşı zorakılığın qarşısının alınmasında Avropa Şurası standartlarının tətbiqi və onunla mübarizə" layihəsi çərçivəsində qadın hakimlərin iştirakı ilə tədbir təşkil olunmuşdur.*

- ***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi*** *tərəfindən 2025-ci il ərzində dini icmalarda və ictimai mühitdə gender bərabərliyi anlayışına dair doğru, stereotiplərdən uzaq yanaşmanın formalaşdırılması; din xadimlərinin gender bərabərliyi və qadın hüquqları mövzusunda hüquqi biliklərinin artırılması; gənclər arasında qız və*

*oğlanların hüquq və imkanlarının bərabərliyinə dair şüurun gücləndirilməsi; gender ayrı-seçkiliyi, zorakılıq və erkən nikah kimi halların dini və hüquqi baxımdan yolverilməzliyinin izah edilməsi; dini dəyərlərlə insan hüquqları prinsipləri arasında uzlaşmanın təşviq olunması məqsədilə din xadimləri, dini icma üzvləri, ictimaiyyət nümayəndələri, gənclər, müəllimlər və şagirdlərin iştirakı ilə ölkə ərazisində 1200-dən artıq iştirakçının cəlb olunduğu 34 maarifləndirmə tədbiri təşkil edilmişdir.*

**2025-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının İnstitutlarında gender bərabərliyinin təbliği məqsədilə aşağıdakı tədbirlər həyata keçirilmişdir;**

- ***Fəlsəfə və Sosiologiya İnstitutunda*** *"Qadınlar və qızlar elmdə" Beynəlxalq Gününə həsr olunmuş "Azərbaycan fəlsəfə elmində qadınların fəaliyyəti" mövzusunda dəyirmi masa keçirilmişdir.*
- ***Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda*** *"Müasir cəmiyyətdə və elmdə qadının rolu" mövzusunda elmi konfrans keçirilmişdir.*

**Naxçıvan Muxtar Respublikasında gender bərabərliyinin təmin edilməsi istiqamətində çoxsaylı tədbirlər keçirilmişdir;**

- ***Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi*** *tərəfindən hesabat dövrü ərzində* ***gender bərabərliyini*** *təşviq etmək və cəmiyyətdə qadın və kişilər arasında bərabər imkanlar yaratmaq məqsədilə 6 tədbir və 12 təlim keçirilmişdir.*
- ***Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin*** *aparatı və struktur qurumlarının şəxsi heyəti üçün "Gender bərabərliyinin və insan hüquqlarının qorunması" və "Gender bərabərliyi anlayışı və onun tarixi" mövzularında tədbirlər keçirilmişdir.*
- ***Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi*** *tərəfindən "Gender anlayışının aşılanması və gender bərabərliyinin əhəmiyyəti" ilə bağlı təşviqat işinin aparılması məqsədilə tam orta məktəblərdə maarifləndirici təlim, söhbət və tədbirlər keçirilmişdir.*





➢

➢ ***Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi*** *yanında Əmlak Məsələləri Dövlət Xidmətində “Xidmətdə kişi və qadınlara bərabər hüquqlar yaratmaqla gender bərabərliyinin təmin edilməsi” mövzusunda təlim keçirilmişdir.*

➢ ***Naxçıvan MR Turizm Departamentində*** *əməkdaşlar üçün “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununun tələbləri barədə maarifləndirici tədbir keçirilmişdir.*

➢ ***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası*** *tərəfindən “Qadınların əmək hüquqlarının müdafiəsində həmkarlar ittifaqlarının rolu”, “Həmkarlar ittifaqlarında qadın liderliyinin gücləndirilməsi”, “Gender bərabərliyi və sosial ədalət: müasir yanaşmalar”, “İş yerində gender zorakılığına qarşı effektiv mexanizmlər” və “Gələcəyin həmkarlar ittifaqları: gender inklüziv idarəetmə” mövzularında tədbirlər keçirilmişdir.*

➢ ***Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi*** *tərəfindən gender (kişi və qadın) bərabərliyi mövzusunda məhkəmə işçilərinin iştirakı ilə elmi praktik seminar keçirilmişdir.*



➢ ***Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatında*** *gender bərabərliyinin təşviqi və bu sahədə ictimai maarifləndirmənin gücləndirilməsi məqsədilə tədbir keçirilmişdir.*



**Türk Dövlətləri Təşkilatının Ailə Məsələləri və Sosial Siyasət Sahəsinə Məsul Nazir və Qurum Rəhbərlərinin "Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər" mövzusunda 2-ci iclası və ekspertlərin görüşü Bakı şəhərində keçirilmişdir.**

İclasın əsas məqsədi türk dövlətləri arasında ailə siyasəti, gender bərabərliyi, qadınların sosial-iqtisadi səlahiyyətləndirilməsi və sosial müdafiə sahələrində əməkdaşlığın gücləndirilməsi, ortaq dəyərlərin təşviqi və qabaqcıl təcrübələrin mübadiləsi olmuşdur.

İclas zamanı iştirakçı dövlətlər tərəfindən ailənin qorunması və gender bərabərliyinin təşviqi istiqamətində həyata keçirilən milli siyasət və təşəbbüslər təqdim olunmuş, sosial müdafiə və inklüziv inkişaf sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulanmışdır.

İclas çərçivəsində ekspertlərin görüşü keçirilmiş və burada Birgə Kommunike müzakirə edilmişdir. Tədbirin yekununda Türk Dövlətləri Təşkilatının Ailə məsələləri və sosial siyasət üzrə məsul nazirləri və qurum rəhbərlərinin 2-ci İclasının Birgə Kommunikesi qəbul edilmişdir. Kommunikedə ailə institutunun möhkəmləndirilməsi, qadınların iqtisadi və ictimai həyatda iştirakının təşviqi, qadınlara qarşı zorakılığa münasibətdə "sıfır tolerantlıq" prinsipinin dəstəklənməsi, həmçinin üzv dövlətlər arasında institusional əməkdaşlığın davam etdirilməsi ilə bağlı ortaq mövqe ifadə olunmuşdur.

Tədbir çərçivəsində "Orta Dəhliz 360°: Geosiyasətdən Rəqəmsal Transformasiyaya, Ailədən Yaşıl İnkişafa" və "Güclü ailələr, güclü toplumlar: TDT ölkələrində ailəni dəstəkləyici siyasətlər" adlı yan tədbirlər keçirilmişdir.







**BMT-nin Baş Qərargahında 10–21 mart 2025-ci il tarixlərində Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının (1995) icrası və qiymətləndirilməsinə həsr olunmuş Qadınların Statusu Komissiyasının (CSW69) 69-cu sessiyası keçirilmişdir.**



Sessiyada BMT-yə üzv dövlətlərin nümayəndələri, eləcə də Azərbaycan nümayəndə heyəti, beynəlxalq təşkilatlar, ekspertlər və vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri iştirak etmişdir.

Sessiyanın əsas məqsədi Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının icrası sahəsində əldə olunmuş nəticələrin qiymətləndirilməsi, gender bərabərliyi, qadın hüquqları və qadınların səlahiyyətləndirilməsi istiqamətində mövcud çağırışların müzakirəsi və dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi olmuşdur.

Sessiya çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının aidiyyəti qurumları və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə “Bakı iqlim koalisiyası – KOB-ların yaşıl keçidi: qadınların gücləndirilməsi” mövzusunda, həmçinin Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin, eləcə də Dövlət Komitəsinin təşkilatçılığı ilə “Rəqəmsal trendlər: qadın sahibkarlığı və gələcək iqtisadiyyat formalaşdırılması” adlı yan tədbir keçirilmişdir.

Ümumilikdə, sessiyada iştirak gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi sahəsində Azərbaycanın həyata keçirdiyi siyasətin beynəlxalq platformada təqdim olunması, həmçinin qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsinin genişləndirilməsi baxımından əhəmiyyətli olmuşdur.



**22–25 sentyabr 2025-ci il tarixlərində Birləşmiş Millətlər Təşkilatının Nyu-York şəhərində yerləşən Baş Qərargahında Qadınlara dair Dördüncü Dünya Konfransının 30-cu ildönümünə həsr olunmuş Baş Assambleyanın Yüksək Səviyyəli İclası keçirilmişdir.**




Tədbirdə BMT-yə üzv dövlətlərin nümayəndələri, eləcə də Azərbaycan nümayədə heyəti, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti institutları və ekspertlər iştirak etmişdir.

İclasın əsas məqsədi Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının qəbulundan sonrakı 30 il ərzində qadın hüquqları sahəsində əldə olunmuş irəliləyişlərin nəzərdən keçirilməsi, rəqəmsallaşmanın yaratdığı risklər, iqlim dəyişikliklərinin qadınlara təsiri və dayanıqlı inkişaf məqsədlərinin gender aspektləri üzrə təcrübə mübadiləsi və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi olmuşdur.



Yüksək Səviyyəli İclasda Azərbaycanın Pekin Bəyannaməsi və Fəaliyyət Platformasına sadiqliyini bir daha ifadə edilmiş, ölkədə qadınların təhsil, məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, məişət zorakılığı ilə mübarizə və ailə institutunun möhkəmləndirilməsi istiqamətində həyata keçirilən siyasət və islahatlar barədə məlumat verilmişdir.

Sessiya çərçivəsində Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin həmtəşkilatçılığı ilə "Birlikdə daha güclüyük: Ailədən qaynaqlanan qlobal həmrəylik" adlı yan tədbir keçirilmişdir. Tədbirdə ailə institutunun qorunması, qadınların gücləndirilməsi və Türk dünyasında regional əməkdaşlığın əhəmiyyəti müzakirə olunmuşdur.

## Audiovizual Şuranın tövsiyəsinə gender bərabərliyi mədəniyyətinin təbliği istiqamətində televiziya kanallarında proqramlar yayımlanmışdır

| *İcraçı qurum* | *Görülmüş işlər (Təqdim olunmuş məlumatlar)* |
|---|---|
| **Xəzər TV** | **“Xəbər ertəsi”** Səhər informasiya şousu<br>Mövzular: Aparıcılar mütəmadi olaraq gender bərabərliyi və gender əsaslı zorakılıqlarla bağlı müzakirə, fikir mübadiləsi aparır<br>Tarixlər: yanvar-iyun ayları boyunca hər gün saat 07:00-10:00 |
| | **“Xəzər Xəbər”**<br>Mövzular: Süjetlər: “Məişət zorakılığına məruz qalanların sayı açıqlanıb”, Bakıda keçirilən XII qlobal Bakı forumunda Yeni dünya üçün yeni texnologiyalar "Gənclər danışır, biz dinləyirik", Gender bərabərliyi ilə bağlı mühim məsələ qəbul edilib”;<br>"Gender – Təhlükəsizlik – İqlim bağlantısı" kimi mövzular müzakirə olunur.<br>Tarixlər: 17 fevral; 15 mart; 30 may |
| | **“Təsir dairəsi”** Sosial-ictimai proqram<br>Mövzular: Gender bərabərliyi və gender əsaslı zorakılıqla mübarizə ilə bağlı aparıcı və qonaqların maarifləndirici çıxışları; Efirdə proqrama daxil olan müraciətlər əsasında ailələrdə baş verən məişət zorakılığı ilə bağlı maarifləndirici müzakirə aparılır, vətəndaşlara məişət zorakılığına qarşı mübarizə aparmaq üçün çağırış edilir;<br>Tarixlər: 10 mart; 13 may; 22 may; 18 iyul; 16 dekabr; 17 dekabr |
| **AZTV** | **“Günə davam”** Səhər informasiya proqramı<br>Mövzular: Məişət zorakılığı və onunla mübarizə; Boşanma hallarının sayı niyə artır?; Gender bərabərliyi; Azyaşlı qız anası tərəfindən şiddətə məruz qalıb; Boşanma hallarının sayı niyə artır? Boşanmaq üçün təşəbbüs göstərənlərin 70 faizi qadınlardır; Erkən nikah və qohum izdivacı; Qadın zorakılığı və şiddət; İş dünyasında qadının gücü; Erkən nikahın sosial və psixoloji fəsadları; Qohum evliliyin ləğvi haqqında;<br>Tarixlər: 08 yanvar; 18 fevral; 21 fevral; 07 mart; 10 mart; 02 aprel; 30 aprel; 22 may; 04 iyun; 25 iyul; 16 sentyabr; 22 sentyabr; 27 noyabr |
| | **“AZTV Xəbər”**<br>Mövzular: “Qızlar və qadınlar elmdə" Beynəlxalq günü; Erkən nikah; Qızların təhsil hüququ; Məişət zorakılığı ilə mübarizə; Erkən nikahların sayı azalıb;<br>Tarixlər: 11 fevral; 13 fevral; 20 fevral; 28 fevral; 21 may |

| | |
|---|---|
| **Mədəniyyət TV** | **“Ümid işığı”**<br>Mövzular: Ailədə qadın zorakılığının səbəbləri; Erkən nikahların fəsadları; Erkən nikah<br>Tarixlər: 14 yanvar; 08 aprel; 06 may; 10 iyun; 01 iyul; 05 avqust; 30 sentyabr; 09 dekabr |
| **İTV** | **“Sabahın xeyir, Azərbaycan!”**<br>Mövzular: “Gender bərabərliyi klassik ailə modelini dəyişirmi?”; “Qadın sahibkarların iqtisadiyyatda rolu”; “Qadın azadlığı nədir?”; “Ailədaxili zorakılıq: cəmiyyətin görünməyən yarası”; “Gündəm”– Qadın sahibkarlar, “Şəhərin səsi”– Qadın sahibkara nə mane olur?”<br>Tarixlər: 15 may; 16 may; 19 iyun; 14 iyul; 19 noyabr; 25 noyabr |
| | **“Qanundan kənar”**<br>Mövzular: Məişət zorakılığı;<br>Tarix: 02 mart |
| | **“Xəbərimiz var”**<br>Mövzular: Cəmiyyətin gizli terroru: məişət zorakılığı; “Qadınları sükan arxasına dəvət edirik”; “Günümüzün bəlası – qadına şiddət”; “Məişət zorakılığı: qadına qarşı şiddət hallarının sayı niyə artır?”; “Beynəlxalq Qadın Sahibkarlığı Günü”; “Bir kəndin düşüncəsini dəyişən qadın”<br>Tarixlər: 16 fevral; 21 may; 08 oktyabr; 19 noyabr; 15 dekabr |
| | **“Sabaha saxlamayaq”**<br>Mövzular: “Bölgələrdə qadın zorakılığı: qarşısını necə alaq?”<br>Tarix: 08 dekabr |
| **ARB** | **“Günə doğru”**<br>Mövzular: “Bəzi kişilər niyə həyat yoldaşlarına işləməyə icazə vermirlər?”; “Qadınların ən böyük problemİ nədir?; “Qadınlar niyə boşanmaq istəyir?”; “Peşələrdə gender bərabərsizliyi”; “Kişilər və qadınlar – kim nədə peşəkardır?”; “Bu günədək taksi sürücüsü olmaq istəyən 169 qadın müvafiq imtahanları keçib və şəhadətnamə əldə edib”<br>Tarixlər: 28 fevral; 07 mart; 08 mart; 13 mart; 28 may; 24 sentyabr; 23 oktyabr |
| | **“Günə son”**<br>Mövzular: “Ailə və gender yönümlü siyasətlər: fərdlərə, təşkilatlara və cəmiyyətə faydaları” mövzusunda təlimlərin keçirilməsi barədə<br>Tarix: 14 iyun |
| | **“ARB Xəbər”**<br>Mövzular: “Bakı şəhərinin ictimai nəqliyyatında ilk dəfə olaraq qadın avtobus sürücüləri fəaliyyətə başlayıb”<br>Tarix: 24 noyabr |
| | **“Pərvizə görə”**<br>Mövzular: Öz ayaqları üstündə duran, təhsil alıb öz sahəsinin peşəkarı olan xanımlar haqqında danışılıb.<br>Tarix: 23 fevral |
| | **“Sən olsaydın”**<br>Mövzular: “Qız uşağının xaricdə təhsil alması niyə hələ də bəzən cəmiyyətdə el qınağı ilə qarşılanır?” |

| | |
|---|---|
| | Tarixlər: 31 iyul |
| | **“Sözün qısası”**<br>Mövzular: “Qadınlar yolları necə fəth edir?”<br>Tarixlər: 07 dekabr |
| **ATV** | **“Bizimləsən”**<br>Mövzular: Gender bərabərliyi; Uşaqların doğulanadək cins seçimi; Təhsildən yayınma<br>Tarixlər: 10 mart; 15 may; 24 iyun; 30 oktyabr; 04 noyabr |
| | **“Xəbərin olsun”**<br>Mövzular: “Siyasətdə çox uğurlu qadınlarımız var”<br>Tarixlər: 21 mart |
| | **“Cins seçiminin qarşısının alınması”**<br>Sosial videoçarx (1 dəqiqə 20 saniyə)<br>2025-ci il ərzində hər gün gündə 1 dəfə olmaqla yayımlanıb. |
| **ARB 24** | **“ARB 24 Xəbərlər”**<br>Mövzular: “Laçında İƏT qadınlar forumu keçirilib”; “İKT-də Qadınlar” layihəsi çərçivəsində keçirilən “Rəqəmsal sahibkarlıq” müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi”; “Azərbaycan ödənişli atalıq məzuniyyəti”; “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq kampaniyasına həsr olunmuş “Cəmiyyətin inkişafı hamı üçün təhlükəsizlikdən başlayır” mövzusunda konfrans barədə”;<br>Tarixlər: 02 iyul; 24 iyul; 06 oktyabr; 25 noyabr |
| | **“Tərs baxış”**<br>Mövzular: “Ailə münasibətlərində dominant tərəf kim olmalıdır? Qadın yoxsa kişi?”<br>Tarixlər: 21 iyul |
| | **“İşgüzar səhər”**<br>Mövzular: “Gender bərabərliyi və genderəsaslı ayrı-seçkilik mövzusunda təlim keçirilib”; “Ailə, qadın və uşaq məsələləri Azərbaycan qanunvericiliyində” adlı mətbuat konfransı keçirilib”<br><br>Tarixlər: 25 sentyabr, 04 noyabr |
| **Baku TV** | **“Süjet”**<br>Mövzular: “Erkən nikahlar gələcəkdə hansı faciələrə səbəb olur?”;<br>“Müasir cəmiyyətdə qadının rolu”<br>“Məclisimizi dayandırdıq hami dağılışdı” 16 yaşına çatmayan qızın erkən nikahının qarşısı alınıb”<br>Tarixlər: 13 sentyabr, 18 sentyabr, 21 oktyabr |
| | **“Aktual gündəm”**<br>Mövzular: “Erkən nikah faciəsi:ənənə yoxsa zorakılıq?<br>Tarixlər: 31 oktyabr |
| | **Süjet**<br>“Erkən nikahların doğurduğu problemlər”; "Neftçala rayonunda erkən nikahın qarşısı alındı"<br>Tarixlər: 16 sentyabr; 27 oktyabr; |

| | |
|---|---|
| **Space TV** | **“Gəl danış”**<br>Mövzular: “Evdən qaçan qadınlar, təhsildən yayınan övladlar”; “Erkən nikahların fəsadları”; “Qadına qarşı zorakılıq”; “Qadına qarşı şiddətin uşaqlara təsiri”; “Erkən nikahın yaratdığı problemlər; “Məişət zorakılığına qarşı hüquqi mexanizmlər”; “Qadınların hüquqlarının qorunmasında dövlətin rolu”; “Güclü ailə-güclü cəmiyyət”<br>Tarixlər: 09 oktyabr; 10 noyabr; 17 noyabr; 18 noyabr; 23 noyabr; 24 noyabr; 25 noyabr; 08 dekabr |
| **Kanal S** | **“Canlı yayım”**<br>Mövzular: “Ölkədə boşanmaların sayının artması, əsas motiv kimi xəyanətin göstərilməsi, tərəflərin boşandıqdan sonra sivil qaydada münasibət saxlamaları barədə”; “Sosial Xidmətlər Agentliyinin təşəbbüsü və dəstəyi ilə “Atalar məktəbi” proqramının icrasına start verilməsi barədə - proqramın məqsədi ataların məsuliyyətli valideynlik bacarıqlarının gücləndirilməsi, ailədaxili münasibətlərin sağlam əsaslar üzərində qurulması, uşaqların fiziki və psixoloji inkişafının dəstəklənməsidir.”; “Ataların ödənişli məzuniyyət hüququndan istifadə etməsinin müsbət dəyişikliklərə səbəb olması barədə”; “Məktəblərdə kişi müəllimlərinin azlığı barədə - kişi müəllim çatışmazlığının əsasında hansı faktorlar dayanır və bu vəziyyət məktəblərdə necə hiss olunur?”<br>Tarixlər: 24 noyabr, 28 noyabr, 08 dekabr, 18 dekabr, 23 dekabr |
| | **“Kanal S xəbər”**<br>Mövzular: “Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "860 - Gender əsaslı zorakılıqla bağlı Dəstək xətti"nə 330 müraciətin daxil olması barədə”<br>Tarixlər: 13 fevral |
| **Dünya TV** | **“Üz-üzə”**<br>Mövzular: Ailələrin pozulma səbəbləri; Erkən nikah; Ailə dəyərləri;<br>Tarixlər: 14 yanvar; 27 fevral; 04 iyun; 27 dekabr |
| | **“DTV Aktual”**<br>Mövzular: Erkən nikah<br>Tarixlər: 17 yanvar |
| **Naxçıvan TV** | **“Maddə X”**<br>Mövzular: Qadın hüquqlarının qorunması<br>Tarixlər: 27 noyabr |

## Ümumi təhsil pilləsi üzrə hazırlanmış dərsliklərdə gender bərabərliyi prinsiplərinin nəzərə alınması

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"na** uyğun olaraq, ümumi təhsil pilləsində tədris olunan müvafiq fənlərin məzmununa təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla insan, o cümlədən qadın hüquqlarına, gender bərabərliyinə dair mövzuların daxil edilməsi diqqətdə saxlanılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 fevral tarixli 67 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"na əsasən, ümumi təhsil pilləsi üçün hazırlanmış dərsliklərin qiymətləndirilməsi üzrə həmin Qaydanın 3.8.1-ci və 3.8.4-cü bəndində yer alan meyarlar çərçivəsində dərsliklərdə multikultural dəyərlərin və gender bərabərliyi prinsiplərinin nəzərə alınması, diskriminasiyaya yol verilməməsi və digər aidiyyəti məsələlər yoxlanılır.

Gender bərabərliyinin diqqətdə saxlanılması üçün dərslik hazırlığını həyata keçirən nəşriyyat-poliqrafiya müəssisələrinə rəsmi və işçi qaydada bildirişlər və məktublar ünvanlanır.

Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən ümumi təhsil pilləsində istifadə edilən dərsliklərdə gender bərabərliyinin qorunması üzrə dərslik müəlliflərinə, dərsliklərin qiymətləndirilməsini həyata keçirən ekspertlərə və müəllimlərə mütəmadi təlimlər həyata keçirilir.

## Azərbaycanda ali təhsil müəssisələrində gender məsələləri ilə bağlı tədris olunan fənlər

✓ **Bakı Dövlət Universiteti** – Sosial Elmlər və Psixologiya fakültəsi tərəfindən BDU-nun bütün fakültələrində "Genderə giriş" kursu tədris edilir. Gender və tətbiqi psixologiya kafedrası tərəfindən həm bu kursun, həm də "Genderin fəlsəfi əsasları", "Gender və sosiologiya", "Gender və İqtisadiyyat" təhsil proqramları hazırlanaraq hər fakültənin əhatə etdiyi sahə xüsusiyyətlərinə uyğun tədris olunur. Hazırda GTps kafedrası SEP fakültəsində "Genderin psixoloji problemləri", "Genderin fəlsəfi problemləri" fənləri üzrə, BDU-nun 16 fakültəsinin yalnız 9-da "Genderə giriş" kursunu seçmə fənn kimi tədris edir.

✓ **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti –** Genderin sosiologiyası seçmə fənni tədris olunur.

✓ **AR Dövlət və İdarəçilik Akademiyası** – Siyasi idarəetmə fakültəsinin Dövlət və ictimai münasibətlər ixtisası üzrə Gender və sosial siyasət (Gender and Social Policy) fənni ingilis dilində tədris olunur.

✓ **Lənkəran Dövlət Universiteti –** Sosial iş ixtisasında "Sosial iş və gender fənni" tədris olunur.

✓ **Mingəçevir Dövlət Universiteti –**"Təhsildə sosial-psixoloji xidmət" ixtisasında "Ailə və gender psixologiyası" adlı fənn tədris olunur.

✓ **Azərbaycan Dövlət Pedaqoji Universiteti –** Filologiya fakültəsində – Multikulturalizm fənninin daxilində tədris edilir. Tarix və Coğrafiya fakültəsinin "Sosial iş" ixtisasında "Gender problemləri" fənni, Məktəbəqədər təhsil fakültəsində "Ailə və gender psixologiyası" fənni tədris edilir.

✓ **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı** gender bərabərliyi məsələləri ilə bağlı olan "Ailə və gender" fənni tədris olunur.

✓ **Naxçıvan Müəllimlər İnstitutu** gender bərabərliyi ilə bağlı "Ailə və gender psixologiyası" fənni tədris olunur.

**2025-ci il ərzində Ədliyyə Akademiyasında** Ədliyyə orqanlarına, Məhkəmə Ekspertizası Mərkəzinə qulluğa qəbul üzrə müsabiqədə uğur qazanmış namizədlərin, Penitensiar xidmətdə orta rəis heyətinə qulluğa qəbul edilən namizədlərin, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin yerli icra və probasiya qurumlarında icra məmuru vəzifəsinə və Məhkəmə Ekspertizası Mərkəzində ekspert vəzifəsinə işə qəbulla bağlı müsabiqədən keçmiş, Penitensiar xidmətdə orta rəis heyətinə qulluğa qəbul edilən namizədlərin və Vəkillər Kollegiyasının üzvlüyünə qəbulla bağlı ixtisas imtahanlarını müvəffəqiyyətlə vermiş namizədlərin icbari təlim kurslarının proqramlarına, hakimliyə namizədlərin ilkin tədris kursunun proqramlarına, həmçinin Ədliyyə Nazirliyinin, Məhkəmə Ekspertizası Mərkəzinin, İcra Xidmətinin, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarının və nazirliyin Tibb baş idarəsinə yeni işə qəbul olunmuş işçilərin hüquqi biliklərə yiyələnməsi məqsədilə keçirilən **ixtisasartırma kurslarının proqramlarına aşağıdakı mövzular daxil edilərək tədris edilmişdir:**

**- "Xüsusi yanaşma tələb edən məhkumlar (yetkinlik yaşına çatmayanlar, qadınlar, əlillər, əcnəbilər və ahıllar) barədə azadlıqdan məhrum etmə cəzasının icrası xüsusiyyətləri";**

**- "Məişət zorakılığına qarşı mübarizə və qadınların ədalətə çatımlılığı";**

**- "Avropa İnsan Hüquqları Konvensiyasına əsasən şəxsi və ailə həyatına hörmət hüququ (AİHK-ın 8-ci maddəsi)";**

**- "Qadınların ədalət mühakiməsinə çatımlığı "Help kursunun təqdimatı"";**

**- "Avropa İnsan Hüquqları Konvensiyasına görə ayrı-seçkiliyin qadağan olunması (14-cü maddə)".**

Qeyd olunan mövzuların tədris olunduğu icbari təlim kurslarında və hüquqi biliklərə yiyələnmək məqsədilə keçirilən kurslarda ümumilikdə 663 nəfər namizəd iştirak etmişdir.

Həmçinin hakimlər üçün "**Azərbaycan Respublikasının İnsan hüquqlarına dair beynəlxalq öhdəliklərinin tətbiqi məsələləri"** mövzusunda distant formada keçirilən ixtisasartırma kursunda "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya mövzusu daxil edilərək tədris edilmişdir. Təlimdə konvensiyanın fakültativ protokolu, fərdi şikayətlərə baxılma qaydaları, ekstradisiya və hüquqi yardım icraatlarının xüsusiyyətləri barədə ətraflı müzakirələr aparılmışdır. Həmin təlimdə 32 nəfər hakim iştirak etmişdir.

**Daxili İşlər Nazirliyi tərəfindən "Məişət zorakılığının və sağlamlıq əleyhinə olan inzibati xətaların qarşısının alınması sahəsində əlavə tədbirlərə dair" metodik vəsait hazırlanaraq ərazi polis orqanlarına göndərilmiş, habelə müvafiq mövzu Polis Akademiyasında tədris olunur.**

## Ali və orta ixtisas təhsili müəssisələrində gender bərabərliyinin təbliği, gender əsaslı zorakılıqla mübarizə istiqamətində həyata keçirilən tədbirlər

- ***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
- *"VarYox" platforması ilə birgə "Gender bərabərsizliyi: miflər və gerçəklər" və "Gender bərabərliyi və gender zəminində məişət zorakılığı"* mövzularında təlimlər keçirilmişdir.

- ***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
- *Türkiyənin "TETHYS" şirkəti ilə əməkdaşlıq çərçivəsində "Mədən sənayesində qadınların rolunun artırılması" mövzusunda seminar təşkil edilmişdir.*
- *AQUPDK və Təhsilin İnkişafı Fondu ilə birgə "Hənifə Məlikova – Zərdabi adına qızların təhsilinə dəstək" təqaüd proqramı çərçivəsində gənc qızlar üçün maarifləndirici təlim keçirilmişdir.*

- ***Azərbaycan Dövlət İqtisad Universiteti***
- *Gender problemləri, cins ayrı-seçkiliyi və bu sahədə mövcud sosial çağırışlara həsr olunmuş seminarlar keçirilmişdir.*

- ***Azərbaycan Turizm və Menecment Universiteti***
- *"Reproduktiv sağlamlıq və ailə planlaşdırılması" mövzusunda maarifləndirici tədbir keçirilmişdir.*

- ***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
- *"Gender əsaslı zorakılığa qarşı mübarizə" mövzusunda dəyirmi masa keçirilib.*
- *"Erkən nikah" mövzusunda maarifləndirici görüş keçirilib.*

- ***Azərbaycan Texniki Universiteti***
- *"Peşəkar Qadının Yüksəlişi: Uğurun Psixologiyası" mövzusunda təlim keçirilib.*

- ***Azərbaycan İlahiyyat İnstitutu***
- *"Azərbaycan Konstitusiyası və qanun-*



*larında gender bərabərliyi və qadın hüquqları" mövzusunda dəyirmi masa keçirilib.*

- ***Sumqayıt Dövlət Universiteti***
- *"Müasir dünyada gender bərabərliyi" mövzusunda maarifləndirici tədbir təşkil edilmişdir.*

- ***Lənkəran Dövlət Universiteti***
- *Qızların və oğlanların eyni dəyərə malik olduqlarına dair" innovativ tədbir keçirilib.*
- *"**Azərbaycan Universiteti***
- *"Erkən nikah – itirilmiş arzular" adlı maarifləndirici tədbir keçirilib.*

- ***Bakı Biznes Universiteti***
- ***"**Erkən nikahın tibbi-psixoloji fəsadları" mövzusunda seminar keçirilmişdir.*

***Orta ixtisas təhsil müəssisələrində aşağıdakı tədbirlər keçirilmişdir;***

- ***Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci***
- *"Gender bərabərliyi" və "Erkən nikaha yox deyək" mövzusunda maarifləndirici dəyirmi masalar, tədbirlər təşkil edilmişdir.*

- ***Şəki Dövlət Regional Kolleci***
- *"Gender əsaslı zorakılıq, erkən nikahın fəsadları, reproduktiv sağlamlıq, qadının ailədə və cəmiyyətdə rolu" mövzusunda maarifləndirici tədbir keçirilmişdir.*

- ***Astara Pedaqoji Kolleci***
- *"Gender əsaslı zorakılıqla mübarizə" və "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması" mövzularında tədbirlər keçirilib.*

- ***Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci***
- *" Cins seçiminin qarşısının alınması" mövzusunda maarifləndirici təlim keçirilib.*

- ***Azərbaycan Dövlət Pedaqoji Kolleci***
- *Tələbələrlə reproduktiv sağlamlıq mövzusunda psixoloq tərəfindən interaktiv görüş keçirilmişdir.*

- ***Masallı Dövlət Regional Kolleci***
- *"Fəaliyyətlərin gender bərabərliyinin təmin edilməsi" mövzusunda seminar keçirilib.*

- *"Təhsildən yayınma hallarının qarşısının alınması istiqamətində görülən işlər və təhsildən yayınanların cins bölgüsü" mövzusunda xüsusi dərs təşkil olunub.*

Ali və orta ixtisas təhsil müəssisələrində keçirilmiş tədbirlər gender bərabərliyinin təşviqi, erkən evlilik hallarının qarşısının alınması, reproduktiv sağlamlığın təşviqi və gender əsaslı zorakılığa qarşı mübarizə istiqamətində tələbələrin maarifləndirilməsinə xidmət etmişdir.


COP29
Baku
Azerbaijan

2024-cü ildə Bakıda keçirilən İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası zamanı genderə həssas iqlim siyasətlərinə sadiqliyi möhkəmləndirməklə Gender üzrə Genişləndirilmiş Lima İş Proqramının və onun Gender Fəaliyyət Planının daha 10 il uzadılması qərara alınıb. Yeni Gender Fəaliyyət Planının hazırlanması prosesi 2025-ci il 10-22 noyabr tarixlərində Braziliyanın Belem şəhərində keçirilən COP30 zamanı "Belem Gender Fəaliyyət Planı (2026–2034)"nın qəbul edilməsi ilə yekunlaşmışdır.

Planın əsas prioritetləri gender aspektlərinin iqlim fəaliyyətlərinə sistemli inteqrasiyası, qadınların rəhbərlik etdiyi təşəbbüslər üçün iqlim maliyyələşdirilməsinin gücləndirilməsi, gender üzrə məlumat və göstərici bazasının təkmilləşdirilməsi, habelə yerli icma qadınlarının və yerli xalqlara mənsub qadınların qərarvermə proseslərində iştirakının təmin edilməsidir.

29 sentyabr – 3 oktyabr 2025-ci il tarixlərində Bakıda keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsinin (BCAW 2025) üçüncü günü kənd təsərrüfatı, su, nəqliyyat, ağıllı şəhərlər və iqlim fəaliyyətində qadın liderliyi də daxil olmaqla əsas sektorlarda iqlim dəyişikliyinə davamlılığın gücləndirilməsi mövzusunda tematik müzakirələrə həsr olunmuşdur.

Eyni zamanda qadınların istixana effekti yaradan qaz tullantılarının azaldılması, enerjiyə qənaət, su və ərzaq resurslarından səmərəli istifadə, az karbonlu kənd təsərrüfatı və məişət təcrübələri üzrə maarifləndirici fəaliyyətlərə cəlb olunması, eləcə də bərpa olunan enerji və enerji səmərəliliyi sahəsində qadınların ictimai təşəbbüslərinin dəstəklənməsi planlaşdırılmışdır. Sözügedən tədbirlərin icrasının izlənilməsi, nəticələrinin qiymətləndirilməsi və yaxşı təcrübələrin sənədləşdirilməsi Milli Fəaliyyət Planının həyata keçirilməsi çərçivəsində əsas monitorinq və qiymətləndirmə mexanizmlərindən biri kimi müəyyən edilmişdir.

**2025-ci ildə gender və iqlim dəyişmələri mövzusunda bir sıra tədbirlər həyata keçirilmişdir:**

- ✓ Bakı-Oksford məktəbində BAKUIMUN təşkilatı tərəfindən gənclər üçün keçirilmiş beynəlxalq konfransda Milli Hidrometeorologiya Xidmətinin əməkdaşı tərəfindən tədbir iştirakçılarına son dövrdə ölkəmizdə həyata keçirilən iqlim dəyişmələri və gender fəaliyyətləri barədə məlumat verilmişdir.

- ✓ BMT-nin Qadınların Statusu üzrə Komissiyasının 69-cu sessiyası çərçivəsində Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İslam Ölkələrinin Statistika, İqtisadi və Sosial Araşdırma və Təlim Mərkəzi (SESRIC) və İqtisadi Əməkdaşlıq Təşkilatının BMT yanında Daimi Nümayəndəliyi ilə birgə "Bakı İqlim Koalisiyası – KOB-lar üçün yaşıl keçid: qadınların gücləndirilməsi" mövzusunda yan tədbir təşkil edilmişdir.

- ✓ Laçın şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Qadınlar Forumu çərçivəsində "İqlim dayanıqlılığı üçün insan inkişafında qadınların rolu" mövzusunda panel sessiyası təşkil olunmuşdur.

- ✓ Azərbaycan Dillər Universiteti və Qadınların İnkişafına və Maarifləndirilməsinə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə "İqlim dəyişmələri və onun gender bərabərliyinə təsiri" mövzusunda təlim keçirilmişdir.

- ✓ Bakı Slavyan Universitetində ekoloji təbliğat xarakterli seminarda Milli Hidrometeorologiya Xidmətinin əməkdaşı tərəfindən "İqlim dəyişmələri, COP29 və COP30 konfranslarının müqayisəli təhlili" mövzusunda çıxış çərçivəsində İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflərinin 29-cu və 30-cu Konfranslarında müzakirə olunmuş iqlim dəyişmələri və gender məsələləri barədə məlumat verilmişdir.

Beynəlxalq səviyyədə, COP29 və COP30 zamanı gender məsələləri qadın liderliyinin gücləndirilməsinə, genderə həssas layihələr üçün iqlim maliyyələşdirilməsinin təmin edilməsinə və COP30 tərəfindən iddialı, yenilənmiş Gender Fəaliyyət Planının qəbul edilməsinə yönəlmişdir.

Təlim və tədbirlər çərçivəsində iqlim risklərinin qadınlar və kişilər üçün fərqli təsirləri və gender-yönümlü uyğunlaşma yanaşmaları üzrə bilik və bacarıqlar təqdim edilmişdir.

## 1.3. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması (maddə 2.0.4.)

Cinsi mənsubiyyətə görə ayrı-seçkiliklə mübarizə müasir dövrdə dövlətlərin qarşısında duran əsas vəzifələrdən biridir və bu proses insan hüquqları, ədalət və gender bərabərliyi prinsiplərinə əsaslanır.

Gender bərabərliyi yalnız hüquqi sənədlərdə deyil, həm də gündəlik həyatda təmin olunmalı, hər bir fərd cinsindən asılı olmayaraq bərabər hüquq və imkanlara malikdir.

**Gender əsaslı zorakılıq halları — erkən yaşda evlilik, məişət zorakılığı, mənfi gender stereotipləri və selektiv abortlar — cəmiyyətin inkişafına ciddi maneə yaradan problemlər sırasındadır.** Bu kimi hallar yalnız fərdlərin hüquqlarını pozmaqla kifayətlənmir, eyni zamanda sosial ədalətsizliyin dərinləşməsinə, qadınların və qızların təhsil, sağlamlıq və iqtisadi imkanlardan məhrum olmasına səbəb olur. Buna görə də, bu problemlərlə mübarizə həm fərdi səviyyədə maarifləndirmə yolu ilə, həm də dövlət səviyyəsində qanunvericilik və institusional mexanizmlər vasitəsilə sistemli şəkildə aparılmalıdır.

Cinsi ayrı-seçkiliyin aradan qaldırılması üçün cəmiyyətdə gender bərabərliyinin təbliği mühüm əhəmiyyət kəsb edir. Təhsil sistemində bərabərlik prinsiplərinin aşılanması, mediada və ictimai diskursda düzgün gender təsəvvürlərinin formalaşdırılması, stereotiplərin aradan qaldırılması bu istiqamətdə atılan əsas addımlardandır. Eyni zamanda qadınların qərarqəbuletmə proseslərində fəal iştirakının təmin olunması, onların iqtisadi müstəqilliyinin gücləndirilməsi və hüquqlarının müdafiəsi istiqamətində davamlı tədbirlərin görülməsi vacibdir.

Nəticə etibarilə, gender bərabərliyinin təmin olunması yalnız ayrı-seçkiliyin qarşısını almaqla məhdudlaşmır, həm də daha ədalətli, inklüziv və davamlı cəmiyyətin qurulmasına xidmət edir. Bu istiqamətdə həm dövlət qurumlarının, həm də vətəndaş cəmiyyətinin birgə fəaliyyəti həlledici rol oynayır.

# Məişət ZORAKILIĞI



# MƏİŞƏT ZORAKILIĞI, QADINLARA QARŞI VƏ QADINLAR TƏRƏFİNDƏN TÖRƏDİLƏN CİNAYƏTLƏR

## Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin məlumatına əsasən

**2025-ci ildə Daxili İşlər Nazirliyində** məişət zorakılığı ilə bağlı 8889 müraciət qeydə alınıb. 2024-cü ildə bu rəqəm 9014, 2023-cü ildə 9389, 2022-ci ildə isə 9864 olmuşdur. *Bu da məişət zorakılığı ilə bağlı müraciətlərin azaldığını göstərir.*

Məişət zorakılığı zəminində törədilən cinayətlərdən 1202-si qəsdən sağlamlığa yüngül zərər vurma, 64-ü qəsdən sağlamlığa az ağır zərər vurma, 53-ü qəsdən adam öldürmə, 30-u qəsdən sağlamlığa ağır zərər vurma, 20-si adam öldürməyə cəhd, 6-sı əzab vermə, hərəsi bir fakt olmaqla öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə və qanunsuz azadlıqdan məhrum etmə, 19-u digər növlərdir. Ümumilikdə əvvəllər məhkum olunmuş şəxslər tərəfindən 143 cinayət törədilmişdir. Onlar tərəfindən eyni maddə üzrə təkrar hüquqazidd əməl qeydə alınmamışdır.

**2025-ci ildə məişət zorakılığı ilə bağlı** 1396 cinayət qeydə alınıb, 1413 zərərçəkmiş şəxs (qadın – 1176; kişi – 237) müəyyən edilib. *(2024-cü ildə 1471, 2023-cü ildə 1513).*

2025-ci ildə ailə münaqişəsi və qısqanclıq zəminində qadınlara qarşı ölümlə nəticələnən 39 cinayət qeydə alınıb *(2024-cü ildə 42 cinayət).*

2025-ci ildə qadını nikaha daxil olmağa məcbur etmə ilə bağlı cinayət qeydə alınmayıb.

2025-ci ildə qadınlara qarşı 6572, o cümlədən zorakılıqla müşayiət olunan 2435 cinayət qeydə alınıb. Onların 2,4%-i (157-i) qəsdən sağlamlığa zərər vurmalar, 1,5%-i (98-i) xuliqanlıqlar, 5,1%-i (334-ü) cinsi toxunulmazlıq və cinsi azadlıq əleyhinə olan cinayətlər, 0,3%-i (21-i) zorlamalar, 3,8%-ni (252-i) insan alveri ilə bağlı cinayətlər olub.

2025 ildə qadınlara qarşı törədilmiş cinayətlərlə bağlı 4516 şəxs müəyyən edilərək 60%-i (2716-i) məsuliyyətə cəlb olunub. *(2024-cü ildə cinayətlərlə bağlı 4468 şəxs, 2745-i məsuliyyətə cəlb olunub)*

Ötən il həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 152 insan alveri, 1 məcburi əmək, insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə bağlı 45 cinayət qeydə alınıb. Cinayətlərdən zərər çəkmiş 46 qurbanın hamısı qadındır.

*2024-cü ildə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 162 insan alveri cinayəti qeydə alınıb. Cinayətlərdən zərər çəkmiş 91 qurbandan 90-nı qadın olub.*

2025-ci ildə 305 intihar, 19480 intihara cəhd barədə məlumat daxil olub, özünü öldürmə həddinə çatdırma ilə bağlı 43 cinayət qeydə alınıb, zərərçəkmişlərdən 20-si qadın 23-ü kişi olub.

*2024-cü ildə 52 özünü öldürmə həddinə çatdırma cinayəti qeydə alınıb, intihar etmiş şəxslərdən 35-i qadın, 17-si kişi olub.*

2025-ci ildə qadınların fahişəliyə cəlb olunması ilə bağlı qeydə alınmış 57 cinayət faktı üzrə 57 qadın zərərçəkmiş qismində tanınıb. (*2024-cü ildə qadınların fahişəliyə cəlb olunması ilə bağlı qeydə alınmış 70 cinayət faktı üzrə 71 qadın zərərçəkmiş qismində tanınıb).*

2025-ci ildə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı 7564 cinayət faktı aşkarlanıb. Qeydə alınan cinayətləri törədən 5566 şəxsin 96,9%-ni (5394-ü) kişilər, 3,1%-ni (172-i) qadınlar təşkil edib. (*2024-cü ildə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı 8678 cinayət faktı aşkarlanıb. Həmin cinayətləri törətmiş 7193 şəxsin 96,9%-ni (6970-i) kişilər, 3,1%-ni (223-ü) qadınlar təşkil edib.)*

*2024-cü illə müqayisədə 2025-ci ildə cinayət faktlarının sayı artmışdır.*

## Azərbaycan Respublikasının Baş Prokurorluğunun məlumatına əsasən

**2025-ci il ərzində qeydə alınmış cinayət hadisələri üzrə** 21195 zərərçəkmiş şəxsin 6871-i qadın olmuşdur. Zərərçəkmiş qadınlardan 3022-si xəsarət almış, 279-u isə ölmüşdür. Müqayisə üçün bildirilir ki, 2024-cü ildə 22325 zərərçəkmiş şəxsin 7130-u qadın olmuşdur. Zərərçəkmiş qadınlardan 3059-u xəsarət almış, 268-i ölmüşdür.

**2025-ci il ərzində məişət zorakılığı ilə bağlı** baş vermiş cinayət hadisələri üzrə 1413 (2024-cü ildə – 1471) zərərçəkmiş şəxsdən 1176-ı (2024-cü ildə – 1228) qadın olmuş, onlardan 1134-ü (2024-cü ildə – 1196) xəsarət almışdır.

**Məişət zorakılığı ilə bağlı ölən qadınların sayı** 40 (2024-cü ildə – 29) olmuş, onlardan 38-i adam öldürmə (CM-in 120-122-ci maddələri nəzərdə tutulur) cinayətinin qurbanı olmuşdur.

**2025-ci ildə 21031 cinayət törətmiş şəxs müəyyən edilib,** onlardan 1337-si qadın olmuşdur. 2024-cü ildə 22485 cinayət törətmiş şəxsdən 1235-i qadın olmuşdur.

## İntiharlarla bağlı statistika

2025-ci il ərzində rayon (şəhər) prokurorluqlarında 641 özünü öldürmə hadisəsi qeydə alınmış, onlardan 498-i kişi, 143-ü qadın olmuşdur. O cümlədən qeyd olunan şəxslərdən 54 nəfəri yetkinlik yaşına çatmayan şəxslər olmuşdur.




*Cədvəldən görünür ki, əvvəlki illərlə müqayisədə kişilər və yetkinlik yaşına çatmayanlar arasında özünü öldürmə hadisələrinin sayı artmışdır. Təhlillərə əsaslanaraq qeyd edək ki, artımın əsas səbəbləri kimi bu barədə məlumatların daha çox paylaşılması və açıq müzakirələrin aparılmasıdır.*

## Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin məlumatına əsasən

**Məişət zorakılığından zərər çəkmiş şəxslərə verilən mühafizə orderləri:**

**– 2025-ci ildə – 381 (2024-cü ildə 325) qısamüddətli,**

**– 52 (2024-cü ildə 34) uzunmüddətli olmaqla,**

**– ümumilikdə 433 (2024-cü ildə 359) mühafizə orderi icraatda olmuş,**

**– onlardan 402-si (2024-cü ildə 338-i) qadınlar, 31-i (2024-cü ildə 21-i) kişilər barədə verilmişdir.**

**– 217 (2024-cü ildə 190) mühafizə orderinin icrası təmin olunaraq icraatlarına xitam verilmiş,**

**– 20 (2024-cü ildə 12) mühafizə orderinin icraatına digər əsaslarla xitam verilmiş,**

**– 35 (2024-cü ildə 28) mühafizə orderi “İcra haqqında” Qanunun 7-ci və 9-cu maddələri ilə geri qaytarılmış,**

**– 4 (2024-cü ildə 0) mühafizə orderi “İcra haqqında” Qanunun 23.1.1-ci maddəsi ilə geri qaytarılmış,**

**– 4-ü (2024-cü ildə 18) ərazi aidiyyəti üzrə göndərilmiş,**

**– 153 (2024-cü ildə 111) mühafizə orderi növbəti hesabat dövrünə qalıq keçmişdir.**

Mühafizə orderinin icrası ilə bağlı icra məmurunun tələblərinin yerinə yetirilməməsinə görə məhkəmə tərəfindən 1 borclu barəsində inzibati həbs seçilmiş,

uzunmüddətli mühafizə orderi üzrə isə məhkəmə qərarlarının icra edilməməsinə görə borclular barədə cinayət məsuliyyətinə cəlb edilmə ilə bağlı təqdimat verilməmişdir.

## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məlumatına əsasən

**2025-ci il ərzində Məişət zorakılığının qarşısının alınması ilə bağlı Dövlət Komitəsinə 558 müraciət daxil olub.**

**Müraciət əsasında zorakılığa məruz qalanların** 83-ü kişi, 539-u qadın, 515-i uşaq, **zorakılıq törədənlərin isə** 549-u kişi, onlardan 228 ər, 108 keçmiş ər, 27-si qeyri-rəsmi münasibətlərdə olduğu şəxs olmuşdur.

Müraciətlərin **zorakılığın növlərinə görə təhlili göstərir ki,** müraciət edənlərin 169-u psixi, 343-ü fiziki, 35-i iqtisadi və 11-i cinsi zorakılığa məruz qalmışdır.

***Müqayisə üçün bildirək ki, 2024-cü ildə Dövlət Komitəsinə məişət zorakılığının qarşısının alınması ilə bağlı 594 müraciət daxil olmuş, zorakılıq törədənlərin*** *isə 555-i kişi, 252-si qadın olmuşdur.*

*Bu da onun göstərir ki, 2025-ci ildə Dövlət Komitəsinə məişət zorakılığı ilə bağlı müraciətlərin sayı azalmışdır.*



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin məlumatına əsasən

2023-cü ilin yanvar ayından başlayaraq 116 123 çağrı mərkəzinin Nazirliyin 142 çağrı mərkəzinə inteqrasiya prosesi başlanılmışdır. İnteqrasiya prosesi yekunlaşdıqdan sonra 116 123 çağrı mərkəzi hazırda yalnız məişət zorakılığından zərərçəkmiş şəxslərə 7/24 fasiləsiz xidmət göstərir.

Eyni zamanda Agentliyin sosial sifarişləri ilə 1 iyun 2024-cü il tarixindən icra olunan "Məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin inkişafına dəstək" layihəsi çərçivəsində sosial dəstəyə ehtiyacı olan məişət zorakılığından zərər çəkmiş şəxslərə xidmətin göstərilməsi üçün Bakı və Gəncə şəhərlərində yardım mərkəzləri fəaliyyətə başlamışdır.

**Sosial Xidmətlər Agentliyi məişət zorakılığından zərər çəkmiş 282 nəfər şəxsi son 4 ildə müvafiq xidmətlərlə təmin edib.**

**Son 4 ildə 278 nəfər şəxs (onlardan 178-i uşaq) reinteqrasiya olunub.**

**2025-ci il ərzində məişət zorakılığından əziyyət çəkən 74 şəxsə müvafiq sosial xidmətlər göstərilib. Onlardan 48 nəfəri uşaq olub. 70 nəfər zərərçəkmiş şəxs müəssisədən reinteqrasiya olunmuşdur.**

**2025-ci il ərzində Sosial Xidmətlər Agentliyi tərəfindən məişət zorakılığı ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir:**

- *N.İsmayılov adına 80 nömrəli və İlqar Əliyev adına 96 nömrəli tam orta məktəblərdə "Məişət zorakılığına qarşı mübarizə" mövzusunda maarifləndirici tədbirlər təşkil olunub;*
- *25 noyabr – 10 dekabr tarixləri arasında keçirilən "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində videoçarx hazırlanıb;*
- *Agentliyin tabeliyində olan Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzinin benefisiarları üçün məişət zorakılığı ilə mübarizə sahəsində təlim təşkil olunub;*
- *Agentliyin tabeliyində olan həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiyası Müəssisəsində "Məişət zorakılığından zərər çəkmiş şəxslərə sosial xidmətin göstərilməsində konfidensiallığın qorunması" adlı seminar təşkil olunub;*
- *Agentliyin təşkilatçılığı ilə QHT-lər tərəfindən icra edilən hədəf qrupu uşaqlar olan layihələr çərçivəsində fəaliyyət göstərən mərkəzlərin mütəxəssislərinə, o cümlədən sosial işçilərinə "Zorakılığa məruz qalmış şəxslərlə psixososial iş" mövzusunda maarifləndirici görüş keçirilmişdir.*
- *QHT nümayəndələri ilə məişət zorakılığına qarşı mübarizə mövzusuna həsr edilən görüş keçirilib.*
- *DOST könüllüləri üçün məişət zorakılığı ilə mübarizə sahəsində təlim keçilib.*
- *Sosial Xidmətlər Agentliyinin nümayəndələri məişət zorakılığının qarşısının alınması üzrə təcrübənin öyrənilməsi məqsədilə İsveçdə səfərdə olub.*

## Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının məlumatına əsasən

**Vəkillər Kollegiyasının Hüquqi Yardım Mərkəzi tərəfindən pulsuz hüquqi yardım göstərilmiş qadın və kişilərin sayı.**




*2025-ci il ərzində 10000 (2024-cü ildə–5663 nəfər) nəfərdən  çox vətəndaşa hüquqi yardım göstərilmişdir.*

Məişət zorakılığı halları cəmiyyətin inkişafına, dövlətin ailə institutuna mənfi təsir göstərməklə bərabər, ailələrin dağılmasına səbəb olur

## Məişət zorakılığı ilə mübarizə sahəsində tədbirlər

Dövlət Komitəsi və digər dövlət orqanları tərəfindən məişət zorakılığının qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilmişdir.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən,**

- *“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi sahəsində mövcud boşluqları aradan qaldırmaq və təlimlərdə istifadə məqsədilə yerli icra hakimiyyəti orqanları tərəfindən yaradılmış Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupları üçün izahlı məlumat kitabçası hazırlanmışdır.*
- *2025-ci ildə 6 regionda 45 şəhər/rayon icra hakimiyyətlərində yaradılmış Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupları üçün təlimlər keçirilmişdir.*
- *Dövlət Komitəsi tərəfindən Bakı şəhəri Xəzər və Sabunçu rayonlarında yerləşən ümumtəhsil məktəblərinin psixoloqları üçün “Məişət zorakılığından zərərçəkmiş uşaqların müəyyən edilməsi və onlara psixoloji yardımın göstərilməsi” mövzusunda təlimlər keçirilmişdir.*
- *“Məişət zorakılığı qurbanlarının hüquqları” adlı elektron vəsait hazırlanmış və yayılması üçün Dövlət Komitəsinin veb saytına yerləşdirilmişdir.*
- *“Azərbaycan və Türkiyə Hökumətləri arasında imzalanmış ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu ilə bağlı Fəaliyyət Planı”na əsasən “Polis əməkdaşları təhqiqatçı və müstəntiqləri üçün uşaq hüquqlarının müdafiəsi” mövzusunda təlim keçirilmişdir. Tədbirdə Türkiyə Respublikasının Ailə və*



*Sosial Xidmətlər (T.C. Aile ve Sosyal Hizmetler Bakanlığı) Nazirliyindən dəvət edilmiş ekspertlər cinayət təqibi üzrə yetkinlik yaşına çatmayanlar barəsində məhkəməyədək icraatın xüsusiyyətləri, cinayətlərin araşdırılması zamanı zərərçəkmiş və ya şahid olan uşaqların hüquqlarının müdafiə (dəstək) təminatı, cinayət təqibi orqanlarının uşaq hüquqlarının müdafiəsi üzrə qurumlarla əməkdaşlıq üsullarına dair Türkiyə təcrübəsi barədə təqdimatla çıxış etmişdir. Təlimdə ümumilikdə Daxili İşlər Nazirliyinin təhqiqatçı və müstəntiqlərindən ibarət 40 nəfər iştirak etmişdir.*

***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən,***

- *BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyasının və həmin Konvensiyaya dair əlavə protokolun müddəalarının, habelə təşkilatın qadınlara və uşaqlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizə metodologiyasının öyrənilməsi məqsədilə xarici ölkələrdə və respublikada təşkil olunan təlim, seminar, treninq və kurslara daxili işlər orqanlarının 822 əməkdaşı cəlb olunub.*
- *Avropa Şurası və Avropa İttifaqının "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" birgə proqramı çərçivəsində "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə layihəsi"nin hüquq mühafizə orqanları əməkdaşları üçün keçirdiyi "HELP" kurslarında, eləcə də "Qanunvericilik və siyasət boşluqların təhlili" ilə bağlı dəyirmi masada Nazirliyin 12 əməkdaşı iştirak edib.*
- *Qadınlara qarşı zorakılıq hallarının aşkarlanması və qarşısının alınması sahəsində fəaliyyətin ardıcıllıqla həyata keçirilməsi üçün aidiyyəti dövlət qurumları ilə birgə "Qadınlara qarşı zorakılıq hallarının, ailə-məişət zəminində törədilən cinayətlərin qarşısının alınmasına dair 2025-ci il üçün" Tədbirlər Planı təsdiqlənərək icraya yönəldilib. "Məişət zorakılığının və sağlamlıq əleyhinə olan inzibati xətaların qarşısının alınması sahəsində əlavə tədbirlərə dair" metodik vəsait də hazırlanaraq ərazi polis orqanlarına göndərilmiş, habelə müvafiq mövzu Polis Akademiyasında tədris olunmuş və davam etdirilir.*

# NİKAH VƏ BOŞANMALAR



# Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən

**Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2025-ci il ərzində ölkədə 48546 nikaha daxilolma və 20675 boşanma halları qeydə alınıb.**

*2024-cü illə müqayisədə 2025-ci ildə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,9-dan 4,7-yə düşüb, boşanmaların sayı isə 2,1-dən 2,0-düşmüşdür.*




*2020-2025-ci illər üzrə qeydə alınmış nikah və boşanmaların say qrafikindən görünür ki, 2022-2025-ci illərdə ildən-ilə nikahların sayı azalmışdır.*

*2023-2025-ci illərdə boşanmaların sayında ildən-ilə azalma müşahidə olunur.*

# Azərbaycan Respublikasının iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə illik rəsmi qeydə alınmış boşanmaların sayı

| | Azərbaycan Respublikası | 2024-cü il<br>21384 | 2025-ci il<br>20675 |
|---|---|---|---|
| 1 | Bakı şəhəri - cəmi | 6673 | 6307 |
| 2 | Naxçıvan Muxtar Respublikası - cəmi | 969 | 889 |
| 3 | Abşeron-Xızı iqtisadi rayonu - cəmi | 1495 | 1504 |
| 4 | Dağlıq Şirvan iqtisadi rayonu - cəmi | 549 | 577 |
| 5 | Gəncə-Daşkəsən iqtisadi rayonu - cəmi | 1540 | 1374 |
| 6 | Qarabağ iqtisadi rayonu - cəmi | 1591 | 1590 |
| 7 | Qazax-Tovuz iqtisadi rayonu - cəmi | 1243 | 1228 |
| 8 | Quba-Xaçmaz iqtisadi rayonu - cəmi | 943 | 922 |
| 9 | Lənkəran-Astara iqtisadi rayonu - cəmi | 1375 | 1292 |
| 10 | Mərkəzi Aran iqtisadi rayonu - cəmi | 1452 | 1442 |
| 11 | Mil-Muğan iqtisadi rayonu - cəmi | 843 | 852 |
| 12 | Şəki-Zaqatala iqtisadi rayonu - cəmi | 977 | 1065 |
| 13 | Şərqi Zəngəzur iqtisadi rayonu - cəmi | 766 | 711 |
| 14 | Şirvan-Salyan iqtisadi rayonu - cəmi | 968 | 922 |

*Azərbaycan Respublikasının 14 iqtisadi rayonu üzrə 2025-ci ildə rəsmi qeydə alınmış boşanmaların say cədvəlindən görünür ki,* ***ən çox boşanma halları Qarabağ (1590), Abşeron-Xızı (1504), Mərkəzi Aran (1442),*** *Gəncə-Daşkəsən (1374) iqtisadi rayonları üzrə qeydə alınmışdır.*

***Ən az boşanma halları*** *Dağlıq Şirvan (577), Şərqi Zəngəzur (711) iqtisadi rayonlarında qeydə alınmışdır.*

# AR Ədliyyə Nazirliyinin məlumatına əsasən

**Qohum hesab edilən şəxslər arasında qeydə alınmış nikahların regionlar üzrə bölgüsünə və sayına dair məlumat (2020-2025-ci illər üzrə müqayisəli)**

| Sıra № | Regionların adları | 2020 | 2021 | 2022 | 2023 | 2024 | 2025 |
|---|---|---|---|---|---|---|---|
| 1 | Bakı | 104 | 598 | 742 | 504 | 595 | 360 |
| 2 | Naxçıvan | 6 | 43 | 38 | 37 | 35 | 10 |
| 3 | Abşeron-Xızı | 50 | 226 | 168 | 171 | 175 | 122 |
| 4 | Dağlıq Şirvan | 20 | 123 | 126 | 109 | 95 | 73 |
| 5 | Gəncə-Daşkəsən | 19 | 118 | 147 | 107 | 62 | 46 |
| 6 | Qarabağ | 26 | 153 | 222 | 214 | 139 | 139 |
| 7 | Qazax-Tovuz | 14 | 51 | 47 | 66 | 40 | 19 |
| 8 | Quba-Xaçmaz | 14 | 57 | 72 | 55 | 51 | 27 |
| 9 | Lənkəran- Astara | 32 | 197 | 274 | 227 | 279 | 223 |
| 10 | Mərkəzi Aran | 33 | 152 | 187 | 137 | 148 | 97 |
| 11 | Mil-Muğan | 56 | 264 | 296 | 203 | 228 | 171 |
| 12 | Şəki-Zaqatala | 6 | 62 | 58 | 24 | 38 | 15 |
| 13 | Şərqi Zəngəzur | 3 | 15 | 6 | 6 | 9 | 5 |
| 14 | Şirvan-Salyan | 12 | 141 | 159 | 90 | 164 | 105 |
| | **Cəmi:** | **395** | **2200** | **2542** | **1950** | **2058** | **1412** |

***Qeyd:*** *2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanunla Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci maddəsinə əlavə olunaraq bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu arasında bağlanan nikahlar nikahın bağlanmasına mane olan hallar siyahısına daxil edilmişdir. Bu Qanun 2025-ci il 1 iyuldan qüvvəyə minmişdir. Həmin tarixədək nikahın dövlət qeydiyyatı qanunvericiliyin əvvəlki müddəalarına uyğun aparılmışdır.*

*Nikah haqqında akt qeydlərinə nikaha daxil olan şəxslərin qohumluq əlaqəsi barədə qeyd Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli 214 nömrəli qərarı ilə əlavə edilmiş, 1 fevral 2025-ci il tarixli 20 nömrəli qərarı ilə ləğv edilmişdir.*

## Mediasiya Şurasının məlumatına əsasən,

### 2025-ci ildə Mediasiya Şurasına daxil olmuş müraciətlər və mediasiya fəaliyyəti barədə

Hazırda Azərbaycan Respublikası ərazisində Mediasiya Şurasının reyestrinə daxil edilən 72 mediasiya təşkilatı fəaliyyət göstərir. Onlardan 21-i Bakı şəhərində, 1-i Naxçıvan Muxtar Respublikasında, 50 mediasiya təşkilatı isə ölkənin müxtəlif şəhər və rayonlarında xidmət göstərir. **Mediasiya təşkilatı direktorlarından 14 nəfəri qadın, 58 nəfəri isə kişidir.**

*Mediasiya təşkilatları direktorlarının cins bölgüsü*




Respublika üzrə 396 mediator peşəkar fəaliyyətlə məşğuldur. Onlardan 216 nəfəri Bakı şəhərində, 6 nəfəri Naxçıvan Muxtar Respublikasında, 173 nəfəri isə digər şəhər və rayonlarda mediasiya xidmətləri göstərir. **Ölkə üzrə fəaliyyət göstərən mediatorların 255 nəfəri kişi, 141 nəfəri isə qadın mediatorlardır.**

*Mediatorların cins bölgüsü*




2025-ci il ərzində mediasiya təşkilatlarına ümumilikdə 49532 müraciət daxil olub. Daxil olan müraciətlərdən 44451 müraciət ailə mübahisələri, 4136 müraciət əmək mübahisələri, 157 müraciət kommersiya mübahisələri, 781 müraciət isə mülki mübahisələr üzrədir.

Həmçinin 2025-ci il ərzində 1 inzibati və 6 probasiya nəzarətində olan şəxslərin mübahisələri üzrə mediasiyaya müraciət olunub.

*Daxil olan müraciətlərin mübahisənin növü üzrə təhlili*




Daxil olan müraciətlərdən 49494 müraciət tamamlanıb. Tamamlanan işlərdən ilkin mediasiya sessiyasında yalnız bir tərəfin iştirak etdiyi işlərin ümumi sayı 24297, tam mediasiya sessiyasına keçdikdən sonra davam etdirilməyən işlərin ümumi sayı 9034, ümumiyyətlə isə mübahisə üzrə müraciətdən imtina edən şəxslərin sayı isə 8030 nəfər təşkil edib.

2025-ci il ərzində mediatorlar tərəfindən ümumilikdə 8133 barışıq sazişi imzalanıb ki, bu da təhlil olunan bütün indikatorlar üzrə 47,4% uğurlu nəticə deməkdir. Əldə edilən barışıqlardan 7394-ü ailə, 434-ü əmək, 42-si barışıq kommersiya, 257-si mülki mübahisələrlə bağlı müraciətlər üzrədir.

*Əldə edilən barışıq sazişlərinin mübahisənin növü üzrə təhlili*



***Gender bərabərliyinin təmin edilməsi istiqamətində Mediasiya Şurası tərəfindən,***

*• Salyan 1 saylı mediasiya təşkilatı, Salyan Rayon İcra Hakimiyyəti, Salyan rayon Heydər Əliyev Mərkəzi, Salyan rayon YAP-ın təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda dəyirmi masa keçirilib.*




*• Göygöl 1 saylı mediasiya təşkilatı, Göygöl Rayon İcra Hakimiyyəti, Göygöl Gənclər Evi, Göygöl Polis Şöbəsi, Göygöl Peşə Məktəbi, Göygöl Mədəniyyət nümayəndəliyinin təşkilatçılığı ilə "Gender əsaslı zorakılığın qarşısının alınması" mövzusunda tədbir keçirilib.*

*• Yerli mediasiya təşkilatları tərəfindən Bakı, Gəncə şəhərlərində və Göygöl rayonunda "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində tədbir keçirilib.*

*• Ağcabədi 1 saylı mediasiya təşkilatı, Ağcabədi Rayon İcra Hakimiyyəti, Ağcabədi regional ASAN Xidmət Mərkəzi, Aran qəzetinin təşkilatçılığı ilə "Gender bərabərliyi" mövzusunda panel görüş keçirilib.*

*• Mediasiya Şurasının təşkilatçılığı ilə Bakı və Sumqayıt şəhərlərində "Mediatorlar üçün məişət zorakılığı ilə mübarizə" üzrə təlim keçirilib.*

*• Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Sumqayıt Şəhər İcra Hakimiyyəti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Sosial Xidmətlər Agentliyi, Mediasiya Şurası və Sumqayıt 1 saylı Mediasiya Təşkilatının təşkilatçılığı ilə "Mediasiya – yeni trendlər və gözləntilər" mövzusunda konfrans – ictimai müzakirə həyata keçirilib.*



## Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının məlumatına əsasən,

***2025-ci il ərzində məhkəmələrdə ailə mübahisələri ilə bağlı mülki işlərin sayı 46219 olmuşdur.***

| Kateqoriyalar | İcraatda olan işlərin sayı |
|---|---|
| **Ailə mübahisələri üzrə mübahisə cəmi:** | **46219** |
| *Onlardan:*<br>**Nikah müqaviləsinin dəyişdirilməsi, pozulması, və etibarsız hesab edilməsi üzrə** | **29068** |
| *O cümlədən:*<br>Aliment təyin edilməsi | 11964 |
| **Məhkəmə qaydasında atalığın və atalığın tanınması faktının müəyyən olunması** | **983** |
| **Övladlığa götürmə** | **256** |
| **Övladlığa götürmənin ləğvi** | **35** |
| **Valideynlik hüquqlarından məhrum etmə** | **155** |
| **Valideynlik hüquqlarının məhdudlaşdırılması** | **21** |
| **Uşaq tələbi** | **1019** |
| **Uşaqla ünsiyyətdə olmaq** | **1965** |
| **Valideynin, yaxud övladlığa götürən şəxsin, yaxud himayəçinin və ya qəyyumun razılığı olmadan uşağın ölkədən çıxmasına icazənin verilməsi** | **970** |
| **Alimentin təyin edilməsi tələbi** | **4712** |
| **Alimentin artırılması** | **1489** |
| **Alimentin azaldılması** | **986** |
| **Ailə münasibətləri üzrə sair iddialar** | **4560** |

### 2025-ci il ərzində çıxarılmış məhkəmə qərarlarında qeyd edilən qanunlara istinad edilmiş məhkəmə işləri

1) "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu – 0 iş

2) "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu – 19 iş

- Kəlbəcər Rayon Məhkəməsi – 1
- Gəncə Şəhər Məhkəməsi – 1
- Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi – 3
- Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi - 1
- Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi – 1
- Bakı şəhəri Səbail Rayon Məhkəməsi – 2
- Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi – 1
- Bakı şəhəri Xətai Rayon Məhkəməsi – 3
- Bakı şəhəri Yasamal Rayon Məhkəməsi – 4
- Sumqayıt Şəhər Məhkəməsi – 2

## Aliment ödəməkdən yayınan valideynlər

2025-ci ildə aliment ödəməkdən yayınan 4299 (2024-cü ildə 4131) borclu barəsində inzibati xəta haqqında protokol tərtib edilmiş, onlardan 3083 (2024-cü ildə 2987) protokol üzrə məhkəmələr tərəfindən müvafiq inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 2344 (2024-cü ildə 2318) nəfər inzibati qaydada həbs olunmuşdur.



2025-ci ildə cinayət məsuliyyətinə cəlb etmə haqqında 286 (2024-cü ildə 174) təqdimat verilmiş, onlardan 235 (2024-cü ildə 164) təqdimat əsasında cinayət işi başlanılmış, 3 (2024-cü ildə 3) təqdimat üzrə cinayət işinin başlanması rədd edilmiş, 48 (2024-cü ildə 7) təqdimat növbəti hesabat dövrünə qalıq keçmişdir.




ERKƏN EVLİLİK

# ERKƏN EVLİLİK

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 213 saylı Qərarı ilə "Gənclər arasında ailə və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" təsdiq edilmişdir.

Bu Qaydadan irəli gələrək erkən evliliklərin qarşısının alınması istiqamətində 13 dövlət qurumu və bütün yerli icra hakimiyyətləri orqanları müəyyən edilmiş vəzifələrə uyğun olaraq illik görülən işlər barəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə məlumat göndərirlər. Dövlət Komitəsi tərəfindən bu məlumatlar toplanaraq, illik yekun hesabat Komitənin saytında yerləşdirilir.

Həmçinin Komitə tərəfindən mütəmadi olaraq regionlarda xüsusilə ucqar kənd və qəsəbələrdə müəllim, şagird və valideyin kollektivləri ilə maarifləndirici seminarlar təşkil edilir, görüşlər keçirilir. Bu görüşlərdə erkən evlilik və onların fəsadları haqqında ətraflı məlumat verilir.

Belə ki , erkən evliliyə daxil olan qız təhsildən yayındığı üçün onun gələcək məşğulluq imkanı məhdudlaşır, erkən evliliklər ana və uşaq ölümü hallarının artmasına səbəb olur, erkən yaşda ailə quran qızlar əksər hallarda məişət zorakılığının qurbanı olur və rəsmi nikah olmadığı üçün bu qızların hüquqlarının qorunmasında müəyyən çətinliklər yaranır.

Mütəmadi olaraq aparılan maarifləndirmə işləri, profilaktik tədbirlərə baxmayaraq hələ də erkən evlilik problemi qalmaqdadır. Dünyada milyonlarla uşaqlar hər il bu zorakılığın qurbanı olurlar. Erkən evliliklər ilə uzunmüddətli mübarizə aparmaq üçün təhsilin təbliğ edilməsi ən uğurlu strategiyadır. Məktəbə gedən qızlar savadlı olur və cəmiyyətin insani və iqtisadi inkişafına töhfə verir və bu da onların ailədəki mövqeyinə, uşaqların tərbiyəsinə müsbət təsir göstərir.

***Hər il erkən evliliklərin sayı 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı ilə müəyyən edilir.***

***2025-ci ildə 18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayı 877 nəfər olmuşdur.***

***2024-cü illə müqayisədə 18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayı 402 nəfər azalaraq 1279-dan 877-yə düşmüşdür.***

## 2025-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı

| İqtisadi rayonların və inzibati ərazi vahidlərinin adları | Doğulanların sayı – cəmi | *onlardan 18 yaşadək qadınlar tərəfindən* |
|---|---|---|
| **Azərbaycan Respublikası üzrə – cəmi** | **95875** | **877** |
| **Bakı şəhəri – cəmi** | **18618** | **41** |
| **Naxçıvan iqtisadi rayonu – cəmi** | **3437** | **24** |
| *o cümlədən:* | | |
| Naxçıvan şəhəri | 624 | 1 |
| Babək rayonu | 667 | 6 |
| Culfa rayonu | 333 | 1 |
| Kəngərli rayonu | 292 | 3 |
| Ordubad rayonu | 290 | - |
| Sədərək rayonu | 173 | - |
| Şahbuz rayonu | 175 | - |
| Şərur rayonu | 883 | 13 |
| **Abşeron-Xızı iqtisadi rayonu – cəmi** | **4998** | **19** |
| *o cümlədən:* | | |
| Sumqayıt şəhəri | 2529 | 9 |
| Abşeron rayonu | 2328 | 9 |
| Xızı rayonu | 141 | 1 |
| **Dağlıq Şirvan iqtisadi rayonu – cəmi** | **3805** | **53** |
| *o cümlədən:* | | |
| Ağsu rayonu | 940 | 15 |
| İsmayıllı rayonu | 914 | 7 |
| Qobustan rayonu | 668 | 7 |
| Şamaxı rayonu | 1283 | 24 |
| **Gəncə-Daşkəsən iqtisadi rayonu – cəmi** | **5104** | **81** |

| İqtisadi rayonların və inzibati ərazi vahidlərinin adları | Doğulanların sayı – cəmi | *onlardan 18 yaşadək qadınlar tərəfindən* |
|---|---|---|
| *cümlədən:* | | |
| Gəncə şəhəri | 2164 | 17 |
| Naftalan şəhəri | 71 | - |
| Daşkəsən rayonu | 371 | 18 |
| Goranboy rayonu | 1133 | 24 |

| | | |
|---|---|---|
| Göygöl rayonu | 738 | 15 |
| Samux rayonu | 627 | 7 |
| | | |
| **Qarabağ iqtisadi rayonu – cəmi** | **8469** | **126** |
| *o cümlədən:* | | |
| Xankəndi şəhəri | 31 | - |
| Ağcabədi rayonu | 1601 | 44 |
| Ağdam rayonu | 2059 | 21 |
| Ağdərə rayonu | 97 | - |
| Bərdə rayonu | 1830 | 40 |
| Füzuli rayonu | 1476 | 7 |
| Xocalı rayonu | 199 | - |
| Xocavənd rayonu | 146 | 1 |
| Şuşa rayonu | 243 | - |
| Tərtər rayonu | 787 | 13 |
| **Qazax-Tovuz iqtisadi rayonu – cəmi** | **7211** | **113** |
| *o cümlədən:* | | |
| Ağstafa rayonu | 955 | 26 |
| Gədəbəy rayonu | 990 | 19 |
| Qazax rayonu | 959 | 9 |
| Şəmkir rayonu | 2261 | 29 |
| Tovuz rayonu | 2046 | 30 |
| **Quba-Xaçmaz iqtisadi rayonu – cəmi** | **5769** | **25** |
| *o cümlədən:* | | |
| Xaçmaz rayonu | 1813 | 8 |
| Quba rayonu | 1922 | 12 |
| Qusar rayonu | 979 | - |
| Siyəzən rayonu | 438 | 3 |
| Şabran rayonu | 617 | 2 |
| **Lənkəran-Astara iqtisadi rayonu – cəmi** | **10640** | **92** |
| *o cümlədən:* | | |
| Astara rayonu | 1424 | 6 |
| Cəlilabad rayonu | 3061 | 39 |
| Lerik rayonu | 1022 | 9 |
| İqtisadi rayonların və inzibati ərazi vahidlərinin adları | Doğulanların sayı – cəmi | *onlardan 18 yaşadək qadınlar tərəfindən* |
| Lənkəran rayonu | 1959 | 8 |
| Masallı rayonu | 2186 | 21 |
| Yardımlı rayonu | 988 | 9 |
| **Mərkəzi Aran iqtisadi rayonu – cəmi** | **7700** | **126** |
| *o cümlədən:* | | |
| Mingəçevir şəhəri | 867 | 7 |
| Ağdaş rayonu | 1140 | 12 |
| Göycay rayonu | 1245 | 7 |
| Kürdəmir rayonu | 1327 | 18 |

| | | |
|---|---|---|
| Ucar rayonu | 971 | 20 |
| Yevlax rayonu | 1479 | 59 |
| Zərdab rayonu | 671 | 3 |
| **Mil-Muğan iqtisadi rayonu – cəmi** | **5687** | **88** |
| *o cümlədən:* | | |
| Beyləqan rayonu | 1059 | 12 |
| İmişli rayonu | 1346 | 26 |
| Saatlı rayonu | 1175 | 17 |
| Sabirabad rayonu | 2107 | 33 |
| **Şəki-Zaqatala iqtisadi rayonu – cəmi** | **5728** | **29** |
| *o cümlədən:* | | |
| Balakən rayonu | 833 | 5 |
| Qax rayonu | 566 | 5 |
| Qəbələ rayonu | 1164 | 9 |
| Oğuz rayonu | 440 | 3 |
| Şəki rayonu | 1599 | 7 |
| Zaqatala rayonu | 1126 | - |
| | | |
| **Şərqi Zəngəzur iqtisadi rayonu – cəmi** | **3378** | **13** |
| *o cümlədən:* | | |
| Cəbrayıl rayonu | 733 | 1 |
| Kəlbəcər rayonu | 936 | 7 |
| Qubadlı rayonu | 379 | 3 |
| Laçın rayonu | 937 | 1 |
| Zəngilan rayonu | 393 | 1 |
| **Şirvan-Salyan iqtisadi rayonu – cəmi** | **5331** | **47** |
| *o cümlədən:* | | |
| Şirvan şəhəri | 802 | 5 |
| Biləsuvar rayonu | 1321 | 8 |

| İqtisadi rayonların və inzibati ərazi vahidlərinin adları | Doğulanların sayı – cəmi | *onlardan 18 yaşadək qadınlar tərəfindən* |
|---|---|---|
| Hacıqabul rayonu | 792 | 12 |
| Neftçala rayonu | 795 | 3 |
| Salyan rayonu | 1621 | 19 |

# Azərbaycanın iqtisadi rayonları üzrə nikah yaşının 1 il azaldılması ilə bağlı statistikası *(2025-ci ilin 1 iyul tarixinədək)*

| İnzibati rayonların adı | Rayon və şəhərlərin sayı | Nikah yaşının 1 il azaldılması cəmi |
|---|---|---|
| **Abşeron-Xızı** | Sumqayıt şəhəri – 0<br>Abşeron rayonu – 0<br>Xızı rayonu – 1 | 1 |
| **Gəncə-Daşkəsən** | Gəncə şəhəri – 2<br>Naftalan şəhəri – 0<br>Daşkəsən rayonu – 0<br>Goranboy rayonu – 0<br>Göygöl rayonu – 4<br>Samux rayonu – 2 | 8 |
| **Şəki-Zaqatala** | Şəki şəhəri – 0<br>Balakən rayonu – 0<br>Qax rayonu – 0<br>Qəbələ rayonu – 0<br>Oğuz rayonu – 0<br>Zaqatala rayonu– 0 | 0 |
| **Lənkəran-Astara** | Lənkəran şəhəri – 1<br>Astara rayonu – 0<br>Cəlilabad rayonu – 0<br>Masallı rayonu – 1<br>Lerik rayonu – 0<br>Yardımlı rayonu – 2 | 4 |
| **Quba-Xaçmaz** | Quba rayonu – 0<br>Qusar rayonu – 0<br>Xaçmaz rayonu – 0<br>Siyəzən rayonu – 2<br>Şabran rayonu – 0 | 2 |
| **Mərkəzi Aran** | Mingəçevir şəhəri – 0<br>Kürdəmir rayonu – 0<br>Ağdaş rayonu – 2<br>Göyçay rayonu – 0<br>Ucar rayonu – 1<br>Yevlax rayonu – 5<br>Zərdab rayonu – 4 | 12 |
| | Şuşa şəhəri – 0<br>Ağcabədi rayonu – 0 | 22 |

| | | |
|---|---|---|
| **Qarabağ** | Ağdam rayonu – 2<br>Bərdə rayonu – 15<br>Füzuli rayonu – 0<br>Xocalı rayonu – 0<br>Xocavənd rayonu – 2<br>Tərtər rayonu – 3 | |
| **Şərqi Zəngəzur** | Kəlbəcər rayonu – 0<br>Qubadlı rayonu – 0<br>Zəngilan rayonu – 0<br>Laçın rayonu –0<br>Cəbrayıl rayonu – 0 | 0 |
| **Dağlıq Şirvan** | Ağsu rayonu – 10<br>İsmayıllı rayonu – 1<br>Qobustan rayonu – 4<br>Şamaxı rayonu – 18 | 33 |
| **Naxçıvan** | Babək –0<br>Culfa 0<br>Kəngərli – 0<br>Ordubad – 0<br>Sədərək – 0<br>Şahbuz – 0<br>Şərur – 0<br>Naxçıvan – 0 | 0 |
| **Bakı** | Binəqədi – 0<br>Nəsimi – 0<br>Nizami – 0<br>Nərimanov – 0<br>Yasamal – 0<br>Xətai – 0<br>Xəzər – 0<br>Suraxanı – 0<br>Sabunçu – 0<br>Səbail – 0<br>Qadarağ – 0<br>Pirallahı – 0 | 0 |
| **Qazax-Tovuz** | Ağstafa rayonu – 0<br>Gədəbəy rayonu – 0<br>Şəmkir rayonu – 1<br>Qazax rayonu – 0<br>Tovuz rayonu – 3 | 4 |
| **Mil-Muğan** | Beyləqan rayonu – 3<br>İmişli rayonu – 0<br>Saatlı rayonu – 0<br>Sabirabad rayonu – 0 | 3 |

| | | |
|---|---|---|
| **Şirvan-Salyan** | Biləsuvar rayonu – 8<br>Hacıqabul rayonu – 0<br>Salyan rayonu – 0<br>Neftçala rayonu – 0<br>Şirvan – 0 | 8 |
| **Cəmi:** | ***Respublikanın 14 iqtisadi rayonu üzrə*** | **97** |

***Respublikanın 14 iqtisadi rayonu üzrə 2025-ci ilin 1 iyul tarixinədək (yarım il ərzində) nikah yaşının 1 il azaldılması ilə bağlı*** *daxil olan məlumatlar araşdırılmış, üzürlü səbəblər müəyyən edildikdən sonra* ***97 yetkinlik yaşına çatmayan şəxsə icra orqanları tərəfindən icazə verilmişdir.***

***2024-cü ildə nikah yaşının 1 il azaldılması ilə bağlı*** *daxil olan məlumatlar araşdırılmış, üzrlü səbəblər müəyyən edildikdən sonra* ***185*** *(2023-cü ildə 249 )* ***yetkinlik yaşına çatmayan şəxsə icra orqanları tərəfindən icazə verilmişdir.***

## Daxili İşlər Nazirliyi tərəfindən

Həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə 90 erkən evliliyə cəhd faktı müəyyən edilərək 28 nəfər cinayət məsuliyyətinə cəlb olunub, 5 valideyn və 41 aidiyyəti şəxs barədə inzibati tənbeh tətbiq edilib, daha 57 şəxslə profilaktik iş aparılıb. Həmçinin 15 qızqaçırma faktı üzrə Cinayət Məcəlləsinin adam oğurluğu maddəsi ilə cinayət işi başlanılaraq 32 şəxs haqda müvafiq məsuliyyət tədbirləri görülüb.

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən

• Universitet və Kolleclərdə "Erkən evlilik və qohum evliliyinin mənfi nəticələri" mövzusunda maarifləndirici görüşlər keçirilib.

• Dövlət Komitəsi tərəfindən Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı şəhərində yerləşən ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün erkən evlilik və qohum evliliklərinin fəsadları" mövzusunda görüşlər keçirilib. Görüşlərdə 3 sosial çarx nümayiş etdirilib.

• Dövlət Komitəsi tərəfindən "Regional İnkişaf" İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində Uşaq Səfirlər Məclisinin regional nümayəndələri və fəalları üçün Quba rayonunda "Erkən evliliyin fəsadları", "Uşaq iştirakçılığı", "Uşaqlar üçün təhlükəsiz internet mühiti. Mövcud təhlükələr və hüquqi aspektlər", "Zərərli vərdişlərin uşaqların orqa-

nizminə təsiri", "Rəqəmsal Təhlükəsizlik" mövzularında təlim proqramları təşkil edilib.

• Uşaq Səfirlər Məclisinin rayonlar üzrə nümayəndələrinin təşəbbüsü ilə rayonlarda orta məktəblərdə "Qızlar gələcəyə sağlam addımlarla irəliləyir", "Gələcək qur, Həyatı yarımçıq qurma, "Qızlar müzakirəyə qoşulur", "Erkən evliliyə yox deyək", "Erkən evliliyə və narkomaniyaya yox deyək" adlı tədbirlər keçirilmişdir.

• Qızların təhsildən yayınması hallarının qarşısının alınması məqsədilə Bakı şəhəri 295 nömrəli tam orta məktəbdə VII-X sinif şagirdləri və valideynlər üçün maarifləndirmə təlim keçirilib.

**Çap/elektron vəsaitlər**

• Dövlət Komitəsinin sifarişi ilə çap edilən (8000 ədəd) "Gənc ailələrə tövsiyələr" adlı vəsaitin gənclər arasında paylanılması məqsədilə yerli icra hakimiyyətlərinə (7600 ədəd) göndərilib.

• Dövlət Komitəsinin sifarişi ilə 2024-cü ildə hazırlanan erkən evliliyin və qohum evliliyin mənfi nəticələrinə dair 2 sosial çarx sosial media səhifələrində paylaşılması məqsədilə aidiyyəti dövlət orqanlarına (qurumlara) və qeyri-dövlət təşkilatlarına məktub vasitəsilə təqdim edilib.

• Dövlət Komitəsi tərəfindən hazırlanmış 12 mövzu üzrə maarifləndirici çap vəsaitləri ("Erkən evlilik valideyni cinayətkar edir! Zəng et! 116-111"; "Övladının problemlərini dinlə! İntihardan qoru! Qaynar xəttə zəng et! 116-111", "Narkotik – ölüm təlәsidir! Narkomaniyaya yox deyək!", "İdman. Sağlam həyat tərzidir!", "Həyatını sev və qoru! Stop QİÇS" və digər mövzularda da yapışqan stikerlər) təbliğat lövhələrində yerləşdirilməsi üçün Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinə göndərilib (600 ədəd).



## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən

- *Agentliyin tabeliyində olan Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzində Erkən nikah və qohum evliliyinin mənfi təsirləri mövzusunda təlim təşkil olunub;*
- *Agentliyin tabeliyində olan 3 saylı Uşaq evi sosial xidmət müəssisəsində Erkən nikah və qohum evliliyinin mənfi təsirləri mövzusunda təlim təşkil olunub.*
- *Agentliyin sosial sifarişi ilə icra olunan "Sosial sığınacaqların inkişafına dəstək" layihəsinin benefisiarlarına "Erkən nikahın sosial və psixoloji təsirləri" mövzusunda sığınacaqda maarifləndirici görüş keçirilmişdir.*

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən

- *"Erkən nikah və onun fəsadları", "Erkən nikah: hüquqi və mənəvi müstəvidə", "Uşaq hüquqlarının qorunması – erkən nikah problemi və ona qarşı mübarizə yolları", "Erkən nikahın fiziki, mənəvi və psixoloji zərərləri", "Erkən nikah və onun uşaq hüquqlarına təsiri" mövzularında Bakı şəhərində, həmçinin Siyəzən, Qəbələ, Şəki, Saatlı, Yardımlı rayonlarında, ümumilikdə 320 müəllim, şagird, din xadimləri, dini icma sədrləri, ictimaiyyət nümayəndələrinin iştirakı ilə seminarlar keçirilmişdir.*
- *"Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir?", "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri", "Erkən nikah və təhsildən yayınmanın hüquqi nəticələri" mövzuları üzrə Zaqatala, Ağdaş, Biləsuvar, Ucar, Qəbələ və Şəki rayonlarında ümumilikdə 240 müəllim, şagird, o cümlədən din xadimləri, dini icma sədrləri, ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbirlər təşkil edilmişdir.*

## Naxçıvan Muxtar Respublikasında erkən nikahlarla bağlı tədbirlər davam etdirilmişdir.

- ***"Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs** sosial şəbəkələrdə "Erkən nikah cinayətdir", "Qan qohumları arasında bağlanmış nikahların fəsadları", "Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən, qadınlar üçün nikah yaşı 18-dir", "Yetkinlik yaşına çatmayan qızların məcburən nikaha daxil olmaları uşağa qarşı törədilən zorakılıqdır" və "Sağlam nəsil" mövzularında 11 maarifləndirici post paylaşılmışdır.*
- ***Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və yerli icra hakimiyyətlərinin** birgə təşkilatçılığı ilə orta məktəblərdə "Qız uşaqlarının təhsil hüquqlarının qorunması və təhsil sistemində gender stereotiplərinin aradan qaldırılması, erkən nikahın mənfi nəticələri", "Erkən nikaha yox deyək" mövzusunda maarifləndirici təlim, söhbət və tədbirlər keçirilmişdir.*

# UŞAQLARIN DOĞULANADƏK CİNS SEÇİMİ (SELEKTİV ABORTLAR)



# Uşaqların doğulanadək cins seçiminin (selektiv abortlar) qarşısının alınması ilə bağlı tədbirlər

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2025-ci ildə 95875 nəfər doğulan körpələrin 50914-ü oğlan, 44961-i isə qız uşaqlarıdır. Doğulan qız uşaqları ilə oğlan uşaqları arasındakı fərq 5953 nəfərdir. Doğulanda cins nisbəti hər 100 qıza 113 oğlan təşkil edir.

2024-cü ildə 102310 nəfər doğulan körpələrin 54221-i oğlan, 48089-u isə qız uşaqları olmuşdur. Doğulan qız uşaqları ilə oğlan uşaqları arasındakı fərq isə 6132 nəfər olmuşdur. Doğulanda cins nisbəti hər 100 qıza 113 oğlan təşkil etmişdir.

*2024-cü illə müqayisədə 2025-ci ildə doğulan qız uşaqları ilə oğlan uşaqları arasındakı fərq 6132-dən 5953-ə düşmüşdür.*

**Doğulanların sayı, nəfər**




*Qrafikdən görünür ki, 2022-ci ildən 2026-cı ilədək doğulan qız və oğlan uşaqlarının sayı azalmağa doğru davam etmişdir.*

### 2025 -cü ildə yaş qrupları üzrə abortların sayı




Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin məlumatlarına əsasən, 2025-ci ildə ölkə üzrə 95117 abort qeydə alınmışdır.

Statistika göstərir ki, ***abortların sayı 2021-ci ildə 46877, 2022-ci ildə 57999, 2023-cü ildə 73816, 2024-cü ildə 78245 olmuşdur.***

### 2025-ci ildə Kontrasepsiya vasitələrindən istifadə edən qadınların sayı 31586 olmuşdur.



## Cins seçiminin (o cümlədən uşaqlar doğulanadək) qarşısının alınması istiqamətində tədbirlər davam etdirilmişdir:

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi** tərəfindən Elm və Təhsil Nazirliyinin dəstəyi, Səhiyyə Nazirliyi ekspertinin iştirakı ilə uşaqların doğulanadək cins seçiminin qarşısının alınması istiqamətində Kolleclərdə tələbələrlə görüşlər keçirilib.

➢ Dövlət Komitəsi və Bakı Dövlət Universitetinin təşkilatçılığı ilə “Gender əsaslı zorakılıqla mübarizə” mövzusunda ali məktəb tələbələri üçün maarifləndirici seminar keçirilib.

➢ Dövlət Komitəsinin tabeliyində olan UADM-lər tərəfindən uşaqların doğulanadək cins seçiminin qarşısının alınması istiqamətində 21 maarifləndirici görüş keçirilib.

**Çap/elektron vəsaitlər**

➢ Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış “Ailədə gender bərabərliyinə mane olan patriarxal yanaşmalar və ayrı-seçkilik xarakterli stereotiplər” mövzusunda təhlilin nəticələrinin əhatə etdiyi məsələlərin aktuallığı və əhəmiyyəti baxımından aidiyyəti qurumlarda fəaliyyət göstərən peşəkarlar üçün faydalı informasiya mənbəyi olduğunu nəzərə alaraq sözügedən tədqiqat ƏƏSMN, Mədəniyyət Nazirliyinə, Elm və Təhsil Nazirliyinə, Audiovizual Şurasına, Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyasına məktub vasitəsilə təqdim edilib.

## Doğulacaq uşaqların cins seçimi meyillərinin öyrənilməsi” mövzusunda Tədqiqat

***“Doğulacaq uşaqların cins seçimi meyillərinin öyrənilməsi” mövzusunda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya tərəfindən tədqiqat aparılmışdır.***

*Tədqiqat çərçivəsində cəmiyyətdə mövcud olan gender stereotiplərini öyrənmək, əhalinin övlad sahibi olarkən cins seçimi meyillərini müəyyən etmək məqsədilə əhali arasında sorğular keçirilmiş, həmçinin tibb mütəxəssisləri ilə müsahibələr aparılmışdır.*

*Araşdırma respublika üzrə cins nisbətinin pozulduğu ərazilərdə keçirilmişdir.*

*Sorğu əsasən 20 yaşdan yuxarı yaş qrupunda, hər iki cinsdən olan respondentlərlə keçirilmişdir.*

*Belə ki, əvvəlcə cins nisbətinin pozulduğu ərazilər üzrə 95/5 nisbətində 365 nəfər respondent təsadüfi olaraq seçilmiş və daha sonra həmin ərazilər üzrə kvotalara bölünmüşdür.*

*Sorğular telefon vasitəsilə 2025-ci ilin may-iyun aylarında həyata keçirilmişdir.*

*Tədqiqatın əsas məqsədi cəmiyyətdə mövcud olan gender stereotiplərini öyrənmək, əhalinin övlad sahibi olarkən cins seçimi meyillərini müəyyən etmək, ailələrin övladlarının cins seçimi səbəblərini araşdırmaqdır.*

***Aparılmış tədqiqatın nəticələri göstərir ki,*** *Azərbaycanda uşağın cinsinə dair valideyn gözləntiləri, ailə planlaşdırması qərarlarında cinsin mühüm yer tutması və cins seçimi məqsədli davranışlar hələ də* ***geniş yayılmış sosial-mədəni fenomen kimi qalmaqdadır.*** *Problem təkcə fərdi səviyyədə qərarvermə ilə deyil, daha dərin köklərə malik olan patriarxal dəyərlər, ənənəvi ailə strukturları, sosial status və nəsil davamçılığına yönəlik kollektiv gözləntilər sistemi ilə sıx bağlıdır.*

*Tədqiqatda müşahidə edilən əsas tendensiyalardan biri,* ***oğlan uşağının ailənin sosial və iqtisadi dayağı kimi qəbul olunmasıdır.*** *Sorğu və müsahibə nəticələri göstərir ki, ailələrdə oğlan uşağı soyadın, nəsil xəttinin və ailə adının davamçısı, həmçinin yaşlı valideynlərin təminatçısı kimi dəyərləndirilir. Bu həm ailə adının sosial prestijini qorumaq, həm də gələcəkdə sosial təminat gözləntilərini qarşılamaq məqsədi ilə formalaşmış dərin köklü patriarxal normadır.*

*Digər tərəfdən,* ***qız uşaqlarının*** *ailədaxili və emosional dəyərləri tanınsa da,* ***onların sosial və iqtisadi potensialı çox zaman ikinci dərəcəli hesab olunur.*** *Respondentlərin cavabları göstərir ki, qız uşaqlarının idman, ictimai fəaliyyət və qərarvermə proseslərində iştirakı hələ də məhdud qəbul olunur, bu da gender rollarının sərt kodlaşdırıldığı bir sosial mühiti təsdiqləyir. Belə şəraitdə oğlan uşağına üstünlük verilməsi, həm rasional, həm də simvolik səviyyədə sosial təhlükəsizlik mexanizmi kimi legitimləşdirilir.*

*Sorğu nəticələri göstərir ki, cins seçimi məqsədli texnologiyalardan istifadə barədə məlumatlılıq yüksəkdir, lakin respondentlərin əksəriyyəti bunu şəxsi təcrübə kimi etiraf etməkdə çəkinir. Bunun əvəzində, eyni halların "ətrafda baş verdiyi" barədə fikirlər daha çox səsləndirilir. Bu uyğunsuzluq, sosial elmlərdə tanınan "sosial baxımdan məqbul cavab meyli"nin (social desirability bias) tipik nümunəsidir və cins seçimi məsələsinin etik, mənəvi və hüquqi cəhətdən həssas xarakter daşıdığını göstərir.*

*Ümumilikdə, tədqiqat sübut edir ki, Azərbaycanda cins seçimi və gender balansının pozulması problemi struktur xarakter daşıyır və yalnız fərdi seçim kimi deyil, sosial-mədəni və institusional proseslərin nəticəsi kimi qiymətləndirilməlidir. Hüquqi qadağalar, o cümlədən hamiləliyin cins seçimi məqsədli sonlandırılmasına qarşı normativ aktların mövcudluğu problemin açıq formada ifadəsini məhdudlaşdıra bilsə belə, dərin köklü sosial gözləntilər və patriarxal təfəkkür onun gizli formalarının yaşamasına şərait yaradacağı ehtimalını artırır.*

*Bu nəticələrə əsasən bildirmək olar ki,* ***cins seçiminin qarşısının alınması yalnız qanunvericilik tədbirləri ilə mümkün deyil. Problemin həlli üçün kompleks sosial müdaxilələr,*** *uzunmüddətli maarifləndirmə, gender bərabərliyinin təhsil sisteminə və ictimai diskursa inteqrasiyası, qız uşaqlarının sosial-iqtisadi rolunun gücləndirilməsi, həmçinin mədəniyyət və mediada gender stereotiplərinə qarşı sistemli mübarizə zəruridir.*

*Beləliklə, tədqiqat göstərir ki, gender bərabərliyi anlayışı yalnız qadın və kişinin hüquqi bərabərliyi ilə deyil, ailə dəyərlərinin, sosial və iqtisadi gözləntilərin dəyişməsi ilə mümkündür. Bu dəyişiklik baş vermədiyi halda, cins seçiminin müxtəlif formalarda davam etməsi riski yüksək olaraq qalacaqdır.*

## Hamiləliyin cins əsaslı sonlandırılmasının qarşısının alınması ilə bağlı respondentlərin təklifləri

***Respondentlər bildirir ki,*** *abortların bir qismi özəl müəssisələrdə həyata keçirilir və onların qeydiyyatı üzrə məlumatlar mərkəzləşdirilmiş sistemlərə daxil edilmir. Bu baxımdan* ***özəl müəssisələrin fəaliyyətinin izlənilməsi baxımından onların da mərkəzləşdirilmiş məlumat sisteminə (elektron səhiyyə sisteminə) inteqrasiya edilməsi;***

*Bəzi hallarda həkimlərin UZİ nəticələrini bilərəkdən yanlış (hamiləlik müddətinin 1 həftə azaldılması) yazması hallarının qarşısının alınması ilə bağlı qanuni* ***abort müddətinin cinsin müəyyən olduğu müddətdən daha qısa müddətə (12 həftədən 8-10 həftəyə) endirilməsi;*** *Çünki belə olduğu halda aradakı müddət uzun olur və bir çox həkim buna risk etmir. Respondentlər qeyd edir ki, bir çox hallarda qadınlar cinsiyyət məlum olmadan əvvəl tibb müəssisələrində qeydiyyata düşmürlər.*

*Bu baxımdan* ***hamiləliyin erkən qeydiyyatı (10 həftəyə qədər) üçün maliyyə və ya xidmət dəstəyi.*** *Bəzi həkimlər tərəfindən abortun qazanc mənbəyi kimi görüldüyü, bunun isə sağlamlıq və etik baxımdan təhlükəli bir hal olduğu vurğulandı.*

*Abortları gəlir mənbəyi kimi istifadə edən həkimlərə qarşı etik komissiyaların fəaliyyətini gücləndirməsi,* ***abort icazələri üçün ikili təsdiqləmə mexanizminin (məsələn, ikinci həkim təsdiqi) tətbiqi;***

*Cins seçimi hallarının baş verdiyi nəzərə alınaraq, süni mayalanma zamanı* ***cinsiyyət seçiminin qanunla qadağan olunması, ciddi şərtlərə bağlanması və ya tibbi göstərişlərlə icazə verilməsi;***

*Respondentlər xəstələrin ev şəraitində müxtəlif dərman vasitələrindən istifadə etməklə hamiləliyi sonlandıra bildiklərini vurğulamaqla* ***müvafiq dərman vasitələrinin satışının qadağan olunmasını;***

*Kənd yerlərində və şəhərətrafı ərazilərdə cəmiyyətdə həm ailə, həm də iş həyatında uğurlu olan qadınların rol model kimi təqdim edilməsi,* ***selektiv abortların mənfi tibbi, sosial və etik nəticələrinin geniş ictimaiyyətə çatdırılması istiqamətində maarifləndirmə kampaniyalarının təşkil olunması;***

*Hamiləliyin sonlandırılmasına dair sosial göstərişlərin siyahısına uzun müddətdən bəri baxılmadığı vurğulandı,* ***sosial göstərişlərin azaldılması və beynəlxalq təcrübəyə uyğunlaşdırılması;***

*Uşağın cinsinin müəyyən edilməsi barədə məlumatın* ***hamiləliyin daha gec həftələrində açıqlanmasının (məsələn, 16–20 həftədən sonra) cins seçiminin məhdudlaşdırılması baxımından faydalı ola biləcəyi təklif olundu.***

*Hamiləlik dövründə xəstələrə koordinasiyalı yanaşmanın tətbiq olunması, yəni psixoloq, sosial işçi və həkimlərin birlikdə işləməsinin cins seçimi meyillərinin azaldılmasında və qarşısının alınmasında faydalı olacağı bildirildi.*

# Reproduktiv sağlamlıq və Ailə planlaşdırılması

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məlumatına əsasən

**"Reproduktiv sağlamlıq haqqında" Azərbaycan Respublikası Qanunu layihəsi Səhiyyə Nazirliyi tərəfindən hazırlanaraq aidiyyəti dövlət qurumları ilə razılaşdırılma mərhələsindədir.**

**Qurumlar tərəfindən reproduktiv sağlamlıq və ailə planlaşdırılması istiqamətində 2025-ci ildə fəaliyyət davam etdirilmişdir.**

- *Dövlət Komitəsinin və İSİM-in birgə əməkdaşlığı ilə Kolleclərdə "Sağlam körpəni sağlam ata-ana dünyaya gətirir! Ailəni planlaşdırsan, gələcəyini planlaşdırmış olarsan!" şüarı altında reproduktiv sağlamlıq və ailə planlaşdırılması mövzusunda maarifləndirici görüşlər keçirilib.*

- *Dövlət Komitəsinin və İSİM-in birgə əməkdaşlığı ilə "Təhlükəsiz reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat tərzi vərdişlərinin formalaşması" mövzusunda Bakı şəhərində yerləşən orta məktəblərdə və Kolleclərdə maarifləndirici görüşlər keçirilmişdir.*

- *Dövlət Komitəsinin tabeliyində olan UADM-lərin təşkilatçılığı ilə "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması" mövzusunda 22 maarifləndirici görüş keçirilib.*

- *İSİM, BMT-nin Əhali Fondu və "Təmas" regional inkişaf ictimai birliyinin birgə əməkdaşlığı ilə Gəncə şəhərində "Reproduktiv sağlamlıq. Cinsi yolla yoluxan infeksiyalar və İİV infeksiyasının profilaktikası" mövzusunda maarifləndirmə tədbirləri keçirilmişdir.*

- *İSİM tərəfindən Bakı şəhəri üzrə ümumtəhsil müəssisələrində "Yeniyetmə oğlanlarda reproduktiv sağlamlıq" mövzusunda maarifləndirici tədbirlər keçirilmişdir.*

- *Əhali arasında reproduktiv sağlamlıq və ailə planlaşdırılması və s. istiqamətində İSİM tərəfindən maarifləndirici materiallar hazırlanaraq çap edilmiş, aidiyyəti üzrə müəssisələrə və İSİM tərəfindən keçirilən tədbir və aksiyalarda iştirakçılara paylanılmışdır. "Reproduktiv sağlamlıq haqqında nələri bilməliyik?"A4 formatlı buklet, 4000 tiraj "Sağlam ana sağlam körpə" - A5 formatlı buklet, 5000 tiraj və s.*

# Ana və uşaq ölümü halları




[1] Hamiləlik, doğuş və zahılıq dövründə ölən analar




*2024-cü ilə nisbətən 2025-ci ildə hər 100 000 nəfər diri doğulana hesabı ilə ana ölümü şəhər yerlərində 12.2-dən 22.1-dək artmış, kənd yerlərində isə 43.4-dən 31.7-dək azalmışdır.*

## 2025-ci ildə 1 yaşadək ölən uşaqların sayı və əmsalı







*2024-cü ilə nisbətən 2025-ci ildə hər 1000 nəfər diri doğulana hesabı ilə körpə ölümü qızlarda 12.8-dən 13.0-dək artmış, oğlanlarda 14.8-dən 14.3-dək azalmışdır. Bütövlükdə oğlan uşaqlarının ölümü qız uşaqlarına nisbətən daha yüksəkdir.*

## Ana və uşaq ölümü halları ilə bağlı görülən işlər

Ölkə rəhbərliyinin bilavasitə dəstəyi və xüsusi nəzarəti ilə ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması sahəsində mühüm tədbirlər həyata keçirilməkdədir.

Doğuşayardım xidmətinin fəaliyyətinin tənzimlənməsi məqsədilə Səhiyyə Nazirliyi tərəfindən normativ və metodik xarakterli sənədlər təsdiq edilmiş, bu sahənin işini xarakterizə edən bəzi vacib göstəricilərin elektron qaydada operativ izlənilməsi məqsədilə registrlər yaradılmışdır. Eyni zamanda, Səhiyyə Nazirliyinin tabeliyində olan "Hamiləlik, doğuş və zahılıq dövründə ölüm, həmçinin mamalıq ağırlaşmaları hallarının təhlili üzrə Komissiya tərəfindən hər il olduğu kimi, 2025-ci ildə də müvafiq təhlilini aparmışdır.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixində imzaladığı 550 nömrəli sərəncamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2022-ci illər üçün Dövlət Proqramı" və "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı" çərçivəsində yenidoğulmuşlar arasında 5 irsi patologiya (Fenilketonuriya, Qalaktozemiya, Mukovissidoz, Anadangəlmə hipotireoz, Adrenal anadangəlmə hiperplaziya) üzrə inkişaf pozuntularının erkən aşkarlanması məqsədilə neonatal müayinələrin (skrininqlərin) aparılmasına başlanılmışdır. Hazırda genetik müayinələrin dayanıqlığının təmin edilməsi, genetik xidmətin ölkə üzrə tam həcmdə təşkil olunması üçün iki genetik analizator fəaliyyət göstərir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin 14 noyabr 2025-ci il tarixli əmri ilə respublikamızada yenidoğulmuşlar arasında inkişaf pozuntularının erkən aşkarlanması məqsədilə Bakı şəhərində neonatal xidmət göstərən 5 (beş) tibb müəssisəsində 15 dekabr 2025-ci il - 15 may 2026-cı il tarixlərində neonatal müayinələrin (skrininqlərin) aparılması layihəsi keçirilir, həmçinin ölkəmizdə doğuşayardım tibb müəssisələrinin səviyyələr üzrə təsnifatlaşdırılması, onların nizamnamələrinə yenidən baxılması, bu müəssisələrdə çalışan tibb personalının vəzifə təlimatlarının yenidən hazırlanması, tibb xidmətinin təşkili və təxliyə standartlarının, eyni zamanda perinatal xidmətin təşkili məsələləri ilə bağlı mövcud qanunvericiliyin və onun icra mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə Səhiyyə Nazirliyinin 22 aprel 2025-ci il tarixli əmri ilə İşçi Qrupu yaradılmışdır. İşçi qrupuna perinatal xidmətin təşkili məsələləri ilə bağlı qanunvericiliyə və onun icra mexanizmlərinə dəyişikliklərin edilməsi və bu sahədə mövcud olan normativ-hüquqi aktların beynəlxalq standartlara uyğunluğunun effektiv monitorinq mexanizmlərinin təkmilləşdirilməsinə dair normativ hüquqi aktların layihələrinin hazırlanması tapşırılmışdır.

*Həmçinin bu istiqamətdə 2025-ci il ərzində yenilənmiş və üzərində iş aparılan klinik protokollarla bağlı işlər davam etdirilmişdir.*

***Yenilənmiş klinik protokollar***

1. *Hamiləlik və zahılıq dövründə venoz trombofilik ağırlaşmalar (2-ci nəşr, yenilənmiş) (Təsdiq tarixi: 01.05.2025)*
2. *Yenidoğulmuşlarda hipoqlikemik və hiperqlikemik vəziyyətlər üzrə klinik protokol (2-ci nəşr, yenilənmiş) (Təsdiq tarixi: 18.02.2025)*

*Yeni klinik protokollar*

*Uşaqlıq boynu patologiyalarının birincili və ikincili profilaktikası üzrə klinik protokol (1-ci nəşr, yeni) (26.05.2025)*

*1. Hamiləlik və infeksiyalar üzrə klinik protokol (yenilənir)*

***Üzərində iş gedən klinik protokolların siyahısı***

*2. Hamiləlik zamanı vərəmin diaqnostika və müalicəsi üzrə klinik protokol (yenilənir)*

*3. HİV infeksiyasının anadan körpəyə yoluxmasının profilaktikası üzrə klinik protokol (yenilənir)*

*5. Çox az kütləli yenidoğulmuşların reanimasiyası, intensiv terapiyası və qulluğu (yenilənir)*

*6. Yenidoğulmuşlarda tənəffüs pozuntuları (neonatal distress sindrom) (yenilənir)*

*7. Uşaqlıq boynu xərçənginin profilaktikası üzrə rəhbərlik*



## İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məlumatına əsasən

**2025-ci ildə icbari tibbi sığorta çərçivəsində tibbi xidmət alan pasiyentlərin sayı əvvəlki ilə nisbətən 4% artaraq, 5,4 milyon nəfərə çatmışdır.**

Müraciətlərin sayı isə 15,8 milyon olmuş, icbari tibbi sığortadan istifadə səviyyəsində artım müşahidə olunmuş, əhalinin 54%-i icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən yararlanmışdır.

Vətəndaşların icbari tibbi sığorta çərçivəsində ən çox üz tutduğu xidmətlər gündəlik və zəruri tibbi ehtiyaclarla bağlı olmuşdur. Müraciətlərin ilk sırasında ixtisaslı həkim müayinələri, radioloji və USM xidmətləri, eləcə də ginekoloji xidmətlər yer almışdır.

**2025-ci ildə kişilər üzrə müraciət sayı - 11 948 741, pasiyent sayı - 2 578 695, xidmət sayı isə 45 756 695 olmuşdur.**

**Qadınlar üzrə isə müraciət sayı - 15 316 679, pasiyent sayı - 2 846 417, xidmət sayı isə - 54 952 456 olmuşdur.**

**2025-ci il ərzində qadınların ən çox müraciət etdiyi** ginekoloji, oftalmoloji, terapevtik, radioloji və kardioloji xidmətlər olmuşdur.

**Kişilərin ən çox müraciət etdiyi isə** oftalmoloji, terapevtik, cərrahi, kardioloji və radioloji xidmətlər olmuşdur.




2025-ci ildə TƏBİB tabeli tibb müəssisələrində əsas maliyyə yükü qan dövranı, həzm və endokrin sistemi xəstəliklərinin payına düşmüş, özəl tibb müəssisələrinə yönəldilən göndərişlərdə isə qan dövranı sistemi, göz və gözün əlavə aparatının xəstəlikləri və sümük-əzələ sisteminin xəstəlikləri üstünlük təşkil etmişdir.

İl ərzində dövlət tibb müəssisələrində ən çox icra olunan xidmətlər sırasında ginekoloji əməliyyatlar və təbii doğuşlar birinci yerləri tutmuşdur. Pasiyentlərin

tez-tez müraciət etdiyi digər xidmətlər isə katarakta əməliyyatları olmuşdur. Katarakta əməliyyatlarına tələbatın yüksək olması səbəbindən dövlət tibb müəssisələri ilə yanaşı, Agentliklə müqaviləsi olan özəl tibb müəssisələri də prosesə cəlb edilmişdir. Özəl tibb müəssisələrində icbari tibbi sığortadan istifadə artmışdır.

2025-ci ildə TƏBİB tabeli tibb müəssisələrində əsas maliyyə yükü qan dövranı, həzm və endokrin sistemi xəstəliklərinin payına düşmüş, özəl tibb müəssisələrinə yönəldilən göndərişlərdə isə qan dövranı sistemi, göz və gözün əlavə aparatının xəstəlikləri və sümük-əzələ sisteminin xəstəlikləri üstünlük təşkil etmişdir.

İl ərzində dövlət tibb müəssisələrində ən çox icra olunan xidmətlər sırasında ginekoloji əməliyyatlar və təbii doğuşlar birinci yerləri tutmuşdur. Pasiyentlərin tez-tez müraciət etdiyi digər xidmətlər isə katarakta əməliyyatları olmuşdur. Katarakta əməliyyatlarına tələbatın yüksək olması səbəbindən dövlət tibb müəssisələri ilə yanaşı, Agentliklə müqaviləsi olan özəl tibb müəssisələri də prosesə cəlb edilmişdir. Özəl tibb müəssisələrində icbari tibbi sığortadan istifadə artmışdır.

**2025-ci ildə özəl tibb müəssisələrində icbari tibbi sığorta hesabına göstərilən tibbi xidmətlərin sayı 773 minə yaxın olmuşdur ki, bu da 2024-cü illə müqayisədə təxminən 9% artım deməkdir.**

İcbari tibbi sığorta çərçivəsində Xidmətlər Zərfi genişləndirilərək eşitmə məhdudiyyətli şəxslərin həyat keyfiyyətini artıracaq mühüm sosial qərarlar qəbul edilmiş, Xidmətlər Zərfinə anadangəlmə ağır dərəcəli eşitmə məhdudiyyətli şəxslərin tibbi təminatının gücləndirilməsi məqsədilə 3 yeni tibbi xidmət daxil edilmişdir.

**2025-ci il ərzində Agentliyin Çağrı mərkəzinə ümumilikdə 230 minə yaxın zəng daxil olmuşdur.**

Zənglərin əsas hissəsi göndərişlər, müayinə və müalicə, dərman və tibbi sərf məsələləri ilə bağlı olmuşdur. Zənglərin 97%-i dərhal cavablandırılmış, Çağrı mərkəzinin fəaliyyəti təkmilləşdirilmiş və xidmətlərin qiymətləndirilməsi mexanizmi tətbiq olunmuşdur. 52 mindən çox zəng üzrə aparılan qiymətləndirmə nəticəsində vətəndaşların 87%-i Çağrı mərkəzinin fəaliyyətini 4 və 5 balla dəyərləndirmişdir.

*İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən "Uşaq Hüquqları Aylığı" çərçivəsində uşaq hüquqları, gender bərabərliyi, gender zorakılığı, uşaqların tibbi yardım almaq hüquqları barədə məlumatlandırılması, vaxtında keyfiyyətli tibbi xidmətlərlə təmin edilməsi məqsədilə Bakı şəhəri və regionlarda yerləşən tam orta məktəblərdə 13 maarifləndirici tədbir keçirilmiş, ümumilikdə 800-dən artıq şəxs iştirak etmişdir.*



# MƏHKUM QADIN VƏ KİŞİLƏR, ONLARDAN AZADLIQDAN MƏHRUM EDİLMİŞ QADIN VƏ KİŞİLƏR

| 31. | Qəbələ | 39 | 9 | 1 | 1 | 2 | 1 | 4 | 0 | 3 | 0 | 57 | 0 |
| 32. | Qobustan | 58 | 27 | 1 | 1 | 0 | 1 | 1 | 0 | 2 | 1 | 30 | 17 |
| 33. | Quba | 121 | 38 | 2 | 1 | 7 | 0 | 2 | 0 | 1 | 0 | 30 | 0 |
| 34. | Qubadlı | 105 | 19 | 1 | 1 | 5 | 0 | 2 | 0 | 1 | 1 | 30 | 1 |
| 35. | Qusar | 21 | 9 | 2 | 0 | 5 | 0 | 2 | 0 | 1 | 1 | 24 | 1 |
| 36. | Lerik | 86 | 33 | 1 | 1 | 1 | 0 | 3 | 0 | 4 | 0 | 26 | 0 |
| 37. | Laçın | 169 | 70 | 1 | 1 | 3 | 0 | 2 | 0 | 2 | 0 | 50 | 0 |
| 38. | Masallı | 126 | 13 | 2 | 0 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 30 | 2 |
| 39. | Neftçala | 71 | 14 | 2 | 0 | 4 | 0 | 2 | 0 | 0 | 1 | 18 | 0 |
| 40. | Oğuz | 70 | 21 | 0 | 1 | 4 | 1 | 2 | 0 | 2 | 0 | 14 | 0 |
| 41. | Saatlı | 135 | 41 | 1 | 1 | 4 | 0 | 0 | 0 | 2 | 0 | 34 | 1 |
| 42. | Sabirabad | 154 | 30 | 3 | 1 | 4 | 0 | 2 | 0 | 2 | 0 | 25 | 0 |
| 43. | Salyan | 82 | 33 | 1 | 1 | 5 | 0 | 2 | 0 | 1 | 1 | 19 | 0 |
| 44. | Samux | 29 | 11 | 2 | 1 | 4 | 0 | 2 | 0 | 1 | 1 | 23 | 0 |
| 45. | Siyəzən | 36 | 12 | 1 | 1 | 4 | 1 | 2 | 0 | 1 | 1 | 11 | 0 |
| 46. | Şamaxı | 133 | 50 | 2 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 33 | 1 |
| 47. | Şəmkir | 117 | 59 | 2 | 1 | 2 | 1 | 4 | 0 | 3 | 0 | 39 | 1 |
| 48. | Şabran | 25 | 9 | 2 | 1 | 5 | 0 | 2 | 0 | 1 | 1 | 18 | 0 |
| 49. | Tərtər | 30 | 4 | 2 | 0 | 4 | 0 | 1 | 0 | 1 | 0 | 39 | 3 |
| 50. | Tovuz | 28 | 8 | 2 | 1 | 5 | 0 | 2 | 0 | 1 | 0 | 43 | 0 |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 51. | **Ucar** | 87 | 10 | 2 | 1 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 16 | 0 |
| 52. | **Yardımlı** | 144 | 34 | 2 | 1 | 5 | 0 | 1 | 0 | 2 | 0 | 29 | 1 |
| 53. | **Zaqatala** | 53 | 16 | 2 | 1 | 5 | 0 | 2 | 0 | 1 | 1 | 23 | 5 |
| 54. | **Zərdab** | 100 | 14 | 1 | 2 | 4 | 1 | 2 | 0 | 2 | 0 | 27 | 0 |
| 55. | **Zəngilan** | 19 | 14 | 1 | 1 | 3 | 1 | 2 | 0 | 1 | 1 | 18 | 0 |
| | **Cəmi:** | **3953** | **1106** | **84** | **42** | **194** | **23** | **109** | **4** | **122** | **17** | **1532** | **49** |

**2025-ci il üzrə Bakı şəhəri, eləcə də respublikanın şəhər və rayon icra hakimiyyətlərinə dair statistik göstəricilərin ümumiləşdirilməsi göstərir ki,**

***Ümumi işçilərin*** *5063 nəfəri 75,6% kişi, 1633 nəfəri (24,4%) qadın olmuşdur.*

***İcra başçısının müavinlərinin*** *121 nəfəri (66,9%) kişi, 60 nəfəri (33,1% ) qadın olmuşdur.*

***Şöbə müdirlərinin*** *291 nəfəri (89,1%) kişi, 44 nəfəri (10,9%) qadın olmuşdur.*

***Şöbə müdirləri müavinlərinin*** *143 nəfəri (96%) kişi, 6 nəfəri (4%) qadın olmuşdur.*

***Sektor müdirləri arasında*** *159 nəfəri (80,7%) kişi, 38 nəfəri (19,3%) qadın olmuşdur.*

***İcra nümayəndələrinin*** *1764 nəfəri (95,9%) kişi, 76 (4,1%) nəfəri qadın olmuşdur.*

*2025-ci il üzrə Bakı şəhəri, eləcə də respublikanın şəhər və rayon icra hakimiyyətlərinə dair ümumiləşdirilmiş statistik göstəricilərdən məlum olur ki, bütün vəzifə kateqoriyaları üzrə kişilər say etibarilə üstünlük təşkil edir, qadınların isə müəyyən səviyyədə təmsilçiliyi mövcuddur.*

*Ümumi işçi heyətində qadınların payı 24,4%, kişilərin payı isə 75,6% təşkil edir. Bu göstərici qadınların idarəetmə sistemində iştirakının mövcud olduğunu, lakin hələ də nisbətən aşağı səviyyədə qaldığını göstərir.*

*Rəhbər vəzifələr üzrə təhlil zamanı qadınların təmsilçiliyində fərqli səviyyələr müşahidə olunur.*

*İcra başçısının müavinləri arasında qadınların payı 33,1% təşkil etdiyi halda, şöbə müdirləri (10,9%), şöbə müdirlərinin müavinləri (4%), sektor müdirləri (19,3%) və icra nümayəndələri (4,1%) üzrə bu göstərici daha aşağı səviyyədədir.*

*Ümumilikdə, təqdim olunan göstəricilər icra hakimiyyəti orqanlarında qadınların müəyyən səviyyədə təmsil olunduğunu, lakin rəhbər vəzifələrdə kişilərin say etibarilə üstünlük təşkil etdiyini göstərir.*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI DÖVLƏT ORQANLARININ VƏ QURUMLARININ STRUKTURUNDA ÇALIŞAN İŞÇİLƏRİN CİNS BÖLGÜSÜ



# Naxçıvan Muxtar Respublikası

## Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 44 deputatından 16 nəfəri qadındır.

| S/№-si | Nazirliklərin, Dövlət Komitələrinin və digər dövlət orqanlarının adı | İşçilərin ümumi sayı | Qadınların sayı | Rəhbər vəzifədə çalışan (kişi) | Rəhbər vəzifədə çalışan (qadın) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan MR Ali Məclisi | **86** | **23** | **11** | **1** |
| 2. | Naxçıvan MR Nazirlər Kabineti | 76 | 23 | 16 | 1 |
| 3. | Naxçıvan MR Fövqəladə Hallar Nazirliyi | 802 | 49 | 75 | 1 |
| 4. | Naxçıvan MR Ali Məhkəməsi | 81 | 37 | 15 | 5 |
| 5. | Naxçıvan MR Daxili İşlər Nazirliyi | - | - | - | - |
| 6. | Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 932 | 452 | 86 | 13 |
| 7. | Naxçıvan MR Səhiyyə Nazirliyi | 5430 | 4299 | 34 | 25 |
| 8. | Naxçıvan MR Təhsil Nazirliyi | 12480 | 9446 | 93 | 126 |
| 9. | Naxçıvan MR Ədliyyə Nazirliyi | 651 | 85 | 67 | 10 |
| 10. | Naxçıvan MR Maliyyə Nazirliyi | 192 | 55 | 39 | 6 |
| 11. | Naxçıvan MR Kənd Təsərrüfatı Nazirliyi | 369 | 159 | 42 | 11 |
| 12. | Naxçıvan MR Mədəniyyət Nazirliyi | 2843 | 1831 | 53 | 31 |
| 13. | Naxçıvan MR İqtisadiyyat Nazirliyi | 518 | 99 | 104 | 10 |
| 14. | Naxçıvan MR Gənclər və İdman Nazirliyi | 125 | 30 | 15 | 2 |
| 15. | Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 39 | 14 | 7 | 2 |
| 16. | Naxçıvan MR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 766 | 248 | 15 | 2 |
| 17. | Naxçıvan MR Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 46 | 19 | 9 | 2 |
| 18. | Naxçıvan MR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 21 | 12 | 2 | 5 |
| 19. | Naxçıvan MR Dövlət Statistika Komitəsi | 107 | 43 | 23 | 9 |
| 20. | Naxçıvan MR İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) | 26 | 12 | 4 | 2 |
| 21. | Naxçıvan MR Prokurorluğu | 181 | 27 | 24 | 0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 21. | Naxçıvan MR Prokurorluğu | 181 | 27 | 24 | 0 |
| 22. | Naxçıvan MR Televiziya və Radio Verilişləri QSC | 232 | 103 | 18 | 9 |
| 23. | Naxçıvan MR Vəkillər Kollegiyası | 49 | 11 | 31 | 6 |
| 24. | "Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik hüquqi şəxs | 31 | 13 | 5 | 3 |
| 25. | Naxçıvan MR Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi | 14 | 7 | 2 | 2 |
| 26. | Naxçıvan MR Turizm Departamenti | 12 | 2 | 5 | 0 |
| 27. | "Şərq qapısı" qəzetinin redaksiyası | 47 | 33 | 3 | 5 |
| 28. | Naxçıvan MR Mərkəzi Seçki Komissiyası | 18 | 5 | 2 | 0 |
| 29. | Naxçıvan Dövlət Universiteti | 1446 | 881 | 64 | 49 |
| 30. | Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi | 110 | 70 | 14 | 3 |
| 31. | Naxçıvan Müəllimlər İnstitutu | 148 | 109 | 10 | 13 |
| 32. | Naxçıvan MR Rəssamlar Birliyi | 11 | 7 | 0 | 1 |
| 33. | Naxçıvan Aşıqlar Birliyi | 21 | 7 | 1 | 0 |
| 34. | Naxçıvan MR Bəstəkarlar Təşkilatı | 3 | 2 | 1 | 1 |
| 35. | Naxçıvan MR Həmkarlar İttifaqları Şurası | 51 | 17 | 9 | 3 |
| 36. | Naxçıvan MR Dövlət Arxiv İdarəsi | 72 | 46 | 3 | 5 |
| 37. | Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası | 5 | 2 | 2 | 0 |
| 38. | Naxçıvan Avtomobil Yollar üzrə Dövlət Agentliyi | 497 (99 ştatdan kənar) | 24 | 30 | 1 |
| 39. | Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 31 | 12 | 3 | 0 |
| 40. | Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 27 | 12 | 3 | 0 |
| 41. | Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi | 26 | 11 | 3 | 0 |
| 42. | Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi | 22 | 9 | 2 | 0 |
| 43. | "Naxçıvan Təlim Mərkəzi" Publik Hüquqi Şəxsi | 6 | 1 | 1 | 0 |
| 44. | Naxçıvan Balıqçılıq ASC | 13 | 3 | 4 | 1 |
| 45. | Naxçıvan İpoteka Fondu ASC | 10 | 2 | 3 | 0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **46.** | Naxçıvan Mediasiya Təşkilatı | 9 | 2 | 1 | 0 |
| **47.** | Naxçıvan MR Qida Təhlükəsizliyi Agentliyi | 135 | 40 | 24 | 7 |
| **48.** | Naxçıvan Şəhər Məhkəməsi | 24 | 13 | 1 | 2 |
| **49.** | Babək Rayon Məhkəməsi | 18 | 8 | 0 | 2 |
| **50.** | Culfa Rayon Məhkəməsi | 13 | 5 | 1 | 0 |
| **51.** | Şahbuz Rayon Məhkəməsi | 12 | 3 | 1 | 0 |
| **52.** | Şərur Rayon Məhkəməsi | 14 | 5 | 2 | 0 |
| **53.** | Kəngərli Rayon Məhkəməsi | 12 | 2 | 1 | 0 |
| **54.** | Ordubad Rayon Məhkəməsi | 13 | 4 | 1 | 0 |
| **55.** | Sədərək Rayon Məhkəməsi | 11 | 1 | 1 | 0 |

*Naxçıvan Muxtar Respublikasının mərkəzi orqanlarında çalışanların gender bölgüsü göstərir ki, işçilər və rəhbər işçilər arasında kişilər üstünlük təşkil edir.*

## Naxçıvan Muxtar Respublikasının icra hakimiyyətlərinin (hər bir icra hakimiyyəti ayrı-ayrılıqda göstərilməklə) strukturunda çalışan işçilər haqqında statistik məlumatlar

| Rayon (şəhər) icra hakimiyyətləri | İllər | İşçilərin ümumi sayı | | Başçının müavini | | Şöbə müdiri | | Şöbə müdirinin müavini | | Sektor müdiri | | İcra nümayəndəsi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| Naxçıvan Şəhər İcra Hakimiyyəti | **2021** | 30 | 10 | 2 | 1 | 5 | 0 | 1 | 0 | 2 | 1 | 8 | 0 |
| | **2022** | 30 | 10 | 2 | 1 | 5 | 0 | 1 | 0 | 2 | 1 | 8 | 0 |
| | **2023** | 30 | 10 | 2 | 1 | 5 | 0 | 1 | 0 | 2 | 1 | 8 | 0 |
| | **2024** | 30 | 10 | 1 | 1 | 5 | 0 | 1 | 0 | 2 | 1 | 8 | 0 |
| | **2025** | 43 | 20 | 2 | 1 | 0 | 0 | 4 | 0 | 4 | 0 | 8 | 0 |
| Şərur Rayon İcra Hakimiyyəti | **2021** | 154 | 76 | 2 | 1 | 4 | 0 | 2 | 0 | 2 | 0 | 47 | 0 |
| | **2022** | 157 | 76 | 2 | 1 | 3 | 0 | 2 | 0 | 2 | 0 | 51 | 0 |
| | **2023** | 166 | 77 | 2 | 1 | 4 | 0 | 2 | 0 | 2 | 0 | 52 | 0 |
| | **2024** | 161 | 77 | 2 | 1 | 4 | 0 | 2 | 0 | 2 | 0 | 51 | 0 |
| | **2025** | 162 | 77 | 2 | 1 | 4 | 0 | 2 | 0 | 1 | 0 | 50 | 0 |
| Babək Rayon İcra Hakimiyyəti | **2021** | 84 | 8 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 26 | 0 |
| | **2022** | 86 | 8 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 27 | 0 |
| | **2023** | 85 | 8 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 28 | 0 |
| | **2024** | 87 | 8 | 2 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 28 | 0 |
| | **2025** | 105 | 7 | 2 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 28 | 0 |
| Ordubad Rayon İcra Hakimiyyəti | **2021** | 113 | 51 | 2 | 1 | 5 | 0 | 2 | 0 | 1 | 1 | 26 | 1 |
| | **2022** | 118 | 50 | 2 | 1 | 5 | 0 | 2 | 0 | 1 | 1 | 28 | 1 |
| | **2023** | 120 | 50 | 2 | 1 | 5 | 0 | 2 | 0 | 1 | 1 | 28 | 1 |
| | **2024** | 108 | 48 | 2 | 1 | 4 | 0 | 2 | 0 | 2 | 0 | 28 | 1 |
| | **2025** | 91 | 51 | 2 | 1 | 4 | 0 | 2 | 0 | 0 | 0 | 25 | 1 |
| Culfa Rayon İcra Hakimiyyəti | **2021** | 80 | 35 | 1 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| | **2022** | 80 | 35 | 1 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| | **2023** | 75 | 33 | 1 | 1 | 6 | 1 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| | **2024** | 76 | 32 | 0 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| | **2025** | 67 | 30 | 0 | 1 | 5 | 1 | 2 | 0 | 2 | 0 | 19 | 0 |
| Şahbuz Rayon İcra Hakimiyyəti | **2021** | 85 | 32 | 1 | - | 4 | - | 2 | - | 2 | - | 20 | - |
| | **2022** | 84 | 32 | 1 | - | 5 | - | 2 | - | 2 | - | 17 | - |
| | **2023** | 91 | 32 | 1 | - | 3 | - | 1 | - | 2 | - | 22 | - |
| | **2024** | 72 | 31 | 1 | | 3 | | 1 | | 2 | | 22 | |
| | **2025** | 70 | 31 | 1 | - | 5 | - | 1 | 1 | 2 | - | 21 | - |
| Kəngərli Rayon İcra Hakimiyyəti | **2021** | 97 | 34 | 1 | 1 | 5 | 0 | 1 | 0 | 1 | 0 | 28 | 11 |
| | **2022** | 102 | 35 | 1 | 1 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 28 | 12 |
| | **2023** | 104 | 33 | 1 | 0 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 28 | 12 |
| | **2024** | 103 | 32 | 1 | 0 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 26 | 12 |
| | **2025** | 105 | 27 | 2 | 0 | 1 | 0 | 4 | 0 | 1 | 0 | 9 | 0 |
| Sədərək Rayon İcra Hakimiyyəti | **2021** | 43 | 8 | 1 | 1 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 4 | 0 |
| | **2022** | 44 | 8 | 1 | 1 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 4 | 0 |
| | **2023** | 47 | 7 | 2 | 0 | 4 | 0 | 2 | 0 | 2 | 0 | 4 | 0 |
| | **2024** | 46 | 7 | 2 | 0 | 4 | 0 | 2 | 0 | 2 | 0 | 4 | 0 |
| | **2025** | 46 | 7 | 2 | 0 | 5 | 0 | 2 | 0 | 2 | 0 | 4 | 0 |

*2025-ci ildə **Naxçıvan Muxtar Respublikasının 8 şəhər və rayon icra hakimiyyətlərində 689 kişi, 250 qadın, 2024-cü ildə** isə 683 kişi, 245 qadın işçi çalışmışdır.*

*2025-ci ildə **icra başçısı müavinlərinin** 13 nəfəri kişi, 5 nəfəri qadın olmuşdur. 2024-cü ildə isə 11 nəfəri kişi, 5 nəfəri qadın olmuşdur.*

***Şöbə müdirləri arasında** 30 nəfəri kişi, 2 nəfəri qadın olmuşdur . **2024-cü ildə** 35 nəfəri kişi, 2 nəfəri qadın olmuşdur.*

***Şöbə müdirinin müavini** 19 nəfəri kişi, 1 nəfər qadın olmuşdur. 2024-cü ildə isə 14 kişi olmuş, bu vəzifədə qadınlar təmsil olunmamışdır.*

***Sektor müdiri** 14 nəfər kişi, bu vəzifədə qadınlar təmsil olunmamışdır.*

***İcra nümayəndələrinin** 164 nəfəri kişi, 1 nəfəri qadın olmuşdur. 2024-cü ildə 186 nəfəri kişi, 13 nəfəri qadın olmuşdur.*

***2020–2025-ci illəri əhatə edən statistik məlumatların ümumiləşdirilməsi göstərir ki, Naxçıvan Muxtar Respublikasının şəhər və rayon icra hakimiyyətlərində həm ümumi işçi heyəti, həm də rəhbər vəzifələr üzrə kişilər sayca üstünlük təşkil etmişdir.***

# 2

# GENDER BƏRABƏRLİYİNİN MÜXTƏLİF SAHƏLƏR ÜZRƏ TƏMİNATI

## (MADDƏ 7-16)



# 2.1. ƏMƏK HÜQUQLARININ HƏYATA KEÇİRİLMƏSİNDƏ GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ

## 2.1. Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmin edilməsi

Əhalinin məşğulluğu və əmək münasibətləri sahəsində milli qanunvericilikdə, o cümlədən Azərbaycan Respublikasının Əmək Məcəlləsində "Məşğulluq haqqında" Qanununda və digər normativ-hüquqi aktlarda bütün şəxslərə əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanlar verilməklə cinsinə görə hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqların məhdudlaşdırılması qəti qadağan edilir.

Bununla yanaşı, ölkədə əmək münasibətlərinin gender bərabərliyi prinsipləri əsasında qurulmasının, qadınların məşğulluq imkanlarının genişləndirilməsinin və daha yüksək əmək haqqı ödənilən sahələrdə çalışmasının təmin edilməsi məqsədilə bu sahədə mövcud qanunvericiliyin təkmilləşdirilməsi üzrə işlər aparılır.

Belə ki, Əmək Məcəlləsinin 150-dən çox maddəsində dəyişikliyi ehtiva edən "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanun layihəsi hazırlanmışdır ki, layihədə "Ailə vəzifələri olan işçi", "Distant (məsafədən) iş" anlayışları və əmək funksiyalarının distant (məsafədən) iş formasında yerinə yetirilməsi ilə əlaqədar əmək şəraitinin əlavə şərtləri ilə bağlı müddəalar, habelə hamiləliyə və doğuşa görə arvadı məzuniyyətdə olan kişilərə tibb müəssisəsinin arayışı əsasında doğuş gününə təsadüf edən ərəfədə 14 təqvim günü müddətində ödənişli məzuniyyətin verilməsi, hamiləliyə və doğuşa görə məzuniyyətin doğuşdan əvvəl hissəsinin müddətinin doğuş gözlənilən gündən uşağın faktiki doğulduğu günədək ötən günlər qədər ödənişli olaraq uzadılması və digər mühüm dəyişikliklər layihədə öz əksini tapmışdır. Qeyd olunan dəyişikliklər 2025-ci il 30 dekabr tarixli 332-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə qəbul edilmişdir.

Layiqli əməyi milli iqtisadi və sosial siyasətin əsas hədəflərindən biri kimi qəbul edən Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının (BƏT) 59 Konvensiyasını və 1 protokolunu ratifikasiya etmişdir.

Eyni zamanda, BƏT-in gender bərabərliyi ilə bağlı əsas 100 nömrəli (Bərabər əmək haqqı haqqında), 111 nömrəli (Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında), 183 nömrəli (Analığın mühafizəsi haqqında) və 156 nömrəli (Kişi və qadın işçilər – ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında) Konvensiyaları ratifikasiya edilmiş, milli qanunvericiliyin həmin Konvensiyaların tələblərinə uyğunluğu mütəmadi olaraq təhlil edilir və zəruri təkmilləşdirilmələr həyata keçirilir.

**Ölkədə son illərdə qadın əməyinə dair əmək qanunvericiliyində aparılmış islahatların nəticəsi olaraq, Dünya Bankının "Qadınlar, Biznes və Hüquq" 2024-cü il nəşrindəki hesabat reytinqdə Azərbaycanın indeksi 78.8-dən 85-ə yüksəlmişdir.** Eyni zamanda, qadınların gecə vaxtı, iş vaxtından artıq işlərə cəlb edilməsi, ezamiyyətə göndərilməsi ilə bağlı Əmək Məcəlləsinə dəyişikliklər layihəsi Dünya Bankının 2026-cı il üçün hesabatında nəzərə alınacaqdır. Dünya Bankı Qrupunun və Beynəlxalq Valyuta Fondunun 2025-ci il yaz iclasında Azərbaycanda qadın əməyi ilə bağlı son illərdə həyata keçirilmiş islahatlar müsbət təcrübə kimi qiymətləndirilmiş, qadınların məşğulluq

imkanlarının genişləndirilməsi istiqamətində görülən tədbirlərin nümunəvi olduğu xüsusi vurğulanmışdır. (https://www.worldbank.org/en/news/video/2025/04/29/unlocking-global-growth-through-women-seconomic-empowerment)

*Son 3 il ərzində Nazirlik tərəfindən əmək qanunvericiliyində son islahatlar və gender bərabərliyinə nail olunması məqsədilə* ***kişilərin üstünlük təşkil etdiyi müəssisələrə qadınların cəlb edilməsinin təşviq edilməsi məqsədilə Əmək və Məşğulluq altsistemi (ƏMAS) üzərindən təhlillər aparılmış, müqayisəli olaraq qadınların daha az cəlb olunduğu müəssisələrin siyahısı müəyyən edilmişdir.***

*Bu çərçivədə 2000-dən çox işəgötürənin və sosial tərəfdaşların nümayəndələrin iştirakı ilə ölkənin bütün iqtisadi rayonlarında "Əmək münasibətlərində gender bərabərliyi - bərabər hüquqlar bərabər imkanlar" kampaniyası çərçivəsində silsilə maarifləndirmə tədbirləri həyata keçirilmiş və qanunvericilikdə aparılmış son islahatlar barədə geniş məlumat verilmişdir.*

**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına uyğun olaraq, 2026-cı ilin əvvəlində əhalinin sayı 10262,4 min nəfər təşkil etmişdir.**

**Əhalinin 5108.2 min nəfəri (49.8%) kişilərdən, 5154.2 min nəfəri isə (50.2%) qadınlardan ibarətdir.**

**Azərbaycan Respublikasının əhalisinin sayının dəyişməsi (ilin əvvəlinə, min nəfər)**






**Ən son dərc edilmiş məlumata əsasən, 2026-cı il yanvarın 1-i vəziyyətinə iqtisadi fəal əhalinin sayı 5384.3 min nəfər olmuş, onlardan 5105.2 min nəfərini məşğul əhali təşkil etmişdir.**




## 2026-cı il yanvar ayının 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, məşğul əhalinin təhsil səviyyəsinə görə say bölgüsü



*2025-ci il yanvarın 1-nə ümumi işçi qüvvəsinin sayında qadınların payı 48,4%, kişilərin payı 51,6%, məşğul olanların ümumi sayında qadınların payı 48,0 faiz, kişilərin payı 52,0% olmuşdur. Məşğul qadınların 17,3% , kişilərin isə 17,0 % ali təhsillidir. İşsizlərin ümumi sayının 55,6 % qadınlar təşkil etmişdir. Ölkə üzrə qadınlar arasında işsizlik səviyyəsi 6,1 faiz, kişilər arasında 4,6% olmuşdur.*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin “Əmək və Məşğulluq” altsisteminin (ƏMAS) məlumatına əsasən 2026-cı ilin 2 fevral tarixinə muzdla çalışanlar arasında qadınların xüsusi çəkisi 44.9% olmuşdur.

**Qadınlarla bağlanmış əmək müqavilələrin sayı 843.2 min, o cümlədən dövlət sektorunda 490.1 min (58%), qeyri-dövlət sektorunda isə 353.1 min (42%) təşkil etmişdir.**

## Əmək müqavilələrinin cins üzrə bölgüsü

| Say | 2025-ci ilin əvvəli (05.01.2025) | | | 2026-cı ilin əvvəli (01.01.2026) | | | Fərq | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Cəmi | Kişi | Qadın | Cəmi | Kişi | Qadın | Cəmi |
| **Dövlət** | 387450 | 499872 | 887322 | 373773 | 487428 | 861201 | -13677 | -12444 | -26121 |
| **Özəl** | 656960 | 327072 | 984032 | 680451 | 353726 | 1034177 | 23491 | 26654 | 50145 |
| **Cəmi** | 1044410 | 826944 | 1871354 | 1054224 | 841154 | 1895378 | 9814 | 14210 | 24024 |

**Qeyd:** Əmək müqavilələri üzrə məlumatlar “Əmək və məşğulluq” (ƏMAS) altsistemi əsasında hazırlanmışdır.






**2025-ci ildə** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin (bundan sonra – Agentlik) **regional məşğulluq filiallarında işsiz şəxs kimi 152197 nəfər qeydiyyata alınmışdır.** Onlardan **73423 nəfərini qadın, 78774 nəfərini isə kişi təşkil etmişdir.**

*2024-cü ildə regional məşğulluq filiallarında işsiz şəxs kimi 169532 nəfər qeydiyyata alınmışdır. Onlardan 80589 nəfərini qadın, 88943 nəfərini isə kişi təşkil etmişdir.*

**Agentliyin regional məşğulluq filialları tərəfindən qeydiyyata alınmış şəxslərdən 2025-ci ildə 69461 nəfərini qadın təşkil etməklə ümumilikdə 189386 nəfər işlə təmin edilmişdir.**

*Agentliyin regional məşğulluq filialları tərəfindən qeydiyyata alınmış şəxslərdən 2024-cü ildə 55044 nəfərini qadın təşkil etməklə ümumilikdə 160034 nəfər işlə təmin edilmişdir.*

**Bununla yanaşı, 2025-ci ildə 18368 nəfər peşə hazırlığına cəlb olunmuşdur, onlardan 11812 nəfərini qadınlar təşkil etmişdir.**

*2024-cü ildə 15571 nəfər peşə hazırlığına cəlb olunmuşdur, onlardan 9911 nəfərini qadınlar, 5660 nəfərini kişilər təşkil etmişdir.*

**2025-ci ildə 4284 nəfəri qadın olmaqla 10805 nəfərə işsizlikdən sığorta ödənişi təyin edilmişdir.**

*2024-cü ildə 2937 nəfəri qadın, 6826 nəfəri kişi olmaqla 9763 nəfərə işsizlikdən sığorta ödənişi təyin edilmişdir.*

**2025-ci ildə 2785 nəfəri qadın olmaqla ümumilikdə 6964 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir.**

*2024-cü ildə 6547 nəfəri qadın, 10567 nəfəri kişi olmaqla ümumilikdə 17114 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir.*

**2025-ci ildə 505 nəfəri qadın olmaqla 1811 nəfər, kvota yerləri üzrə işlə təmin olunmuşdur.**

*2024-cü ildə 570 nəfəri qadın, 897 nəfəri kişi olmaqla 1467 nəfər, kvota yerləri üzrə işlə təmin olunmuşdur.*

**2025-ci ildə 6508 nəfər qadın olmaqla 16827 nəfər, özünüməşğulluq proqramına cəlb olunmuşdur.**

*2024-cü ildə 7372 nəfər qadın, 9955 nəfər kişi olmaqla 17327 nəfər, özünüməşğulluq proqramına cəlb olunmuşdur.*

**Sosial iş yerlərində işçilərin əməkhaqlarının maliyyələşdirilməsi proqramı üzrə isə 2025-ci ildə 729 nəfər qadın olmaqla 1763 nəfər işlə təmin olunmuşdur.**

*Sosial iş yerlərində işçilərin əməkhaqlarının maliyyələşdirilməsi proqramı üzrə isə 2024-cü ildə 128 nəfər qadın olmaqla 391 nəfər işlə təmin olunmuşdur.*

Eyni zamanda 2025-ci ilin yanvar-dekabr ayları ərzində **Agentliyin "Alo Karyera" dəstək xidmətindən 1872 vətəndaş yararlanmış, ümumilikdə 2248 fərdi karyera məsləhəti konsultasiyası həyata keçirilmişdir, bu vətəndaşların 1269 nəfərini qadınlar təşkil etmişdir.**

*2024-cü ildə Agentliyin "Alo Karyera" dəstək xidmətindən 2030 vətəndaş yararlanmış, ümumilikdə 2799 karyera məsləhəti konsultasiyası həyata keçirilmişdir ki, vətəndaşların 1317 nəfərini qadınlar təşkil etmişdir.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən maarifləndirmə tədbirləri çərçivəsində "Analığın mühafizəsi, qadınların əmək hüquqları və gender bərabərliyi" mövzusunda 8 maarifləndirmə tədbiri, Agentlik ilə birgə "Əmək münasibətlərində gender bərabərliyi-bərabər hüquqlar, bərabər imkanlar" mövzusunda rayon və şəhərləri əhatə etməklə 14 tədbir keçirilmişdir.*

*Həmçinin DOST TV-də yayımlanan "Onlayn müfəttiş" verilişinin "Azərbaycanda analığın mühafizəsi və qadınların əmək hüquqları" mövzusuna həsr edilmiş 1 buraxılışı yayımlanmış, REAL TV-nin "Obyektiv" verilişində müvafiq mövzu üzrə 2 çıxış edilmiş, eləcə də 7 televiziya müsahibəsi təşkil olunmuşdur.*

*Eyni zamanda, "Onlayn müfəttiş" layihəsi çərçivəsində mövzu üzrə 2 videoçarx və 4 animasiyalı videoçarx yayımlanmış, "Vətəndaşa cavab" layihəsi çərçivəsində "3 yaşınadək uşağı olan qadınların iş vaxtının tənzimlənməsi" mövzusunda maarifləndirici videoçarx hazırlanmışdır.*

## Əmək hüquqlarının pozulması ilə bağlı daxil olmuş müraciətlərin cins bölgüsü

2025-ci il ərzində "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq **Nazirliyinin yanında Dövlət Əmək Müfəttişliyi Xidmətində əmək hüquqlarının pozulması ilə əlaqədar 21897 müraciət araşdırılmışdır.**

Bunlardan, **7261 (33.2%) müraciət qadınların, 14636 (66.8%) müraciət isə kişilərin əmək** hüquqlarının pozulması ilə əlaqədar olmuşdur.

Müraciətlərin araşdırılması zamanı **qadınların əmək hüquqlarının pozulması ilə əlaqədar işəgötürənlərə 870 hal üzrə 1600250 manat inzibati cərimə tətbiq edilmişdir.**



## Dövlət Miqrasiya Xidmətinin məlumatına əsasən

### Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə statistik məlumatlar:




*Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin statistikası göstərir ki,* ***2020-2023-cü illərdə iş icazəsi verilmiş əcnəbi kişilərin sayında artma, 2024-2025 ci ildə isə azalma müşahidə olunur.***

***İş icazəsi verilmiş əcnəbi qadınların sayında 2020-2025-ci illərdə artma müşahidə olunmuşdur.***

# İş yerində seksual qısnama

Əmək Məcəlləsinin 31-ci maddəsinin 2-ci hissəsinin "o" bəndinə əsasən kollektiv müqaviləyə iş yerində və ya işlə əlaqədar olaraq seksual təhrik məsələlərinə dair izahat işi aparılmasına və informasiya verilməsinə yardım göstərilməsi və belə təhriklərin qarşısının alınması, işçiləri bu cür davranışdan qorumaq üçün bütün lazımi tədbirlərin görülməsi məsələlər üzrə tərəflərin qarşılıqlı öhdəlikləri daxil edilir.

Əmək Məcəlləsinin 195-ci maddəsinin "g" bəndinə əsasən, işəgötürən əmək münasibətləri prosesində işçi seksual qısnamaya məruz qaldıqda işçiyə vurulan ziyana görə tam maddi məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 205-ci maddəsinə əsasən, seksual qısnamaya görə işəgötürəndən və ya rəhbərindən şikayət etmiş işçiyə təzyiq göstərilməsinə və ya işçinin təqib olunmasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilirlər.

Əmək Məcəlləsinin 69-cu maddəsinin 3-cü hissəsinə əsasən işçi seksual qısnamaya məruz qaldıqda ərizəsində göstərdiyi gün əmək müqaviləsi ləğv edilə bilər.

Eyni zamanda bildiririk ki, Dayanıqlı İnkişaf Məqsədlərinin 5-ci hədəf çərçivəsində (Gender bərabərliyinə nail olmaq, bütün qız və qadınların hüquq və imkanlarını genişləndirmək) əmək münasibətlərində ayrı-seçkiliyin və seksual qısnamanın yolverilməzliyinin təmin edilməsi məqsədilə hazırlanmış **"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun layihəsi hazırlanmışdır.** Aidiyyəti dövlət orqanlarının rəy və təklifləri nəzərə alınaraq təkmilləşdirilmişdir. Müvafiq qurumlara razılaşdırılmaq üçün göndərilmə mərhələsindədir.

**Dövlət Gömrük Komitəsi Kollegiyasının Qərarı ilə "zorakılıq və qısnama təzahürlərinin yolverilməzliyi" ilə bağlı müddəanın əks olunduğu "Gömrük orqanlarının vəzifəli şəxslərinin Etik Davranış Kodeksi" təsdiq edilmişdir.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən aşağıda adları qeyd olunan daxili prosedur qaydaları hazırlanmışdır:

- *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Aparatında, strukturuna daxil olan və strukturuna daxil olmayan tabeli qurumlarında cinsi qısnama hallarının baş verməsini istisna edən iş şəraitinin yaradılması məqsədilə – "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi işçilərinin cinsi qısnamaya məruz qalmasının qarşısının alınması Qaydaları";*
- *Nazirliyin Aparatında, strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlarında qısnama və bullinqə qarşı mübarizə barədə işçilərin aydın şəkildə məlumatlandırılması, qısnama və bullinqə qarşı davranış gözləntilərinin, bu barədə məlumat və şikayətlərin verilməsi prosedurlarının müəyyən edilməsi məqsədilə – "Qısnama və bullinqi qadağan edən qaydaları.*

***Nümunə olaraq təqdim edilir:***

***"Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi işçilərinin cinsi qısnamaya məruz qalmasının qarşısının alınması Qaydaları"***

***1. Giriş***

*1.1 "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi işçilərinin cinsi qısnamaya məruz qal-*

*masının qarşısının alınması Qaydaları" (bundan sonra - Qaydalar) Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Aparatında, Nazirliyin strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlarında "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra – Qanun) tətbiqi mexanizmlərini, həmin Qanunun tələblərinin həyata keçirilməsinə nəzarət mexanizminin qurulması qaydalarını müəyyən edir. 1.2. Bu Qaydalar, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunlarına və bu sahədə mövcud digər normativ hüquqi sənədlərə uyğun hazırlanmışdır.*

### 1. Bu Qaydaların məqsədi

*2.1. Bu Qaydalar Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Aparatı strukturuna daxil olan və strukturuna daxil olmayan tabeli qurumların cinsi qısnama ilə bağlı mövqeyini və belə hadisələr baş verdiyi təqdirdə prosedurların sənədləşməsini təsvir etmək, habelə Nazirlik üzrə cinsi qısnamanın baş verməsini istisna edən iş şəraitinin yaradılması məqsədini daşıyır.*

*2.2. Nazirlik iş yerində və ya iş yerindən kənarda, habelə iş saatlarında və ya iş saatlarından kənarda işçilərə qarşı cinsi qısnamanın qarşısının alınması üçün bütün imkanlarından istifadə edir və belə hallara qarşı heç bir tolerantlılıq göstərilmir.*

### 2. Cinsi qısnama anlayışı

*3.1. Cinsi qısnama – əmək və ya xidmət münasibətlərində olan şəxsi alçaldan və təhqir edən, başqa cinsə və ya cinsi yönümə mənsubiyyətdən irəli gələn və fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranış.*

*3.2. Cinsi qısnamanın müəyyən edilməsi spesifik faktlardan və belə hərəkətin baş verdiyi konteksdən asılı olur. Cinsi qısnama bir neçə formada – üstüörtülü və dolayısı ilə və ya açıq-aşkar baş verə bilər. Cinsi qısnama hesab olunan bəzi misallar: - işçiyə, cinsi xarakterli xahişi yerinə yetirdiyi təqdirdə, birbaşa və ya dolayısı ilə mükafat söz vermə; - işçini, cinsi xarakterli xahişi rədd etdiyinə görə, birbaşa və ya dolayısı ilə qisas alacağı ilə qorxutma; - işçiyə, cinsi xarakterli xahişi rədd etdiyi təqdirdə, işlə bağlı imkanlardan yararlanmaqda birbaşa və ya dolayısı ilə maneələr yaratma; - digər işçi ilə cinsi anlama gələn fiziki kontakt və ya arzuolunmaz toxunma; - Nazirliyin və tabeli qurumların avadanlığı və vasitələrindən, habelə digər texniki vasitələrdən istifadə edərək pornoqrafik və ya cinsi xarakterli materialları nümayiş etdirmə və ya ötürmə; - işçiyə arzuedilməyən cinsi və ya romantik xarakterli təkliflər etmə və bu cür təklif rədd edildikdə belə israr etmə.*

*3.3. Belə davranış yalnız cinsi qısnama anlamına gələn fiziki təmas demək deyildir. Cinsi qısnama təkrar-təkrar baş verən hərəkətlər və ya bir hadisədən doğan hərəkət ola bilər. Cinsi qısnama qarşı cinsin və ya eyni cinsin nümayəndəsinə qarşı vəzifəsindən asılı olmayaraq bütün əməkdaşlar arasında birinin digərinə qarşı, habelə iş vaxtı ərzində işçilərin vətəndaşlara qarşı etdiyi əxlaqsız davranışdır.*

### 4. Nəzarət mexanizmi

*4.1. Nazirliyə daxil olmuş cinsi qısnama ilə bağlı bütün şikayətlər araşdırılır. İşçinin cinsi qısnamada təqsirli olduğuna dair əsaslı sübutların olduğu aşkarlanarsa, həmin işçi barəsində tutduğu vəzifədən asılı olmayaraq işdən çıxarılma da daxil olmaqla dərhal müvafiq intizam tənbeh tədbiri görülür. Bu Qaydalar işçinin işi ilə əlaqədar konfranslarda, xidməti fəaliyyətlə əlaqədar ezamiyyədə, habelə sosial tədbirlərdə və s. olduğu hallara da şamil edilir.*

*4.2. İş vaxtından kənar vaxtlarda işçilər arasında cinsi qısnama halları baş verərsə, bu barədə Nazirlik tərəfindən hüquq mühafizə orqanlarına məlumat verilməsi istisna olunmur.*

*4.3. Nazirliyinin Aparatında, Nazirliyin strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlarında insan resurslarının idarə edilməsi ilə əlaqədar aidiyyəti şöbələrindən bir əməkdaş cinsi qısnama ilə bağlı məsul şəxs təyin edilir. Cinsi qısnamaya məruz qalan, məruz qaldığını düşünən, belə qısnamanın şahidi olan əməkdaşlar dərhal məsul şəxsə məlumat verir. Cinsi qısnama ilə əlaqədar məlumat verən şəxs özü barədə məlumatın açıqlanmasını istəmədiyi halda, məsul şəxs onun konfidensiallığını təmin etməlidir. Bu cür məlumatın məxfiliyini pozan hər hansı şəxsin özü barəsində intizam tənbeh tədbiri tətbiq edilir.*

### *5. Daxili şikayət prosedurları*

*5.1. Cinsi qısnamaya məruz qalan, məruz qaldığına inanan, yaxud ona qarşı qanuna zidd tərzdə rəftar olunduğundan əmin olan işçi məsələnin vaxtında araşdırılması, habelə şikayətin qorxu, müdaxilə, ayrı-seçkilik və təzyiq olmadan həll edilməsi üçün məsul şəxsə müraciət edə bilər. Cinsi qısnama ilə bağlı bütün sorğu və şikayətlər, həmin sorğu və şikayətlər üzrə araşdırmaların açıqlanması mühüm olmayanadək məxfi saxlanılır və şikayət daxil olduğu andan həmin şikayətə dərhal və qərəzsiz şəkildə baxılır.*

*5.2. Daxil olan müraciət əsasında aparılan araşdırma yekunlaşdığı zaman şikayətçiyə müraciətinə baxılmasının nəticəsi barədə məlumat verilməlidir. Müraciət araşdırılarkən şikayətçi tərəfindən məsələ ilə bağlı sorğu daxil olduqda isə şikayətçiyə araşdırmanın gedişatı və Nazirliyin atdığı addımlar barədə məlumat verilə bilər.*

*5.3. Cinsi qısnamaya məruz qalmış əməkdaş birbaşa və ya daha yuxarı rəhbərinə şifahi və ya yazılı şikayət edərsə və ya rəhbərin özü belə hərəkətlərin şahidi olarsa o, dərhal məsul şəxs ilə əlaqə saxlamalıdır. Məsul şəxs araşdırma zamanı həmin işçinin rəhbərindən prosesdə iştirak etməsini xahiş edə bilər.*

*5.4. Məsul şəxs daxili nizam-intizam qaydalarının pozulmasının qarşısını almaq üçün müvafiq tədbirlər görməli, araşdırmanın subyekti olan tərəfləri hüquq və öhdəlikləri, Qaydalara əməl olunmamasının hüquqi nəticələri barədə məlumatlandırmalıdır.*

*5.5. Məsul şəxs aşağıdakı səlahiyyətlərə malikdir:*

*5.5.1. Tərəfləri dinləmək, sübut toplamaq, əlavə məlumata ehtiyac yarandıqda şahidlərlə görüşmək və onlardan izahat almaq;*

*5.5.2. Müvafiq struktur bölmə rəhbərlərinə araşdırma ilə bağlı sorğu göndərmək; 5.5.3. Qaydaları pozan şəxs barəsində vəsatət qaldırmaq; 5.5.4. Nazirliyin İnsan resurslarının idarə edilməsi şöbəsinə intizam tənbeh tədbirinin görülməsi barədə təqdimat vermək.*

# 2.2. TƏHSİL HÜQUQLARININ HƏYATA KEÇİRİLMƏSİNDƏ BƏRABƏR İMKANLARIN TƏMİN EDİLMƏSİ



Elm və Təhsil Nazirliyi Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, cinsindən asılı olmayaraq hər bir vətəndaşın pulsuz icbari ümumi orta təhsil almaq imkanlarını təmin edir. Kişi və qadınlara təhsil hüququnun həyata keçirilməsi üçün bərabər imkanların yaradılması təmin edilir.

I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 3 may 2019-cu il tarixli Sərəncamının icrası nəticəsində əlilliyi olan qızların bakalavriat və magistratura səviyyələri üzrə təhsil haqqı dövlət vəsaiti hesabına ödənilmişdir. Bununla yanaşı, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızı işğal etməsi nəticəsində məcburi köçkün olmuş ailələrin övladlarının, o cümlədən qızların bakalavriat və magistratura səviyyələri üzrə təhsil haqqı dövlət vəsaiti hesabına ödənilmişdir.

Əlavə olaraq, **"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun 8-ci maddəsinə və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarında dəyişiklik edilməsi barədə"** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 yanvar 2022-ci il tarixli 19 nömrəli Qərarına əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ilk dəfə işə düzələn zaman Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin "Sosial müdafiə və sosial təminat" bölməsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmış vəsait hesabına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 yanvar tarixli 15 nömrəli Qərarında nəzərdə tutulmuş normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar, avadanlıqla və ya öz arzularına əsasən, 265 manat məbləğində pul kompensasiyası ilə, habelə respublika üzrə orta aylıq əməkhaqqının beş mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə təmin edilirlər.

## Ümumi təhsil müəssisələri üzrə 2025/2026-cı tədris ilində ümumi təhsil müəssisələrində təhsilalanların cins üzrə bölgüsü

### 2025/2026-cı tədris ili üzrə orta məktəblərdə siniflər üzrə təhsil alan şagirdlərin sayı (oğlanlar və qızlar) və təhlili

| Tədris sinfi | Qadın | Kişi | Cəm |
|---|---|---|---|
| Məktəbəhazırlıq qrupları | 40473 | 45885 | 86358 |
| 1 sinif | 61392 | 70356 | 131748 |
| 2 sinif | 62666 | 71516 | 134182 |
| 3 sinif | 64214 | 73044 | 137258 |
| 4 sinif | 70575 | 80011 | 150586 |
| 5 sinif | 73979 | 83501 | 157480 |
| 6 sinif | 73412 | 84831 | 158243 |
| 7 sinif | 74170 | 85265 | 159435 |
| 8 sinif | 74104 | 85955 | 160059 |
| 9 sinif | 73945 | 85362 | 159307 |
| 10 sinif | 61915 | 66243 | 128158 |
| 11 sinif | 56112 | 60805 | 116917 |
| **Cəm** | **786957** | **892774** | **1679731** |

***Cədvəldən göründüyü kimi, 2025/2026-cı tədris ilində cins bölgüsü arasındakı fərq 105817 nəfər, yəni 6.5 %-dir.***

*2024-cü ildə cins bölgüsü arasındakı fərq 111117 nəfər, yəni 6,6% olmuşdur.*

***Şagirdlərin aşağı siniflərdən yuxarı siniflərə qalxdıqca sayında baş verən azalmanın səbəbləri və təhlili;***

*Aparılan təhlil göstərir ki,ümumi təhsil pilləsinin icbari təhsil səviyyəsi üzrə şagird sayında illər üzrə azalma faizi olduqca aşağıdır və əsasən 0,1–1,5% intervalında dəyişir. Bu göstərici ümumilikdə təhsilalanların böyük əksəriyyətinin məktəbdə saxlanıldığını göstərir. Məlumatlardan görünür ki, əsas kəskin azalma yalnız 9-cu sinifdən 10-cu sinfə keçid*

*mərhələsində müşahidə olunur. Bu mərhələdə şagird sayında 20.3% azalma qeydə alınır. Qeyd olunan hal 9 illik ümumi orta təhsilin icbari olması ilə bağlıdır. 9-cu sinfi bitirən,lakin 10-cu sinifdə təhsil almayan şagirdlərin əhəmiyyətli hissəsi təhsillərini davam etdirmək üçün peşə təhsil, orta ixtisas təhsil müəssisələrinə və s. yönəlir.*

| Sinif | 2023-2024 | 2024-2025 | 2024-2025 (faiz) |
|---|---|---|---|
| 1 | 137,100 | 133,626 | |
| 2 | 151,075 | 137,430 | 0.2% |
| 3 | 157,577 | 150,734 | -0.2% |
| 4 | 158,612 | 157,453 | -0.1% |
| 5 | 159,999 | 158,406 | -0.1% |
| 6 | 160,994 | 159,757 | -0.2% |
| 7 | 162,216 | 160,613 | -0.2% |
| 8 | 161,159 | 161,980 | -0.1% |
| 9 | 150,752 | 158,680 | -1.5% |
| 10 | 115,288 | 120,181 | -20.3% |
| 11 | 103,093 | 113,599 | -1.5% |



2025/2026-cı tədris ilində təhsildən yayınma hallarının qarşısının alınması istiqamətində müvafiq profilaktik və nəzarət tədbirləri həyata keçirilmişdir. **Aparılmış monitorinqlər nəticəsində dövlət ümumi təhsil müəssisələrində ümumilikdə 996 şagird üzrə təhsildən yayınma halı qeydə alınmışdır.**




*2025–2026-cı tədris ili üzrə təhsildən yayınan uşaqların vahid siyahısı hazırlanmış, Elm və Təhsil Nazirliyi yanında Uşaqların Müdafiəsi İdarəsi tərəfindən həmin uşaqlarla aparılacaq işlərə dair müvafiq prosedur və metodiki təlimatlar aidiyyəti üzrə yerli qurumlara göndərilmişdir.*

*Bununla yanaşı, mövcud siyahı təhsildən yayınma hallarının qarşısının alınması, valideynlərlə profilaktik və maarifləndirici tədbirlərin həyata keçirilməsi məqsədilə Daxili İşlər Nazirliyinə təqdim edilmiş və aidiyyəti qurumlarla koordinasiyalı fəaliyyətin təşkili təmin olunmuşdur.*

***2025-ci il ərzində 350-yə yaxın ümumi təhsil müəssisəsinin,** xüsusilə VIII-XI siniflərində “Qızların təhsildən yayınması halları”, “Qızların təhsil alması, gələcəyin düzgün qurulması” mövzularında şagirdlər ilə müxtəlif təqdimatlar, maarifləndirici seminarlar və tədbirlər həyata keçirilmişdir.*

**Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi** tərəfindən təhsildən yayınma hallarının sayı, təhsildən yayınanların cins bölgüsü, bu halların qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər məktəblilərin dərsdən yayınma hallarını aşkar etmək məqsədilə 144 reyd yoxlaması keçirilmiş və fakt qeydə alınmamışdır.

**Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi** tərəfindən ümumtəhsil məktəblərində təhsildən yayınan uşaqların mövcud vəziyyəti, yayınma səbəbləri, profilaktik tədbirlər və ailələrlə işin gücləndilirməsi, ictimai nəzarətin artırılması ilə bağlı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən hazırlanmış elektron sistemə Nazirlik tərəfindən görülən işlər barədə məlumat daxil edilmiş, məlumatların yenilənməsi prosesi icra edilmişdir. Belə ki, həmin məlumatlara əsasən, 2025-2026-cı tədris ilində təhsildən yayınan 30 şagirddən 28 nəfərinin (16 oğlan,12 qız) təhsilə reinteqrasiya edildiyi müəyyən olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilini (Ombudsman)** tərəfindən 2025-ci il ərzində Müvəkkilin icraatında qadınlar tərəfindən təhsil hüququ ilə əlaqədar yaranan problemlərlə bağlı 7 müraciət olmuşdur ki, bu müraciətlərdən 2-də hüquq pozuntusu aradan qaldırılmış, 1-nə baxılmaqdan imtina edilmiş, 1-də hüquq pozuntusu aşkar edilməmiş, 2-si nəzarətdə saxlanılmış, 1-i üzrə icraat davam etdirilir.

# Peşə təhsili və orta ixtisas təhsili 2025/2026 tədris ili üzrə

Peşə təhsilində gender bərabərliyinin təşviqi sahəsində atılan addımların nəticəsi olaraq 2021-ci ildə qəbul olunan tələbələr arasında qadınların payı 30%-dən 2025-ci ildə 39%-ə yüksəlmişdir.

Ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq, qadınların əmək bazarında uğurlu fəaliyyətini təmin etmək, onların peşə bacarıqlarını artırmaq və iqtisadi fəallıqlarını gücləndirmək məqsədilə qadınlar üçün peşəyönümü və maarifləndirmə fəaliyyətləri genişləndirilmişdir. Bu istiqamətdə həyata keçirilən təşviqat tədbirləri, regionlarda təşkil olunan ixtisas seçim sərgiləri, karyera və mentorluq proqramları, habelə gender bərabərliyini təşviq edən layihələr qadınların peşə təhsili sisteminə daha çox cəlb olunmasına mü hüm töhfə verməkdədir.

Peşə təhsilində gender balansının qorunması və qadınların sayının artırılması məqsədilə aparılan məqsədyönlü fəaliyyətlər nəticəsində son illərdə müsbət dinamika müşahidə olunur.

2025–2026-cı tədris ili üzrə peşə təhsili müəssisələrinə qəbul olanların cins bölgüsünə əsasən, ümumi qəbul olunan 27021 nəfərdən 16532 nəfəri (təxminən 61%) kişi, 10489 nəfəri (təxminən 39%) isə qadındır.



Bu göstərici əvvəlki illərlə müqayisədə qadınların sayında artımın davam etdiyini nümayiş etdirir.

Müraciət edənlərin orta yaşı 21, ən aşağı yaş 13, ən yüksək yaş isə 78 olmuşdur. Həmçinin 65 nəfər ali təhsilli, 298 nəfər orta ixtisas təhsilli şəxs və 84 nəfər xarici vətəndaş peşə təhsili müəssisələrinə qəbul olmuşdur.

Son 5 ildə peşə təhsili müəssisələrinə tələbə qəbulu 39 faiz artmışdır.

*2025–2026-cı tədris ili üzrə peşə təhsili müəssisələrində qadınların üstünlük təşkil etdiyi ixtisaslar üzrə təhlil göstərir ki, bir sıra istiqamətlərdə qadınların payı əhəmiyyətli dərəcədə yüksəkdir. Xüsusilə xidmət, dizayn və laboratoriya sahələri üzrə ixtisaslarda qadınların iştirak faizi 85–100% aralığında dəyişir.*









2025/2026-cı tədris ili üzrə tələbə qəbulunun yekunları
Tələbə
adını qazanıb
27 021
kişi
16 532
qadın
10 489
16%
ödənişli əsaslarla
84%
dövlət vəsaiti hesabına
Müraciət edənlərin
yaş aralığı:
13
(ən aşağı yaş)
21
(orta yaş)
78
(ən yüksək yaş)
Naxçıvan Muxtar Respublikasında 562 nəfər
tələbə adını qazanıb.
Yüksək texniki
peşə təhsili
2590
Dual peşə təhsili
1777
65
ali təhsilli tələbə
298
orta ixtisas təhsilli tələbə
84
xarici tələbə
Yeni tədris ilində 10 yeni ixtisas üzrə tədris başlayıb.
PEŞƏ TƏHSİLİ
üzrə Dövlət Agentliyi

**2026–2030-cu illər üzrə strateji dövrdə isə peşə məktəblərinin maddi-texniki bazasının modernləşdirilməsi və məzunların məşğulluq imkanlarının genişləndirilməsi prioritet istiqamətlərdir.**

**Peşə təhsili sahəsində həyata keçirilən mühüm təşəbbüslərdən biri də işəgötürənlərlə əməkdaşlıq çərçivəsində tətbiq olunan Dual Təhsil sistemidir.** Bu model çərçivəsində tələbələr tədris ili ərzində peşə təhsili müəssisələrində nəzəri biliklər əldə etməklə yanaşı, qabaqcıl müəssisələrdə işəgötürənlərin iştirakı ilə praktiki bacarıqlar qazanırlar.

**2025-2026-cı tədris ilində ölkə üzrə 28 peşə təhsili müəssisəsində dual qruplara 2300 qəbul yeri proqnozlaşdırılmış, onların 1777-si faktiki olaraq komplektləşdirilmişdir.**

Bu göstəriciyə əsasən, proqnozun ümumi icra səviyyəsi 77% təşkil etmişdir ki, bu da əvvəlki illərlə müqayisədə sabit və qənaətbəxş nəticə kimi qiymətləndirilə bilər.

Keyfiyyətli peşə təhsilinin təmin olunması üçün müvafiq məzmun komponentlərinin tətbiqi mühüm amildir. Məzmun komponentlərinə təhsil proqramları, dərslik, dərs vəsaiti və metodik vəsaitlərlə yanaşı ixtisas təsnifatlarını da aid etmək olar.

**2025-ci ildə 6 yeni ixtisas üzrə əmək bazarının tələblərinə uyğun səriştə əsaslı, modul strukturlu təhsil proqramı hazırlanmış, 11 ixtisasın təhsil proqramları təkmilləşdirilmişdir.**

Təhsil proqramlarına uyğun dərsliklərin hazırlanması, tərcümə edilərək yerli mühitə uyğunlaşdırılması, eləcə də nəşr edilməsi və paylanması prosesi 2025-ci ildə də davam etdirilmişdir.

**31 adda peşə ixtisas dərsliyi tərtib və ya tərcümə edilmiş, 35 min ədəd dərslik nəşr edilərək peşə təhsili müəssisələrinə paylanmışdır.**

***Orta ixtisas təhsili üzrə* ölkədə ümumilikdə 60-dan çox təhsil müəssisəsi fəaliyyət göstərir.** Bu müəssisələrin bir hissəsi Elm və Təhsil Nazirliyinin tabeliyində, digər hissəsi isə müxtəlif dövlət qurumlarının tabeliyində fəaliyyət göstərir, həmçinin özəl sektor tərəfindən təsis edilmiş kolleclər də mövcuddur.

**Son illərdə 5 yeni orta ixtisas təhsili müəssisəsi** (Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində Gəncə Dövlət Aqrar Kolleci, Bakı Hərbi Kolleci, Gəncə Hərbi Kolleci, Naxçıvan Hərbi Kolleci, Bakı İlahiyyat Kolleci) **yaradılmışdır**.

Mövcud müəssisələrdən 38-i Elm və Təhsil Nazirliyinin tabeliyində, 19-u digər dövlət qurumlarının tabeliyində, 4-ü isə özəl təhsil müəssisələridir. Orta ixtisas təhsili pilləsi üzrə 2021-2022-ci tədris ilindən başlayaraq (21 min nəfərlik tələbə qəbulu proqnozu) mütəmadi artırılaraq 2025-2026-cı tədris ilində 24373 yerə çatdırılmışdır.

Son illərin təhlillərinə əsasən deyə bilərik ki, orta ixtisas təhsili müəssisələrinə plan üzrə tələbə qəbulu 90%-dən yüksəkdir. 2025/2026-cı tədris ili üzrə qəbul olan tələbələr arasında gender paylanmasına baxdıqda, orta ixtisas təhsilində qız tələbələr üstünlük təşkil edir. Oğlan tələbələrin sayı 7857 nəfər, qız tələbələrin sayı isə 16516 nəfərdir.




*2025/2026-cı tədris ili üzrə orta ixtisas təhsilinə qəbul olunan tələbələr arasında cins bölgüsünə əsasən, oğlan tələbələr 32,3%, qız tələbələr isə 67,7% təşkil edir.*

Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu proqnozları hazırlanarkən bir sıra istiqamətlər üzrə fərqli yanaşmalar ortaya qoyulmuş, buna uyğun olaraq tələbə qəbulu proqnoz layihələrində optimallaşmalar aparılmışdır.

Proqnozlaşma zamanı digər təhsil pillə və səviyyələri qəbul proqnozları ilə uzlaşma aparılmış, qəbul yerlərinin ümumi artımı fonunda əmək bazarında ciddi kadr ehtiyacı duyulan texniki-texnoloji ixtisaslarda artım, təhsil ixtisaslarında isə azalma kimi optimallaşma tədbirləri görülmüşdür.

Tələbə qəbulu proqnozları formalaşdırılan zaman nəzərə alınan yanaşmadan biri də ümumi orta təhsil bazasından tələbə qəbulu yerlərinin sayını azaltmaq, daha çox tam orta təhsil bazasından tələbə qəbulunu həyata keçirməkdir.

Bununla da ümumi orta təhsil bazasından peşə təhsili müəssisələrinə tələbə qəbulu prosesi stimullaşdırılır.

**2024-2025-ci tədris ilində ümumi orta təhsil bazası üzrə qəbul yerlərinin sayı 44.3% (10.930 yer) olduğu halda,**

**2025-2026-cı tədris ili üzrə bu yerlərin sayı azaldılaraq 32.3% (8.154 yer) təşkil etmişdir.**

## Ali təhsilin bakalavriat və magistratura pilləsi







***Ali təhsildə*** *isə fərqlər səviyyəyə görə dəyişir. Bakalavriat pilləsində qız tələbələr də üstünlük təşkil edir: oğlanlar 108656 nəfər, qızlar isə 123480 nəfərdir.*

***Magistr səviyyəsində*** *isə vəziyyət dəyişir və oğlan tələbələr bir qədər çoxluqdadır – oğlanlar 14439, qızlar 13237 nəfərdir.*

*Ümumilikdə, orta ixtisas və ali təhsilin bakalavriat səviyyəsində qızlar daha çox iştirak edir, magistr səviyyəsində isə oğlanlar üstünlük təşkil edir.*

## Dövlət İmtahan Mərkəzinin məlumatına əsasən

### Ali təhsilin bakalavriat və magistratura pilləsi üzrə 1992-2025-ci İLLƏR ÜZRƏ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN QƏBULOLMA GÖSTƏRİCİLƏRİNİN DİNAMİKASI




*1993-2025-ci illərdə **ali təhsil müəssisələrinə qəbul olmuş oğlan və qız abituriyentlərin** sayının dinamikası şəkildə göstərilib. Son altı ildə qəbul olunan subbakalavrların sayı da nəzərə alınıb.*

### QƏBUL OLAN OĞLANLARIN VƏ QIZLARIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ PAYLANMASI

| № | ALİ MƏKTƏBİN ADI | Qəbul olmuşdur | | | |
|---|---|---|---|---|---|
| | | Oğlan | | Qız | |
| | | Sayı | Faizi | Sayı | Faizi |
| 1 | Bakı Dövlət Universiteti | 1820 | 32.20 | 3832 | 67.80 |
| 2 | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti | 2056 | 61.67 | 1278 | 38.33 |
| 3 | Azərbaycan Texniki Universiteti | 1393 | 73.86 | 493 | 26.14 |
| 4 | Azərbaycan Memarlıq və İnşaat Universiteti | 1470 | 58.52 | 1042 | 41.48 |
| 5 | Azərbaycan Tibb Universiteti | 271 | 30.01 | 632 | 69.99 |
| 6 | Azərbaycan Dövlət Pedaqoji Universiteti | 486 | 14.16 | 2946 | 85.84 |
| 7 | Azərbaycan Dövlət İqtisad Universiteti | 2090 | 51.10 | 2000 | 48.90 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 8 | Azərbaycan Dillər Universiteti | 306 | 17.04 | 1490 | 82.96 |
| 9 | Bakı Slavyan Universiteti | 249 | 17.94 | 1139 | 82.06 |
| 10 | Bakı Mühəndislik Universiteti | 1341 | 58.41 | 955 | 41.59 |
| 11 | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 211 | 53.69 | 182 | 46.31 |
| 12 | ADA Universiteti | 167 | 47.58 | 184 | 52.42 |
| 13 | Bakı Musiqi Akademiyası | 31 | 24.60 | 95 | 75.40 |
| 14 | Azərbaycan Milli Konservatoriyası | 73 | 54.89 | 60 | 45.11 |
| 15 | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti | 189 | 30.29 | 435 | 69.71 |
| 16 | Azərbaycan Dövlət Rəssamlıq Akademiyası | 32 | 10.77 | 265 | 89.23 |
| 17 | Azərbaycan Turizm və Menecment Universiteti | 316 | 50.97 | 304 | 49.03 |
| 18 | Bakı Xoreoqrafiya Akademiyası | 60 | 48.39 | 64 | 51.61 |
| 19 | Azərbaycan İdman Akademiyası | 1440 | 88.56 | 186 | 11.44 |
| 20 | Milli Aviasiya Akademiyası | 521 | 62.10 | 318 | 37.90 |
| 21 | Azərbaycan Dövlət Dəniz Akademiyası | 329 | 98.80 | 4 | 1.20 |
| 22 | Bakı Ali Neft Məktəbi | 293 | 65.99 | 151 | 34.01 |
| 23 | Dövlət Gömrük Komitəsinin Akademiyası | 80 | 57.14 | 60 | 42.86 |
| 24 | Naxçıvan Dövlət Universiteti | 661 | 39.72 | 1003 | 60.28 |
| 25 | Naxçıvan Müəllimlər İnstitutu | 24 | 12.37 | 170 | 87.63 |
| 26 | Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri) | 1262 | 67.31 | 613 | 32.69 |
| 27 | Gəncə Dövlət Universiteti | 498 | 35.60 | 901 | 64.40 |
| 28 | Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri) | 805 | 69.64 | 351 | 30.36 |
| 29 | Sumqayıt Dövlət Universiteti | 752 | 45.33 | 907 | 54.67 |
| 30 | Mingəçevir Dövlət Universiteti | 631 | 44.28 | 794 | 55.72 |
| 31 | Lənkəran Dövlət Universiteti | 741 | 46.66 | 847 | 53.34 |
| 32 | Qarabağ Universiteti | 430 | 42.12 | 591 | 57.88 |
| 33 | Türkiyə-Azərbaycan Universiteti | 61 | 66.30 | 31 | 33.70 |
| 34 | Azərbaycan İlahiyyat İnstitutu | 53 | 68.83 | 24 | 31.17 |
| 35 | Azərbaycan Kooperasiya Universiteti | 699 | 51.74 | 652 | 48.26 |
| 36 | Azərbaycan Universiteti | 434 | 41.02 | 624 | 58.98 |
| 37 | Qərbi Kaspi Universiteti | 545 | 41.29 | 775 | 58.71 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 38 | Xəzər Universiteti | 425 | 29.55 | 1013 | 70.45 |
| 39 | Bakı Avrasiya Universiteti | 368 | 27.54 | 968 | 72.46 |
| 40 | Bakı Qızlar Universiteti | 0 | 0.00 | 378 | 100.00 |
| 41 | Odlar Yurdu Universiteti | 370 | 37.72 | 611 | 62.28 |
| 42 | Bakı Biznes Universiteti | 501 | 43.79 | 643 | 56.21 |
| 43 | Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası | 111 | 32.55 | 230 | 67.45 |
| | **CƏMİ** | **24595** | **44.85** | **30241** | **55.15** |

## Magistratura səviyyəsinə qəbul

2025-ci ildə respublikanın 31 dövlət və 10 özəl ali təhsil müəssisəsinin magistratura səviyyəsinə qəbul aparılıb. Qəbul aparılan ixtisaslaşmalar 67 proqram üzrə qruplaşdırılıb.

**OĞLAN VƏ QIZ BAKALAVRLARIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL PROSESİNİN MÜXTƏLİF MƏRHƏLƏLƏRİNDƏKİ SAYLARININ MÜQAYİSƏSİ**

*Ərizələrin sayı*




**Şəkil 1.18**

*İxtisaslaşma seçimində iştirak edənlərin sayı*




**Şəkil 1.19**

*Ali təhsil müəssisələrinə qəbul olanların sayı*




**Şəkil 1.20**

Nəticələrə əsasən, magistraturaya 12970 nəfər qəbul olub. İmtahanda 26241 nəfər iştirak edib. Onların 48.31%-ni oğlanlar, 51.69%-ni isə qızlar təşkil ediblər.

İmtahanda iştirak edən oğlan bakalavların qəbulolma faizi 51.01-ə, qız bakalavrların qəbulolma faizi isə 47.95-ə bərabər olub.

Dövlət sifarişi üzrə ayrılan yerlərə ümumilikdə 6590 bakalavr qəbul olub. Onların 56.01%-ni oğlanlar, 43.99%-ni qızlar təşkil edib.

## Rezidentura səviyyəsinə qəbul

Rezidenturaya qəbul "Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları" ilə tənzimlənib. Qəbul aparılan ixtisaslar baza ali tibb təhsili səviyyəsinə uyğun olaraq istiqamətlər üzrə qruplaşdırılıb.

Qəbul imtahanları test üsulu ilə iki mərhələdə keçirilib. Birinci mərhələdə namizədlərin baza ali tibb təhsili istiqamətinə müvafiq olaraq baza fənləri üzrə, ikinci mərhələdə isə ixtisas fənləri üzrə bilikləri yoxlanılıb.

**Rezidenturada təhsil almaq üçün 1762 namizəd ərizə verib**. Onların 40.41%-ni (712 nəfər) oğlanlar, 59.59%-ni (1050 nəfər) qızlar təşkil edib.

**Sənəd verənlərin** 581 nəfəri (32.97%) baza ali tibb təhsilini bu il başa vurub. Onlardan 215 nəfəri oğlan (37.01%), 366 nəfəri isə qız (62.99%) olub.

**İmtahanın I mərhələsində** 1050 nəfər (419 nəfər oğlan, 631 nəfər qız) iştirak etmiş və 269-u (83 nəfər oğlan, 186 nəfər qız) məqbul alaraq, **II mərhələdə iştirak etmək hüququ əldə etmişdir.**

İmtahanda iştirak edən oğlanların 19.81%-i, qızların isə 29.48%-i **I mərhələdə məqbul almışdır.**

**İmtahanın II mərhələsində** 901 namizəd (333 nəfər oğlan, 568 nəfər qız) iştirak edib, onlardan 671 nəfəri (268 nəfər oğlan, 403 nəfər qız) ötən illərdə I mərhələ üzrə imtahan verərək məqbul alanlar olub.

610 nəfər müsabiqədə iştirak etmək hüququ qazanıb. Onların 228 nəfəri oğlan (116 nəfəri cari ilin məzunu) və 382 nəfəri qız (188 nəfəri cari ilin məzunu) namizəd olub.

İmtahanda iştirak edən oğlanların 68.47%-i (cari ilin məzunlarının 86.57%-i), qızların isə 67.25%-i (cari ilin məzunlarının 79.32%-i) müsabiqə şərtlərini ödəmişdir.

### TƏHSİL İSTİQAMƏTLƏRİ ÜZRƏ ƏRİZƏ VERƏN VƏ QƏBUL OLAN OĞLAN VƏ QIZ NAMİZƏDLƏRİN SAYI HAQQINDA MƏLUMAT

| İstiqamət | Ərizə verən | | | | Qəbul olan | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | oğlanların | | qızların | | oğlanların | | qızların | |
| | sayı | faizi | sayı | faizi | sayı | faizi | sayı | faizi |
| Müalicə işi, pediatriya | 580 | 41.28 | 825 | 58.72 | 189 | 38.34 | 304 | 61.66 |
| Stomatologiya | 97 | 49.74 | 98 | 50.26 | 28 | 50.00 | 28 | 50.00 |
| Tibbi profilaktika | 30 | 24.59 | 92 | 75.41 | 4 | 21.05 | 15 | 78.95 |
| İctimai səhiyyə | 5 | 12.50 | 35 | 87.50 | 0 | 0.00 | 8 | 100.00 |
| **CƏMİ** | **712** | **40.41** | **1050** | **59.59** | **221** | **38.37** | **355** | **61.63** |

Rezidenturaya sənəd verən və qəbul olan namizədlər seçmələrində oğlan və qızların sayca nisbi çəkilərində qismən dəyişiklik baş verib.

Sənəd verən namizədlərin 40.41%-ni oğlanlar, 59.59%-ni qızlar, qəbul olanlar seçməsində isə namizədlərin 38.37%-ni oğlanlar, 61.63%-ni qızlar təşkil edib.

Rezidenturaya qəbul olmaq üçün sənəd verən qız namizədlərin rezidenturaya qəbulolma göstəriciləri (33.81%) oğlan namizədlərin qəbulolma göstəricilərindən (31.04%) yüksəkdir.

**Cari ilin məzunları arasında oğlan namizədlərin qəbulolma göstəriciləri 53.02%, qızların isə 48.91%-dir.**

## Elm sahələri üzrə

### Elm sahələri üzrə aspirant və doktorantların sayı (kişi və qadınlar)

| | Fəlsəfə doktoru proqramı üzrə | | Elmlər doktoru proqramı üzrə | |
|---|---|---|---|---|
| | Cəmi | O cümlədən qadınlar | Cəmi | O cümlədən qadınlar |
| **Ölkə üzrə cəmi** | **2562** | **1298** | **608** | **353** |
| O cümlədən elmin sahələri üzrə | | | | |
| Riyaziyyat | 73 | 29 | 15 | 10 |
| Mexanika | 9 | 3 | 3 | |
| Astronomiya | 7 | 3 | 2 | 1 |
| Fizika | 41 | 31 | 10 | 7 |
| Kimya | 79 | 57 | 33 | 25 |
| Biologiya elmləri | 127 | 106 | 48 | 30 |
| Yer elmləri | 105 | 23 | 30 | 10 |
| Aqrar elmlər | 86 | 11 | 42 | 18 |
| Tibb elmləri | 172 | 126 | 48 | 23 |
| Əczaçılıq elmləri | 6 | 5 | 4 | 4 |
| Texnika elmləri | 413 | 109 | 55 | 26 |
| Antropologiya | 6 | 5 | 5 | 3 |
| İqtisad elmləri | 540 | 150 | 72 | 29 |
| Coğrafiya | 39 | 21 | 2 | 1 |
| Tarix | 95 | 67 | 37 | 21 |
| Hüquq elmləri | 92 | 42 | 28 | 10 |

| | | | | |
|---|---|---|---|---|
| Filologiya elmləri | 250 | 229 | 111 | 93 |
| Pedaqogika | 148 | 124 | 19 | 12 |
| Siyasi elmlər | 112 | 44 | 16 | 8 |
| Psixologiya | 43 | 37 | 6 | 4 |
| Sənətşünaslıq | 36 | 29 | 19 | 16 |
| Sosiologiya | 41 | 21 | | |
| Memarlıq | 14 | 9 | 1 | 1 |
| Fəlsəfə | 28 | 17 | 2 | 1 |

***Elm sahələri üzrə aspirant və doktorantların gender təhlili göstərir ki,***

*Riyaziyyat, mexanika, astronomiya, yer elmləri, aqrar elmlər, texnika elmləri, iqtisad elmləri, hüquq elmləri, siyasi elmlər sahəsində* ***kişilər,***

*Fizika, kimya, biologiya elmləri, tibb elmləri, əczaçılıq elmləri, antropologiya, coğrafiya, tarix, filologiya elmləri, pedaqogika, psixologiya, sənətşünaslıq, memarlıq və fəlsəfə sahəsində* ***qadınlar üstünlük təşkil etmişdir.***

## Dövlət İmtahan Mərkəzinin 2025-ci ilin qəbul və buraxılış imtahanlarının nəticələrinin gender aspektləri

*Dövlət İmtahan Mərkəzi tərəfindən hazırlanmış* ***"Buraxılış və qəbul imtahanlarının nəticələrinin gender aspektləri 2025"*** *2025-ci ildə aparılan qəbul və buraxılış imtahanlarının elmi-statistik təhlilinin bir hissəsidir.*

*Materialda oğlanların və qızların qəbul və buraxılış imtahanlarında nümayiş etdirdikləri bilik və bacarıq səviyyələrinin, test tapşırıqlarına cavablarının, ali təhsil müəssisələrinə qəbul zamanı ixtisas seçimində təzahür edən istəklərindəki ümumi və fərqli cəhətlərin, topladıqları balların paylanma histoqramlarının və ali təhsil müəssisələrinə qəbulolma göstəricilərinin müqayisəli təhlili əks olunub.*

***Təqdim edilən material müəyyən nəticələr çıxarmağa və ölkəmizdə gender bərabərliyinə nail olmaq sahəsində vəziyyətin yaxşılaşdırılması üçün bir sıra tövsiyələr irəli sürməyə imkan yaradır:***

- *Gender bərabərliyinə nail olmaq sahəsində vəziyyət qənaətbəxş olsa da, bu sahədə heç də bütün imkanlardan tam istifadə edilmir;*
- *Fərdi bilik və qabiliyyət prinsipi əsasında vətəndaşların bərabər ali təhsil almaq hüququnun təmin olunması üçün qadınların ali təhsil almasına mane olan müxtəlif sosial, mədəni-məişət xarakterli maneələr aradan qaldırılmalıdır;*
- *"Oğlanlar ailəni gələcəkdə maddi cəhətdən təmin etdiklərinə görə onların ali təhsil alması daha vacibdir, qızlar isə ev işləri və ailə həyatı ilə məşğul olmalıdır" kimi cəmiyyətdə hələ də yaşamaqda olan köhnəlmiş və patriarxal təsəvvür və stereotipləri aradan götürmək lazımdır, çünki məhz belə baxışlara görə valideynlər, ilk növbədə, öz oğullarının təhsili və hazırlığı üçün xərc çəkməyə üstünlük verirlər;*
- *Qızların təhsildən uzaqlaşmasına səbəb olan meyillərin (erkən nikahlar, ictimai-iqti-*

*sadi səbəblər və s.) qarşısının alınması məqsədilə valideynlər arasında intensiv maarifləndirmə işləri aparılmalıdır;*

- *İnformasiya-kommunikasiya texnologiyaları qadınlar üçün maksimum dərəcədə əlçatan olmalıdır;*
- *Büdcədən təhsilə yönələn vəsaitləri daha da artırmaq lazımdır ki, bu da potensial imkanları olan bütün hazırlıqlı qızların ali təhsil almasını stimullaşdırsın;*
- *Təhsil ilə əmək bazarı arasında mövcud olan uyğunsuzluqları aradan qaldırmaq, tədris proqramlarını bazar iqtisadiyyatının yeni tələbləri ilə uzlaşdırmaq məqsədilə onlarda lazımi dəyişikliklər etmək lazımdır;*
- *Gender təhsilinə, gender tədqiqatlarına, eləcə də valideynlər, idarəedənlər və ümumiyyətlə, vətəndaşlar arasında gender bərabərliyi məsələlərinə xüsusi diqqət yetirilməlidir.*
- *“Qızların təhsilinə dəstək layihəsi” çərçivəsində qızların az təmsil olunduğu, xüsusilə gələcəyin ixtisasları sahəsində təhsilinə cəmiyyətin dəstəyini təmin etmək üçün xüsusi təşviq tədbirləri həyata keçirməlidir.*
- *Eləcə də müxtəlif adlı təqaüdlərin daha çox təsis edilməsi məqsədəuyğun olardı.*

## Təhsilverənlərin cins üzrə bölgüsü 2025/2026-cı tədris ili üzrə professor-müəllim heyətinin gender təhlili






**2025/2026-cı tədris ili üzrə professor-müəllim heyətinin gender təhlili göstərir ki, orta ixtisas təhsilində qadın müəllimlər dominantdır.**

**Dövlət müəssisələrində** qadın müəllimlərin sayı 167 nəfər, kişilərin sayı isə 33 nəfərdir ki, bu da qadınların 83,5%-lik üstünlüyünü göstərir.

**Qeyri-dövlət müəssisələrində** isə qadın müəllimlərin sayı 4218, kişi müəllimlərin sayı 981 nəfərdir, yəni qadınlar burada da 81% ilə üstünlük təşkil edirlər.

Ali təhsil sahəsində isə gender fərqi daha müxtəlifdir.

**Dövlət ali təhsil müəssisələrində** qadın müəllimlərin sayı 8034, kişi müəllimlərin sayı 4171 nəfərdir və qadınlar üstünlük təşkil edir.

**Qeyri-dövlət ali təhsil müəssisələrində** isə qadın və kişi müəllimlərin sayı təxminən bərabərdir (qadın 696, kişi 683), yəni burada gender balansı saxlanılmışdır.

*Ümumilikdə, həm orta, həm də ali təhsildə qadın müəllimlər heyətdə daha çox təmsil olunurlar, lakin qeyri-dövlət ali təhsil müəssisələrində gender nisbəti balanslıdır.*




**2025/2026-cı tədris ili üzrə peşə təhsili müəssisələrində** pedaqoji vəzifələrdə (müəllim və istehsalat təlimi ustası) çalışanların cins bölgüsünə əsasən ümumilikdə 3692 nəfər heyət qeydə alınmışdır.

Onlardan 2520 nəfəri qadın, 1172 nəfəri isə kişidir.

Məlumatların təhlili göstərir ki, **pedaqoji heyətin 68,3 %-ni qadınlar, 31,7% isə kişilər təşkil edir.**

Qadınların sayı kişilərlə müqayisədə 1348 nəfər çoxdur və bu da qadınların pedaqoji vəzifələrdə təxminən iki dəfədən artıq üstünlük təşkil etdiyini göstərir.

## Ümumi təhsil müəssisələri, 2025/2026-cı tədris ili

| Vəzifə | Dövlət(digər qurumlara tabe müəssisələr də daxil) | | | Özəl | | | Cəm | Qadın | Kişi |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəm | Qadın | Kişi | Cəm | Qadın | Kişi | | | |
| Direktor | 3447 | 1491 | 1956 | 38 | 20 | 18 | 3485 | 1511 | 1974 |
| Direktor müavinləri | 4109 | 2590 | 1519 | 95 | 74 | 21 | 4204 | 2664 | 1540 |
| Uşaqlarla məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçı | 2542 | 1596 | 946 | 2 | 1 | 1 | 2544 | 1597 | 947 |
| **Cəm** | **10098** | **5677** | **4421** | **135** | **95** | **40** | **10233** | **5772** | **4461** |

*Ümumi təhsil müəssisələrində rəhbər vəzifədə çalışan işçilərin statistikası göstərir ki, dövlət müəssisələrinin direktorları arasında kişilər, özəl müəssisələrin direktorları arasında qadınlar üstünlük təşkil etmişdir.*

*Dövlət və özəl ümumi təhsil müəssisələrində direktor müavinləri, uşaqlarla məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçılar arasında qadınlar üstünlük təşkil etmişdir.*

## Məktəbəqədər təhsil müəssisələri üzrə, 2025-ci ilin əvvəlinə




*Dövlət və qeyri-dövlət məktəbəqədər təhsil müəssiələrində çalışanların hamısı qadınlardır.*

# TƏHSİLƏ DƏSTƏK LAYİHƏLƏRİ



## Təhsilə dəstək layihələri



Konstitusiyanın 42-ci maddəsinə görə hər bir vətəndaşın təhsil almaq hüququ vardır.

Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir.

Eyni zamanda mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə işə qəbul, vəzifələrə təyin olunma və ya seçilmə, əməyin stimullaşdırılması, təhsil müəssisələrinə qəbul olunma, təhsilalanların təqaüdlə təmin edilməsi, ixtisasların seçilməsi, biliyin qiymətləndirilməsi, təhsilin növbəti pillədə davam etdirilməsi, ixtisasın artırılmasında kişilər və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir.

Bu gün qadınların təhsil imkanlarının genişləndirilməsi istiqamətində silsilər tədbirlər, bir çox layihə və proqramlar həyata keçirilir.

***Ucqar bölgələrdə qızların tam orta təhsilə cəlb olunma səviyyəsinin artırılması və bu nisbətin şəhər yerlərindəki yüksək göstəricilərə çatdırılması üçün il ərzində müvafiq tədbirlər və layihələr həyata keçirilmişdir.***

- Dövlət Komitəsi tərəfindən reallaşan **“Sən Tək Deyilsən” adlı layihə çərçivəsində** 2023-cü ildə Azərbaycan Banklar Assosiasiyası ilə əməkdaşlıq haqqında memorandum imzalanıb, **“Gələcəyə əmin addımlarla” şəhid xanımlarının təhsilinə dəstək proqramı təsis edilmişdir.** Dövlət Komitəsinin şəhid xanımları arasında ali və orta-ixtisas təhsili müəssisələrinə daxil olmaq üçün apardığı təşviqat işlərinin nəticəsində ötən illər ərzində ali məktəbə daxil olmuş **34 nəfər qeyd edilən layihə çərçivəsində müvafiq dəstək** proqramlarına cəlb olunmuşdur.






- **"Hənifə Məlikova – Zərdabi adına qızların təhsilinə dəstək" təqaüd proqramı** - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin və Təhsilin İnkişafı Fondunun birgə fəaliyyəti nəticəsində təsis edilmiş **"Hənifə Məlikova – Zərdabi adına qızların təhsilinə dəstək" təqaüd proqramı** çərçivəsində 5 il ərzində (2021-2025-ci illər) respublikanın ali təhsil müəssisələrinə yüksək balla daxil olan **239 nəfər qız təqaüdlə təmin olunur.** Təqaüd proqramı çərçivəsində ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan, həssas qruplardan olan tələbə qızlar təhsil müddəti ərzində aylıq 200 manat məbləğində təqaüd alır. Həmçinin onlar təcrübə, təlimlər və maarifləndirici görüşlərdən mütəmadi olaraq yararlanırlar.

- **"Qızların təhsilinə dəstək" layihəsi** çərçivəsində 2024-2025-ci ildə Dövlət Komitəsi ilə "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti arasında anlaşma memorandumu imzalanıb. **"Arzumuz var"** sloqanı ilə reallaşan təqaüd proqramının ilk mərhələsində Bakı şəhəri və regionlardan (Ağcabədi, Qusar, Göyçay, İsmayıllı, Qax, Qəbələ, Xocalı rayonu və Lənkəran şəhəri) olan **22 nəfər abituriyent qıza dəstək göstərilmişdir.**







- **“Zərif mühəndislər” təqaüd proqramı** Təhsilin İnkişafı Fondu və STP Şirkətlər Qrupu tərəfindən həyata keçirilir. Layihənin məqsədi yüksək akademik göstəricilərə malik, texniki sahələr üzrə fərqli ixtisaslarda təhsil alan aztəminatlı ailələrdən olan tələbə və məzun qızların təhsilinə, mühəndislik sahəsində peşəkar mütəxəssis kimi yetişdirilməsinə dəstək göstərməkdir. Layihəyə ümumilikdə 573 müraciət daxil olmuş, 105 nəfər müsahibə mərhələsinə vəsiqə qazanmışdır. Həmin mərhələni uğurla yekunlaşdıran **50 nəfər** isə “Zərif mühəndislər” təqaüd proqramının qalibi olaraq təqaüd almaqla yanaşı, təcrübə və təlim proqramlarından yararlanmaq imkanını əldə etmişdir.



- **“Parla” təqaüd və inkişaf proqramı** Təhsilin İnkişafı Fondunun “NEQSOL Holding” ilə əməkdaşlıq çərçivəsində tələbə qızlar üçün həyata keçirdiyi təqaüd proqramıdır. İki qurum arasında əldə olunmuş razılaşmaya əsasən, hər il Azərbaycanda sosial baxımdan həssas, lakin yüksək akademik göstəriciləri olan 50 tələbə qız təqaüd və inkişaf imkanları ilə təmin olunur. “Parla” iştirakçılara aylıq təqaüd təqdim etməklə yanaşı, təcrübə və mentorluq proqramlarında iştirak, müxtəlif təlimlərə cəlb olunma, həmçinin “NEQSOL Academy” və “LinkedIn Learning” platformaları vasitəsilə dünyanın aparıcı universitetlərinin tədris proqramlarına çıxış imkanı yaradır. Eyni zamanda iştirakçılar ingilis dili və IELTS imtahanına hazırlıq kurslarına cəlb edilir, IELTS imtahanını ödənişsiz şəkildə vermək fürsəti əldə edirlər. Beləliklə, indiyədək bu təqaüd proqramından yararlanan tələbə qızların ümumi sayı **150 nəfər**, 2025-ci il ərzində təqaüd alan benefisiarların sayı isə **109 nəfərdir** .










- **"Qırmızı Ürəklər" Təhsil Təqaüd Proqramı** Təhsilin İnkişafı Fondu və Qırmızı Ürəklər Fondu arasında imzalanmış Əməkdaşlıq Memorandumu çərçivəsində, təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələr üzrə əməkdaşlığın qurulması, eləcə də tələbələr üçün uzunmüddətli təqaüd proqramının təsis edilməsi və həyata keçirilməsi məqsədilə təsis edilmişdir. Proqram ali təhsil müəssisələrinin I kursunda bakalavriat təhsili alan, qəbul imtahanlarında 600-dən yuxarı bal toplamış və aztəminatlı ailələrdən olan tələbə oğlan və qızlar üçün nəzərdə tutulmuşdur. 2024/2025-ci tədris ilində proqram çərçivəsində bütün mərhələlərdən uğurla keçmiş **23 tələbə (onlardan 11 nəfəri qız, 12 nəfəri oğlan)** 10 ay müddətində aylıq 200 manat məbləğində təqaüdlə təmin olunmuşdur. Eyni şərtlər əsasında 2025/2026-cı tədris illəri üçün proqrama **20 tələbə (onlardan 9 nəfəri qız, 11 nəfəri oğlan)** qəbul edilmişdir.





- **"Maarifçi" tələbə-məzun təcrübə proqramı** Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun birgə təşəbbüsü ilə həyata keçirilir. 4 ay müddətində davam edən proqram çərçivəsində "Maarifçi"lər Elm və Təhsil Nazirliyində və onun tabeliyində olan qurumlarda, həmçinin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin müxtəlif struktur bölmələrində təcrübə keçirlər. Proqramın əsas məqsədi elm və təhsil sahəsində keyfiyyətli insan resurslarının formalaşdırılması, tələbə və məzunların praktiki fəaliyyət vasitəsilə sahəvi bilik və bacarıqlarının artırılması, müasir təhsil yanaşmalarını mənimsəmələri, eləcə də təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək göstərilməsidir. Proqram müddətində iştirakçılar aylıq 200 manat məbləğində təqaüdlə təmin olunurlar. "Maarifçi" tələbə-məzun təcrübə proqramının I, II və III mərhələləri üzrə ümumilikdə 106 nəfər iştirakçı proqramda iştirak hüququ qazanmışdır. **Onlardan 78 nəfəri qız, 28 nəfəri isə oğlandır.**

**2025-ci ildə ilk dəfə layihə iştirakçıları üçün "Məzun Günü" keçirilmişdir.**

**Məzun günü layihə iştirakçılarının ali təhsil müəssisəsini bitirmək münasibətilə və onların göstərdiyi əzmkarlığı, əldə etdikləri nailiyyətləri qeyd etmək məqsədilə təşkil olunur.**

**Ümumilikdə 2025-ci ildə "Gənc qızların təhsilinə dəstək" layihələri üzrə 29 nəfər məzun olmuşdur.**



# 2.3 İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI SAHƏSİNDƏ GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ



# Nəqliyyat və İKT sahəsində statistik göstəricilər




Kişilərin **91.4%-i** internet istifadəçisidir. Bu göstərici 2023-cü ilə nisbətən 2024-cü ildə **1.1%** qalxmışdır. **(90.3%)**

Qadınların **90.2%-i** internet istifadəçisidir. Bu göstərici 2023-cü ilə nisbətən 2024-cü ildə **2.1%** qalxmışdır. **(88.1%)**




Kişilərin **84.1%-i** kompüter istifadəçisidir. Bu göstərici 2023-cü ilə nisbətən 2024-cü ildə **0.6%** qalxmışdır. **(83.5%)**

Qadınların **82.3%-i** kompüter istifadəçisidir. Bu göstərici 2023-cü ilə nisbətən 2024-cü ildə **0.6 %** qalxmışdır. **(81.7%)**

## Mobil telefon istifadəçiləri, %




Kişilərin **87.2%-i** mobil telefona malikdir. Bu göstərici 2023-cü ilə nisbətən 2024-cü ildə **1.7%** qalxmışdır. **(85.5%)**

Qadınların **86.0%-i** mobil telefona malikdir. Bu göstərici 2023-cü ilə nisbətən 2024-cü ildə **2.8%** qalxmışdır. **(83.2%)**

## İnformasiya və rabitə fəaliyyəti üzrə muzdla çalışan işçilərin sayı , nəfər




İnformasiya və rabitə fəaliyyəti üzrə muzdla çalışan kişilərin sayı 2024-cü ildə **23,957 nəfər** təşkil etmişdir. **(22,590)**

İnformasiya və rabitə fəaliyyəti üzrə muzdla çalışan qadınların sayı 2024-cü ildə **10,487 nəfər** təşkil etmişdir. **(10,010)**

**Nəqliyyat və anbar fəaliyyəti üzrə muzdla çalışan işçilərin sayı, nəfər**




Nəqliyyat və anbar fəaliyyəti üzrə muzdla çalışan kişilərin sayı isə 2024-cü ildə **62,529 nəfər** təşkil etmişdir. **(63,087)**

Nəqliyyat və anbar fəaliyyəti üzrə muzdla çalışan qadınların sayı isə 2024-cü ildə **13,137 nəfər** təşkil etmişdir. **(12,783)**

**Qadınların İKT və rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi məqsədilə 2025-ci ildə bir sıra tədbirlər həyata keçirilmişdir;**



- *İnnovasiya ekosistemində qadın sahibkarların rolunun artırılması məqsədilə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və "Impulse4Women" şirkətinin təşkilatçılığı ilə Azərbaycan universitetlərinin qadın tələbələri üçün **"Climatech" və dayanıqlılıq** mövzularında hakaton həyata keçirilmişdir. Hakatonda müxtəlif universitetlərin qadın tələbələrindən ibarət 14 komanda və ümumilikdə 55 iştirakçı iştirak etmişdir.*



- *Dövlət Komitəsinin təşkilatçılığı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin tərəfdaşlığı ilə **"İKT-də qadınlar" layihəsi** çərçivəsində "Rəqəmsal Sahibkarlıq" müsabiqəsi həyata keçirilmişdir. Layihə çərçivəsində ümumilikdə 44 müraciət daxil olmuş, onlardan 11 iştirakçı final mərhələsinə vəsiqə qazanmışdır. Final mərhələsinin sonunda münsiflərin qiymətləndirməsi əsasında 3 qalib seçilərək diplom və mükafatlarla təltif olunmuşdur.*
- ***24 aprel – Beynəlxalq "İKT-də Qızlar" Günü münasibətilə** Rəqəmsal İnkişaf*




və Nəqliyyat Nazirliyinin təşəbbüsü, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının dəstəyi ilə "Rəqəmsal qızlar" adlı tədbir keçirilmişdir. Təşəbbüsün əsas məqsədi 10-15 yaş arası qızların informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsindəki maraq və potensiallarını kəşf etmələrinə dəstək vermək, onları bu istiqamətdə təhsil almağa və karyera qurmağa təşviq etmək olmuşdur. Tədbirdə iştirak edən 60 məktəbli qız İKT sahəsinə dair bilik və bacarıqlarını artırmaq imkanı qazanmış, həmçinin gələcək peşə seçimləri ilə bağlı faydalı məlumatlarla tanış olmuşdur.

- Beynəlxalq ***"İKT-də Qızlar" Günü*** münasibətilə Elektron Təhlükəsizlik Xidmətinin təşkilatçılığı ilə tələbələr üçün maarifləndirici tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində və Azərbaycan-Fransız Universitetində təhsil alan 33 tələbə qız iştirak etmişdir. Tədbirin əsas məqsədi ali təhsil müəssisələrində informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılmasına töhfə vermək, eyni zamanda tələbə qızların bu sahədə gələcək karyera seçimlərinə dəstək göstərmək olmuşdur.

- "Azərbaycan Dəmir Yolları" QSC və Asiya İnkişaf Bankı ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən ***"Dəmir Yollarının Rəqəmsal Transformasiyası Layihəsi"*** üzrə hazırda gender bərabərliyinin təşviqi və qadınların texniki sahələrdə iştirakının artırılması istiqamətində ''Gender Fəaliyyət Planı'' hazırlanmışdır. Plan çərçivəsində müvafiq tədbirlərin icrası davam etdirilir.

# 2. 4 İQTİSADİ VƏ SOSİAL MÜNASİBƏTLƏRDƏ GENDER BƏRABƏRLİYİNİN TƏMİNATLARI

# 2. 4.1 İQTİSADİ VƏ SOSİAL MÜNASİBƏTLƏRDƏ GENDER BƏRABƏRLİYİNİN TƏMİNATLARI

**Qanunun 15-ci maddəsi kişi və qadınların mülkiyyət hüququnun həyata keçirilməsinə və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bərabər imkanların yaradılmasına, onların sosial təminat hüququnun həyata keçirilməsində, ünvanlı dövlət sosial yardımı və digər sosial güzəştlərin alınmasında bərabər imkanların yaradılmasına təminat verir.**

# 2.4.1 SAHİBKAR QADINLARIN DƏSTƏKLƏNMƏSİ



Qadınlar arasında sahibkarlıq və özünüməşğulluq fəaliyyətinin stimullaşdırılması, bu sahədə bilik və bacarıqların artırılması, cəlb olunan qadınların əhatə dairəsinin genişləndirilməsi məqsədilə 2025-ci ildə ölkədə çox sayda layihələr, tədbirlər həyata keçirilmişdir.

Qadın sahibkarlığının inkişafı əhali arasında yoxsulluğun azaldılmasına, ailələrin rifah halının yüksəldilməsinə təsir göstərir.

2025-ci ildə də vergi qanunvericiliyində və inzibatçılığında aparılmış islahatlar heç bir fərq qoyulmadan sahibkarlıq subyekti kimi fəaliyyət göstərən bütün şəxslərin, o cümlədən qadın sahibkarların fəaliyyətini əhatə etmiş, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bərabər imkanlar yaratmışdır.

**01.01.2026-cı il vəziyyətinə statistik vahidlərin Dövlət reyestrində qeydiyyatda olan fərdi sahibkarların sayının iqtisadi fəaliyyət növləri və cins üzrə bölgüsü**

| Fəaliyyət növləri | Fərdi sahibkar-ların sayı | ondan: | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | kişi | | | | | qadın | | | | |
| | | cəmi | mikro | kiçik | orta | iri | cəmi | mikro | kiçik | orta | iri |
| **Cəmi** | **1454061** | **1109552** | **1102516** | **6469** | **543** | **24** | **344509** | **343460** | **995** | **53** | **1** |
| o cümlədən: | | | | | | | | | | | |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 541194 | 399499 | 399233 | 252 | 13 | 1 | 141695 | 141664 | 31 | 0 | 0 |
| Mədənçıxarma sənayesi | 1312 | 1238 | 1208 | 30 | 0 | 0 | 74 | 73 | 1 | 0 | 0 |
| Emal sənayesi | 30385 | 23228 | 22825 | 372 | 27 | 4 | 7157 | 7104 | 50 | 3 | 0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 91 | 84 | 80 | 3 | 1 | 0 | 7 | 6 | 1 | 0 | 0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 1226 | 1133 | 1125 | 7 | 1 | 0 | 93 | 92 | 0 | 1 | 0 |
| Tikinti | 30944 | 29829 | 29710 | 115 | 4 | 0 | 1115 | 1106 | 9 | 0 | 0 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 269612 | 209790 | 205507 | 3930 | 336 | 17 | 59822 | 59280 | 508 | 33 | 1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 168846 | 162737 | 162519 | 208 | 9 | 1 | 6109 | 6091 | 18 | 0 | 0 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 54700 | 45389 | 44154 | 1093 | 141 | 1 | 9311 | 9082 | 215 | 14 | 0 |
| İnformasiya və rabitə | 15516 | 12168 | 12143 | 24 | 1 | 0 | 3348 | 3344 | 4 | 0 | 0 |
| Maliyyə və sığorta fəaliyyəti | 4037 | 3002 | 2993 | 8 | 1 | 0 | 1035 | 1032 | 3 | 0 | 0 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 18623 | 12993 | 12930 | 59 | 4 | 0 | 5630 | 5619 | 9 | 2 | 0 |
| Peşə, elmi və texniki fəaliyyət | 34972 | 22958 | 22907 | 51 | 0 | 0 | 12014 | 12001 | 13 | 0 | 0 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 27984 | 17844 | 17794 | 48 | 2 | 0 | 10140 | 10131 | 9 | 0 | 0 |
| Təhsil | 20176 | 6922 | 6845 | 76 | 1 | 0 | 13254 | 13187 | 67 | 0 | 0 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 7805 | 4796 | 4792 | 4 | 0 | 0 | 3009 | 3009 | 0 | 0 | 0 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 20184 | 16859 | 16796 | 62 | 1 | 0 | 3325 | 3317 | 8 | 0 | 0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 132861 | 82397 | 82305 | 91 | 1 | 0 | 50464 | 50419 | 45 | 0 | 0 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 73593 | 56686 | 56650 | 36 | 0 | 0 | 16907 | 16903 | 4 | 0 | 0 |

*Statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan **1454061** (bir milyon dörd yüz əlli dörd min altmış bir) fərdi sahibkardan **1109552** (bir milyon yüz doqquz min beş yüz əlli iki) nəfəri (76%) kişi, **344509** (üç yüz qırx dörd min beş yüz doqquz) nəfəri (24%) qadın olmuşdur.*

## 2020-2025-ci illər üzrə uçota alınmış vergi ödəyiciləri (fiziki və hüquqi şəxslər)arasında qadınların və kişilərin sayı haqqında məlumat

| İllər | Fiziki şəxs | | | Hüquqi şəxsin təsisçisi | | |
|---|---|---|---|---|---|---|
| | cəmi | kişi | qadın | cəmi | kişi | qadın |
| **2020-ci il** | **165,067** | 131,330 | 33,737 | **9,353** | 7,994 | 1,359 |
| **2021-ci il** | **111,913** | 84,439 | 27,474 | **12,027** | 10,090 | 1,937 |
| *Fərq* | *-53,154* | *-46,891* | *-6,263* | *2,674* | *2,096* | *578* |
| **2022-ci il** | **110,447** | 78,685 | 31,762 | **15,795** | 13,459 | 2,336 |
| *Fərq* | *-1,466* | *-5,754* | *4,288* | *3,768* | *3,369* | *399* |
| **2023-cü il** | **113,299** | 77,915 | 35,384 | **13,854** | 11,286 | 2,568 |
| *Fərq* | *2,852* | *-770* | *3,622* | *-1,941* | *-2,173* | *232* |
| **2024-cü il** | **86,214** | 60,264 | 25,950 | **13,933** | 11,353 | 2,580 |
| *Fərq* | *-27,085* | *-17,651* | *-9,434* | *79* | *67* | *12* |
| **2025-ci il** | **80,721** | 54,692 | 26,029 | **13,656** | 10,716 | 2,940 |
| *Fərq* | *-5,493* | *-5,572* | *79* | *-277* | *-637* | *360* |

*2020-2025-ci illər üzrə uçota alınmış vergi ödəyicilərinin (fiziki və hüquqi şəxslər) cədvəlindən görünür ki, 2025-ci ildə vergi ödəyicisi qadınların sayı artmış, kişilərin sayı azalmışdır.*

# Sahibkar qadınların dəstəklənməsi

**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən davam etdirilmişdir.**

2025-ci il ərzində KOBİA-nın strukturuna daxil olan **KOB İnkişaf Mərkəzləri tərəfindən keçirilən təlim və məsləhət xidmətlərindən 7000-ə yaxın sahibkar və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən faydalanmışdır ki, onlardan 2000-ə qədəri qadındır.**

Nazirlər Kabinetinin 30 sentyabr 2020-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası"na uyğun olaraq, **2025-ci il ərzində KOBİA tərəfindən təşkil olunmuş 7-ci qrant müsabiqəsində KOB subyektləri tərəfindən təqdim edilmiş layihələrdən 30-na qrant ayrılıb ki, onlardan 10-u qadın sahibkarlardır.**

KOBİA tərəfindən KOB subyektlərinə müvafiq meyarlara əsasən, "Startap" şəhadətnamələri verilir. "Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir.

**2025-ci ildə 59 KOB subyekti "Startap" şəhadətnaməsi əldə etmişdir ki, onlardan 10-u qadın sahibkardır.**

**2025-ci il ərzində 304 sahibkarın xidmət və məhsullarının sərgilənməsinə dəstək göstərilmişdir ki, onlardan 180-i qadın sahibkar olmuşdur.**

*2025-ci il ərzində KOBİA-nın tərəfdaşlığı, "AccessBank" QSC-nin təşkilatçılığı və "Visa"nın dəstəyi ilə növbəti dəfə "Bizdən biznesə" startap müsabiqəsinə start verilmişdir. Layihənin məqsədi innovasiyaları stimullaşdırmaq, yeni bizneslərə imkanlar yaratmaq, startapların biznes ideyalarını reallaşdırmasına dəstək olmaq, KOB-lara mentorluq və maliyyə dəstəyinin göstərilməsi, davamlı inkişaf və cəmiyyətə müsbət təsir potensialı olan perspektivli biznes konsepsiyaların araşdırılması və uğurlu sahibkar şəbəkəsinin formalaşdırılmasına töhfə vermək olmuşdur.*

*Müsabiqəyə startaplar və sahibkarlar tərəfindən bir ay ərzində 500-dən çox müraciət daxil olmuşdur. Müsabiqəyə təqdim olunmuş layihələr arasından innovativ, kreativ, davamlılıq və gəlirlilik meyarlarına cavab verən 3 qalibə AccessBank tərəfindən I yer üzrə 25.000 AZN, II yer üzrə 20.000 AZN, III yer üzrə isə 15.000 AZN məbləğində mükafat təqdim olunmuşdur. Bundan əlavə, VİSA tərəfindən xüsusi yer tutmuş qalibə 15.000 AZN pul mükafatı təqdim olunmuşdur ki, həmin yerin qalibi qadın sahibkar olmuşdur.*

***İqtisadiyyat Nazirliyinin məlumatına əsasən,*** *Dünya Bankının maliyyə dəstəyi ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən* ***"Məşğulluğa Dəstək Layihəsi" (MDL) çərçivəsində 2024-cü il 1 dekabr tarixinə qədər ümumilikdə 80557 nəfər müraciət etmişdir.***

***Onlardan 31279 nəfər (38.83 %) qadın olmuşdur.***

*İlkin monitorinq zamanı MDL-ə uyğun olan 27452 nəfər təlimlərə cəlb edilmişdir. Onlardan 9900 nəfər (36.06 %) qadın olmuşdur.*

***Təlimləri bitirmiş 24399 nəfərdən 8952 nəfər (36.69 %) qadın olmuşdur. Qiymətləndirmədən uğurla keçmiş 22917 nəfərdən 19135 nəfərə müxtəlif iqtisadi istiqamətlər üzrə avadanlıqlar verilmişdir. Avadanlıq almış 19135 nəfərdən 6634 nəfəri (34.67 %) qadın olmuşdur.***

*Bundan əlavə, MDL çərçivəsində qadınların layihəyə cəlb olunma və iştirakının artırılması istiqamətində ölkənin bütün regionlarında maarifləndirmə tədbirləri, ictimai dinləmələr təşkil olunmuşdur. Ümumilikdə 74 görüş keçirilmişdir. Görüşlərdə 1653 nəfər iştirak etmiş, bundan 811 nəfəri (49 %) qadın olmuşdur. Ümumilikdə MDL çərçivəsində qadınların iştirakçılıq payının 40% olması hədəflənmişdir. MDL çərçivəsində nəzərdə tutulan tədbirlərdə, fəaliyyətlərdə qadınların iştirakçılığının artırılması istiqamətində işlər davam etdirilir.*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsasən

Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən işaxtaran və işsiz şəxslərin bilik və bacarıqlarının artırılması, onların əmək bazarının tələblərinə uyğunlaşdırılması və bununla da onların sosial müdafiəsinin gücləndirilməsi və işlə təmin olunma imkanlarının genişləndirilməsi məqsədi ilə əmək bazarında işəgötürənlərin real tələbləri nəzərə alınmaqla, hər il mütəmadi olaraq peşə hazırlığı kursları təşkil edilir.

Bununla əlaqədar olaraq, **2025-ci il ərzində 72 peşə və ixtisas istiqaməti üzrə 11812 qadın peşə hazırlığına cəlb olunmuş, 8825 nəfər peşə hazırlığını müvəffəqiyyətlə bitirmiş və 4771 nəfər işlə təmin olunmuşdur.**

Qadınların sosial müdafiəsini gücləndirmək, əmək bazarına çıxışını asanlaşdırmaq məqsədi ilə qeyd olunan dövr ərzində Agentlik tərəfindən qadınların üstünlük təşkil etdiyi ***"Kosmesevt", "laborant-mikrobioloq", "Kosmetoloq, texnik", "Dayə", "Bərbər-vizajist-manikürçü", "Xalçaçı", "Tikiş avadanlıqlarının operatoru, tikişçi", "Geyim üzrə dizayner", "Dərzi", "Masajist", "Çörək ustası", "İnteryer və eksteryerin bədii tərtibatçısı", "İstixana operatoru", "Xalça və xalça məmulatının bərpaçısı", "Qənnadçı, şirniyyatçı", "Otel xadiməsi (təmizlik işləri)", "İnsan resursları mütəxəssisi (HR)", "Kompüter operatoru", "Sosial media mediator", "Poliqrafiya üzrə dizayner" və digər peşələr üzrə hazırlıq kursları*** təşkil olunmuşdur.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən,**

**2025-ci ildə 6508 nəfər qadın, 10319 nəfər kişi olmaqla 16827 nəfər, özünüməşğulluq proqramına cəlb olunmuşdur.**

*2024-cü ildə 7372 nəfər qadın, 9955 nəfər kişi olmaqla 17327 nəfər, özünüməşğulluq proqramına cəlb olunmuşdur.*

Qadınların məşğulluq imkanlarının genişləndirilməsi və əmək bazarında gender bərabərliyinin təmin olunması məqsədilə Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən **2025-ci il ərzində bir sıra layihələr həyata keçirilmiş və**

**layihələrdən ümumilikdə 77 qadın faydalanmışdır.**

– *2025-ci ildə isə "Qarabağ KOB-ları 2025" layihəsi çərçivəsində 62 nəfər müvafiq aktivlərlə təmin edilmişdir. "Bakı, Gəncə, Laçın, Xocalı, Şuşa, Füzuli, Abşeron şəhər və rayonlarından, eləcə də Ballıca kəndindən ümumilikdə 100 nəfər "Maliyyənin idarə olunması", "Biznes planın hazırlanması", "Marketinq", "Sosial Media Marketinqi", "İnsan resurslarının idarə olunması" və "Satış" mövzuları üzrə təlimlərə cəlb edilmişdir. 2025-ci ildə ümumilikdə 64 nəfər müxtəlif istiqamətlər üzrə zəruri aktivlərlə təmin edilmişdir ki, onlardan 22-i qadındır.*

– *Dövlət Məşğulluq Agentliyi, KOBİA və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə əməkdaşlığı çərçivəsində "Gənclərin Biznes Emalatxanası" layihə çərçivəsində 2025-ci ildə 42 nəfər aktivlərlə təmin edilmiş, onlardan 34 nəfərini qadınlar təşkil edir. Layihənin yekununda ümumilikdə 82 yeni sahibkarlıq subyektinin yaradılması nəzərdə tutulur.*

– *Dövlət Məşğulluq Agentliyi və Dövlət Turizm Agentliyinin birgə əməkdaşlığı ilə "Turistik Kənd" layihəsi icra olunur. İlkin olaraq Qusar rayonunun Ləzə kəndi, Qax rayonunun İlisu və Sarıbaş kəndlərində fəaliyyət göstərəcək, ümumilikdə 20 qonaq evinin "Aqroturizm" zərfi üzrə zəruri avadanlıqlarla təmin edilməsi nəzərdə tutulmuşdur və 2025-ci ildə layihə çərçivəsində artıq 8 nəfər müvafiq zərflə təmin olunmuşdur və onlardan 1-i qadındır.*

– *Həssas kateqoriyaya aid qadınların əmək bazarına və cəmiyyətə inteqrasiyasına dəstək göstərmək məqsədilə "Sosial müəssisələr" layihəsi icra edilmişdir. Layihə çərçivəsində fəaliyyətə başlamış "Kitab Bağı" sosial sahibkarlıq müəssisəsində 3 qadının məşğulluğu təmin edilmişdir.*

– *2021-ci ildən etibarən həssas kateqoriyaya aid vətəndaşların özünüməşğulluğuna dəstək göstərilməsi məqsədilə "Həmkarlar İttifaqları Konfederasiyası ilə birgə özünüməşğulluğa dəstək" layihəsi çərçivəsində ümumilikdə 58 vətəndaş, o cümlədən 2025-ci ildə 3 qadın olmaqla 4 nəfər müxtəlif avadanlıqlarla təmin edilmişdir.*

– *2025-ci ildə "Turizmə dəstək" layihəsi çərçivəsində 1 müəssisə zəruri avadanlıqlarla təmin olunmuş və həmin müəssisədə 5 iş yeri yaradılmışdır.*

– *"Biznesin Sədası" layihəsi çərçivəsində "dərzi" və "qənnadçı" peşələri üzrə peşə hazırlığı kurslarını bitirən, həmçinin həmin sahələr üzrə zəruri bilik və bacarıqları olan işsiz statusu olan eşitmə məhdudiyyətli 30 nəfərin (20 – "kiçik dərzi sexi, 10 – "un məmulatları istehsalı" zərfləri üzrə) avadanlıq zərfləri ilə təminatı planlaşdırılmışdır. Hesabat dövründə sözügedən layihə çərçivəsində 14 nəfər müvafiq avadanlıq zərfi ilə təmin olunmuşdur ki, onlardan 13-nü qadınlar təşkil edir.*

## Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən

### 2025-ci ildə aqrar sahədə çalışan, kredit və subsidiya alan sahibkarlar

**2025-ci ildə də Kənd Təsərrüfatı Nazirliyi tərəfindən** qadın sahibkarların və kənd yerlərində aqrobizneslə məşğul olan fermer qadınların iqtisadi resurslara çıxış imkanlarının təmin edilməsi istiqamətində fəaliyyətlər davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydaları”na əsasən Nazirlik tərəfindən **2025-ci il ərzində qadın fermerlər tərəfindən daxil olan 265 müraciət üzrə 388 ədəd kənd təsərrüfatı texnikasının alışının, 8 müraciət üzrə 75 baş damazlıq heyvanın alışının maliyyələşdirilməsi məqsədilə güzəştli vəsait ayrılmışdır**

**Maliyyələşdirilməsi üçün müraciət etmiş fermerlərin sayı (*nəfər*).**






Eyni zamanda AKİA tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə aqrar sahədə çalışan qadın fermerlərə 195 müraciət üzrə 3.88 milyon manat məbləğində güzəştli kredit, o cümlədən 134 müraciət üzrə 1.55 milyon manat məbləğində mikrokredit verilmişdir

**Aqrar sektor üzrə kredit və güzəşt verilmiş fermerlər barədə məlumat.**



2020-ci ilin 1 yanvar tarixindən etibarən aqrar sahədə subsidiyaların verilməsi "Elektron kənd təsərrüfatı" informasiya sistemi (EKTİS) vasitəsilə həyata keçirilir.

**2025-ci il ərzində 321294 sayda kişi və 89600 sayda qadın fermer "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil etdikləri məlumatlara əsasən subsidiya almışlar, habelə 265052 sayda kişi fermer və 83853 sayda qadın fermer əkin, 41906 sayda kişi fermer və 4398 sayda qadın fermer buzov, 98 sayda kişi fermer və 2 sayda qadın fermer toxum, 1684 sayda kişi fermer və 280 sayda qadın fermer barama, 7 sayda kişi fermer və 1 sayda qadın fermer ərzaqlıq buğda, 13144 sayda kişi fermer və 1065 sayda qadın fermer pambıq, 133 sayda kişi fermer və 8 sayda qadın fermer şəkər çuğunduru, 294 sayda kişi fermer və 87 sayda qadın fermer yaş tütün subsidiyası almışdırlar.**

### *Ailə kəndli təsərrüfatlarının ümumi sayı, rəhbərlərinin cins bölgüsü*

Kənd Təsərrüfatı Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 27 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ailə kəndli təsərrüfatının üzvlərinə onların statusunu, əmək fəaliyyətini və əmək stajını təsdiq edən vəsiqənin məzmunu və təqdim edilmə Qaydası"nda və digər aidiyyəti hüquqi aktlarda edilən dəyişikliyə əsasən bələdiyyə tərəfindən ailə kəndli təsərrüfatı uçota alındıqdan sonra təsdiqedici sənədlərə əsasən ailə kəndli təsərrüfatı üzvlərinə vəsiqələrin təqdim edilməsi məqsədilə EKTİS-in "kənd təsərrüfatı subyektlərinin qeydiyyatı" altsisteminə bir sıra tələb olunan məlumatlar daxil edilir. Daha sonra vəsiqə müvafiq informasiya sistemi üzərindən avtomatik formalaşır və bələdiyyənin vəzifəli şəxslərinin gücləndirilmiş elektron imzası ilə təsdiqləndikdən sonra ona EKTİS tərəfindən real vaxt rejimində nömrə verilir və ailə kəndli təsərrüfatı üzvünün elektron üsulla real vaxt rejimində əldə etməsi imkanı təmin olunur.

Hesabat ilində respublika üzrə 15 ailə kəndli təsərrüfatı (AKT) qeydiyyata alınmışdır ki, onların cəmi üzvlərinin sayı 52 nəfərdir (qadın üzvlər 10 nəfər ; kişi üzvlər 42 nəfər). Ailə kəndli təsərrüfatları üzrə qadın sədrlərin sayı 3 nəfər, kişi sədrlərin sayı isə 12 nəfərdir. Qeyd olunan 3 ailə kəndli təsərrüfatları isə aşağıdakılardır :

1. Xocalı rayonu Ballıca kəndi "Dağlar" AKT- Mirzəyeva Şəmsiyyə Telman qızı
2. Xocalı rayonu Ballıca kəndi "Kərimovlar ailəsi" AKT Kərimova Yeganə Muxtar qızı
3. Şamaxı rayonu Məlikçobanlı kəndi "Üzümçü" AKT Heydərova Çiçək Qədir qızı

### *Torpaq mülkiyyətçisi olan fermer qadınlar və kişilər barədə məlumatların təhlili*

"Elektron kənd təsərrüfatı" informasiya sistemində respublika üzrə hesabat ilinə qeydiyyatdan keçən fermerlərin (fiziki şəxslərin) sayı 724985 nəfər olmuşdur ki, bununda 191099 nəfəri qadın fermerlərdir. Əlavə olaraq bildiririk ki, torpaq mülkiyyətçiləri üzrə gender bölgüsünə dair məlumatın ilkin mənbəyi isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətidir.

### “AFAQ – Aqrar Fəaliyyətli Azərbaycan Qadınları” layihəsi

“Aqrar tədarük və təchizat” ASC tərəfindən “PAŞA Holding” MMC-nin maliyyə dəstəyi ilə kənd təsərrüfatı fəaliyyətli qadınların sahibkar kimi formalaşmasında, öz təsərrüfatlarında gəlirliliyin və məhsuldarlığın artırılmasına dəstək məqsədilə icra edilən layihədir.

Layihə çərçivəsində 2025-ci il ərzində Bakı şəhərinin kəndlərindən müraciət etmiş 5 qadın fermerin, Lənkəran, Masallı, Astara, Neftçala, Cəlilabad rayonları üzrə müraciət etmiş 9 qadın fermerin və Zərdab, Kürdəmir, Göyçay rayonlarından müraciət etmiş 4 qadın fermerin, Quba və Qusar rayonlarından müraciət etmiş 5 qadın fermerin, Xocalı rayonunun Ballıca kəndindən müraciət etmiş 56 qadın fermerin, İsmayıllı rayonunun Cülyan kəndindən müraciət etmiş 1 qadın fermerin, Zəngilan rayonundan müraciət etmiş 1 qadın fermerin təsərrüfatında baxış keçirilmiş və ilkin qiymətləndirmə aparılmış, Zəngilan rayonunda isə dəstək göstərilmiş 3 qadın fermerin təsərrüfatlarında monitorinq aparılmışdır. Ümumilikdə, 81 qadın fermerin təsərrüfata baxış keçirilib, qiymətləndirmə aparılmışdır.











Rayonlar üzrə təsərrüfatlarına baxış keçirilmiş və qiymətləndirmə aparılmış qadın fermerlərin sayı (nəfər)




Bundan əlavə Beyləqan və Füzuli rayonundan müraciət etmiş 4 qadın qrupu (Elat, Gülşən, Şamama, Zəfəran) ilə yerində görüş keçirilmiş və təsərrüfatları haqqında məlumatlar alınmışdır.

Lənkəran, Masallı, Astara, Neftçala, Cəlilabad rayonları üzrə müraciət etmiş və layihə kriteryalarına cavab verən 13 qadın fermerə, Zəngilan rayonu üzrə 1 fermerə, Ağdam rayonu üzrə 1 fermerə, Xocalı rayonu üzrə 54 fermerə, Beyləqan rayonundan olan "Elat" və "Gülşən" qadın qruplarından olan 36 fermerə, həmçinin ADAU-nun 15 tələbəsi nəzəri-praktiki təlimlərdə iştirak etmiş, tələbələrə dəstək məqsədilə Biotexnologiya (bitkilər üçün) Mərkəzi üçün inşa olunmuş adaptasiya otağının və 30 ədəd setka masası, Zaqatala rayonundan olan "Çinar Kooperativi" üçün 5 nəfərə qablaşdırma dəstəyi, ümumilikdə 125 nəfərə müəyyən avadanlıqla dəstək göstərilmişdir.

Həmçinin Şuşa şəhərinin Böyük Qaladərəsi və Kiçik Qaladərəsi kəndlərində dağ fermerliyi imkanlarının öyrənilməsi məqsədilə yerində baxış və müşahidələr aparılmışdır.

Layihə çərçivəsində Lənkəran, Masallı, Astara, Neftçala və Cəlilabad rayonlarından 33 qadın fermerə, Quba və Qusar rayonlarından 15 qadın fermerə, Xocalı rayonundan 101 qadın fermerə, Beyləqan rayonundan 72 qadın fermerə, arıçılıq, heyvandarlıq və quşçuluq istiqamətlərində, həmçinin inkubator və meyvəqurudan avadanlıqdan istifadə istiqamətləri olmaqla, ümumilikdə 221 qadın fermerə təlimlər keçirilmişdir.

Rayonlar üzrə təlim keçirilən qadın fermerlərin sayı (nəfər)



**“Şəhərdən Kəndə” layihəsi**

“PAŞA Holding” MMC-nin maliyyə dəstəyi ilə “Aqrar tədarük və təchizat” ASC tərəfindən həyata keçirilən layihədir. Layihənin əsas məqsədi Azərbaycanda aqroturizmin inkişaf etdirilməsi, qadın təsərrüfat sahibləri üçün əlavə gəlir imkanlarının və şəhər əhalisi üçün fərqli istirahət imkanlarının yaradılmasıdır.

Layihə çərçivəsində 2025-ci il ərzində Lənkəran rayonu üzrə 1, İsmayıllı rayonu üzrə 1, Qax rayonu üzrə 1, Zəngilan rayonu üzrə 1 aqroturizm təsərrüfatı olmaqla, ümumilikdə sahibi qadın olan 4 təsərrüfata səfər edilərək yerində qiymətləndirmə aparılmış, onların layihə kriteriyalarına uyğunluğu və dəstək ehtiyacı müəyyənləşdirilmişdir.

Layihə kriteriyalarına uyğun olaraq Lənkəran rayonunda 1 və Lerik rayonunda 1 olmaqla, ümumilikdə sahibi qadın olan 2 təsərrüfatda dəstək məqsədilə təmir-tikinti işləri həyata keçirilmişdir. Həmçinin Şamaxı rayonunda yerləşən “Mistika” şərabçılıq təsərrüfatına və Qazax rayonunda yerləşən “Dilbazi” şərabçılıq təsərrüfatına qablaşdırma dəstəyi göstərilmiş, hər iki təsərrüfatın “Üzüm və Şərab Festivalı”nda, “Dilbazi” şərabçılıq təsərrüfatının isə Xankəndi şəhərində təşkil edilən Aqrar Biznes Festivalında iştirakı təmin edilmişdir.

“Şəhərdən Kəndə” layihəsi “Caspian Agro” Beynəlxalq Kənd Təsərrüfatı sərgisində təmsil olunmuşdur. Sərgi çərçivəsində layihəyə qoşulmuş fermerlər – Lənkəran rayonundan olan Rəftarə Şükürova və Səyavuş Yağubova məxsus bal, mürəbbə, kompot və turşu kimi məhsullar nümayiş etdirilmişdir.

Layihə çərçivəsində təsərrüfatlara turist axınının artırılması məqsədilə Qafqaz Sahil Oteldə şimal, şimal-qərb və cənub regionlarında yerləşən aqroturizm təsərrüfatlara aid bukletlər yerləşdirilmişdir.

**“Bazar Rəqabət qabiliyyətinin Artırılması üçün Kənd Təsərrüfatı Kooperativlərinin Təşviqi” layihəsi**









Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) ilə tərəfdaşlıq çərçivəsində, FAO-nun Azərbaycan üzrə Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin texniki və maliyyə dəstəyi ilə FAO-nun Texniki Əməkdaşlıq Proqramı (TCP) əsasında həyata keçirilən "Bazar rəqabət qabiliyyətinin artırılması üçün kənd təsərrüfatı kooperativlərinin təşviqi" layihəsi çərçivəsində kooperativlərin yaradılması, xüsusilə fəal qadın qruplarının kooperativlər şəklində təşkilatlanması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq, hazırda kənd təsərrüfatı sektorunda bilavasitə qadınların rəhbərlik etdiyi (qadın sədri olan) 12 kənd təsərrüfatı kooperativi, həmçinin rəhbər heyəti qadınlardan ibarət olan daha 4 əlavə kooperativ fəaliyyət göstərir.

**Bakı İqlim Fəaliyyəti Həftəsi tədbiri**

Kənd Təsərrüfatı Nazirliyi, FAO-nun Azərbaycan nümayəndəliyi və Bakı İqlim Fəaliyyəti Həftəsi komandasının birgə əməkdaşlığı ilə 29 sentyabr – 3 oktyabr 2025-ci il tarixlərində 3000-ə qədər iştirakçını cəlb edən intensiv həftəlik proqramla Bakı İqlim Fəaliyyəti Həftəsi təşkil edilmişdir.

Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində iqlim dəyişikliyi ilə mübarizədə qadınların rolu xüsusi diqqət mərkəzində saxlanılmışdır. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında kənd təsərrüfatı sektorunda adaptasiya proseslərini sürətləndirmək üçün qadınların fəallığının artırılmasının vacibliyini vurğulamışdır. Bu məqsədlə təqdim edilən "Harmoniya" təşəbbüsü çərçivəsində iqlim maliyyəsinə çıxış və təcrübə mübadiləsi kimi məsələlərdə qadınların rolunun gücləndirilməsi hədəf olaraq müəyyənləşdirilmişdir.

**Beynəlxalq Kənd Qadınları Günü münasibətilə keçirilmiş məlumatlandırma sessiyası**

15 oktyabr tarixində KTN və FAO-nun birgə əməkdaşlığı çərçivəsində Beynəlxalq Kənd Qadınları Günü münasibətilə Şabran rayonunda məlumatlandırma sessiyası keçirilmişdir.

Tədbir zamanı "Kənd təsərrüfatı sektorunda dövlət maliyyə dəstək mexanizmləri və Aqrar Kredit və İnkişaf Agentliyinin rolu" mövzusunda təqdimat keçirilmişdir.

Tədbirin sonunda 15 oktyabr – Beynəlxalq Kənd Qadınları Günü ilə əlaqədar qadın fermer və sahibkarlara sertifikatlar təqdim edilmişdir

**"Azərbaycan Kənd Qadınları Assosiasiyası" İctimai Birliyinin fəaliyyəti**

"Azərbaycan Kənd Qadınları Assosiasiyası (AKQA)" İB tərəfindən Türkiyədən təcrübə mübadiləsinə gələn Qadın Kooperativi ilə Zaqatala rayonunda Mübadilə Seminarı keçirilmişdir.

Azərbaycan Kənd Qadınları Assosiasiyası təşəbbüsü ilə Türkiyə Cümhuriyyyətinin Tarım və Orman Bakanlığının Təhsil və Nəşr Şöbəsi Türkiyə və Azərbaycanda fəaliyyət göstərən Qadın Kooperativlərinin iş birliyini yaratmaq məqsədilə TC Tarım ve Orman Bakanlığı, Eğitim ve Yayın Dairesi Başkanlığı ilə birgə görüş keçirilmişdir. Görüşdə hər iki ölkədə heyvandarlıq və südçülük sahəsində fəaliyyəti olan üç qadın kooperativinin layihəyə cəlb olunması, kooperativlər arasında işgüzar əlaqələrin yaradılması, bacarıqların artırılması və s. ilə yanaşı layihə iştirakçısı olan altı qadın kooperativinin hər biri üçün məhsul brendinin yaradılmasına dəstək məsələləri müzakirə edilmişdir.

**Qadın qrupları ilə görüşlər və aqrar dəstək tədbirləri**

2025-ci il 30 yanvar tarixində Füzuli rayonunda "Zəfəran" qadın qrupunun üzvləri ilə görüş keçirilmiş, görüşdə kooperativlərin yaradılması ilə bağlı mövcud prosedurlara dair ətraflı məlumat verilmiş,

üzvlər arasında sorğu keçirilmiş və onların potensial imkanları müəyyən edilmişdir.

2025-ci il 31 yanvar tarixində Füzuli rayonunda "Şamama" qadın qrupunun üzvləri ilə görüş keçirilmiş, görüşdə kooperativlərin yaradılması ilə bağlı mövcud prosedurlara dair ətraflı məlumat verilmiş, üzvlər arasında sorğu keçirilmiş və onların potensial imkanları müəyyən edilmişdir.

**"Kənd Təsərrüfatı, Təbii Ehtiyatlar və Kənd Yerlərinin İnkişafı Sektoru üçün Rəqəmsal və Süni İntellekt Həlləri" regional texniki yardım layihəsi üzrə gender məsələləri haqqında məlumat**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 29 aprel tarixli 257 nömrəli Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında 2025-ci il 5 may tarixində "Kənd Təsərrüfatı, Təbii Ehtiyatlar və Kənd Yerlərinin İnkişafı Sektoru üçün Rəqəmsal və Süni İntellekt Həlləri" regional texniki yardım layihəsinə dair razılıq məktubu imzalanmış, sözügedən razılaşma 2025-ci il 13 may tarixində təsdiq edilmişdir.

Layihənin əsas məqsədi kənd təsərrüfatı, ərzaq, təbii ehtiyatlar və kənd yerlərinin inkişafı (AFNR) sektorunda rəqəmsallaşma və süni intellekt texnologiyalarının tətbiqini genişləndirməklə iqlim dəyişmələrinə uyğunlaşmanı gücləndirmək, institusional və insan potensialını artırmaq, eləcə də regional əməkdaşlığı təşviq etməkdən ibarətdir. Layihə iqlim dəyişmələri, ərzaq təhlükəsizliyi və **gender bərabərliyi sahəsində mövcud çağırışlara cavab olaraq** rəqəmsal və süni intellekt texnologiyalarından istifadə etməklə aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsini hədəfləyir.

Layihə çərçivəsində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Asiya İnkişaf Bankının birgə təşkilatçılığı ilə **gənclər və qadın fermerlər**, həmçinin müvafiq maraqlı tərəflər üçün aqrar sahədə süni intellekt texnologiyalarının tətbiqi imkanlarının artırılmasına yönəlmiş maarifləndirmə proqramlarının təşkili, eləcə də kənd təsərrüfatı sektorunda rəqəmsallaşma və süni intellekt mövzusunda tədbirin keçirilməsi nəzərdə tutulmuşdur.

Bununla əlaqədar olaraq, layihə üzrə 2 beynəlxalq və 3 milli mütəxəssis vəzifəsi üzrə işə qəbul prosesi həyata keçirilmiş, **gənclər və gender məsələləri üzrə mütəxəssis** vəzifəsinə Şəlalə Kamilova seçilmişdir. Müvafiq mütəxəssis layihə çərçivəsində **gender bərabərliyinin təşviqi, gənclərin və qadınların rəqəmsal və süni intellekt texnologiyalarına çıxış imkanlarının artırılması** istiqamətində fəaliyyətlərin əlaqələndirilməsini təmin edəcəkdir.

Layihənin icrası nəticəsində aşağıdakı əsas təsirlərin əldə olunacağı gözlənilir:

- Kənd təsərrüfatı sektorunda rəqəmsal texnologiyaların tətbiqinin genişlənməsi;
- AFNR sektorunda iqlim dəyişmələrinin təsirlərinə dayanıqlılıq və **gender aspektləri nəzərə alınmaqla** inklüziv və davamlı inkişafın sürətləndirilməsi;
- **Fermerlərin, xüsusilə qadınların** rəqəmsal texnologiyalara, bilik və innovativ həllərə çıxış imkanlarının artırılması, onların institusional və texniki potensialının gücləndirilməsi;
- Rəqəmsal kənd təsərrüfatı texnologiyaları sahəsində regional əməkdaşlığın və inteqrasiyanın inkişaf etdirilməsi.

## Aqrar sektor üzrə təhsil alanların sayı (nəfər).

| | Müəssisənin adı | Təhsilalanların ümumi sayı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
| | | Doktorantura | | Dissertantura | | Doktorantura | | Dissertantura | |
| | | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi |
| 1 | Baytarlıq Elmi-Tədqiqat İnstitutu | 2 | | 2 | | 2 | 3 | 1 | 3 |
| 2 | Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu | 4 | 1 | 1 | | | | | |
| 3 | Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu | 1 | 5 | 1 | | 1 | 2 | 2 | 3 |
| 4 | Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu | 2 | 2 | | | | | | |
| 5 | Əkinçilik Elmi-Tədqiqat İnstitutu | 7 | | | | 2 | | | |
| 6 | "Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsi | 2 | | | | 1 | 1 | | |
| 7 | Heyvandarlıq və Balıqçılıq Elmi-Tədqiqat İnstitutu | 1 | 2 | | | | | | |
| 8 | Azərbaycan Dövlət Aqrar Universiteti | 15 | 22 | 5 | 3 | 8 | 3 | 5 | 6 |
| 9 | "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsi | 1 | 7 | 3 | 1 | 3 | 6 | | |
| **Cəmi** | | **35** | **39** | **12** | **4** | **17** | **15** | **8** | **12** |

Eyni zamanda Azərbaycan Dövlət Aqrar Universitetində 2025/2026-cı tədris ilinə olan statistikaya əsasən **bakalavr pilləsi üzrə əyani bölmədə təhsil alan kişilərin sayı 4291 nəfər, qadınların sayı 1859, qiyabi bölmədə kişilərin sayı 383 nəfər, qadınların sayı isə 431 nəfərdir.**

**Magistr pilləsi üzrə isə təhsil alanların kişilərin sayı 378, qadınların sayı isə 282 nəfərdir.** Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində Gəncə Dövlət Aqrar Kollecinə 2025/2026-cı tədris ilində qəbul olunan kişilərin sayı 108 nəfər, qadınların sayı 291 nəfərdir.

## 2025/2026-cı tədris ilində Azərbaycan Dövlət Aqrar Universitetinə qəbul olan tələbələrin sayı (nəfər).

| Sahə | Əyani | | | | Qiyabi | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Kişi | Qadın | Qadınların xüsusi çəkisi (faizlə) | Cəmi | Kişi | Qadın | Qadınların xüsusi çəkisi (faizlə) |
| **Kənd təsərrüfatı ixtisasları üzrə** | 1141 | 855 | 286 | 25 | 43 | 18 | 25 | 58 |
| **Qeyri-aqrar ixtisaslar üzrə** | 651 | 378 | 282 | 43 | 40 | 15 | 25 | 63 |
| **Universitet üzrə cəmi** | **1792** | **1233** | **568** | **32** | **83** | **33** | **50** | **60** |

Azərbaycan Dövlət Aqrar Universitetinə 2025/2026-cı tədris ilində kənd təsərrüfatı ixtisasları üzrə qəbul olan qadınların sayında artım müşahidə edilmişdir.

## Aqrar Biznes Festivalları

Aqrar sahədə innovasiyaların təbliği və təşviqi, fermerlər və sahibkarlar arasında əməkdaşlığın dəstəklənməsi, eləcə də fermerlərin innovativ həllərə əlçatanlığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası **Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə ölkənin müxtəlif regionlarında Aqrar Biznes Festivalları keçirilir.**

Sözügedən festivallar fermerlərin, kiçik və orta sahibkarların, kənd təsərrüfatı məhsul və avadanlıqlarının istehsalı ilə məşğul olan yerli və xarici şirkətlərin, eləcə də beynəlxalq təşkilatların və dövlət qurumlarının iştirakı ilə müxtəlif innovativ məhsul və avadanlıqların əyani nümayişi şəklində həyata keçirilir.

Mərkəzin təşkilatçılığı ilə 2025-ci ildə 27 rayonda Aqrar Biznes Festivalı təşkil edilmişdir. Belə ki, festivallarda iştirak edən fermerlərin ümumi sayı 421907 nəfərdir ki, onlardan 192783 nəfəri qadın, 229124 nəfəri isə kişilərdir.

Aqrar İnnovasiya Mərkəzinin 2025-ci ildə dəstək göstərdiyi və əməkdaşlıq etdiyi startapçıların sayı 94 olmuşdur ki, onlardan 41-i xanım startapçıdır.

### Aqrar İnnovasiya Festivallarında iştirak edən qadın fermerlər barədə məlumat (nəfər)

| S/s | Festival keçirilən rayonlar | Festivalın keçirilmə tarixi | Qadın sayı |
|---|---|---|---|
| 1 | İmişli | 19.02.2025 | 37 |
| 2 | Tovuz | 14.03.2025 | 189 |
| 3 | Ağdaş | 04.04.2025 | 28 |
| 4 | Zəngilan | 30.04.2025 | 30 |
| 5 | Quba | 30.05.2025 | 34 |
| 6 | Samux | 06.06.2025 | 1541 |
| 7 | Şəmkir | 03.07.2025 | 649 |
| 8 | Daşkəsən | 19.07.2025 | 2432 |
| 9 | Kürdəmir | 25.07.2025 | 412 |
| 10 | Xaçmaz | 07.08.2025 | 968 |
| 11 | Göygöl | 16.08.2025 | 120000 |
| 12 | Göygöl | 30.08.2025 | 20400 |
| 13 | Bakı | 07.09.2025 | 300 |
| 14 | Şamaxı | 12.09.2025 | 35 |
| 15 | Oğuz | 16.09.2025 | 15 |
| 16 | Qobustan | 19.09.2025 | 35 |
| 17 | Ağcabədi | 22.09.2025 | 50 |
| 18 | Masallı | 26.09.2025 | 250 |
| 19 | Naxçıvan | 30.09.2025 | 56 |
| 20 | Biləsuvar | 03.10.2025 | 43 |
| 21 | Göygöl | 04.10.2025 | 1000 |
| 22 | Xankəndi | 10.10.2025 | 21 |
| 23 | Qusar | 17.10.2025 | 100 |
| 24 | Cəlilabad | 21.10.2025 | 10 |

| | | | |
|---|---|---|---|
| **25** | Şəki | 24.10.2025 | 15 |
| **26** | Ağdaş | 28.10.2025 | 7448 |
| **27** | Balakən | 29.10.2025 | 900 |
| **28** | Bakı | 31.10.2025 | 11000 |
| **29** | Saatlı | 04.11.2025 | 385 |
| **30** | Göyçay | 08.11.2025 | 10000 |
| **31** | Biləsuvar | 23.11.2025 | 10800 |
| **32** | Neftçala | 04.12.2025 | 3600 |
| **Cəmi** | | | **192783** |

Hesabat ilində **işğaldan azad olunmuş rayonların təhlükəsiz zonalarına təsərrüfatların köçürülməsi həyata keçirilmişdir.** İşğaldan azad olunmuş ərazilərə köçürüləcək təsərrüfatların təhlükəsizliyinin təmin edilməsi, köçün vaxtı, istifadəyə və icarəyə veriləcək örüş, otlaq və biçənək sahələrinin dislokasiyası barədə ictimaiyyətə əvvəlcədən məlumat verilmiş və maarifləndirmə işləri həyata keçirilmişdir. Eyni zamanda Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarına köçürülmüş təsərrüfat sahibləri üzrə də gender təhlili aparılmışdır

## Şərqi Zəngəzur və Qarabağ İqtisadi rayonlarına köçlə bağlı statistik məlumatlar (nəfər)

| Rayon | Fermerlər | Köməkçilər | Onlardan | | Cəmi |
|---|---|---|---|---|---|
| | | | qadın | kişi | |
| Laçın | 973 | 5066 | 1553 | 4486 | 6039 |
| Kəlbəcər | 3961 | 19021 | 7857 | 15125 | 22982 |
| Qubadlı | 135 | 677 | 118 | 694 | 812 |
| Füzuli | 32 | 146 | 33 | 145 | 178 |
| Xocavənd | 26 | 141 | 38 | 129 | 167 |
| Cəbrayıl | 37 | 178 | 26 | 189 | 215 |
| Zəngilan | 18 | 103 | 17 | 104 | 121 |
| **Cəmi** | **5182** | **25332** | **9642** | **20872** | **30514** |

## Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının (AQSİA) məlumatına əsasən

**2025-ci il ərzində Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası** (AQSİA) qadın sahibkarlığının təşviqi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və regionlarda sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi istiqamətində geniş fəaliyyət həyata keçirmişdir.

İl ərzində Assosiasiya tərəfindən və tərəfdaş qurumlarla birlikdə **35-dən çox yerli və beynəlxalq tədbir, forum, konfrans və görüş təşkil edilmiş və ya iştirak edilmişdir.** Bu tədbirlər çərçivəsində qadın sahibkarların biznes bacarıqlarının inkişafı, yeni əməkdaşlıq əlaqələrinin qurulması və təcrübə mübadiləsi üçün platformalar yaradılmışdır.

**AQSİA-nın təşəbbüsü və iştirakı ilə 4 beynəlxalq forum və sammit, o cümlədən "Women's Entrepreneurship Summit 2025", Qadın Yaradıcı Forumu, Türk dünyasında qadın gücü görüşü və Şimalda Qadın Sahibkarlığına Yeni Nəfəs regional forumu keçirilmişdir.**

Regionlarda qadın sahibkarlığının inkişafını təşviq etmək məqsədilə 3 şəhərdə (Gəncə, Qusar və Sumqayıt) görüşlər, maarifləndirici tədbirlər və biznes müzakirələri təşkil edilmiş, yerli qadın sahibkarların fəaliyyəti ilə tanışlıq və təcrübə mübadiləsi aparılmışdır.

2025-ci il ərzində AQSİA nümayəndələri Türkiyə, Macarıstan, Qətər və Tailand daxil olmaqla 5-dən çox beynəlxalq tədbirdə iştirak etmiş, qadın sahibkarlığının inkişafı, regional iqtisadi əməkdaşlıq və investisiya imkanları mövzularında çıxışlar etmişdir.

**Assosiasiya tərəfindən 3 beynəlxalq əməkdaşlıq memorandumu imzalanmışdır.** Bu memorandumlardan ikisi Qazaxıstanın Biznes, Cəmiyyət və Dövlətlə Əlaqələr üzrə Assosiasiyası və İslam Əməkdaşlıq Təşkilatının Qadınların İnkişafı Təşkilatı ilə əməkdaşlığın genişləndirilməsinə yönəlmişdir.





AQSİA üzvləri 2025-ci ildə müxtəlif beynəlxalq və yerli müsabiqə və mükafat proqramlarında iştirak etmiş, Assosiasiyanın üzvlərindən biri “Dayaq” mükafatına layiq görülmüş, bir sıra qadın sahibkarlar isə “Təşəbbüskar Qadınlar Gücü” müsabiqəsində mükafatlandırılmışdır.

Bundan əlavə, qadın sahibkarlığının uzunmüddətli inkişafını təmin etmək məqsədilə 3 illik strateji fəaliyyət planı hazırlanmışdır. Plan qadın sahibkarların biznes imkanlarının genişləndirilməsi, innovativ yanaşmaların tətbiqi və beynəlxalq tərəfdaşlıqların inkişafını əhatə edir.

Ümumilikdə, 2025-ci il ərzində həyata keçirilən fəaliyyətlər qadın sahibkarların iqtisadi fəallığının artırılmasına, onların beynəlxalq biznes şəbəkələrinə inteqrasiyasına və Azərbaycanda qadın sahibkarlığının inkişafına mühüm töhfə vermişdir.

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına əsasən

## Dövlət əmlakının icarəsi üzrə iştirakçıların dinamikası (2022–2025)

2022-2025-ci illəri əhatə edən statistik göstəricilər dövlət əmlakının icarəsi sahəsində iştirakçı sayının davamlı və sürətli artımını nümayiş etdirir. Ümumi iştirakçı sayı 4 il ərzində 3000 nəfərdən 12000 nəfərə yüksələrək 400% artım göstərmişdir.




*Kişi iştirakçılarda ən kəskin artım 2022-2023-cü illərdə (təxminən 2 dəfə) müşahidə olunmuşdur. 2025-ci ildə bu qrupun sayı 8000 nəfəri keçmişdir.*

*2022-ci ildə cəmi 800 nəfər olan qadın iştirakçı sayı, 2025-ci ildə 3800 nəfərə çatmışdır. Xüsusilə 2025-ci ildə qadınların iştirak payı digər illərlə müqayisədə ən yüksək həddə – 31.7%-ə çatmışdır.*

*Məlumatların analizi göstərir ki, son bir ildə (2024-2025) qadınların iştirakındakı artım tempinin (+72%), kişilərin artım tempini (+17%) üstələməsi bu sahədə qadın fəallığının yeni bir mərhələyə qədəm qoyduğunu sübut edir. Mövcud trend davam edərsə, növbəti illərdə cinslər arasındakı say fərqinin daha da azalacağı gözlənilir.*

## Dövlət əmlakının özəlləşdirilməsində iştirak edənlərin sayı (2022-2025)

Son dörd ilin məlumatları göstərir ki, 2022-ci ildəki yüksək aktivlikdən sonra müəyyən bir stabilləşmə dövrü yaşanmaqdadır və 2025-ci il üzrə rəqəmlər yenidən müsbətə doğru dəyişməyə başlamışdır.




Son dörd ilin ortalamasına baxdıqda, özəlləşdirmə prosesində iştirak edənlərin təxminən 1/3 hissəsini qadınlar, 2/3 hissəsini isə kişilər təşkil edir.

2025-ci ildə ümumi say 2022-ci ildən az olsa da, qadınların ümumi iştirakçı sayındakı payı (33%) digər bütün illərdən daha yüksəkdir.
Bu, qadın sahibkarların prosesə marağının nisbi olaraq artdığını göstərir.

2022-2024-cü illər arasında qadınların iştirak faizi kiçik templə azalsa da, 2025-ci ildə bu tendensiya qırılmış və artım müşahidə olunmuşdur.

## 2019-2025-ci illər üzrə daşınmaz əmlak sahibi olan qadın və kişilərin sayı (həmçinin birgə mülkiyyət)




**2025-ci il proqnozuna görə:**

*Kişilər sahiblərin ~54%-ni təşkil edir (~108,000 nəfər).*

*Qadınlar sahiblərin ~31%-ni təşkil edir (~62,000 nəfər).*

*Birgə mülkiyyət: Cəmi ~15%-lik payla ən aşağı göstəricidə qalır (~30,000 nəfər).*

*Qadınların əmlak sahibliyindəki payı kişilərlə müqayisədə təxminən 1.7 dəfə azdır.*

*Birgə mülkiyyətin azalması: 2021-ci ildən sonra birgə mülkiyyətə marağın (və ya qeydiyyatın) təxminən 40% azalması diqqət çəkir.*

*2024-cü ildən 2025-ci ilə doğru həm fərdi kişi, həm də fərdi qadın mülkiyyətində ~5-7% artım müşahidə olunur.*

## Hərrac İştirakçılarının Dinamikası (2022–2025)




### Sütunlar Üzrə Göstəricilər (Cəm Qiymətlər)

*2022-ci il: Ümumi 2604 nəfər (2533 kişi + 71 qadın).*
*2023-cü il: Ümumi 2802 nəfər (2792 kişi + 10 qadın).*
*2024-cü il: Ümumi 1975 nəfər (1918 kişi + 57 qadın).*
*2025-ci il: Ümumi 2442 nəfər (2420 kişi + 22 qadın).*
*Bütün illər ərzində kişi iştirakçılarının sütunu qadınlarınkından kəskin dərəcədə yüksəkdir.*

*Ümumi iştirakçı dinamikasında ən yüksək nöqtə 2023-cü ildə müşahidə olunur, 2024-cü ildə isə nəzərə çarpacaq eniş baş verir.*

*Qadın iştirakçılar 2022-ci ildə cəmi sayın təxminən 2.7%-ni təşkil etdiyi halda, 2023-cü ildə bu göstərici 0.35%-ə qədər geriləmişdir. 2025-ci ildə ümumi sütun boyu yenidən artım meyli nümayiş etdirir.*

# 2.4.2 BANK SEKTORUNDA GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ



**Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən ölkəmizdə fəaliyyət göstərən 22 banka** Dövlət Komitəsinin sorğusu göndərilmiş, məlumatlar əldə edilərək ümumiləşdirilmiş və təhlil edilmişdir.

Əldə olunan məlumatlara əsasən, banklarda gender bərabərliyi məsələlərinə həssas yanaşma mövcuddur. Gender bərabərliyinin təmin edilməsi üçün banklar tərəfindən davamlı olaraq tədbirlər keçirilir.

- ***“Azərbaycan Beynəlxalq Bankı” ASC*** *tərəfindən rəhbər qadınlar üçün* ***“Women in Leadership”*** *proqramı və IT biznes analitikası təlimləri keçirilmişdir. Layihə üzrə 30 xanım əməkdaş iştirak etmiş, nəticə etibarilə 21 əməkdaşın vəzifəsində yüksəliş və ya rol dəyişikliyi baş vermişdir. Bununla yanaşı,* ***“İnnovativSən”*** *layihəsi çərçivəsində filiallarda çalışan 20 xanım əməkdaş üçün texnologiya, innovasiya və şəxsi inkişaf istiqamətlərində ixtisaslaşmış təlim və sessiyalar təşkil olunmuşdur. Əlavə olaraq, ABB-nin xanım rəhbərləri Region filiallarında çalışan xanım əməkdaşları ilə görüş keçirmişdir. Tədbir çərçivəsində xanım Baş direktorlar və departament direktorları ilə liderlik mövzuları üzrə müzakirələr aparılmış, həmçinin direktorların iştirakı ilə panel müzakirə təşkil olunmuşdur. Təlim hissəsi qadın liderliyin rolu və inkişaf perspektivləri mövzusuna həsr edilmişdir. Görüşdə 107 region filialları üzrə xanım əməkdaş iştirak etmişdir.*




- ***“Access Bank” QSC-də*** *yalnız xanımların iştirakı ilə* ***“Future BankHers”*** *təcrübə proqramı keçirilmiş və qadınların maliyyə sektorunda karyera qurması istiqamətində bilik və bacarıqlarının artırılmasına dəstək olunmuşdur. Seçim prosesindən keçən 16 nəfər AccessBankın müxtəlif departamentlərində təcrübə keçmə imkanı əldə etmişdir. Hazırda məzunlardan 7 nəfər işçi olaraq fəaliyyətini davam edirlər.*




- ***“Bank of Baku” ASC-də “Balaca BoB”*** *layihəsi çərçivəsində qadın sahibkarlarla əməkdaşlıq edilmiş, uşaqlar üçün nəzərdə tutulmuş toxunma oyuncaqların istehsalı qadın sahibkarlar tərəfindən həyata keçirilmişdir. Layihə qadınların iqtisadi fəallığının artırılması yolu ilə gender bərabərliyinin təşviqinə və möhkəmləndirilməsinə yönəlmişdir. “Bank Respublika” ASC-də də gender bərabərliyi və qadınların rifahının təşviqi məqsədilə bir sıra sosial və maarifləndirici təşəbbüslər həyata keçirilmişdir.* ***“Women’s Day”*** *çərçivəsində bankın rəhbər qadın heyəti ilə görüş təşkil olunmuş, həmçinin* ***Bank Respublika ASC*** *və* ***TƏBİB****-in birgə təşkilatçılığı ilə* ***“Qadınların mental sağlamlığına dəstək – Towards mental wellbeing”*** *mövzusunda maarifləndirici*

*tədbir keçirilmişdir.*

- ***“Kapital Bank” ASC-də** rəhbər heyət arasında gender bərabərliyi üzrə məlumatlılığın artırılması məqsədilə **“Gizli qərəz”** və **“Women in Leadership”** mövzularında maarifləndirici görüşlər təşkil edilmişdir. Eyni zamanda, qadın əməkdaşlar üçün psixoloji təhlükəsizlik, liderlik və inkişaf təfəkkürü mövzularını əhatə edən ixtisaslaşmış sessiyalar keçirilmişdir. Bununla yanaşı, əməkdaşlara **UN Global Compact Akademiyasına** giriş təqdim olunmuş, müxtəliflik, bərabərlik və inklüzivlik mövzularında maarifləndirici məzmunların mütəmadi kommunikasiyası və təşviqi təmin edilmişdir.*




- ***“Paşa Bank” ASC-də** könüllülərdən ibarət **“Social Club”** təşkil olunmuşdur. Tədbirdə xeyriyyə, idman, kreativlik, intellektual oyunlar keçirilmiş, həmçinin həm kişilərə, həm də qadınlara onların mənəvi sağlamlığı, birliyi, fiziki sağlamlığı, onlara verilən dəyər və qatdıqları töfhəyə görə mükafatlandırmalar təqdim olunmuşdur.*
- ***“Turan Bank” ASC** İsveçrənin aparıcı “**Enabling Qapital”** fondu ilə birgə gender bərabərliyinin təşviqinə yönəlmiş strateji layihəni uğurla icra etmişdir. Layihə çərçivəsində Kolumbiya Universitetinin magistratura səviyyəsində təhsil alan 7 tələbə Bankda praktiki araşdırmalar aparmış, baş ofis və filiallarda qadın rəhbər heyəti ilə görüşlər keçirərək bankın idarəetmə strukturlarında gender bərabərliyi prinsiplərinin tətbiqi, eləcə də qadın sahibkarlara göstərilən dəstək mexanizmləri ilə tanış olmuşdur.*
- ***“Unibank” ASC** tərəfindən **“İlham verən qadınlar”** layihəsi çərçivəsində ictimai və elmi sahələrdə fərqlənən Azərbaycan qadınlarının fotoşəkillərindən ibarət açıqcalar hazırlanaraq qadın əməkdaşlara təqdim olunmuşdur.*
- ***“Yapı Kredi Azərbaycan” QSC-də** qadın əməkdaşlar üçün kouçların iştirakı ilə **“Qadının Gücü”** mövzusunda motivasiyaedici seminar təşkil edilmişdir. Seminar çərçivəsində iş və şəxsi həyatda özgüvənin artırılması, şəxsi inkişaf və pozitiv düşüncə mövzuları əhatə olunmuşdur.*
- ***“Yelo Bank” ASC** qadınlar gününə həsr edilmiş **“Baharmoniya”** konsertinə ev sahibliyi etmiş, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası ilə birlikdə sahibkar xanımlar üçün təlimin təşkil olunmasına dəstək olmuşdur. Bank, həmçinin işində uğurlu qadınları bir araya gətirən regionun ən böyük şəbəkə tədbirlərindən biri olan **“SHE Congress”** 2025-ci ilin əsas sponsorlarından biri olmuşdur. Qadın sağlamlığına diqqət çəkmək məqsədilə Süd Vəzi Xərçəngi Maarifləndirmə ayında tanınmış həkim-ginekoloqun iştirakı ilə xanım əməkdaşları üçün infosessiya təşkil etmiş və “Yelo Bank” ASC-nin Baş ofisində xanımlar üçün yoqa dərsləri təşkil olunmuşdur.*

Digər banklar tərəfindən də işə qəbul zamanı hər zaman gender balansının saxlanılması və heç bir halda gender və ya bir başqa şəxsi keyfiyyətlərə görə işçilərin qiymətləndirilməməsinə mütəmadi riayət olunur.

***2024-cü ilin sonuna bank sektorunda rəhbər vəzifədə çalışan əməkdaşların 79%-ni (3 132 nəfər) kişi, 21%-ni (840 nəfər) isə qadın olmuşdur.***

***2025-ci ilin sonuna bank sektorunda rəhbər vəzifədə çalışan əməkdaşların 78%-i (3 341 nəfər) kişi, 22%-i (940 nəfər) isə qadınlar olmuşdur.***

# 31.12.2025-ci il tarixinə rəhbər işçilər barədə statistik MƏLUMAT

| Bankın adı | Rəhbər işçilərin sayı | | |
|---|---|---|---|
| | Cəmi, o cümlədən | Kişi | Qadın |
| **Cəmi** | **4480** | **3495** | **985** |
| Azərbaycan Respublikası Mərkəzi Bankı | **199** | 154 | 45 |
| AccessBank QSC | **216** | 179 | 37 |
| “AFB Bank” ASC | **74** | 61 | 13 |
| "Azərbaycan Beynəlxalq Bankı" ASC | **871** | 689 | 182 |
| "ASB” ASC | **42** | 27 | 15 |
| “Azər-Türk Bank” ASC | **217** | 158 | 59 |
| "Bank Avrasiya" ASC | **32** | 22 | 10 |
| Bank “BTB” ASC | **73** | 54 | 19 |
| Bank Melli İran Bakı filialı | **10** | 9 | 1 |
| "Bank of Baku" ASC | **132** | 112 | 20 |
| Bank Respublika | **237** | 205 | 32 |
| “Bank VTB (Azərbaycan)” ASC | **97** | 71 | 26 |
| “Expressbank” ASC | **100** | 74 | 26 |
| ASC "Xalq" Bank | **197** | 138 | 59 |
| "Kapital Bank" ASC | **620** | 510 | 110 |
| “PAŞA Bank” ASC | **208** | 154 | 54 |
| “Premium Bank” ASC | **60** | 37 | 23 |
| “Rabitəbank” ASC | **292** | 226 | 66 |
| "TuranBank" ASC | **251** | 193 | 58 |
| "Unibank" ASC | **367** | 278 | 89 |
| “Yapı Kredi Bank Azərbaycan” QSC | **60** | 46 | 14 |
| "Yelo Bank" ASC | **100** | 78 | 22 |
| "Ziraat Bank Azərbaycan" ASC | **25** | 20 | 5 |

***2024-cü ilin sonuna bank sektorunda çalışan işçilərin (ümumilikdə 26 275 nəfər) 61.5%-i (16 151 nəfər) kişi, 38.5%-i (10 124) qadın olmuşdur.***

***2025-ci ilin sonuna bank sektorunda çalışan işçilərin (ümumilikdə 27 181 nəfər) 60.7%-i (16 509 nəfər) kişi, 39.3%-i (10 672) qadın olmuşdur.***

## 31.12.2025-ci il tarixinə işçilər barədə statistik MƏLUMAT

| Bankın adı | Ümumi işçilərin sayı | | |
|---|---|---|---|
| | Cəmi, o cümlədən | Kişi | Qadın |
| **Cəmi** | **28196** | **17137** | **11059** |
| Azərbaycan Respublikası Mərkəzi Bankı | **1015** | 628 | 387 |
| "AccessBank" QSC | **1681** | 1132 | 549 |
| “AFB Bank” ASC | **420** | 275 | 145 |
| "Azərbaycan Beynəlxalq Bankı" ASC | **4598** | 2608 | 1990 |
| "ASB” ASC | **221** | 133 | 88 |
| “Azər-Türk Bank” ASC | **745** | 430 | 315 |
| "Bank Avrasiya" ASC | **118** | 62 | 56 |
| Bank “BTB” ASC | **264** | 153 | 111 |
| Bank Melli İran Bakı filialı | **26** | 17 | 9 |
| "Bank of Baku" ASC | **1049** | 672 | 377 |
| Bank Respublika | **1926** | 1277 | 649 |
| “Bank VTB (Azərbaycan)” ASC | **485** | 296 | 189 |
| “Expressbank” ASC | **844** | 487 | 357 |
| ASC "Xalq" Bank | **1204** | 707 | 497 |
| "Kapital Bank" ASC | **5765** | 3453 | 2312 |
| “PAŞA Bank” ASC | **1603** | 877 | 726 |
| “Premium Bank” ASC | **206** | 120 | 86 |
| “Rabitəbank” ASC | **1333** | 835 | 498 |
| "TuranBank" ASC | **860** | 524 | 336 |
| "Unibank" ASC | **2024** | 1226 | 798 |
| “Yapı Kredi Bank Azərbaycan” QSC | **260** | 176 | 84 |
| "Yelo Bank" ASC | **1320** | 907 | 413 |
| "Ziraat Bank Azərbaycan" ASC | **229** | 142 | 87 |

## 2025-ci ildə bank əməliyyatları aparan əmanətçilər, sığorta olunanlar, kredit götürənlər arasında qadınların və kişilərin sayı və təhlili.

Banklardan alınan məlumatlara əsasən bank əmanətçilərinin 57.9%-i (6.3 mln. nəfər) kişi, 42.1%-i (4.6 mln. nəfər) qadınlardır (2024-cü ilin sonuna müvafiq olaraq 56.1% və 43.9%).

2025-ci ilin sonuna qorunan əmanətçilərin 58%-i (6.3 mln. nəfər) kişi, 42%-i (4.6 mln. nəfər) qadın əmanətçilər olmuşdur (2024-cü ilin sonuna müvafiq olaraq 56% və 44%).

31.12.2025-ci il tarixinə kredit götürənlərin 58.6%-i (1.9 mln. nəfər) kişilər, 41.4%-i (1.4 mln. nəfər) isə qadınlar olmuşdur. Məlumat üçün qeyd edək ki, 2024-cü ilin sonuna kredit götürənlərin 40.5%-ni (1.5 mln. nəfər) qadınlar təşkil etmişdir (2025-ci ildə kredit götürən qadın borcalanlar üzrə 100 min nəfər azalma olmuşdur).

## 31.12.2025-ci il tarixinə bank məhsullarından istifadə edən müştərilərin gender meyarı üzrə bölgüsü barədə MƏLUMAT

| Bankın adı | Əmanətçi sayı (cari hesablar, müddətli depozitlər) | | | o cümlədən sığorta olunan əmanətçilərin sayı (qorunan əmanətçilər) | | | Kredit götürənlərin sayı | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi, o cümlədən | Kişi | Qadın | Cəmi, o cümlədən | Kişi | Qadın | Cəmi, o cümlədən | Kişi | Qadın |
| **Cəmi** | **10,925,692** | **6,330,925** | **4,594,767** | **10,875,834** | **6,290,429** | **4,585,405** | **3,265,158** | **1,913,789** | **1,351,369** |
| "Azərbaycan Beynəlxalq Bankı" ASC | 2,267,205 | 1,248,807 | 1,018,398 | 2,259,238 | 1,244,693 | 1,014,545 | 507,925 | 294,903 | 213,022 |
| "Kapital Bank" ASC | 4,390,110 | 2,398,399 | 1,991,711 | 4,374,555 | 2,383,300 | 1,991,255 | 1,643,585 | 892,012 | 751,573 |
| "Unibank" ASC | 1,413,172 | 790,351 | 622,821 | 1,412,578 | 787,296 | 625,282 | 318,421 | 178,085 | 140,336 |
| Bank Respublika | 279,692 | 189,009 | 90,683 | 277,781 | 187,943 | 89,838 | 110,911 | 77,795 | 33,116 |
| "Bank of Baku" ASC | 428,931 | 224,412 | 204,519 | 428,136 | 228,055 | 200,081 | 176,044 | 106,968 | 69,076 |
| "PAŞA Bank" ASC | 347,000 | 228,430 | 118,570 | 346,452 | 227,898 | 118,554 | 7,434 | 5,819 | 1,615 |
| "Rabitəbank" ASC | 387,823 | 254,807 | 133,016 | 369,841 | 244,476 | 125,365 | 86,418 | 58,836 | 27,582 |
| AccessBank QSC | 206,675 | 144,821 | 61,854 | 206,095 | 144,426 | 61,669 | 118,102 | 90,572 | 27,530 |
| "Azər-Türk Bank" ASC | 127,586 | 90,462 | 37,124 | 127,502 | 90,451 | 37,051 | 48,324 | 35,380 | 12,944 |
| "Expressbank" ASC | 132,895 | 84,609 | 48,286 | 132,608 | 84,369 | 48,239 | 26,117 | 15,925 | 10,192 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| ASC "Xalq" Bank | 146,447 | 118,07 1 | 28,376 | 145,352 | 117,40 9 | 27,943 | 20,524 | 14,594 | 5,930 |
| “AFB Bank” ASC | 117,947 | 91,162 | 26,785 | 117,886 | 91,114 | 26,772 | 8,138 | 5,595 | 2,543 |
| "TuranBank" ASC | 135,349 | 91,765 | 43,584 | 135,219 | 91,523 | 43,696 | 48,568 | 29,177 | 19,391 |
| "Yelo Bank" ASC | 254,655 | 183,53 9 | 71,116 | 253,193 | 175,36 1 | 77,832 | 84,916 | 67,673 | 17,243 |
| “Yapı Kredi Bank Azərbaycan” QSC | 123,841 | 88,564 | 35,277 | 123,698 | 88,560 | 35,138 | 23,396 | 15,323 | 8,073 |
| "Ziraat Bank Azərbaycan" ASC | 37,259 | 23,422 | 13,837 | 36,735 | 23,189 | 13,546 | 1,050 | 765 | 285 |
| Bank “BTB” ASC | 14,396 | 9,413 | 4,983 | 14,373 | 9,409 | 4,964 | 10,670 | 6,682 | 3,988 |
| “Premium Bank” ASC | 30,958 | 19,090 | 11,868 | 30,921 | 19,062 | 11,859 | 5,509 | 4,300 | 1,209 |
| "ASB” ASC | 40,317 | 24,039 | 16,278 | 40,260 | 24,156 | 16,104 | 1,729 | 1,357 | 372 |
| “Bank VTB (Azərbaycan)” ASC | 32,056 | 21,010 | 11,046 | 32,047 | 21,005 | 11,042 | 14,077 | 10,004 | 4,073 |
| "Bank Avrasiya" ASC | 11,165 | 6,578 | 4,587 | 11,153 | 6,571 | 4,582 | 2,954 | 1,762 | 1,192 |
| Bank Melli İran Bakı filialı | 213 | 165 | 48 | 211 | 163 | 48 | 346 | 262 | 84 |

***Məlumat toplanılmış 22 bank üzrə gender məsələləri üzrə məsul şəxslər fəaliyyət göstərir.*** *(siyahısı kitabın sonunda yerləşdirilmişdir)*

# 2.4.3. SOSİAL TƏMİNAT HÜQUQLARININ HƏYATA KEÇİRİLMƏSİNDƏ GENDER BƏRABƏRLİYİ



Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 16-cı maddəsinə əsasən əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır.

Qadınlara, əlilliyi olan şəxslərə, yaşı 18-dən az olan və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir.

Əmək münasibətləri prosesində işçilər arasında sözügedən maddənin birinci hissəsində göstərilən ayrı-seçkiliyə yol verən işəgötürən və ya digər fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyət daşıyır. Ayrı-seçkiliyə məruz qalan işçi pozulmuş hüququnun bərpa edilməsi tələbi ilə məhkəməyə müraciət edə bilər.

## Əlilliyi olan şəxslərlə bağlı cins təhlili və onların məşğulluğu

**2024-cü və 2025-ci illər üzrə ilkin əlillik təyinatları ilə bağlı məlumatlar aşağıdakı cədvəllərdə təqdim edilir:**






2025-ci ildə Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən ölkədə 1975 nəfəri qadın və 3820 nəfəri kişi olmaqla 5795 nəfər **əlilliyi olan şəxs işlə təmin olunmuşdur.**

Eyni zamanda hesabat ilində 487 nəfər **əlilliyi olan şəxs peşə hazırlığı və əlavə təhsilə cəlb edilmiş,** onlardan 231 nəfərini qadınlar və 256 nəfərini kişilər təşkil etmişdir.

Bu dövrdə 504 nəfərini qadınlar, 1236 nəfərini kişilər təşkil etməklə, 1740 nəfər əlilliyi olan **şəxs kvota yerləri üzrə işlə təmin olunmuşdur.**

**Özünüməşğulluq proqramı üzrə** 2025-ci ildə 286 nəfəri qadın, 998 nəfəri kişi olmaqla 1284 nəfər əlilliyi olan şəxs cəlb edilmişdir.

2025-ci ildə 139 nəfəri qadın, 584 nəfər kişi olmaqla ümumilikdə **723 nəfər əlilliyi olan şəxs haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir.**

2025-ci ildə 8 nəfər qadın, 23 nəfəri kişi olmaqla ümumilikdə 31 nəfər əlilliyi olan şəxs **sosial iş yerlərində işçilərin əməkhaqlarının maliyyələşdirilməsi proqramı üzrə işlə** təmin edilmişdir.

Həmçinin əlilliyi olan şəxslərin iş axtarışı bacarıqlarının inkişafına və əmək bazarına inteqrasiyaya dəstək məqsədilə Agentlik tərəfindən bu kateqoriyadan olan şəxslər üçün “İş Klubu 23” layihəsi çərçivəsində təlimlər təşkil edilmişdir. Təlimlərdə iştirakçılara iş axtarma strategiyaları, karyera planlaması və şəxsi inkişaf mövzularında biliklər təqdim olunmuşdur. Ümumilikdə layihədə 19 nəfər iştirak etmiş, onlardan 14 nəfər sertifikatla təltif olunmuşdur.

Bununla yanaşı, Agentliyin “Alo karyera” dəstək xidməti çərçivəsində 2025-ci il ərzində 268 nəfər əlilliyi olan şəxsə 320 konsultasiya xidməti göstərilmişdir. “Alo Karyera” dəstək xidmətinə onlayn şəkildə karyera planlaması, məqsədlərin təyin olunması, ixtisas seçimi, əmək bazarı və iş axtarışı, CV-lərin hazırlanması, müsahibəyə hazırlıq və s. ilə bağlı məlumat və tövsiyələrin verilməsi, bu sahələrdə zəruri köməkliyin göstərilməsi daxildir.

Bundan əlavə, “İnklüziv İnkişaf” proqramı çərçivəsində əlilliyi olan şəxslərin

peşə və karyera inkişafını dəstəkləmək məqsədilə təlimlər təşkil edilmiş, proqram "İnklüziv Karyera Forumu" ilə yekunlaşması nəzərdə tutulmuşdur və ümumilikdə layihəyə 30 nəfər əlilliyi olan şəxs cəlb olunmuşdur.

Bununla yanaşı, Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan şəxslər üçün Peşə-əmək Reabilitasiya Mərkəzinə **456 əlilliyi olan şəxs (onlardan 146 nəfəri qadın, 310 nəfəri kişi) müxtəlif peşə hazırlıq kurslarına cəlb edilmişdir.**

## Ünvanlı dövlət sosial yardım alanların cins təhlili

Aztəminatlı ailələrə 2006-cı ildən etibarən ünvanlı dövlət sosial yardımının (ÜDSY) verilməsinə başlanılmışdır ki, bu sosial layihə həmin kateqoriyadan olan ailələrin rifah halının yüksəldilməsində, onların sosial-məişət və maddi çətinliklərinin həllində xüsusi əhəmiyyət kəsb edir. ÜDSY-nin məqsədi aztəminatlı ailələrin sosial rifah halının yaxşılaşdırılması məqsədilə onların gəlirlərinə uyğun pul yardımının verilməsidir. Sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır. Ehtiyac meyarının həddi və ölkə üzrə yaşayış minimumu hər il mütəmadi olaraq artırılır.

Hesabat dövründə aztəminatlı ailələrin maddi rifahının yaxşılaşdırılması məqsədilə onların ÜDSY hüququnu müəyyənləşdirən şərtləri optimallaşdırılmış, elektron informasiya sisteminin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Vətəndaşlar üçün elektron müraciət prosedurunun təkmilləşdirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "**Ünvanlı yardım" (VEMTAS) altsistemindən** istifadə sadələşdirilmiş və müraciət zamanı daxil edilən məlumatlar minimuma endirilmişdir.

Eyni zamanda bildiririk ki, ünvanlı dövlət sosial yardımı təyin edilərkən cinsi ayrı-seçkiliyə yol verilmir. Yardımın təyin olunması üçün müraciət və digər prosedurlar zamanı müraciət etmiş şəxsin qadın və ya kişi olması ilə bağlı məhdudiyyət nəzərdə tutulmamışdır.

Məlumat üçün bildiririk ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 21 dekabr tarixli 43/09 №-li qərarı ilə təsdiq edilmiş "Sosial müavinətlər, kompensasiyalar və təqaüdlər haqqında" 4-MKT №-li rəsmi statistika hesabatı I-III rüblər üzrə hesabat dövründən sonra 35-ci gündən, IV rüb üzrə isə hesabat dövründən sonra 45-ci gündən gec olmayaraq, 2014-cü il 31 iyul tarixli 22/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımı haqqında" 4-ÜDSY №-li rəsmi statistika hesabatı isə hesabat dövründən sonra 35-ci gündən gec olmayaraq Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən hazırlanaraq Dövlət Statistika Komitəsinə təqdim edilir.

## Sosial müavinətlər, kompensasiyalar, təqaüdlər və ünvanlı dövlət sosial yardımı üzrə statistik göstəricilər

| Göstəricilər | rəsmi statistik hesabatına əsasən say (nəfər) | |
|---|---|---|
| | 01.01.2025-ci il tarixinə | 01.01.2026-cı il tarixinə |
| Aylıq sosial müavinət və kompensasiya alanlar | 453 312 | 471 796 |
| *onlardan:* qadınlar | 224 496 | 229 319 |
| Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alanlar | 401 387 | 406 881 |
| *onlardan:* qadınlar | 129 656 | 134 129 |
| Ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələr | 75 959 | 76 103 |
| *o cümlədən:* ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailə üzvləri | 334 472 | 339 954 |
| *onlardan:* qadınlar | 176 596 | 178 927 |

## Pensiya alanların cins təhlili

Məlumat üçün bildiririk ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (bundan sonra – DSK) 2007-ci il 5 dekabr tarixli 46/5 №-li Sərəncamı ilə təsdiq edilmiş "Əmək pensiyaları haqqında" 1-pensiya №-li rəsmi statistika hesabatı I-III rüblər üzrə hesabat dövründən sonra 35-ci günədək, illik hesabat isə mart ayının 5-dək Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən hazırlanaraq DSK-ya təqdim edilir.

Hazırda "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinə əsasən **2025-ci il üzrə kişilərin pensiya yaşı 65, qadınlarda isə (01.07.2025-ci il tarixdən) 64.5 yaşdır.**

Qeyd edək ki, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır. Bu proses bitdikdən sonra fərq aradan qalxacaq və həm qadınlar, həm də kişilər üçün pensiya yaşı 65 olacaqdır.

**Həmçinin 2025-ci ilin yekunlarına əsasən çəkili orta pensiya yaşı 62.9 yaş olmaqla kişilər üzrə normativ yaşdan 2.3 il, qadınlar üzrə 1.4 il daha az olmuşdur.**

### "Pensiya təminatı haqqında" rəsmi statistika hesabatına əsasən 01.01.2026-ci il tarixinə pensiyaçıların kişi və qadınlar üzrə bölgüsü

| Pensiya növü | Ümumi say | Qadınların sayı | Kişilərin sayı | Qadınların faizlə payı | Kişilərin faizlə payı |
|---|---|---|---|---|---|
| Cəmi | **1098890** | **610460** | **488430** | **55,55%** | **44,45%** |
| Yaşa görə | 711772 | 391826 | 319946 | 55,05% | 44,95% |
| Əlilliyə görə | 251195 | 111067 | 140128 | 44,22% | 55,78% |
| ABİ | 135923 | 107567 | 28356 | 79,14% | 20,86% |

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin məlumatına əsasən

**Agentliyin tabeliyində olan sosial xidmət müəssisəsində 2025-ci il ərzində 1854 kişi, 1454 qadın olmaqla 3308 şəxsə xidmət göstərilmiş, həmçinin 747 kişi, 413 qadın olmaqla 1160 sakin qəbul edilmişdir.**

## Sosial xidmət müəssisələrində xidmət alanların 2025-ci il üzrə cins bölgüsü

❖ **1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsində** 124 kişi, 63 qadın olmaqla 187 şəxsə xidmət göstərilmiş, həmçinin 13 kişi, 7 qadın olmaqla 20 yeni sakin qəbul edilmişdir.

❖ **2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsində** 122 kişi, 54 qadın olmaqla 176 şəxsə xidmət göstərilmiş, həmçinin 20 kişi, 8 qadın olmaqla 28 yeni sakin qəbul edilmişdir.

❖ **1 saylı psixonevroloji sosial xidmət müəssisəsində** 125 kişi, 112 qadın olmaqla 237 şəxsə xidmət göstərilmiş, həmçinin 12 kişi, 9 qadın olmaqla 21 yeni sakin qəbul edilmişdir.

❖ **2 saylı psixonevroloji sosial xidmət müəssisəsində** 114 kişi, 33 qadın olmaqla 125 şəxsə xidmət göstərilmiş, həmçinin 24 kişi, 12 qadın olmaqla 36 yeni sakin qəbul edilmişdir.

❖ **3 saylı psixonevroloji sosial xidmət müəssisəsində** 0 kişi, 143 qadın olmaqla 143 şəxsə xidmət göstərilmiş, həmçinin 0 kişi, 10 qadın olmaqla 10 yeni sakin qəbul edilmişdir.

❖ **4 saylı psixonevroloji sosial xidmət müəssisəsində** 84 kişi, 39 qadın olmaqla 123 şəxsə xidmət göstərilmiş, həmçinin 10 kişi, 4 qadın olmaqla 14 yeni sakin qəbul edilmişdir.

❖ **Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində** 157 kişi, 142 qadın olmaqla 299 şəxsə xidmət göstərilmiş, həmçinin 40 kişi, 32 qadın olmaqla 72 yeni sakin qəbul edilmişdir.

❖ **Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində** 116 kişi, 106 qadın olmaqla 222 şəxsə xidmət göstərilmiş, həmçinin 70 kişi, 76 qadın olmaqla 146 yeni sakin qəbul edilmişdir.

❖ **"Məzun evi" Sosial Müəssisəsində** 120 kişi, 245 qadın olmaqla 365 şəxsə xidmət göstərilmişdir.

❖ **İnsan Alveri Qurbanlarına Yardım Mərkəzində** 6 kişi, 31 qadın olmaqla 37 şəxsə xidmət göstərilmişdir. Həmçinin 6 kişi, 31 qadın olmaqla 37 yeni sakin qəbul edilmişdir.

❖ **Paralimpiya İdman Kompleksində** 274 kişi, 78 qadın olmaqla 352 şəxsə xidmət göstərilmiş, həmçinin 274 kişi, 78 qadın olmaqla 352 yeni sakin qəbul edilmişdir.

❖ **Əlilliyi olan şəxslər üçün Peşə-əmək Reabilitasiya Mərkəzində** 292 kişi, 154 qadın olmaqla 446 şəxsə xidmət göstərilmiş, həmçinin 204 kişi, 107 qadın olmaqla 311 yeni sakin qəbul edilmişdir.

❖ **Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzində** 8 kişi, 0 qadın olmaqla 8 şəxsə xidmət göstərilmişdir. Həmçinin 6 kişi, 0 qadın olmaqla 6 yeni sakin qəbul edilmişdir.

❖ **1 saylı uşaq evi sosial xidmət müəssisəsində** 56 kişi, 48 qadın olmaqla 104 şəxsə xidmət göstərilmiş, həmçinin 3 kişi, 3 qadın olmaqla 6 yeni sakin qəbul edilmişdir.

❖ **2 saylı uşaq evi sosial xidmət müəssisəsində**106 kişi, 62 qadın olmaqla 168 şəxsə xidmət göstərilmişdir. həmçinin 41 kişi, 18 qadın olmaqla 59 yeni sakin qəbul edilmişdir.

❖ **3 saylı uşaq evi sosial xidmət müəssisəsində** 43 kişi, 59 qadın olmaqla 102 şəxsə xidmət göstərilmiş, həmçinin 6 kişi, 8 qadın olmaqla 14 yeni sakin qəbul edilmişdir.

❖ **4 saylı uşaq evi sosial xidmət müəssisəsində** 48 kişi, 32 qadın olmaqla 80 şəxsə xidmət göstərilmiş, həmçinin 9 kişi, 5 qadın olmaqla 14 yeni sakin qəbul edilmişdir.

❖ **6 saylı uşaq evi sosial xidmət müəssisəsində** 45 kişi, 41 qadın olmaqla 86 şəxsə xidmət göstərilmiş, həmçinin 5 kişi, 3 qadın olmaqla 8 yeni sakin qəbul edilmişdir.

❖ **1 saylı Ailə tipli kiçik qrup evi sosial xidmət müəssisəsində** 0 kişi, 12 qadın olmaqla 12 şəxsə xidmət göstərilmiş, həmçinin 0 kişi, 2 qadın olmaqla 2 yeni sakin qəbul edilmişdir.

❖ **2 saylı Ailə tipli kiçik qrup evi sosial xidmət müəssisəsində** 14 kişi, 0 qadın olmaqla 14 şəxsə xidmət göstərilmiş, həmçinin 4 kişi, 0 qadın olmaqla 4 yeni sakin qəbul edilmişdir

## Ahılların yaşadığı müvafiq sosial xidmət müəssisələrində yaşayanların cins bölgüsü

2025-ci il ərzində Agentliyin tabeliyində olan Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində ümumilikdə 299 nəfərə xidmət göstərilmişdir.

Onlardan 142 nəfəri qadın, 157 nəfəri isə kişidir.

*2024-cü il ərzində 136 kişi, 138 qadın olmaqla 274 şəxsə xidmət göstərilmişdir.*

# 2.5. QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ, HƏMKARLAR İTTİFAQLARININ VƏ SİYASİ PARTİYALARIN FƏALİYYƏTINDƏ GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ



## SİYASİ PARTİYALAR

Mərkəzi Seçki Komissiyası ölkədə siyasi partiyaların fəaliyyətinin əlaqələndirilməsi, seçki prosesində iştirakının tənzimlənməsi və demokratik mühitin qorunması istiqamətində mühüm rol oynayır.

Komissiya siyasi qüvvələr arasında qanunvericiliyə uyğun əməkdaşlıq mexanizmlərinin formalaşdırılmasını təmin etməklə yanaşı, seçki prosesinin şəffaf və obyektiv şəkildə həyata keçirilməsinə nəzarət edir.

Eyni zamanda, Mərkəzi Seçki Komissiyası siyasi partiyaların fəaliyyətində institusional koordinasiyanın gücləndirilməsinə və ictimai-siyasi sabitliyin qorunmasına töhfə verən əsas dövlət qurumlarından biri hesab olunur.

Mərkəzi Seçki Komissiyasının Katibliyində 61 kişi, 62 qadın olmaqla, cəmi 123 işçi fəaliyyət göstərir. Onlardan 15 nəfər kişi və 5 nəfər qadın müxtəlif rəhbər vəzifələrdə çalışır.

Dairə seçki komissiyalarının katibliklərində ümumilikdə 749 işçi fəaliyyət göstərir, onlardan 445 nəfəri kişi, 304 nəfəri isə qadındır.

Mərkəzi Seçki Komissiyasının hal-hazırda fəaliyyətdə olan 18 üzvündən 14-ü kişi, 4-ü qadındır, onlardan 3 kişi (sədr, sədr müavini və katib) və 1 qadın (katib) rəhbər vəzifədə təmsil olunur.

125 dairə seçki komissiyasının 1118 üzvündən 883-ü (78,98%) kişi, 235-i (21,02%) qadındır. 118 (94,4%) dairə seçki komissiyasının sədri kişi, 7 (5,6%) dairə seçki komissiyasının sədri isə qadındır. Dairə seçki komissiyalarının 249 katibindən 191-i (76,71%) kişi, 58-i (23,29%) qadındır.

6345 məntəqə seçki komissiyasının 37997 üzvündən 21727-si (57,18%) kişi, 16270-i (42,82%) qadındır. 4226 (66,68%) kişi, 2112 (33,32%) qadın məntəqə seçki komissiyasının sədridir. Məntəqə seçki komissiyalarında fəaliyyət göstərən katiblərin

7057-si (55,71%) kişi, 5 611-i (44,14%) qadındır.

**2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində seçilmiş 8039 bələdiyyə üzvündən 4872-si (60,60%) kişi, 3167-si (39,40%) qadın olmuşdur.**

## QEYRI-HÖKUMƏT TƏŞKİLATLARI

Vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti ilə bağlı Ədliyyə Nazirliyindən verilən məlumata görə, **2026-cı ilədək dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatlarının sayı 3805-dir, onlardan 438 təşkilatın sədri qadınlardır.**

Qadın və gender məsələləri sahəsində 162 təşkilat fəaliyyət göstərir. Həmin təşkilatlardan 155-nin sədri qadınlardır.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2025-ci il üzrə elan etdiyi qrant müsabiqələri üzrə layihəsi qalib olan 417 qeyri-hökumət təşkilat rəhbərlərindən 168 nəfəri qadın, 249 nəfəri isə kişi olmuşdur.

**Agentlik tərəfindən 2025-ci ildə elan edilən qrant müsabiqəsi çərçivəsində qadın hüquqlarının müdafiəsi (5 layihə), məişət zorakılığı (5 layihə) və gender siyasətinin həyata keçirilməsi (9 layihə) mövzuları üzrə ümumilikdə 19 layihə maliyyələşdirilmişdir.** Həmin layihələrin maliyyələşməsinə 260200 (iki yüz altmış min iki yüz ) manat vəsait ayrılmışdır. Layihələrin icrasında 86 ekspert xidməti təşkil edilib.

Layihələr çərçivəsində 40 təlim, 18 seminar, 45 digər tədbir (konfrans, dəyirmi masa) keçirilmiş, maarifləndirici çap məhsulları paylanılmışdır. Qrant müsabiqəsi çərçivəsində layihələr 26-dan çox şəhər və rayonu (Bakı, Abşeron, Sumqayıt, Lənkəran, Lerik, Yardımlı, Astara, Masallı, Cəlilabad, Neftçala, Biləsuvar, Salyan, Sabirabad, Saatlı, Goranboy, Bərdə, Göygöl, Göyçay, Gəncə, Mingəçevir, Yevlax, Quba, Qusar, Şabran, İsmayıllı, Qəbələ, Zaqatala, Balakən və s.) əhatə etmişdir.

Ümumi layihələrin icrasından bəhrələnənlərin sayı 2317 nəfəri qadın olmaqla ümumilikdə 2951 nəfər olmuşdur.

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK)

2025-ci il ərzində üzv təşkilatlarda gender bərabərliyinin təşviqi, qadın hüquqlarının qorunması və sosial problemlərin həlli istiqamətində müxtəlif mövzularda **9 təlim və maarifləndirici tədbir** keçirilmişdir. Bu tədbirlərdə ümumilikdə **594 nəfər iştirak etmişdir.** Onlardan **379 nəfər qadın (63,8%), 215 nəfər kişi (36,2%)** olmuşdur.

Təlimlər aşağıdakı mövzuları əhatə etmişdir:

- gender bərabərliyi və onun cəmiyyət həyatında rolu;
- erkən evliliklərin qarşısının alınması və bu sahədə maarifləndirmə;
- qadınların cəmiyyətdə üzləşdiyi problemlər;
- gender əsaslı zorakılıq və uşaqlara qarşı zorakılığın qarşısının alınması;
- narkomaniyaya qarşı mübarizədə qadınların rolu;
- sağlam həyat tərzinin təşviqi və sosial məsuliyyət.




2025-ci ildə AHİK Aparatının ümumi işçilərinin 54,3%-ni kişilər və 45,7%-ni qadınlar təşkil etmişdir.




*2025-ci ildə AHİK Aparatında rəhbər vəzifədə çalışan işçilərin 64,1%-ni kişilər və 35,9%-ni qadınlar təşkil etmişdir.*




*2025-ci ildə həmkarlar ittifaqlarının seçkili orqanlarında vəzifələr üzrə qadınlar üstünlük təşkil etmişdir.*

## Kollektiv sazişlərin imzalanması zamanı gender bərabərliyinin təmin olunmasını nəzərdə tutan bəndlərin daxil edilməsi və görülən tədbirlər:

– Kollektiv sazişlərin hazırlanması və imzalanması prosesində gender bərabərliyinin təmin olunmasını, kişi və qadınlar üçün bərabər hüquq və imkanların yaradılması, sosial ədalət, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması və insan kapitalının qorunmasını nəzərdə tutan müddəalar daxil edilmişdir;

– Bərabər dəyərli əməyə görə bərabər əməkhaqqı prinsipinin tətbiqi, gender əsaslı ayrı-seçkiliyin yolverilməzliyinin təsbit edilməsi, habelə bu sahədə mövcud yanaşmaların və icra mexanizmlərinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti, AHİK və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2026–2028-ci illər üçün bağlanılması nəzərdə tutulan yeni Baş Kollektiv Sazişin (BKS) layihəsi hazırlanmış və aidiyyəti üzrə müzakirələrə təqdim edilmişdir;

– BKS-də prioritet istiqamətlərdən biri kimi müəyyən edilən gender bərabərliyinin təmin olunması məqsədilə AHİK-in üzv və tabe təşkilatlarında fəaliyyət göstərən gender bərabərliyi və qadın problemləri üzrə komissiyaların iştirakı ilə əlaqələndirilmiş fəaliyyət təşkil edilmişdir;

– Həmkarlar ittifaqları kadrlarının və fəallarının gender bərabərliyi sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə mütəmadi təlim, seminar və inkişaf yönümlü tədbirlər həyata keçirilmiş, eyni zamanda gender məsələlərinin effektiv tənzimlənməsi üçün müvafiq dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə məqsədyönlü əməkdaşlıq əlaqələri qurulmuşdur.

## 2025-ci ildə AHİK-in adiyyəti struktur bölmələrinə daxil olmuş müraciətlərin təhlili

2025-ci il ərzində AHİK-in adiyyəti struktur bölmələrinə daxil olmuş müraciətlərin təhlili göstərir ki, vətəndaşların əmək və sosial hüquqlarının qorunması, eləcə də sosial rifahının yaxşılaşdırılması istiqamətində məqsədyönlü və ardıcıl fəaliyyət həyata keçirilmişdir.




Hesabat dövrü ərzində ümumilikdə 6304 müraciət daxil olmuş, bunlardan 2926-sı (46,4%) qadınlar tərəfindən edilmişdir. Əmək münasibətləri tənzimlənməsi ilə bağlı daxil olmuş 5404 müraciətdən 2439 (45,1%) qadınların payına düşmüşdür.

– Qeyd olunan müraciətlər tərəfimizdən ayrı-seçkiliyə yol verilmədən və bərabərhüquqlu yanaşma əsasında baxılmışdır.

– Üzvlərimizin hüquqlarının müdafiəsinin mərkəzləşmiş və daha effektiv təmin olunması məqsədilə **AHİK tərəfindən 2025-ci ilin aprel ayında Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi (Mərkəz)** yaradılmışdır. Fəaliyyət dövrü ərzində Mərkəzə öz növbəsində əmək münasibətləri ilə bağlı ümumilikdə 309 müraciət daxil olmuşdur ki, onlardan 123-ü qadınlara aiddir.

# 3

# 2025-Cİ İLDƏ AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİNİN TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ ƏLDƏ EDİLMİŞ NƏTİCƏLƏR, QARŞIYA QOYULAN VƏZİFƏLƏR VƏ TÖVSİYƏLƏR

## 3.1 BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsi tərəfindən verilən tövsiyələrin icra vəziyyəti

✓ 16 iyun 2022-ci il tarixində Komitənin 82-ci sessiyasında Azərbaycan Respublikası Hökumətinin Konvensiyanın icrasının nəticələrinə dair altıncı dövri məruzəsi təqdim edilmişdir.

✓ 12 iyul 2022-ci il tarixində isə dövri məruzə üzrə Yekun Müşahidələr qəbul olunmuşdur. Yekun Müşahidələrdə Konvensiyanın ölkəmiz tərəfindən implementasiyası istiqamətində atılmalı olan növbəti addımlara dair 18 istiqamət üzrə 80 bənddən ibarət tövsiyələr verilmişdir.

✓ Qurumlararası əlaqələndirilmiş fəaliyyətin təşkili məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında aidiyyəti dövlət orqanlarının məsul və cavabdeh şəxslərinin təmsil olunduğu iki İşçi Qrup yaradılmışdır.

✓ “BMT-nin CEDAW Komitəsinin tövsiyələri: gender bərabərliyi istiqamətində mövcud vəziyyət və perspektivlər” mövzusunda mütəxəssis heyətinin təmsil olunduğu İşçi Qrupunun üzvlərinə təlim keçirilmiş, eyni zamanda İşçi Qrupunun iclası təşkil edilmişdir.

✓ **2023-cü ilin iyul ayında**

– Məişət zorakılığı qurbanlarını ödənişsiz hüquqi yardımla təmin edilməsini;

– Münaqişədən sonrakı dövrdə bərpa prosesinin sürətləndirilməsi və qadınların prosesə tam şəkildə inteqrasiya edilməsini;

– Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının qəbulunu;

– Qadınların müəyyən peşələrə və işlərə çıxışını məhdudlaşdıran, tövsiyə olunmayan peşələrin siyahısının ləğvini nəzərdə tutan bəndlərin icrası ilə bağlı Məlumat CEDAW Komitəsnə təqdim edilmişdir. (**Təcili tövsiyələr-12 (d), 14 (e), 16 (b), 32 (a)**)

✓ 15 iyul 2022-ci il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin birgə əməkdaşlığı çərçivəsində “BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasının həyata keçirilməsində qeyri-hökumət təşkilatlarının rolu” mövzusunda tədbir keçirilib.

**Qadın və qızların ədalət mühakiməsinə çıxışı ilə bağlı əngəllərin aradan qaldırılması ilə bağlı tövsiyələrə əsasən:**

*– Dövlət İmtahan Mərkəzi tərəfindən Müdafiə Sənayesi Nazirliyinin və Baş Prokurorluğun əməkdaşları üçün “Dövlət qulluğunda gender bərabərliyi”;*

*Dövlət Komitəsi və Azərbaycan Respublikasının Ali Məhkəməsinin birgə təşkilatçılığı ilə vəkillər və hakimlər üçün “Məişət zorakılığı ilə mübarizə”;*

*Daxili İşlər Nazirliyi tərəfindən polis orqanları əməkdaşları üçün “Məişət zorakılığı və onun formaları”, “zorakılıq qurbanlarını dindirmə metodları” mövzularında təlimlər keçirilib.*

*Ədliyyə Nazirliyi tərəfindən hakimlər və vəkillər üçün qadın hüquqları və gender bərabərliyinə dair mövzularla bağlı bir sıra ixtisasartırma kursları;*

*Sosial Xidmətlər Agentliyi tərəfindən qadınların hüquqlarının müdafiəsi, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası ilə bağlı bir sıra maarifləndirici təlim və seminarlar keçirilmişdir.*

*– “Məişət zorakılığının qarşısının alınması: imkanlar və perspektivlər” mövzusunda keçirilmiş Beynəlxalq Konfransda “Məişət*

*zorakılığından zərərçəkmiş şəxslərin ədalət mühakiməsinə çıxış imkanları" mövzusunda müzakirələr aparılıb.*

*– Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində "Məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası" şöbəsi fəaliyyətə başlayıb.*

*– Məişət zorakılığından zərər çəkmiş şəxslər dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilir.*

**Qadınlar, sülh və təhlükəsizlik və məcburi köçkün qadınlarla bağlı tövsiyələrə əsasən;**

*– "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilmişdir.*

**Qadınların vəziyyətinin yaxşılaşdırılması üçün milli mexanizmlə bağlı tövsiyələrə əsasən:**

*– Dövlət Komitəsi tərəfindən hazırlanmış "Gender Bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı"nı təsdiq edilib, icrasına başlanılıb.*

*– Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Mədəniyyətlərarası dialoq vasitəsilə qadın hüquqlarının təşviqi: Qlobal proqresə doğru" adlı sessiya təşkil olunmuşdur.*

*– Gender məsələləri üzrə məsul şəxslər, eləcə də Bələdiyyələrdə yaradılmış gender komissiyalarının sədrləri üçün təlimlər keçirilmişdir.*

**Stereotiplər və zərərli təcrübələrin aradan qaldırılması istiqamətində verilən tövsiyələrə əsasən;**

*–"Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" uğurla icra edilmişdir.*

*– Məişət və uşağa qulluq öhdəliklərinin bərabər şəkildə bölüşdürülməsini, eləcə də məsuliyyətli atalığı təşviq etmək, Əmək Məcəlləsinə 14 günlük ödənişli atalıq məzuniyyətinin daxil edilməsi ilə bağlı dəyişiklik qəbul edilib.*

**Qadınlara qarşı gender əsaslı zorakılıq hallarının qarşısının alınması məqsədilə təklif edilən tövsiyələrə əsasən;**

*– 2024-cü ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq dəyişikliklər edilmişdir.*

*– Qanunun şamil edildiyi şəxslər dairəsinə ər və arvadın yaxın qohumlarının da əlavə olunub.*

*– Qadınlara qarşı zorakılıq hallarının aradan qaldırılması istiqamətində dövlət orqanlarının nümayəndələrindən ibarət monitorinq və əlaqələndirmə qrupları yaradılmışdır.*

*– "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa yeni maddə əlavə olunub.*

*Yeni dəyişikliklə məişət zorakılığından zərər çəkmiş şəxslər uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəməyə müraciət etdikdə dövlət rüsumu ödəməkdən azad edilirlər. Bu addım zərərçəkmiş şəxslərin hüquqi müdafiə mexanizmlərinə çıxışını asanlaşdırmaq, onların təhlükəsizliyini təmin etmək və məhkəməyə müraciət zamanı yaranan maliyyə maneələrini aradan qaldırmaq məqsədi daşıyır.*

*– 116123 Qayğı Çağrı Mərkəzi, eyni zamanda 116111 "Qadın Dəstək Xətt" xidməti məişət zorakılığı ilə üzləşən qadınlara yardım istiqamətində fəaliyyətini davam etdirir.*

*– Hər il "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində maarifləndirici tədbirlər təşkil edilir.*

**İnsan alveri və istismarla mübarizə istiqamətində verilən tövsiyələrə əsasən;**

*– "İnsan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illəri əhatə edən Milli Fəaliyyət Planının icrası uğurla başa çatıb. Yeni, növbəti MFP layihəsi artıq hazırlanıb.*

**Qadınların ictimai-siyasi həyatda iştirakı ilə bağlı tövsiyələrə əsasən;**

*– Azərbaycan Qadınlarının VI Qurultayı keçirilmişdir.*

*– Prezident, Milli Məclis və Bələdiyyə seçkilərində qadınların seçkilərdə fəallığının yüksəldilməsinə həsr olunmuş tədbirlər təşkil edilmişdir.*

*–"İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" mövzusunda konfrans; "İslam Əməkdaşlıq Təşkilatı Həftəsi" çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatının Qadınlar Forumu keçirilmişdir.*

*– Gənc qızların şəxsi və liderlik bacarıqlarının inkişafına dəstək vermək, ictimai fəallığını təşviq etmək məqsədilə "Güclü cəmiyyətin zərif simaları" layihəsi həyata keçirilir.*

**Qadın və qızların təhsil hüququ ilə bağlı tövsiyələrinə əsasən;**

*– Elm və Təhsil Nazirliyi tərəfindən "Zərif mühəndislər", "Parla", "Maya Hacıyeva adına İKT bacarıqları" təqaüd proqramları, Dövlət Komitəsi tərəfindən isə "Gənc Qızların Təhsilinə Dəstək", "Arzumuz var", "Sən tək deyilsən", "Gələcəyə əmin addımlarla" adlı layihələr həyata keçirilir.*

*– I və II dərəcə əlilliyi olan şəxslərin, bununla yanaşı, məcburi köçkün düşmüş ailələrin övladlarının, o cümlədən qızların bakalavriat və magistratura səviyyələri üzrə təhsil haqqı dövlət vəsaiti hesabına ödənilir.*

*– Təhsil sahəsində STEAM (Science, Technology, Engineering, Arts, Mathematics) festivalı artıq 5 (beş) ildir keçirilir.*

**Məşğulluq sahəsində qadınların imkanlarının artırılması istiqamətində verilmiş tövsiyələrə əsasən;**

*– "Azərbaycanda qadınların məşğulluğu üçün hüquqi maneələrin aradan qaldırılması" istiqamətində texniki dəstək layihəsi çərçivəsində Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilmişdir. Mövcud qanunvericilikdə qadınların əməyi qadağan olunan 674 peşə və iş yeri azaldılaraq, ümumilikdə 204 peşə və iş yeri müəyyən edilir. Eyni zamanda qadağan edilən bu peşə və iş yerləri bütün qadınlara deyil, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara tətbiq edilir.*

*– Əmək Məcəlləsindəki anlayışlar sırasına "Ailə vəzifələri olan işçi" anlayışı daxil edilib. Bu anlayış qulluğa və ya köməyə ehtiyacı olan ailə üzvünə qulluq, köməklik göstərilməsi ilə əlaqədar əmək fəaliyyətinə başlamaq, əmək funksiyasını yerinə yetirmək imkanları məhdud olan işçini nəzərdə tutur.*

*– Ailə vəzifələri olan işçilərə əmək münasibətlərində güzəşt, imtiyaz və əlavə təminatların verilməsi ayrı-seçkilik hesab edilməyəcək. Növbəli iş vaxtı rejimi təşkil edilərkən və gecə növbəsinə işə təyin edilərkən də işçilərin xüsusi, o cümlədən ailə vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar ehtiyacları nəzərə alınacaq.*

*– Hamiləliyə və doğuşa görə məzuniyyətin doğuşdan əvvəlki hissəsinin müddətinin doğuş gözlənilən gündən uşağın doğulduğu günədək ötən günlər qədər ödənişli olaraq uzadılması və bu halda məzuniyyətin doğuşdan sonrakı hissəsinin qısaldılmaması Əmək Məcəlləsinə edilmiş son dəyişikliklərdəndir.*

*–"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununa edilmiş son dəyişikliyə əsasən seksual qısnamaya məruz qalmış işçinin əmək müqaviləsinə ərizəsində göstərdiyi gün xitam verilir.*

*– Kişilərin üstünlük təşkil etdiyi müəssisələrə qadınların cəlb edilməsinin təşviq edilməsi məqsədi ilə "Əmək və Məşğulluq" altsistemi üzərindən müqayisəli olaraq daha az qadınların işə cəlb olunduğu müəssisə-*

*lərin müəyyən edilməsi məqsədilə təhlillər aparılıb.*

- *Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi, BMT-nin Uşaq Fondu və Dövlət Məşğulluq Agentliyinin birgə əməkdaşlığı ilə "Əlilliyi olan gənclərin sosial-iqtisadi fəallığına dəstək" pilot layihəsinin icrasına başlanılmışdır.*

**Səhiyyə xidmətlərinə çıxış imkanlarının artırılması istiqamətindəki tövsiyələrə əsasən;**

- *Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən "Ailənizi abortsuz planlaşdırın!", "Erkən nikaha vaxtından əvvəl daxil olmağa tələsmə" "Sağlamlıq bədəni tanımaqdan başlayır!" adlı bukletlər çap edilmişdir.*
- *Elm və Təhsil Nazirliyi tərəfindən "Ümumi təhsil müəssisələrinin VIII-IX siniflərində reproduktiv sağlamlıq mövzusunda məşğələlər üzrə metodiki vəsait" hazırlanmışdır.*
- *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə ana ölümünün azaldılması istiqamətində "Azərbaycanın cənub bölgəsində təhlükəsiz analıq" adlı 3 mərhələli pilot layihə həyata keçirilmişdir.*

**İqtisadi və Sosial imtiyazlar, Kənd qadınları bəndlərində qeyd edilən tövsiyələrin icrasına əsasən;**

- *Qoşulmama Hərəkatının "Qadın Hüquqlarının İnkişafı və Qadınların Səlahiyyətləndirilməsi" üzrə konfrans təşkil edilib.*
- *Dövlət Məşğulluq Agentliyi tərəfindən "Potensial ABAD-çılara dəstək", "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması", "Qarabağ KOB-ları", "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" və "Kəndlərdə heyvandarlıq sahəsində ailə biznesinin və özünüməşğulluğun inkişafı" layihələri;*
- *Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "AFAQ – Aqrar Fəaliyyətli Azərbaycan Qadınları", "Şəhərdən Kəndə", Kənd yaşayış şəraitinin yaxşılaşdırılması üçün məşğulluq imkanlarının araşdırılması" layihələri həyata keçirilmişdir.*
- *COP29 çərçivəsində "Şəffaflıqda gender" mövzusunda yüksəksəviyyəli tədbir təşkil edilib.*

**Nikah və ailə münasibətləri ilə bağlı verilən tövsiyələrə əsasən;**

- *Erkən evlilik və qohum nikah hallarının qarşısının alınması məqsədilə "Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun qəbul edilmişdir. Nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin yerli icra hakimiyyəti orqanının onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilməsini nəzərdə tutan 10.2-ci maddəsi ləğv edilmişdir.*
- *Bakıda Türk Dövlətləri Təşkilatının Ailə Məsələləri və Sosial Siyasət Sahəsinə Məsul Nazir və Qurum Rəhbərlərinin 2-ci iclası və "Gənc Ailə Forumu" keçirilib. İclas çərçivəsində "Orta Dəhliz 360°: Geosiyasətdən Rəqəmsal Transformasiyaya, Ailədən Yaşıl İnkişafa" adlı, eyni zamanda Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin təşkilatçılığı ilə "Güclü ailələr, güclü toplumlar: TDT ölkələrində ailəni dəstəkləyici siyasətlər" adlı yan tədbirlər də təşkil edilib.*

**Pekin Bəyannaməsi və Fəaliyyət Platforması ilə bağlı bəndə əsasən;**

2025-ci ilin mart ayında BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının icrası və qiymətləndirilməsinə həsr olunmuş Qadınların Statusu Komissiyasının 69-cu sessiyasında, sentyabr ayında isə "Gender bərabərliyinə, bütün qadınların və

qızların səlahiyyətlərinin artırılmasına nail olmaq üçün Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının yenilənməsi, resursların ayrılması və icrasının sürətləndirilməsi" mövzusunda keçirilən iclasında Azərbaycan nümayəndə heyəti iştirak edib, görülmüş işlər barədə məlumat verilib.

**İcrası nəzərdə tutulan tövsiyələr**

✓ «Reproduktiv sağlamlığın qorunması və ailə planlaşdırılması haqqında» qanun layihəsinin qəbulu.

**İcra olunmamış tövsiyələr**

✓ Konvensiyanın 1 və 2-ci maddələrinə, Komitənin "İştirakçı dövlətlərin Konvensiyanın 2-ci maddəsindən irəli gələn əsas öhdəlikləri haqqında" 28 (2010) nömrəli ümumi tövsiyəsinə və Dayanıqlı İnkişaf Məqsədlərinin hər yerdə bütün qadınlara və qızlara qarşı bütün formalarda ayrı-seçkiliyə son qoyulmasına dair 5.1 nömrəli hədəfinə uyğun olaraq, konkret vaxt qrafiki müəyyən etməklə, qadınlara qarşı ayrı-seçkiliyi qadağan edən və özəl və dövlət sektorlarında birbaşa və dolayı ayrı-seçkiliyi, eləcə də ayrı-seçkiliyin kəsişən formalarını əhatə edən ayrı-seçkiliklə mübarizə üzrə hərtərəfli qanunvericilik qəbul etmək;

✓ Təhlükəsizlik Şurasının qadınlar, sülh və təhlükəsizliyə dair 1325 (2000) nömrəli qətnaməsinin icrasına dair Milli Fəaliyyət Planı"nın layihəsinin yekunlaşdırılması və qəbulunun sürətləndirilməsi;

✓ Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin statusunun aydın müəyyənləşdirilmiş səlahiyyət dairəsinə malik sahəvi nazirlik statusuna qaldırılması, adekvat texniki, maliyyə və insan resursları ilə təmini;

✓ Qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə milli mexanizmin qadın hüquqları sahəsində fəaliyyət göstərən təşkilatlarla əməkdaşlığının gücləndirilməsi və qadınların təşkilatlarının xarici maliyyə yardımı almasının qarşısını alan "Qeyri-hökumət təşkilatları haqqında" qanunun (2014) ləğvi;

✓ Həm dövlət, həm də özəl sektorlarda, xüsusilə qərarverici səviyyədə qadınların aşağı səviyyədə təmsil olunduğu və ya əlverişsiz mövqedə olduğu, Konvensiyanın əhatə etdiyi bütün sahələrdə, kənd qadınlarına, məcburi köçkün qadın və qızlara, əlilliyi olan qadınlara və ahıl qadınlara xüsusi diqqət yetirməklə, qadın və kişilərin həqiqi bərabərliyinə nailolmanı sürətləndirmək üçün zəruri strateji tədbir kimi, müvəqqəti xüsusi tədbirlərin qəbulu və vaxt məhdudiyyəti olan hədəflərin təyini;

✓ İnsan alverinə qarşı mübarizə sahəsində qanunvericilik və siyasətlərin icrasını obyektiv şəkildə qiymətləndirmək üçün monitorinq və icra funksiyalarını ayırmaq məqsədilə müstəqil "İnsan Alveri üzrə Milli Məruzəçi" təsisatının yaradılması;

✓ Fahişəliklə məşğul olan qadınlar üçün cəza nəzərdə tutan hüquqi müddəaların ləğvi;

✓ Hökumətin, parlamentin, məhkəmə sisteminin, elmi təsisatların və diplomatik xidmətin bütün səviyyələrində, xüsusilə qərarverici səviyyələrdə qadınların iştirakını artırmaq üçün seçki qanunvericiliyinə dəyişikliklər edərək, ünvanlı tədbirlər, o cümlədən kvotaların artırılması və ünvanlı kampaniyaların maliyyələşdirilməsi kimi müvəqqəti xüsusi tədbirlərin tətbiqi;

✓ Beynəlxalq Əmək Təşkilatının "Əmək sahəsində zorakılıq və qısnamanın aradan qaldırılması haqqında" Konvensiyasının (№190) ratifikasiyası;

✓ Ombudsman Təsisatının öz mandatını səmərəli, müstəqil şəkildə və "İnsan

hüquqlarının təşviqi və müdafiəsi üçün milli institutların statusuna dair Prinsiplər”ə (“Paris prinsipləri”) uyğun olaraq yerinə yetirməsi üçün adekvat texniki, maliyyə və insan resursları ilə təmin etməklə, onu gücləndirmək; iştirakçı dövlətin GANHRİ-nin Akkreditasiya üzrə Alt-Komitəsinin (SCA) tövsiyələrinin yerinə yetirilməsində Təsisata dəstək göstərməyi və bu prosesdə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının texniki yardımı üçün müraciət etmək.

**Tövsiyələrə əsasən təkliflər**

✓ *Gender bərabərliyinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi;*

✓ *Mərkəzi və yerli səviyyədə dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət, ictimai əsaslarla fəaliyyət göstərən Gender bərabərliyi məsələləri üzrə əlaqələndirmə qruplarının yaradılması;*

✓ *Gender məsələləri üzrə ictimai əsaslarla fəaliyyət göstərən məsul şəxslərlə bağlı məsələlərin qanunvericiliyə daxil edilməsi;*

✓ *Birbaşa və dolayı ayrı-seçkilik anlayışlarının qanunvericiliyə daxil edilməsi;*

✓ *Ümumi pozitiv və müvəqqəti xüsusi tədbirlərin qəbulu və tətbiqi;*

✓ *Şikayət mexanizminin təkmilləşdirilməsi;*

✓ *Gender aspektlərini nəzərə alan büdcə tərtibi məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi;*

✓ *“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanunun icrasına nəzarət mexanizminin təkmilləşdirilməsi.*

**Qeyd: 80 bənddən – icra edilib, icra edilməyib.**

## 3.2 BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri İcra vəziyyəti

2025-ci ildə milli inkişaf strategiyalarının və dövlət proqramlarının Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) inteqrasiyası istiqamətində həyata keçirilmiş tədbirlər sistemli və məqsədyönlü şəkildə davam etdirilmiş, bu məqsədlərin milli inkişaf prioritetləri və strateji sənədlərlə uzlaşdırılması təmin edilmişdir.

"Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanının 6-cı bəndinin icrasını təmin etmək məqsədilə İqtisadiyyat Nazirliyi (Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyi) tərəfindən illik hesabat hazırlanmışdır.

Hesabat ilində DİM-lərin iqtisadi və sosial planlaşdırma sistemlərinə inteqrasiyası daha da gücləndirilmiş, DİM investisiya xəritəsinin icrası başa çatdırılaraq resursların daha səmərəli bölgüsü üçün institusional əsaslar möhkəmləndirilmişdir.

DİM-lər üzrə məlumatlılığın artırılması və çoxtərəfli tərəfdaşlığın genişləndirilməsi məqsədilə müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

2025-ci il ərzində DİM göstəriciləri üzrə statistik məlumat bazasının genişləndirilməsi və statistik təminatın təkmilləşdirilməsi istiqamətində ardıcıl işlər görülmüşdür. Qlobal metodologiyalar öyrənilərək milli səviyyədə tətbiqi təmin edilmiş, məlumat istehsalı və statistik məlumatların yayımı genişləndirilmişdir.

Aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində inzibati məlumat mənbələrindən istifadənin genişləndirilməsi və məlumat mübadiləsinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülmüşdür. Statistik məlumatların keyfiyyətinə nəzarət mexanizmləri gücləndirilmiş və beynəlxalq standartlara uyğunluq təmin edilmişdir.

Hesabat ilində 13 yeni qlobal DİM göstəricisi üzrə məlumatların hazırlanması təmin edilmişdir. Bunun nəticəsində məlumat istehsalı təşkil edilən qlobal DİM göstəricilərinin sayı 153-ə, milli prioritet göstəricilərin sayı isə 112-yə çatdırılmışdır.

DİM göstəriciləri üzrə məlumatların dezaqreqasiyası sahəsində mühüm irəliləyiş əldə olunmuşdur. 2025-ci ilin sonuna 79 göstərici üzrə cins, yaş, yaşayış yeri, iqtisadi rayon və digər kateqoriyalar üzrə dezaqreqasiya təmin edilmiş, milli prioritet göstəricilər üzrə isə 61 göstərici müxtəlif bölgülər üzrə hazırlanmışdır.

Qarşıdakı dövrdə DİM-lərin icrasının dərinləşdirilməsi, institusional və maliyyə mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də qlobal hədəflərlə milli prioritetlər arasında əlaqənin daha da gücləndirilməsi nəzərdə tutulur.

## 3.3 Nəticələr

Ümumilikdə, 2025-ci ilin nəticələri göstərir ki, 2024-cü illə müqayisədə gender bərabərliyinin təmin edilməsi sahəsində hüquqi bazanın təkmilləşdirilməsi, institusional mexanizmlərin gücləndirilməsi, statistik və analitik məlumat bazasının genişləndirilməsi, həmçinin sosial və maarifləndirici tədbirlərin əhatə dairəsinin artırılması istiqamətində mühüm irəliləyişlər əldə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli, 871 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında Gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı" gender siyasətinin daha effektiv, nəticəyönümlü və dayanıqlı şəkildə həyata keçirildiyini təsdiq edir.

***2024-cü ilə nisbətən 2025-ci ildə ictimai həyatın müəyyən sahələrində qərarların qəbulunda və dövlətin idarə edilməsində qadınların təmsilçiliyinin artması müşahidə olunur:***

✓ *2024-cü illə müqayisədə* ***qadın hakimlərin sayı*** *artaraq 164 nəfərdən 194 nəfərə çatmışdır. (18,3% artmışdır.)*

✓ *Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrdə* ***hakim korpusunun*** *ümumi sayının 28,7%-ni (2024-cü ildə 26,1 %-ni),* ***məhkəmə aparatları işçilərinin*** *ümumi sayının 54,5 %-ni qadınlar təşkil edir. 2024-cü illə müqayisədə məhkəmə aparatlarında çalışan qadınların sayı 1% artmışdır.*

✓ ***Ədliyyə orqanlarında işləyən işçilərin*** *ümumi sayına münasibətdə qadınlar 20,7% (2024-cü ildə 20,1%) təşkil edir. Qadınların sayı 0,6% artmışdır.*

✓ **Penitensiar xidmət üzrə** işçilərin ümumi sayına münasibətdə qadınlar 8% (2024-cü ildə 7,5%) təşkil edir. *2024-cü illə müqayisədə kişilərin sayında 0,5% azalma, qadınların sayında isə 0,5% artma hiss olunur.*

✓ **İcra və Probasiya xidmətləri üzrə** işçilərin 77,6%-i (2024-cü ildə 78,2%-i) kişi, 22,4%-i (2024-cü ildə 21,8%-i) qadındır. *Qadınların sayında 0,6% artma müşahidə olunur.*

✓ **Daxili İşlər orqanlarında** xidmət edən əməkdaşların 12%-ni (4134 nəfər) qadınlar, 88%-ni kişilər təşkil edir. 2025-ci ildə daxili işlər orqanlarında xidmət edən qadın əməkdaşların sayı 2024-cü illə müqayisədə 2,3% artmışdır.

✓ 2025-ci ildə **Polis Akademiyasına qəbul olan** qızların sayı 2 nəfərdən 9 nəfərə çatmışdır.

✓ 2024-cü illə müqayisədə 2025-ci ildə qadın vəkillərin sayı 500 nəfərdən 633 nəfərə yüksələrək 26,6% , kişi vəkillərin sayı 2003 nəfərdən 2208 nəfərə yüksəlmiş 10,2% artım qeydə alınmışdır.

*Əvvəlki illərdə olduğu kimi 2025-ci ildə də, qadınlar onlar üçün ənənəvi olan sahələrdə (elm, təhsil, səhiyyə, xidmət sahələri) üstünlük təşkil ediblər.*

***Ötən illə müqayisədə 2025-ci ildə gender bərabərliyinə maneə olan məişət zorakılığı, erkən nikah, selektiv abort halları ilə mübarizə tədbirləri nəticəsində aşağıdakı dəyişiklik baş vermişdir;***

✓ ***Respublikanın 14 iqtisadi rayonu üzrə 2025-ci ilin 1 iyul tarixinədək (yarım il ərzində) nikah yaşının 1 il azaldılması ilə bağlı*** *daxil olan məlumatlar araşdırılmış, üzürlü səbəblər müəyyən edildikdən sonra* ***97 yetkinlik yaşına çatmayan şəxsə icra orqanları tərəfindən icazə verilmişdir****.*

✓ *2024-cü illə müqayisədə* ***18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayı 402 nəfər*** *(31,4%)* ***azalaraq, 1279-dan 877-yə düşmüşdür.***

*2023–2025-ci illər arasında təxminən 49,7% azalma deməkdir və erkən evliliklərin qarşısının alınması istiqamətində ardıcıl irəliləyişin göstəricisidir.*

✓ ***Daxili İşlər Nazirliyinə daxil olmuş məişət zorakılığı ilə bağlı müraciətlərin sayı*** *(125 müraciət azalıb), o cümlədən məişət zorakılığı ilə bağlı baş vermiş cinayət hadisələrinin sayı azalmışdır;*

✓ *2025-ci ildə məişət zorakılığından zərər çəkmiş şəxslərə verilən* ***mühafizə orderlərinin sayı - 381 (2024-cü ildə 325) qısamüddətli, 52 (2024-cü ildə 34) uzunmüddətli*** *olmuşdur.*

✓ *Doğulan qız uşaqları ilə oğlan uşaqları arasındakı* ***fərq azalmış, 6132-dən 5953-ə düşmüşdür.*** *(cins nisbəti hər 100 qıza 113 oğlan)*

*Ölkədə ötən illə müqayisədə* ***sahibkarlıq fəaliyyəti ilə məşğul olanların*** *sayında dəyişiklik olmamış, statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan fərdi sahibkardan 76% kişi, 24% qadın olmuşdur.*

*Azərbaycan Respublikasında 2025-ci ilin ilkin məlumatlarına əsasən* ***qadınların orta aylıq nominal əməkhaqqı 874,5 manat, kişilər arasında bu göstərici 1264,5 manat təşkil etmişdir.*** *2015-ci ildə qadınların orta aylıq nominal əməkhaqqı kişilərin orta aylıq nominal əməkhaqqının 53,9%-ni təşkil etdiyi halda, 2025-ci ildə bu nisbət 69,2% olmuşdur.*

## 3.4 Qarşıya qoyulan vəzifələr və tövsiyələr

### Gender siyasətinin gücləndirilməsi :

- *İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorda gender bərabərliyi mədəniyyətinin təbliği üzrə fəaliyyətlərin gücləndirilməsi;*
- *Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin gücləndirilməsi, xüsusilə də maarifləndirmə və məlumatlandırma işlərinin regionlarda daha geniş şəkildə aparılması.*
- *"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi;*
- *İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorlarda idarəetmə və qərarqəbuletmə səviyyəsində qadınların kişilərlə bərabər təmsilçiliyinin artırılması;*
- *Siyasi partiyalarda gender bərabərliyinin qorunması, idarəetmə və qərarqəbuletmədə bərabər təmsilçilik və iştirakçılıq imkanlarının genişləndirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi;*
- *Gender əsaslı büdcə siyasəti və praktikasının formalaşdırılması;*

### Təhsil sahəsində:

- *Təhsildən yayınma hallarının qarşısının alınması, xüsusilə qız uşaqlarının təhsildən yayınması ilə bağlı monitorinqlərin gücləndirilməsi.*
- *Ali təhsil müəssisələrində liderlik, idarəetmə, qərarvermə, sağlam, yaradıcı, sərbəst düşünmə,düşüncələri ifadəetmə bacarıqlarının inkişafı üzrə fənlərin tədris olunması;*
- *Təhsil müəssisələrində, xüsusilə ümumtəhsil məktəblərində kişi müəllimlərin sayının az olduğunu nəzərə alaraq, təhsil sahəsinə kişilərin cəlb edilməsini stimullaşdıran tədbirlərin müəyyən olunması;*
- *Özəl elm və təhsil müəssisələrinin lisenziyalaşdırılması və akkreditasiyası zamanı gender bərabərliyi prinsipinə əməl olunması ;*
- *Təhsil müəssisələrində direktorların işə qəbulu zamanı müsahibə komissiyalarında gender bərabərliyinin təmin olunması;*
- *Təhsilin bütün pillələrinə aid tədris resursları üzrə gender ekspertizasının keçirilməsi;*
- *Təhsilin bütün pillələrində fənn proqramlarına uşaq və qadın hüquqları, gender bərabərliyi üzrə mövzuların daxil edilməsi;*

### Məşğulluq sahəsində:

- *Ailə öhdəliyi olan işçilərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə məktəbəqədər təhsil infrastrukturunun inkişafı üzrə tədbirlərin davam etdirilməsi;*
- *Əmək bazarında qadınların vəziyyəti ilə bağlı hərtərəfli statistik informasiyaların və etibarlı məlumat bazasının formalaşdırılması;*
- *Qadın sahibkarlığının stimullaşdırılması üzrə yeni mexanizmlərin işlənilməsi;*
- *Qadınların, xüsusilə kənd yerlərində yaşayan qadınların iqtisadi fəallıq səviyyəsinin yüksəldilməsinə, kişilərlə bərabər iqtisadi hüquqlarının həyata keçirilməsinə hərtərəfli dəstəyin göstərilməsi;*
- *Qadınların rəqabətliliyinin artırılması məqsədilə əmək bazarında prioritet peşələr üzrə peşə hazırlığının təşkili;*
- *Kişilərin və oğlanların əmək bazarında azlıq təşkil etdikləri sahələrə cəlb edilməsi, onlara bu istiqamətdə təsir göstərən gender stereotiplərinin aradan qaldırılması;*

- *İş yerlərində seksual qısnamanın aradan qaldırılması ilə bağlı maarifləndirmənin aparılması, xüsusi təlimatların hazırlanması.*
- *Seksual qısnamaya, ayrı-seçkiliyi əks etdirən iş elanlarına görə sanksiyaların müəyyən edilməsi üçün qanunvericiliyə dəyişikliklərin edilməsi, seksual qısnama halları ilə bağlı monitorinq mexanizmlərinin yaradılması;*

## Məişət zorakılığı hallarının qarşısının alınması:

- *Məişət zorakılığından əziyyət çəkən şəxslərə təxirəsalınmaz və hərtərəfli yardımların göstərilməsi, bu məqsədlə beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun (yeni yardım mərkəzləri, sığınacaqlar, qaynar xətlər) yaradılması;*
- *Məişət zorakılığı ilə bağlı müraciətlərin araşdırılması zamanı tərəflərin barışması əsasında inzibati və cinayət işlərinə xitam verilməsi ilə bağlı normalara yenidən baxılması, cinayət qanunvericiliyinə məişət zorakılığı ilə bağlı normaların daxil edilməsi, məişət zorakılığı hallarının araşdırılması üzrə mexanizmin təkmilləşdirilməsi;*
- *Məişət zorakılığından, o cümlədən cinsi zorakılığdan zərər çəkmiş və ya bu cür zorakılıq hallarının şahidi olan uşaqların hüquqlarının müdafiəsində "Lansarote" Konvensiyasının tələblərinə riayət olunması;*
- *Qısamüddətli mühafizə orderlərinin verilməsi səlahiyyətinin polis orqanlarına həvalə edilməsi və orderin müddətinin artırılması;*
- *Aliment Fondunun yaradılması.*

## Erkən evliliklə mübarizə:

- *Erkən evlilik hallarının fəsadları haqqında geniş məlumatlandırma tədbirlərinin genişləndirilməsi.*
- *Xüsusilə sosial cəhətdən əlverişsiz ailələrdə qızların təhsilinə dəstək üçün sosial tədbirlərin gücləndirilməsi;*
- *Erkən evlilik hallarının qarşısının alınması üçün mövcud cəza tədbirlərinin tətbiq olunması;*

## Selektiv abortların qarşısının alınması :

- *Doğulan uşaqlar arasında cins balansının pozulması hallarının qarşısının alınması ilə bağlı tədbirlərin gücləndirilməsi;*
- *Arzuolunmaz hamiləliyin qarşısının alınması və abortların azalması məqsədilə kontraseptivlərdən istifadənin təbliği, cinsi tərbiyə ilə bağlı maarifləndirmənin aparılması.*
- *"Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında" Azərbaycan Respublikası Qanunun qəbul edilməsi ;*

# MƏRKƏZİ DÖVLƏT ORQANLARININ (QURUMLARININ) GENDER MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL ŞƏXSLƏRİ

| № | Təşkilatın adı | Gender məsələləri üzrə məsul şəxsin adı, soyadı | Məsul şəxsin vəzifəsi |
|---|---|---|---|
| 1. | **AR Baş Prokurorluq** | Namiq Əliyev | Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru, kiçik ədliyyə müşaviri |
| 2. | **AR Xarici İşlər Nazirliyi** | Xuraman Zeynalova | Humanitar və Sosial məsələlər idarəsinin şöbə müdiri |
| 3. | **AR Daxili İşlər Nazirliyi** | Ülviyyə Vəliyeva | Şəxsi Heyətlə İş İdarəsinin Katibliyinin rəisi, gender məsələləri üzrə məsul şəxs əvəzi polis polkovnik-leytenantı |
| 4. | **AR Maliyyə Nazirliyi** | Firuzə Abdullayeva | Nazirliyin Aparatının Uçot siyasəti şöbəsinin müdiri |
| 5. | **AR Müdafiə Nazirliyi** | Zümrüd Səmədova | Şəxsi Heyət Baş İdarəsi İdeoloji Təminat İdarəsinin Qadınlarla iş sektorunun müdiri |
| 6. | **AR Kənd Təsərrüfatı Nazirliyi** | Qumaş Həsənli | Nazirliyin Aparatının Ümumi şöbəsinin müdiri |
| 7. | **AR Mədəniyyət Nazirliyi** | Günay Əliyeva | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin Xarici ölkələrlə əməkdaşlıq sektorunun aparıcı məsləhətçisi |
| 8. | **AR Gənclər və İdman Nazirliyi** | Lalə Qasımova | Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin Sosial proqramlar sektorunun baş məsləhətçisi |
| 9. | **AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | Aynurə Kərimova | Ekologiya və Təbii Sərvətlər Nazirliyində gender məsələləri üzrə məsul şəxs Aparatın Hüquq və insan resursları şöbəsinin müdiri |
| 10. | **AR Ədliyyə Nazirliyi** | Könül Yusifli | Beynəlxalq əməkdaşlıq baş idarəsi Beynəlxalq hüquq və müqavilələr idarəsi Rəisi |
|  | **AR Elm və Təhsil Nazirliyi** | Leyla Xəlilova-Rzazadə | Strateji planlaşdırma və təhlil şöbəsinin Şöbə müdiri |
| 12. | **AR Səhiyyə Nazirliyi** | Aynurə Zeynalova | Səhiyyə siyasəti şöbəsinin Ana və uşaqların sağlamlığının qorunması sektorunun müdir |
| 13. | **AR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi** | Sevil Nəsibova | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Sənədlərlə və müraciətlərlə iş şöbəsi şöbə müdiri |
| 14. | **AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | Nərmin Bayramova | Nazirliyin Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri |
| 15. | **AR Energetika Nazirliyi** | Xalidə Məsimova | Aparat rəhbərinin müavini |
| 16. | **AR Müdafiə Sənayesi nazirliyi** | Vəfa Zeynalova | Hüquq şöbəsinin Hüquqi təminat və daxili nəzarət sektorunun müdiri |
| 17. | **AR Fövəladə Hallar Nazirliyi** | Hüsniyyə Babayeva | Fövqəladə Hallar Nazirliyinin Regional mərkəzlərlə işin, təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarə rəisinin müavini |
| 18. | **AR İqtisadiyyat Nazirliyi** |  |  |
| **KOMİTƏLƏR** |  |  |  |
| 19. | **AR Diasporla İş üzrə Dövlət Komitəsi** | Şəfəq Binnətova | V Ərazi şöbəsinin (Gürcüstan və türkdilli dövlətlər) müdir müavini-sektor müdiri |

| | | | |
|---|---|---|---|
| 20. | **AR Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi** | Günel Piriyeva | Hüquq və kadrlar şöbəsinin Kadrlar sektorunun baş məsləhətçisi |
| 21. | **AR Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi** | Elnarə Kərimova | İnklüziv inkişaf şöbəsinin müdiri |
| 22. | **Dövlət Statistika Komitəsi** | Zəbihə Əsgər | Aparatın Əhali statistikası şöbəsinin Gender statistikası sektorunun müdiri |
| 23. | **AR Gömrük Komitəsi** | Məmmədova Dilarə Zakir qızı | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin İnsan Resursları İdarəsinin Şəxsi işlərin aparılması şöbəsinin böyük inspektoru |
| 24. | **AR Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** | Gülbəniz Əliyeva | Şəhərsalma və Arxitektura Komitəsinin Ümumi işlər və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri |
| **AGENTLİKLƏR** | | | |
| | | | |
| 25. | **Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi** | Aygün Mirzəyeva | İnsan resurslarının idarə edilməsi şöbəsinin müdir müavini |
| 26. | **AR İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** | Nelli Veysova | İdarə heyəti sədrinin müşaviri |
| 27. | **AR Qida Təhlükəsizliyi Agentliyi** | Validə Sadıxova | Qida təhlükəsizliyi şöbəsi, şöbə müdiri |
| 28. | **Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi** | Günay Vəliyeva | Layihələrin idarə edilməsi departamentinin meneceri |
| 29. | **AR Kiçik və Orta Biznesin İnkişafı Agentliyi** | Lalə Mahmudova | İnsan resursları və korporativ inkişaf şöbəsinin müdiri |
| 30. | **AR Əqli Mülkiyyət Agentliyi** | Ülviyyə Xasayeva | Dövlət qulluğu və kadrlarla iş şöbəsinin müdiri |
| 31. | **AR Minatəmizləmə Agentliyi** | Səbinə Sərkərova | Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri |
| 32. | **AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tabeliyində Sosial xidmətlər agentliyi** | Mehriban Əlişanova | Agentliyin İdarə Heyətinin sədrinin müşaviri |
| 33. | **Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi** | Hüseynova Leyla Vəli qızı | İnsan resurslarının idarə edilməsi departamentinin müdiri |
| 34. | **AR Dövlət Reklam Agentliyi** | Kərimova Aydan Əzizağa qızı | Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin Aparatın İnsan resursları və sənədlərlə iş şöbəsinin müdiri |

| | | | |
|---|---|---|---|
| 35. | **Azərbaycan Respublikasının Kosmik Agentliyi** | İbrahimxəlilova İnarə | İnsan resurslarının idarə edilməsi və sənədləşmə departamentinin direktoru |
| 36. | **Medianın İnkişafı Agentliyi** | Ləman İsgəndərova | Media dəstək layihələri, strateji planlaşdırma və informasiya texnologiyaları departamentinin direktoru |
| 37. | **AR Dövlət Turizm Agentliyi** | Mehriban Hüseynova | İnsan resurslarının idarə edilməsi və hüquq şöbəsinin müdiri |
| 38. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi** | Leyla Namazova | Sədrin köməkçisi |
| 39. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi** | Esmira Arazova | Hüquqi Təminat və İnsan Resursları İşinin Təşkili İdarəsinin İnsan resursları şöbəsinin rəisi |
| 40. | **Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi** | Zöhrə Məmmədova | AYNA-nın İnsan resursları departamentinin direktor müavini |
